**Mehriban Zeynalova**

# ZORAKILIĞIN KODLARI

**(Zorakılıq haqqında ensiklopedik toplu)**

**BAKI -2025**

**Elmi redaktor:**
Abasov Əli, fəlsəfə elmləri doktoru, professor

**Rəyçilər:**
Mahmudov Mətləb, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
Şabanov Zeynəddin, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent

**Psixoloji məsələlər üzrə məsləhətçi:**
Orxan Məcnunov, klinik psixoloq

**Mehriban Zeynalova** - ”Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin sədri, fəlsəfə üzrə fəlsəfə doktoru.

**ZORAKILIĞIN KODLARI (Zorakılıq haqqında ensiklopedik toplu).** Bakı, “OPTİMİST”MMC-2025. 250 səh.

*Təqdim olunan bu kitabda gözümüzün önündə çox zaman ən mərd və ən nəcib keyfiyyətləri özündə birləşdirən Azərbaycan kişisi haqqında simalar canlanır. Bu, mif deyil, uydurulmuş qəhrəman obrazı deyil. Onlar tarixdə yaşamış, davranışı, mərdliyi və yüksək keyfiyyətləri ilə, 44 gün içində əsrlərllə sümük kimi boğazımızda ilişib qalmış problemi həll edərək adını qızıl hərifləriə tariximizə həkk etmiş insanlardır. Bizim ədəbiyyatımızın, dastanlarımızın, yaddaşımızın dərin qatlarında həmin kişilərin izləri var. Bu hekayələr sözlərdə deyil, xalqın yaddaşında, davranışında, nəsildən-nəslə ötürülən hekayələrində hələ də unudulmur.*

*Azərbaycan kişisinin obrazı yalnız güc və cəsarət deyil, həm də ədalət və şəfqət idi. Bu dəyərlərin bəzi hallarda necə təhrif olunduğunu, hansı sosial, psixoloji və mədəni “kodların” zorakılığı doğurduğunu anlamaq -bu vəsaitin əsas məqsədidir. Biz bu kodları çözmək, onların mənbəyinə işıq salmaq və dəyişimin mümkün yollarını göstərmək üçün yola çıxırıq.*

*Əgər biz öz tariximizin nəcib nümunələrini unutmadan, bu günün səhvlərindən nəticə çıxara bilsək, o zaman həm kişi, həm qadın, həm də bütövlükdə cəmiyyət daha təhlükəsiz, daha işıqlı bir gələcəyə doğru addımlaya bilər.*

ISBN 9 7 8 - 9 9 5 2 - 5 6 1 - 8 0 - 7

*©”OPTİMİST”MMC - 2025*

## MÜNDƏRİCAT

**Giriş...........................................................................................6**

**I hissə - Zorakılığın kodlarını anlamaq: beynəlxalq nəzəriyyələr və yerli müşahidələr.........................................................................12**

**1.Zorakılıq anlayışı: qlobal və yerli perspektiv..........................12**
– Azərbaycan reallığında zorakılıq törədən kişi anlayışı (yerli kodlar)........................................................................18
– Sosial, mədəni və hüquqi çərçivə.............................................19
– Mövcud elmi boşluqlar və tədqiqat ehtiyacı ................................23
**2.Beynəlxalq elmi modellərə baxış.............................................25**
– Itzvorz-Munro & Styuart tipologiyası (zorakı davranış kodları)...27
– Duluz modeli -güc və nəzarət dairəsi (nəzarət kodları)................31
– Uolker-ın “Zorakılıq dövrü” nəzəriyyəsi (dövrün kodlaşdırılması) ........................................................................34
– Sosial-öyrənmə və travma yönümlü yanaşmalar (öyrənilmiş kodlar)............................................................................36
– İnteqrativ və multidisiplinar çərçivələr ........................................39

**II hissə - Kişi davranış modellərinin “şifrələri”: tipologiyalar, motivlər, psixoloji mexanizmlər.......................................................45**
**1. Zorakılıq dövrünün mərhələləri............................................46**
– Gərginliyin yığılması (təzyiq kodu)...........................................46
– Zorakılıq partlayışı (aqressiya kodu)..........................................47
– “Bal ayı” mərhələsi (manipulyasiya kodu)..................................49
– Təkrar dövr (davamlılıq kodu) ...................................................50
**2.Zorakılıq törədən kişi tipləri (Azərbaycan adaptasiyası).......52**
– İmpulsiv–aqressiv tip...............................................................52
– Nəzarətçi–dominant tip.............................................................61
– Sosiopatik–antisosial tip...........................................................67
– Passiv–aqressiv tip...................................................................73
– İkili şəxsiyyətli tip ...................................................................75
– Normativ/ənənəvi zorakılıq daşıyıcıları ....................................96
– İdeoloji–mizogin zorakı şəxslər.................................................96
– Sadistik zorakı şəxslər (zorakılıqdan həzz alanlar) .................101
**2.Psixoloji faktorlar və motivasiya kodları...............................105**

– Güc və nəzarət ehtiyacı ........................................................ 107
– Qısqanclıq və itirmə qorxusu ................................................ 109
– Patriarxal dəyərlərin təsiri ................................................... 110
– Maddə asılılığı və aqressiya ................................................. 112
**3.Davranışın davamlılığını təmin edən mexanizmlər ............... 113**
– Qurbanı günahlandırma ........................................................ 114
– Özünü haqlı çıxarma ............................................................. 115
– Cəzasızlıq sindromu .............................................................. 116
– Sosial mühitdən dəstək ......................................................... 118

**III hissə -Kodların dəyişdirilməsi: reabilitasiya yolları, Duluz + mədəni spektr hibrid modeli ............................................................ 121**
**1. Zorakılıq törədən kişilərin dəyişməsi: Mümkünmü? .......... 121**
–Reabilitasiyanın əhəmiyyəti ...................................................... 123
– Zorakılığın işarələri ............................................................... 132
– **Cəza və müdaxilələrin inteqrasiyası** ..................................... 130
– Dünya təcrübəsindən nümunələr ........................................... 131
**2.Duluz modeli və digər beynəlxalq proqramlar ....................... 135**
– Duluz modelinin əsas prinsipləri ........................................... 135
– CBT əsaslı müdaxilələr .......................................................... 138
– Integated Domestic Abuse Programme (IDAP) ....................... 140
– EMERGE modeli .................................................................... 143
**3. Azərbaycan üçün hibrid reabilitasiya modeli ........................ 151**
– Duluz modelinin saxlanılan elementləri ................................. 152
– Mədəni spektr uyğunlaşdırmaları .......................................... 154
– Psixoloji komponentlərin gücləndirilməsi ............................... 161
– Dini və ictimai liderlərin iştirakı ............................................ 169
**4.Tətbiq mexanizmləri və monitorinq ........................................ 171**
– Məcburi və könüllü proqramlar ............................................. 173
– Qrup + fərdi seans kombinasiyası .......................................... 175
– Effektivlik ölçmə indikatorları ............................................... 177
– Uzunmüddətli dəstək sistemləri ............................................. 197

**IV hissə -Azərbaycan üçün siyasət tövsiyələri və gələcək tədqiqat istiqamətləri ........................................................................... 200**
**1.Patriarxal mədəniyyətin təsiri ................................................. 204**
– Gender stereotipləri ............................................................... 207

– “Ailə daxili iş” anlayışı........................................................ 208
– Qanunvericilikdə boşluqlar..................................................... 210
**2.Praktiki yanaşmalar və siyasət tövsiyələri............................. 212**
– Sosial reabilitasiya planları...................................................... 215
– Sosial reabilitasiya nümunələri................................................ 217
– Azərbaycan mühitinə uyğunlaşdırılmış reabilitasiya planı....... 218
**3.Yekun: Zorakılığın kodlarını oxumaq.....................................236**
– Zorakılıq kodlarının şərhi ........................................................ 237
– Mütəxəssislər üçün zorakılığın “şifrələrini” anlama bacarığı... 239
– Sosial dəyişimin açarları.......................................................... 240

## *"KODLARI BİLDİKDƏ, ZORAKILIĞI DAYANDIRMAQ MÜMKÜNDÜR."*

# GİRİŞ

Zorakılıq, ani bir hadisə, təsadüfi bir emosional partlayış deyil. O, çox zaman illərlə formalaşmış düşüncə, dəyər sistemi, emosional vərdişlər və sosial təsirlərin nəticəsidir. Sanki görünməz bir "kod" kimi davranışın içində gizlənir. Bu kod bəzən uşaq yaşlarından öyrədilən rollardan, bəzən ailə içi təcrübədən, bəzən də mədəniyyətin verdiyi "normal" mesajlardan ibarət olur. Zorakılığı törədən kişilərin gücə söykənərək davranmasının müxtəlif aspektlərinə nəzər yetirək. Kişilərin zorakılığa əl atmasının əsas amilləri - davranışın genetik, bioloji və mədəni təsirləri barədə çoxsaylı elmi yanaşmalar mövcuddur. Bu yanaşmalar, həm bioloji, həm də mədəni-fəlsəfi faktorların birgə təsirini nəzərə alır. Genetika və mədəniyyətin davranışları necə formalaşdırdığını anlamaq üçün müxtəlif sahələrdən gələn araşdırmalara nəzər yetirmək vacibdir.

**Genetik təsir**:

Genetik faktorların zorakılığa meylin formalaşmasında rolu, əksər hallarda, irsi davranışlar və beyin kimyasını (xüsusilə, testosteron səviyyələri, serotonin və dopamin kimi neyrotransmitterlər) əhatə edir. Təbiət və cəmiyyətin təsirindən danışarkən, bəzi elmi araşdırmalar, xüsusilə "hormonlar və beyin kimyası" mövzusunda, kişilərin zorakılığa meylinin genetik və bioloji əsaslarını araşdırmışdır. Daly, M. **"**Kişi zorakılığının təkamül psixologiyası" əsərində, kişilərin zorakılığa meylinin bioloji və təkamül prosesinin səbəbləri kimi baxır. Tədqiqatda, genetik və bioloji amillərin, kişilərin zorakılığa meylli olmasında necə rol oynadığı barədə geniş mülahizələrə yer verir[1]. Məsələn, bəzi tədqiqatçılar, testosteronun yüksək səviyyəsinin kişilərdə aqressiv davranış və zorakılığa daha çox təkan verdiyini iddia edirlər. Dutton, "Məişət zorakılığına yeni baxış" əsərində, genetik və bioloji amillərin zorakılığa təsirini və onların sosial strukturlarla necə qarşılıqlı əlaqə qurduğunu izah edir. Dutton, zorakılıq davranışlarının mədəniyyət və bioloji faktorların əlaəqsində yaranan bir nəticə olduğunu qeyd edir[2]. Genetik meyillilik müəyyən

---

[1] Daly, M. (1997). "The Evolutionary Psychology of Male Violence."
[2] Dutton, D. G. (2006). *Rethinking Domestic Violence.*

hallarda zorakılıq davranışlarını daha çox artıra bilmək ehtimalı irəli srülür. Bununla əlaqədar müxtəlif tədqiqatlar var, lakin genetik amilin zorakılığa gətirib çıxarması heç bir tədqiqatda tam olaraq təsdiqini tapmır.

**Mədəniyyət və sosial təsirlər**:

Genetik kodlar, ümumilikdə, insanların davranışlarını müəyyən edən tək amil deyil. Mədəni və sosial təsirlər, xüsusilə cəmiyyətdəki gender rolları, iqtisadi vəziyyət, və ənənələr, zorakılığın ortaya çıxmasında mühüm rol oynayır. "Cənub bölgəsində zorakılığın psixoloji əsasları" tədqiqatında, müəlliflər mədəniyyətin və cəmiyyətin kişilərin zorakılıq davranışlarına necə təsir etdiyinə dair geniş araşdırmalar aprırb. Xüsusilə, Cənub Amerikası mədəniyyətində kişilərin zorakılığa meyilliliyinin sosial norma və mədəni kodlarla necə əlaqəli olduğu əsərdə müzakirə olunur[3].

Məsələyə fərqli kontekstdən baxaq. Əgər biz zorakılığın kodlarını genetika, mədni, sosial və mühitlə bağlayırıqsa, o zaman coğrafi ərazi kontekstindən pronblemə baxış  yaranır. Beləliklə, Şərq və Qərb mədəniyyətləri fərqli yanaşmalara sahibdirlər və bu fərqlər sosial və mədəni kodlar vasitəsilə zorakılıq və ya aqressiv davranışlara necə təsir edə biləcəyini təxmin edir.

**Qərb**: Qərb mədəniyyətində, xüsusilə son dövrlərdə, gender bərabərliyi və zorakılıqla mübarizə mövzusunda ciddi irəliləyişlər əldə edilib. Ancaq Qərbdə də, xüsusən müəyyən sosial qruplarda, zorakılıq və aqressiv davranışlar bəzən təhsil və sosial inkişaf səviyyəsi ilə əlaqələndirilir.

**Şərq**: Şərq mədəniyyətində, xüsusilə patriarxal cəmiyyətlərdə, kişilərin zorakılığa meylli olmasının bir hissəsi cəmiyyətdəki ənənəvi patriarxal düşüncə tərzindən irəli gəlir. Şərqdəki bəzı cəmiyyətlərdə, kişilər daha çox güc və idarəetmə ilə əlaqələndirilir, buna görə də zorakılıq və fiziki güc tətbiq etmə normallaşdırılaq qəbul edilir.

---

[3] Nisbett, R. E., & Cohen, D. (1996). *Culture of Honor: The Psychology of Violence in the South.*

## Zorakılığın tarixi: Şərq və Qərb mədəniyyətlərində

### Qərb mədəniyyətində zorakılıq:

Qərb mədəniyyətində zorakılığın normal olaraq qəbul edilməsi və ya qeyri-normal sayılması, əsrlər boyu dəyişib. İntibah dövrü və sonrasında, zorakılıq daha çox hüquq və ədalət sahəsində müzakirə olunurdu. Bununla yanaşı, zorakılığa qarşı qanunlar və hüquqlar zamanla inkişaf edib və hüquq-müdafiə orqanlarının rolu artırılıb. Roma hüququnda (M.Ö. 5-ci əsr) və orta əsrlər dövründə, zorakılıq ən çox kişilər üçün qəbul edilən davranış olub. Kişilər, ailə üzvlərinin üzərində, xüsusilə qadın və uşaqlar üzərində zorakılıq tətbiq etməyi normal hesab edilirdi. Qədim Yunanıstan və Roma dövründə, ailə və cəmiyyət üzərində "güc və nüfuz" zorakılıq tətbiq etməyi qəbul edən normalar sırasında idi. Yunan və romalı kişilərin qadınlar üzərində "hüquqi güc" sahibi olmaları qəbul edilən idi. Zamanla, 18-ci və 19-cu əsrlərdə, zorakılığa qarşı qanunlar və düşüncələr dəyişdi. Zorakılığın tənqidi və problemə yanaşmalar daha fərqli oldu. Xüsusilə "Vətəndaş hüquqları" və "Feminist hərəkatlar"ının rolu təsirsiz ötüşmədi. 20-ci əsrin ortalarından etibarən, xüsusilə qadın və uşaqlara qarşı zorakılıqla mübarizə daha da intensivləşdi və hüquqi çərçivələr yaradıldı.

### Şərq mədəniyyətində zorakılıq:

Şərqdə zorakılıq, xüsusilə patriarxal ənənələrin güclü olduğu cəmiyyətlərdə daha çox normallaşıb. Tarixən, Şərq mədəniyyətində qadın və uşaqların kişilər tərəfindən fiziki zorakılığa məruz qalması, bəzi dövrlərdə normal hesab edilib.

Qədim Hindistan və Çində, zorakılıq, mədəni və sosial qaydalara müəyyən dərəcədə uyğun idi. Misal üçün, Hindistanın bəzi bölgələrində, qadınların zorakılığa məruz qalması, onların ərinə qarşı itaət etmələri üçün "təbii bir proses" olaraq görülürdü.

İslam dünyasında, qadın və uşaqlara qarşı zorakılıq, ənənəvi olaraq, bəzən din və hüquq çərçivəsində müəyyən edilmiş hüquqlar və sərhədlərlə tənzimlənirdi. İslam hüququ (şəriət), əgər ailə daxilində zorakılıq baş verərsə, buna müəyyən əngəllər qoymağa çalışır, lakin buna baxmayaraq, bəzən belə davranışlar qanuni şəkildə tənzimlənirdi.

Şərq mədəniyyətləri, xüsusilə patriarxal və ənənəvi cəmiyyətlərdə, kişilərin ailədə və cəmiyyətdə daha çox "hakimiyyət" nümayiş etdirmələri qəbul edilən davranış idi. Mövcud davranışlar isə, zorakılığın əksər hallarda cəmiyyətin sosial normasına çevrilməsinə səbəb olurdu.

**Normal və qeyri-normal kimi qəbul edilməsi:**

Qərbdə, zorakılıq, xüsusilə 20-ci əsrdən başlayaraq qeyri-normativ və hüquqa zidd bir davranış kimi qəbul edilməyə başladı. Cəmiyyətin inkişafı, qanunların təkmilləşməsi və qadın hüquqları uğurunda mübarizə, zorakılığa qarşı sərt reaksiyaları artırdı və zorakılığın qəbul edilməsi normadan çıxmağa başladı.

Şərqdə, zorakılıq bəzi ənənəvi cəmiyyətlərdə daha uzun müddət ərzində normal hesab edilib. Lakin, bu yanaşma son onilliklərdə dəyişməyə başlamışdır. Qlobal feminist hərəkatları və insan hüquqları təşəbbüsləri, çoxsaylı Şərq ölkələrində, xüsusən qadın və uşaq hüquqları ilə bağlı apardığı mübarizələr nəticəsində qeyri-normal bir davranış kimi qəbul edilməyə başladı.

**Fəlsəfi çərçivələr: güc, hakimiyyət və maskulinlik**

Aristotelin "Siyasət" əsərində, ailə və polis təbii iyerarxiya üzərində qurulur; erkek "idarə edən", qadın "idarə olunan" kimi təsvir edilir. Bu ontologiya təsirsiz ötüşməyib və sonrakı patriarxal normaları legitimləşdirib[4]. Hobbs, zorakılığı təbii vəziyyətdə "hamının hamıya qarşı müharibəsi"nin elementi kimi qəbul edərək, yalnız suverenin zor tətbiqi sosial sülh yaradır kimi məsələyə yanaşıb [5]. Kant isə zorakılığı hüquqa zidd "məcbur etmə" kimi görüb; o, "ictimai ağıl"ın (respublika prinsipi) güclənməsinə zorakılığın azalmasının yolu kimi görürb[6]. Hannah Arendt "Güc" və "zorakılıq" nəzəriyyəsində, zorakılığı gücün yoxluğu və ya tükənməsi halında ortaya çıxan alət kimi izah edib[7]. Kişi, sosial nüfuz və dialoq gücünü itirdiyini hiss etdikdə "nəticə almaq" üçün zorakılığa yönələ bilər, deyib.

Nietşe, "Güc iradəsi və dominasiyası" əsərində, insan davranışında gücün iradəsinin mərkəzi rolunu vurğulayır[8]. O, patriarxal mühitdə bu iradəni sosial olaraq kişilərə "hakim mövqe" kimi təqdim edərək onu bəzən zorakılıqla ifadəsini səsləndiirb.

Foucault zorakılığı hakimiyyətin gündəlik münasibətlərində mikro səviyyədə işə yaradığını göstərib[9]. Bourdieu isə "simvolik zorakılıq" anlayışı ilə mədəni normaların "təbiiləşdirilərək" itaət doğurduğunu izah

---

[4] Aristotle. *Politics*. (xüsusən I kitab)
[5] Hobbes, T. (1651). *Leviathan*.
[6] Kant, I. (1797). *Metaphysics of Morals*.
[7] Arendt, H. (1970). *On Violence*.
[8] Nietzsche, *Will to Power* fraqmentləri
[99] Foucault, M. (1975). *Discipline and Punish*.

edib[10].

Galtung "struktur zorakılıq"la iqtisadi və hüquqi bərabərsizliyin fərdlərdə zorakı davranışı stimullaşdıran fon yaratdığını göstərib[11]. Fanon kolonial şərtlərdə zorakılığın həm nəzarət, həm də psixoloji reaksiya kimi işlədiyini müəyyən edib[12].

**Şərq fəlsəfəsində kişi zorakılığına münasibət**

1. İslam fəlsəfəsi və hüquq ənənəsi. Şərq fəlsəfi ənənəsinin böyük hissəsi İslam hüququ və etikası ilə bağlıdır. Kişi zorakılığı məsələsi əsasən ailədaxili münasibətlər, haqq və məsuliyyət balansı, ədalət prinsipi çərçivəsində müzakirə edilib.

1.1. Qurani-Kərim və təfsirlər. Quranda ailə münasibətləri, qarşılıqlı mərhəmət (*rahmah*) və ədalət prinsiplərinə əsaslanır (ən-Nisa, 4:19: "Onlarla yaxşı dolanın…"). Klassik təfsirlərdə ailə başçısının məsuliyyət daşıdığı, zorakılığın isə ədalət prinsipinə zidd olduğu vurğulanıb[13].

Qeyd: Bəzi ayələrin (məs. ən-Nisa, 4:34) təfsirində "idarə etmə" ilə "zorakılıq" fərqləndirilir. Klassik alimlər zorakılığı məqsədyönlü zərərvermə kimi qəbul etmir, müasir İslam hüquqşünasları isə bunu məişət zorakılığı kontekstində qadağan edir[14] .

1.2. Əl-Farabi (870–950). Əl-Farabi əsərlərində, ədalətli cəmiyyətin əsas şərtini qarşılıqlı hörmət və fəzilətli əxlaqda görüb. Hakimiyyət gücə deyil, ədalətə əsaslanmalıdır deyib[15]. Əl-Farabi üçün zorakılıq insanın "nəfsani" tərəfinin qalib gəlməsidir və əxlaqi kamilliyin qarşısını alır.

1.3. İbn Sina (980–1037). İbn Sina isə, insanı "heyvani qüvvə" (qəzəb, şəhvət) və "ağıl qüvvəsi" arasında balans tapmaqda görür. Qəzəb nəzarətsiz qalarsa, zorakılığa çevrilir. O, kişilərin ailədaxili zorakılığa meylliyini, psixoloji balanssızlıq və əxlaqi zəiflik kimi qiymətləndirirb[16].

1.4. İmam Qəzali (1058–1111). İmam Qəzaliyə görə, əxlaqi fəzilətlər qəzəb və zorakılıq meyllərinin nəzarət altında saxlmaqla formalaşır. Qəzali zorakılığı "nəfsin xəstəliyi" kimi qiymətləndirib[17].

1.5. İbn Xəldun (1332–1406). İbn Xəldun deyib ki, zorakılıq

---

[10] Bourdieu, P. (2001). *Masculine Domination*.
[11] Galtung, J. (1969). "Violence, Peace, and Peace Research", *Journal of Peace Research*.
[12] Fanon, F. (1961). *The Wretched of the Earth*.
[13] Al-Tabari, Jāmiʿ al-bayān fī taʾwīl āy al-Qurʾān; İbn Kəsir, Təfsir əl-Qurʾan əl-Əzim.
[14] Auda, 2015
[15] Al-Farabi, Al-Madina al-Fadila, Beyrut: Dar al-Mashriq, 1986.
[16] Avicenna, *The Book of Healing*, translated by J. McGinnis, Oxford University Press, 2010.
[17] Al-Ghazali, *Ihya Ulum al-Din,* Kitab al-Akhlaq.

hakimiyyət münasibətlərində sosial nizamın pozulmasının göstəricisidir. Ailə daxilində zorakılıq cəmiyyətin ümumi "əsəbi" bağlarını zəiflədir[18].

**Analitik yekun: oxşarlıqlar və fərqlər**

Oxşarlıqlar: Qərb (Arendt, feminist nəzəriyyə) və Şərq (İslam əxlaqı, Buddizm, Konfutsi) zorakılığı əxlaqi-sosial nizamın pozulması kimi görür. Hər iki ənənə ailə və ictimai nizamda zorakı özbaşınalıqla hüquq/əxlaq arasına sərhəd çəkir.

Fərqlər: Qərb ənənəsində zorakılıq daha çox hakimiyyət–güc–institutu prizmasında, simvolik və biopolitik mexanizmlərlə izah olunur; gender performativliyi və strukturlar tənqid obyektidir. Şərqdə vurğu əxlaqi özünü intizam, harmoniya, zərərsizlik, ədalət və rəhmət üzərindədir; hüquqi–etik qanunilik və mənəvi tərbiyə yanaşı gedir.

İnteqrasiya: Qərbin struktur–institut tənqidi (Bourdieu, Stark) ilə Şərqin etik–mənəvi özintizamı (Qəzali, Budda, Konfutsi) birləşdirildikdə zorakılığın həm sistem, həm də fərd səviyyəsində qarşısını alan kompleks proqramlar yaradır: hüquq tətbiqi,  gender normalarının dəyişimi, etik tərbiyə və sosial dəstək sturkturunu fomalaşdırır.

[18] Ibn Khaldun, *Al-Muqaddimah*, Beirut: Dar al-Fikr, 2004.

# I HİSSƏ

# ZORAKILIĞIN KODLARINI ANLAMAQ: BEYNƏLXALQ NƏZƏRİYYƏLƏR VƏ YERLİ MÜŞAHİDƏLƏR

## 1. ZORAKILIQ ANLAYIŞI: QLOBAL VƏ YERLİ PERSPEKTİV

**Zorakılıq (violence)** təkcə bir şəxsin digərinə qəsdən zərər verməsi ilə məhdudlaşmır, sosial quruluşun yaratdığı bərabərsizliklərdən doğan, struktur zorakılıq və dəyərlərin/normaların "görünməz" yolla zərər vurduğu simvolik zorakılığı da özünə daxil edir. Bu yanaşma zorakılığın yalnız epizodik hərəkət deyil, sistemli güc və nəzarət mexanizmi olduğunu göstərir.

**Zorakılıq** bir şəxsin və ya qrupun digər bir şəxsin və ya qrupun fiziki, psixoloji və ya emosional olaraq zərər verməsi və ya qorxu yaratmasıdır. Zorakılıq, həm fərdi münasibətlərdə, həm də cəmiyyətlərdə geniş yayılmış bir fenomen olmaqla, müxtəlif formalar alır: fiziki zorakılıq, emosional zorakılıq, cinsi zorakılıq, iqtisadi zorakılıq və ya onlayn zorakılıq (rəqəmsal zorakılıq). Zorakılığın təbiəti həm cəmiyyət tərəfindən yazılmamış qanunları, həm də mədəniyyət və sosial normlar tərəfindən müəyyən olunur.

**Məişət zorakılığı (domestic violence)** və **intim tərəfdaş zorakılığı (IPV)** anlayışları çox vaxt üst-üstə düşür. Hər iki anlayış intim münasibətdə olan və olmuş partnyorların törətdiyi fiziki, psixoloji, cinsi və iqtisadi zorakılığı əhatə edir. "Məişət" anlayışı bəzən birgə yaşayan qohumlararası zorakılığı da özündə əks etdirir.

**Məişət zorakılığı** -ailə və ya birlikdə yaşayan şəxslər arasında fiziki, psixoloji, cinsi, iqtisadi və ya sosial zorakılıq formalarında təzahür edən, insanın təhlükəsizliyini, sağlamlığını və ləyaqətini pozan hərəkət və ya hərəkətsizlikdir. Azərbaycan Respublikasında bu anlayış **"**Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun ilə müəyyən olunub. Qanuna əsasən, məişət zorakılığı yalnız ailə üzvləri arasında deyil, həmçinin birlikdə yaşamış şəxslər və ya yaxın qohumlar arasında da baş verə bilər[19].

[19] Azərbaycan Respublikasının Qanunu "Məişət zorakılığının qarşısının alınması haqqında", Maddə 1

BMT-nin Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında Bəyannaməsi məişət zorakılığını "ailədaxili münasibətlərdə qadına qarşı tətbiq edilən fiziki, cinsi və psixoloji zorakılıq formaları" kimi izah edir. CEDAW-ın 35 saylı Ümumi Tövsiyyəsi zorakılığı insan hüquqlarının pozuntusu, ayrı-seçkiliyin forması və dövlətlərin "lazımi səy" öhdəliyini tələb edən məsələ kimi çərçivələyir.

Avropa Şurasının İstanbul Konvensiyası isə anlayışı daha geniş təqdim edir və həm intim münasibətlərdə, həm də keçmiş tərəfdaşlar arasında baş verən zorakılığı əhatə edir. İstanbul Konvensiyası məişət zorakılığını ailə və qeyri-rəsmi münasibətdə, birgə yaşam olmuş-olmamış tərəfdaşlar arasında baş verən zorakılıq kimi müəyyən edir.

Zorakılıq davamlı dövrün nəticəsidirmi, yoxsa bir dəfə baş verəndə də zorakılıq sayılır? Psixologiya və kriminoloji ədəbiyyatda bu məsələyə geniş yanaşmalar var.

Bir dəfəlik zorakılıq da zorakılıqdır. Psixoloqlar və hüquqşünaslar vurğulayır ki, zorakılığın zorakılıq sayılması üçün təkrar olması şərt deyil. Hətta bir dəfəlik fiziki və ya psixoloji zərərverici davranış da zorakılıq kimi qiymətləndirilir[20]. Məsələn: bir dəfəlik döymə, təhqir və ya seksual təcavüz hadisəsi qurbanın psixoloji və fiziki bütövlüyünü pozduğu üçün zorakılıqdır. Amma zorakılıq çox vaxt "dövr" (cycle) halında davam edir. Psixoloq Lenore Walkerın məşhur "*Zorakılıq dövrü nəzəriyyəsi*" modelinə görə, zorakılıq adətən üç mərhələdə dövr edir[21]:

1. Gərginliyin yığılması (təhdidlər, gərgin mühit, aqressiya əlamətləri)
2. Zorakılıq partlayışı (fiziki və ya psixoloji hücum)
3. "Bal ayı" mərhələsi (üzr istəmə, mehriban davranış, dəyişəcəyinə söz vermə)

Bu dövr sonra yenidən başlayır. Psixoloqlar qeyd edirlər ki, zorakılıq bir dəfəlik aktdan sonra çox zaman təkrar olunur və dövrilik qurbanın çıxış yollarını çətinləşdirir. Psixoloji zorakılıq və "yavaş başlanğıc" yanaşmasında qeyd edilir ki, bir çox hallarda zorakılıq dərhal fiziki hücumla başlamır. Əvvəlcə psixoloji nəzarət, izolasiya, təhqir və ya qısqanclıqla başlayır. Bu isə coercive control (məcburedici nəzarət) adlanır[22]. Psixoloqlar qeyd edir ki, ilk psixoloji zorakılıq əlamətləri də

---

[20]WHO (2013). *Global and regional estimates of violence against women.*

[21] Walker, L. (1979/2009). *The Battered Woman Syndrome.* Springer.
[22] Stark, E. (2007). *Coercive Control: How Men Entrap Women in Personal Life.* Oxford University Press.

artıq zorakılıqdır. Əgər vaxtında müdaxilə olunmasa, çox vaxt bu, fiziki zorakılığa keçir. . Psixoloqların mövqeyinə görə, bir dəfəlik zorakılıq belə ciddi qəbul edilməlidir, çünki qurbanın travma almasına kifayətdir. Dövrilik və təkrar zorakılığın əsas xarakteristikasıdır -çox nadir hallarda zorakılıq yalnız bir dəfə baş verir . Psixoloqlar qurbanlara "ilk hadisədən sonra belə" kömək istəməyi tövsiyə edirlər, çünki bu çox zaman daha sistemli zorakılığın başlanğıcı olur.

**Zorakılığa təhrik, qadının davranışı zorakılıq üçün səbəb ola bilərmi?**

Psixoloji və hüquqi ədəbiyyatda zorakılıq "təhrikə cavab" kimi bəraətləndirilməz. Yəni qadının deyinməsi, müqayisə etməsi, ya da ailə öhdəliklərini yetərincə yerinə yetirməməsi zorakılığa haqq qazandırmır. Məsuliyyət tamamilə zorakılığı törədən şəxsin üzərindədir. Lenore Walkerin *Zorakılıq dövrü* nəzəriyyəsində də vurğulanır ki, zorakılıq münasibətin struktur probleminin nəticəsidir, qurbanın davranışına cavab deyil.

**"Təhrik" anlayışı və mübahisəli baxışlar**

Bəzi sosioloji araşdırmalarda "provokasiya" faktoru müzakirə edilib, amma bu mövqe çox tənqid olunur:Dobash və Dobash görə, bəzi kişilər zorakılıqlarını "qadın təxribat etdi" arqumenti ilə əsaslandırırlar. Lakin müəlliflər qeyd edir ki, bu, sadəcə məsuliyyəti qurbanın üzərinə yükləmək strategiyasıdır. Starka gör isə, "Coercive Control" yanaşmasında göstərilir ki, zorakılıq güc və nəzarət alətidir, qadının davranışı yalnız bəhanə kimi istifadə olunur. Psixoloji tədqiqatlarında Dutton, ailədaxili zorakılıq törədənlərin əksəriyyətini aqressiv davranışlarını öz daxili emosional nizamsızlıqları ilə əlaqəli göstərirərək, qurbanın davranışlarını isə "təhrik" kimi təsvir etmələrini müdafiə mexanizmi kimi qiymətləndirib.

**Azərbaycan və Şərq konteksti**

Yerli tədqiqatlarda da kişilər zorakılıq üçün tez-tez "qadın itaətsizlik etdi, deyindi, müqayisə etdi" kimi bəhanələr gətirirlər[23]. Amma beynəlxalq təşkilatlar[24] vurğulayır ki, bu mədəniyyətləşdirilmiş zorakılıq bəraətidir və heç bir hüquqi və etik əsas yoxdur. Əslində, patriarxal mədəniyyət qadının davranışlarını "təxribat" kimi qiymətləndirdikdə zorakılığı normallaşdırır. Psixoloqlar nə deyir? zorakılıq hər zaman zorakılıqdır - istər səbəb, istər bəhanə axtarılsın, bu, zorakılığın mahiyyətini dəyişdirmir. Hər bir hal,

---

[23] Azərbaycan Sosial Tədqiqatlar Mərkəzi (2020). *Gender münasibətlərinə dair ictimai rəy sorğusu.*

[24] UN Women (2021). *Progress of the World's Women.*

qurbanın yaşadığı travmanın ağırlığını artıraraq, onun psixoloji reabilitasiyasını çətinləşdirir. Xüsusilə “qadının təhriki” kimi ifadələr, beynəlxalq psixoloji diskursda “victim-blaming” (qurbanı günahlandırma) kimi tanınır və bu cür yanaşmalar günah hissinin və utancın artmasına, sozial əlaqələrin zəifləməsinə və travma sonrası simptomların-məsələn, depressiya və PTSS-in-uzanmasına gətirib çıxarır.

Bütün bunlara görə, zərərçəkənə yönələn günahlandırıcı düşüncələr, psixoloji müdaxilənin effektivliyini və yenidən normaya dönmə prosesini ciddi şəkildə pozur.

Əks tərəfdən, ailə terapiyası kontekstində zorakılıq bəzən “qarşılıqlı anlaşılmazlıq”, “deyinmə” və ya “emosional gərginlik” kimi sadələşdirilə bilər və bu çərçivədə ambaş verən hadisə münaqişə kimi görüldüyündən, terapiya vasitəçilik və dialoq yolu ilə həll edilməlidir kimi bir nəticəyə gəlmək mümkündür. Lakin bu yanaşmanın təhlükəli ola biləcəyi halları da var: Intim münasibətlərdə zorakılığın növü-məsələn, situational couple violence (epizodik, nəzarət məqsədləri daşıyan deyil) və ya intimate terrorism (güc, qorxu və nəzarət üzərində quraşdırılmış sistematik zorakılıq-fərqləndirilmədikdə yanlış müdaxilə riskləri ortaya çıxır. Situational zorakılıq epizodik olduğu üçün bəzən dialoq və terapiya ilə həll edilə bilər; amma intimate terrorism kimi hallarda-yəni bir tərəfin digərini nəzarət altına alma məqsədi ilə zorakılıq həyata keçirdiyi vəziyyətlərdə)-cütlük terapiyası etik və təhlükəsizlik baxımından yolverilməzdir və bu cür vəziyyətlərdə ilk növbədə qurbanın təhlükəsizliyi təmin edilməli, zorakılıq törədən şəxsə yönəlik fərdi müdaxilə proqramları həyata keçirilməli, risk dəyərləndirməsi və təhlükəsizlik planları prioritet təşkil etməlidir.

Akademik və hüquqi yanaşmada qadının davranışı (deyinmək, müqayisə etmək, öhdəlikləri yerinə yetirməmək) heç vaxt zorakılığa bəraət qazandırmır. Bu hallar münasibətdə konflikt yarada bilər, amma konflikt və zorakılıq eyni deyil. “Zorakılığa təhrik” arqumenti daha çox zorakılığı törədənlər tərəfindən məsuliyyətdən yayınmaq üçün istifadə olunur.

**Qlobal nəzəri çərçivələr**

– Galtung, zorakılığı birbaşa (fiziki/şəxsi), struktur və mədəni qatlarda görür. Struktur zorakılığı resurslara çıxışın məhdudiyyəti kimi “sistemə hopmuş” zərərdir deyir. Galtungə görə, baş verən hal, birbaşa zorakılıq olmasa belə, sağlamlıq və rifahı pisləşdirir[25].

---

[25] Galtung, J. (1969). *Violence, Peace, and Peace Research.*

– **Ekoloji modeldə**: Zorakılıq fərdi münasibət, icma və cəmiyyət səviyyələrindəki amillərin kəsişməsində yarandığından qabaqlayıcı tədbirlər də çoxsəviyyəli olmalıdır fikirini irəli sürür[26].

– **Duluth modelində**: Ailədaxili zorakılığın nüvəsində "güc və nəzarət təkəri" dayandığından, nəzarət, təcrid, iqtisadi zorakılıq, uşaqlardan istifadə, aşağılamaq və s. taktikaların sistemli nümunəsi olduğunu diqqətə çatdırır[27].

– **"Məcburedici nəzarət" (coercive control)**: Fiziki zorakılıq görünən "zirvəsidir"; əsas zərər təcrid, qorxu və asılılıq yaradan davranış nümunələrinin məcmusundan doğan konspesiyanı özündə əks etdirir. Bu konsepsiya qanunvericiliklərə də təsir edib.

## Məişət zorakılığının əsas formaları

### 2.1. Fiziki zorakılıq

Fiziki güc tətbiq etməklə şəxsin bədəninə zərər vurmaq və ya həyatına təhlükə yaratmaq məqsədi daşıyan hərəkətlər fiziki zorakılıq hesab edilir[28]. Misal: döymək, itələmək, boğmaq, silahla hədələmək, zorla qapalı yerdə saxlamaq.

### Psixoloji (emosional) zorakılıq

İnsanın psixoloji sağlamlığına və emosional sabitliyinə zərər vuran davranış formalarıdır.

Misal üçün, təhqir, aşağılama, daimi tənqid, təhdid, sosial təcrid, manipulyasiya kimi təzahürlərdə özünü göstərir. Zorakılığın bu forması çox zaman digər zorakılıq növlərinə zəmin yaradır və Posttravmatik Stress Pozuntusu (PTSP), depressiya, özünəqəsd riskini artırır[29].

### Cinsi zorakılıq

Şəxsin iradəsinin əleyhinə olaraq onunla cinsi əlaqəyə daxil olma və ya hərəkətə məcbur etmə, cinsi təhdid, zorla hamiləlik və ya abort, cinsi sorakılıq hesab edilir. İstanbul Konvensiyası cinsi zorakılığı həm ailədaxili, həm də intim münasibətlərdə baş verməsini zorakılığın ayrıca forması kimi tanıyır[30].

### İqtisadi zorakılıq

Maddi resurslara nəzarət etməklə şəxsin müstəqilliyini məhdudlaşdırmaq iqtisadi zorakılıq hesab edilir. Misal: işləməyə icazə

---

[26] Heise, L. (1998). *Violence against women: an integrated, ecological framework*
[27] The Duluth Model+1
[28] WHO. (2021). Violence against women prevalence estimates.
[29] Heise, L. (2011). What works to prevent partner violence? An evidence overview. DFID.
[30] Council of Europe. (2011). Istanbul Convention, Article 36.

verməmək, qazancını əlindən almaq, maliyyə asılılığı yaratmaq, mülkiyyət hüququnu məhdudlaşdırmaqla tətbiqi baş verir[31].

**Sosial zorakılıq**

Şəxsi ailə və dost əlaqələrindən təcrid etmək, ictimai fəaliyyətə qatılmasına mane olmaq sosial zorakılıq ehsab edilir. Misal: qohumlarla görüşə icazə verməmək, telefon və internetə çıxışı məhdudlaşdırmaqda özünü göstərir[32].

**Məişət zorakılığının xarakterik xüsusiyyətləri**

Sistemlilik nəzəriyyəsinə görə, zorakılıq hadisələri çox zaman təkrarlanan və dövrvi xarakter daşıyır[33] ("zorakılıq dövrü" )**.** Güc və nəzarətnəzəriyyəsinə görə, əsas motiv qarşı tərəf üzərində hakimiyyət və nəzarəti qurmaqdır (Duluth modeli). Qurbanın təcrid edilməsində isə sosial əlaqələrin kəsilməsi qurbanın müdafiə mexanizmlərini zəiflədir. Travma təsiri, uzunmüddətli psixoloji və fiziki sağlamlıq problemlərinə səbəb olur.

**Zorakılıq törədən kişi** -yaxın münasibətlərdə (ailə, intim tərəfdaşlıq və ya birlikdə yaşama) və ya ictimai mühitdə, qəsdən və ya davamlı şəkildə güc və nəzarət tətbiqi məqsədilə fiziki, psixoloji, cinsi, iqtisadi və ya sosial zorakılıq formalarından istifadə edən (kişi) şəxsdir[34]. Bu anlayış cinsə xas bioloji xüsusiyyətlərdən daha çox gender rolları, sosiallaşma prosesi və mədəni normaların təsiri ilə formalaşır[35].

Qlobal səviyyədə tədqiqatlar göstərir ki, zorakılıq törədən kişi davranışları çox zaman patriarxal gender sistemi və maskulinlik modelləri ilə əlaqəlidir[36]. Azərbaycanda da ənənəvi ailə modeli, ata hakimiyyəti və "kişinin sözü son sözdür" kimi sosial normalar bəzi hallarda zorakılıq davranışını legitimləşdirir. Heisenin ekoloji modeli zorakılığın səbəblərini dörd səviyyədə izah edir:

**Fərdi səviyyə:** uşaqlıqda zorakılığa şahid olmaq, alkoqol, maddə asılılığı, psixoloji problemləri olanlar.

**Münasibət səviyyəsi:** ailədaxili güc balanssızlığı, konfliktlərin

---

[31] Adams, A. E., Sullivan, C. M., Bybee, D., & Greeson, M. R. (2008). Development of the Scale of Economic Abuse. Violence Against Women, 14(5), 563–588.

[32] Yoshihama, M., Horrocks, J., & Kamano, S. (2009). The role of emotional abuse in intimate partner violence. Journal of Interpersonal Violence.

[33] Walker, L. E. (1979). The Battered Woman; Pence, E., & Paymar, M. (1993). Education Groups for Men Who Batter: The Duluth Model.

[34] Pence, E., & Paymar, M. (1993). *Education Groups for Men Who Batter: The Duluth Model.*

[35] Stark, E. (2007). *Coercive Control.*

[36] Connell, R. W. (1995). *Masculinities.*

zorakı yolla həllini seçənlər;

**İcma səviyyəsi:** sosial təcrid, zorakılığı qəbul edən sosial dairələr.

**Cəmiyyət səviyyəsi:** gender bərabərsizliyi, hüquqi boşluqlar, mədəni normalarda əks olunur[37].

Azərbaycanda modelin təzahüri bütün səviyyələrdə zorakılıq davranışını gücləndirən faktorlar olaraq müşahidə olunur: məsələn, bəzi kənd yerlərində zorakılığın "ailədaxili məsələ" kimi qəbul edilməsi[38].

Sosial gözləntilər dedikdə, kişidən ailədə "nəzarət edən", "intizam verən" və "təhlükəsizlik təminatçısı" rolu gözlənilir. Bu roldan kənarlaşma, bəzi kişilərdə aqressiya və zorakılıqla nəticələnir.

**Duluth modeli və "məcburedici nəzarət"**

Duluth modelində zorakılıq törədən kişi güc və nəzarət təkəri vasitəsilə təzyiq göstərərək: qorxu, günahı qarşı tərəfə yükləmək, iqtisadi nəzarət, qısqanclıq, təhdid üsullarından istifadə edir. Məcburedici nəzarət (coercive control) konsepsiyası[39] göstərir ki, zorakılıq təkcə fiziki hücumlarla deyil, qurbanın gündəlik həyatına tam müdaxilə ilə davamlı şəkildə tətbiq olunur.

Azərbaycan reallığında zorakılıq törədən kişilərin ifadələrində əksər vaxt zorakılığı əhəmiyyətsizləşdirmə ("bu adi ailə mübahisəsidir") və günahı qurbana yönəltmə ("məni qıcıqlandırdı") halları rast gəlinir.

**Azərbaycanda zorakılıq törədən kişi profili (empirik müşahidələr)**

**Sosial-demoqrafik xüsusiyyətlər[40]**

Yaş: Əksər hallarda 25–50 yaş arası.

Təhsil: Orta və ya natamam orta təhsillilər üstünlük təşkil etsə də, ali təhsilli şəxslər arasında zorakılıq törədənlər az deyil.

Məşğulluq: İşsiz və ya qeyri-sabit gəlirli sosial təbəqədə zorakılıq halları daha yüksəkdir.

Məskunlaşma: Həm şəhər, həm də kənd yerlərində mövcuddur, lakin kənd yerlərində "gizli zorakılıq" daha geniş yayılıb[41].

**Davranış xüsusiyyətləri**

- Qısqanclıq və partnyorun sosial əlaqələrinə müdaxilə.
- Ev işləri və ailə qərarlarında tam dominantlığın tətbiqi.
- Münaqişə zamanı fiziki güc tətbiq etməyə hazır olmaq.

---

[37] Heise, L. (1998). *Violence Against Women: An Integrated, Ecological Framework.*
[38] UNFPA Azerbaijan (2023) Məişət zorakılığı hesabatı.
[39] Stark, E. (2007). *Coercive Control*
[40] "Azərbaycan Respublikasında Məişət Zorakılığı ilə bağlı Sosial Tədqiqat"
[41] UNFPA & State Committee for Family, Women and Children Affairs, 2022.

– Zorakılıqdan sonra peşmanlıq ifadə etmək, amma davranışı dəyişməmək ("bal ayı" mərhələsi)[42].

**Uşaqlıqda zorakılıq təcrübəsi**

Araşdırmalar göstərir ki, zorakılıq törədən kişilərin əhəmiyyətli hissəsi uşaqlıqda:

– Atasının anasına zorakılıq etdiyini görüb;
– Fiziki cəza ilə böyüyüb;
– Zorakılığın "problemlərin həlli vasitəsi" olduğu inancı onda formalaşıb[43].

**Hüquqi yanaşma və məsuliyyət**

Azərbaycanda zorakılıq törədən kişi Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Məişət zorakılığının qarşısının alınması haqqında Qanuna əsasən məsuliyyət daşıyır. Lakin, cinayət təqibi üçün məişət zorakılığını özündə əks etdirən xüsusi maddə mövcud deyil.

– Fiziki zorakılıq: CM maddə 128, 132, 133, 134.
– Psixoloji təzyiq: Mühafizə orderləri və inzibati cərimələr.
– Təkrar zorakılıq hallarında cinayət məsuliyyəti.

Azərbaycan reallığında "zorakılıq törədən kişi" anlayışı təkcə fərdi psixoloji meyllərlə izah edilə bilməz. Gender bərabərsizliyi, ənənəvi maskulin gözləntilər, sosial-iqtisadi stress və hüquqi tətbiqdə boşluql**ar** ilə sıx bağlı olan çoxfaktorlu sosial fenomendir. Qlobal modellər (ekoloji model, Duluth modeli, məcburedici nəzarət) yerli şəraitə uyğunlaşdırılaraq həm profilaktika, həm də reabilitasiya proqramlarının əsasını təşkil etməlidir.

**Sosial, mədəni və hüquqi çərçivə**

**Sosial çərçivə.** Azərbaycanda kişinin sosiallaşması əksərən patriarxal ailə modelində baş verir. Uşaqlıqdan oğlanlara "ailə başçısı", "qoruyucu" və "nəzarətçi" rolları aşılanır[44]. Bu modeldə ailədaxili iyerarxiya kişinin üstün mövqeyinə əsaslanır, bəzi hallarda isə bu üstünlük güc tətbiqi ilə möhkəmləndirilir. Zorakılıq törədən kişi davranışının formalaşmasında iki əsas sosial faktor mühüm rol oynayır:

1. Uşaq vaxtı zorakılıq nümunələrinə şahidlik (atadan anaya zorakılıq və ya valideynin uşağa fiziki cəza tətbiqi).

2. Sosial mühitin zorakılığı normallaşdırması ("ər-arvad arasında hər şey olar", "kişi döyər də sevər də" kimi ifadələr).

---

[42] Walker, L. (1979). *The Battered Woman.*
[43] WHO (2010). *Preventing Intimate Partner and Sexual Violence Against Women*
[44] UNFPA & State Committee for Family, Women and Children Affairs (2022).

İqtisadi və sosial stress amilləri çərçivəsində, işsizlik, maddi çətinlik, mənzil problemi və sosial təcrid zorakılıq riskini artırır. Lakin tədqiqatlar göstərir ki, zorakılığın əsas səbəbi yoxsulluq deyil, yoxsulluq sadəcə risk faktorudur. Əsas problem gender, güc bərabərsizliyidir[45]. Azərbaycanda bəzi kişilər maddi təminatçı rolunu itirdikdə, nəzarət hissini bərpa etmək üçün zorakılığa əl atır.

**Sosial təsdiqləmə və cəzasızlıq mədəniyyəti.** Ətraf mühitin zorakılığı "ailədaxili məsələ" kimi görməsi təqsirkarın məsuliyyət hissini zəiflədir. Qohum və qonşuların müdaxilə etməməsi, bəzi dini və ənənəvi liderlərin "səbr və ailəni qoruma" tövsiyyəsi də zorakılığın davamlılığına təsir göstərir. Bu "sosial təsdiqləmə" zorakılıq törədən kişidə davranışının legitim olduğu inamını gücləndirir[46].

**Mədəni çərçivə.** Patriarxal dəyərlər və "namus" anlayışı**.** Azərbaycanda bəzi ailə və icmalarda "namus" və "ailə şərəfi" anlayışları qadının davranışı ilə ölçülür. Bu yanaşma kişilərə qadının həyat tərzini məhdudlaşdırmaq və nəzarətdə saxlamaq hüququ verilməsi illüziyasını yaradır[47]. Nəticədə qısqanclıq, sosial təcrid və hətta zorakılıq "namusu qoruma" adı ilə əsaslandırılır.

**Maskulinlik modelləri.** Connellin "Hegemon maskulinlik" nəzəriyyəsinə görə, cəmiyyətdə üstün sayılan kişi modeli güc, emosional sərtlik və dominantlıq üzərində qurulur[48]. Azərbaycanda da "kişiliyin sübutu" çox vaxt emosiyaların gizlədilməsi, qərarların təkbaşına verilməsi və lazım gəldikdə fiziki güc tətbiqi ilə əlaqələndirilir. Bu model zorakılıq törədən kişi davranışının mədəni əsasını təşkil edir.

**Mədəni dəyişiklik tendensiyaları.** Şəhər yerlərində gənc nəsil arasında gender bərabərliyi dəyərlərinin artması müşahidə olunur. Lakin kənd və regionlarda ənənəvi modellər hələ də üstünlük təşkil edir və zorakılıq hallarının gizli qalma ehtimalı daha yüksəkdir[49].

**Hüquqi çərçivə.** Əsas hüquqi akt, "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanunudur. Qanunun əsas istiqamətləri aşağıdakıları müəyyən edir.

- Məişət zorakılığı formaları: fiziki, psixoloji, cinsi, iqtisadi.
- Subyekt: ailə üzvləri, birlikdə yaşamış şəxslər, yaxın qohumlar.

---

45 Heise, L. (1998). *Violence Against Women: An Integrated, Ecological Framework*

46 Gracia, E. (2004). *Unreported cases of domestic violence against women: towards an epidemiology of social silence, tolerance, and inhibition.*

47 Kandiyoti, D. (1988). *Bargaining with Patriarchy.*

48 Connell, R. W. (1995). *Masculinities.*

49 UNDP Azerbaijan (2021). *Gender Attitudes Survey.*

– Müdafiə vasitələri: mühafizə orderləri (qısa və uzunmüddətli).

Cinayət Məcəlləsində zorakılıq halları konkret maddələrlə tənzimlənir (məsələn, 128 -qəsdən sağlamlığa yüngül zərər vurma, 133 - işgəncə, 134 -öldürməklə hədələmə).

İnzibati Xətalar Məcəlləsi: bəzi zorakılıq formalarına görə inzibati məsuliyyət nəzərdə tutulur.

**Beynəlxalq öhdəliklər**

Azərbaycan aşağıdakı beynəlxalq sənədlərə qoşulub və bu çərçivələr zorakılıq törədən kişi anlayışının hüquqi qiymətləndirilməsinə təsir göstərir:

CEDAW (1979) və 35 saylı Ümumi Tövsiyyə sənədi (2017) - zorakılığı ayrı-seçkiliyin forması kimi tanıyır.

BMT-in Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında Bəyannamə (1993).

İstanbul Konvensiyası (imzalanmayıb, amma müddəaları təbliğat və maarifləndirmədə istifadə olunur).

Azərbaycan reallığında zorakılıq törədən kişi anlayışı sosial, mədəni və hüquqi çərçivələrin kəsişməsində formalaşır.

– Sosial çərçivə: gender rolları və sosial təsdiqləmə mexanizmləri davranışa zəmin yaradır.
– Mədəni çərçivə: patriarxal dəyərlər və hegemon maskulinlik zorakılığı bəhanələndirə bilir.
– Hüquqi çərçivə: mövcud qanunlar müdafiə və cəza mexanizmi təkmil olmadığından icra və tətbiqdə boşluqlar yaranır.

Yalnız hüquqi mexanizmlər deyil, həm də sosial-psixoloji reabilitasiya, gender təhsili və icma səviyyəsində zorakılıq əleyhinə mədəni dəyişiklik proqramları zorakılıq törədən kişi modelinin transformasiyasına təsir göstərə bilər.

**Yerli empirik məlumatların məhdudluğu.** Azərbaycanda məişət zorakılığı ilə bağlı statistik məlumatlar mövcuddur (Dövlət Statistika Komitəsi, AQUPDK tərəfindən açıqlanan illik rəqəmlər), lakin zorakılıq törədən kişilərin profilinə dair sistemli, uzunmüddətli tədqiqatlar aparılmayıb. Beynəlxalq səviyyədə İntim tərəfdaş zorakılığı (IPV) üzrə təqsirkar tipləri, psixoloji portret və davranış modellərinə dair çoxsaylı araşdırmalar mövcuddur, amma bu modellər Azərbaycanda yerli mədəni kontekstə uyğunlaşdırılmayıb[50].

---

[50] Holtzworth-Munroe, A., & Stuart, G. L. (1994). Typologies of male batterers; Gondolf, E. (2002). *Batterer Intervention Systems*.

**Gender nəzəriyyələrinin lokal tətbiq boşluğu.** Hegemon maskulinlik[51], məcburedici nəzarət[52] və ekoloji model [53] kimi nəzəri çərçivələr Azərbaycanda zorakılıq təhlilinə nadir hallarda tətbiq olunur. Yerli elmi işlərin çoxu daha çox hüquqi aspektləri vurğulayır, halbuki sosial-psixoloji və mədəni təhlil sahəsində nəzəri-empirik boşluqla hələ də qalır.

**Təqsirkarın reabilitasiya modelləri üzrə tədqiqat çatışmazlığı.** Dünyada Duluth modeli, CBT (Cognitive-Behavioral Therapy) yanaşmaları, və müxtəlif hibrid proqramlar zorakılıq törədən kişilərlə işdə tətbiq olunur və effektivliyi öyrənilir[54]. Azərbaycanda bu cür batareyya müdaxilə proqramlarının (Batterer Intervention Programs) tətbiqi və qiymətləndirilməsi üzrə elmi-tədqiqat işi yoxdur. Mövcud təcrübəyə əsasən hüquqi cəza ilə məhdudlaşır, davranış dəyişikliyi yönümlü proqramlar haqqında məlumat azdır.

**Mədəni təsirlər və zorakılıq narrativlərinin öyrənilməməsi.** Zorakılıq törədən kişilərin öz hərəkətlərini necə əsaslandırdığı ("haqq qazandırma narrativləri")[55], məsələn, "namus", "tərbiyə", "ailəni qoruma" kimi mədəni arqumentlər, Azərbaycanda elmi şəkildə sistemləşdirilməyib. Qohum və icma münasibətlərinin zorakılıq davranışını necə möhkəmləndirdiyi və ya zəiflətməsi barədə də araşdırmalar azdır.

**Qarşılıqlı zorakılıq və qeyri-ənənəvi münasibətlərin araşdırılmaması.** Əksər yerli araşdırmalar yalnız "kişi təqsirkar -qadın qurban" modelinə fokuslanır. Qarşılıqlı zorakılıq, eyni-cins münasibətlərdə zorakılıq, və ya qeyri-rəsmi nikah münasibətlərində zorakılıq barədə tədqiqat boşluğu var[56]. Zorakılığa təhrik elementləri ilə bağlı vəziyyətin tədqiqi də hələ tədqiqatçıların maraq dairəsinə daxil olmayıb[57].

**Lokal profil tədqiqatları.** Zorakılıq törədən kişilərin demoqrafik, psixoloji, sosial və mədəni xüsusiyyətl**əri** üzrə milli səviyyədə sorğular demək olar ki, yoxdur. Uzunmüddətli müşahidə ilə zorakılıq davranışının dəyişmə dinamikasının tətbiqi yoxdur.

**Nəzəri modellərin uyğunlaşdırılması.** Ekoloji model, məcburedici

---

[51] Connell, R. W. (1995). *Masculinities*
[52] Stark, E. (2007). *Coercive Control*.
[53] Heise, L. (1998).
[54] Babcock, J. C., Green, C. E., & Robie, C. (2004). *Does batterers' treatment work? A meta-analytic review*.
[55] Hearn, J. (1998). *The violences of men*.
[56] Johnson, M. P. (2008). *A Typology of Domestic Violence: Intimate Terrorism, Violent Resistance, and Situational Couple Violence*.
[57] Müəlifdən

nəzarət nəzəriyyəsi və zorakılıq tipologiyalarının Azərbaycan kontekstinə empirik uyğunlaşdırılmasına ehtiyac var. Beynəlxalq müdaxilə proqramlarının yerli mədəniyyət və hüquq sistemi ilə inteqrasiyası hazırlanmalıdır.

**Reabilitasiya və davranış dəyişikliyi proqramlarının sınağı.** CBT, Duluth, "motivasiya yönümlü müsahibə" və digər metodların Azərbaycanda pilot tətbiqi hələ də mövcud deyil. Təqsirkarın davranış dəyişikliyi üzrə effektivlik ölçüləri indikatorları yoxdur.

**Mədəni narrativlərin analizi.** Zorakılıq törədən kişilərin "özünü haqlı çıxarma" arqumentlərinin mətn və diskurs analizi aparılmır. Mədəni və dini liderlərin zorakılığa yanaşmasının təsiri ilə bağlı işlər az səviyyədə aparılır.

**İnstitusional yanaşmanın öyrənilməsi.** Polis, məhkəmə və sosial xidmətlərin zorakılıq törədənlərlə iş təcrübəsinin araşdırılmasına böyük ehtiyac var. Qanun tətbiqi mexanizmlərinin praktik təsirinin qiymətləndirilməsi ölkədə yeni başlayır.

Elmi boşluqların doldurulması:

- Sosial-psixoloji portretlərin hazırlanması.
- Mədəni faktorların dərin analizi.
- Reabilitasiya modellərinin tətbiqi və effektivlik qiymətləndirilməsi.
- İnstitusional yanaşmaların təkmilləşdirilməsi üçün sübut bazasının yaradılsa da təhlili  aşağı səviyyədədir

Bu tədqiqatlar yalnız akademik ədəbiyyata töhfə verməyəcək, həm də dövlət siyasəti, QHT strategiyaları və sosial xidmət proqramlarının elmi əsaslı dizaynına imkan yaradacaq.

**YEKUN**:

Zorakılıq anlayışı müasir sosial elmlərdə yalnız fiziki zərər vurmaqla məhdudlaşmır. O, emosional, psixoloji, iqtisadi, sosial və cinsi zorakılıq formalarını da əhatə edən çoxölçülü bir sosial fenomen kimi qəbul olunur. BMT, Ümumdünya Səhiyyə Təşkilatı və Avropa Şurasının sənədlərində zorakılıq, fərdin iradəsinə qarşı zor tətbiqi və ya məcburetmə vasitəsilə onun fiziki, psixoloji və sosial rifahına zərər vurma aktı kimi müəyyənləşir. Qlobal səviyyədə aparılan tədqiqatlar göstərir ki, zorakılığın səbəbləri fərdi psixoloji meyillərlə məhdudlaşmır; mədəniyyət, gender rolları, iqtisadi strukturlar və hüquqi mexanizmlərin effektivliyi də zorakılığın miqyası və intensivliyinə birbaşa təsir göstərir.

Azərbaycan kontekstində zorakılıq törədən kişi obrazı, bir tərəfdən

patriarxal mədəni kodlarla formalaşır, digər tərəfdən iqtisadi, sosial və psixoloji stress faktorları ilə güclənir. Ənənəvi ailə modelində kişiyə ailə başçısı və təminatçı statusu verilməsi, bəzi hallarda bu rolu hakimiyyət vasitəsinə çevirərək güc və nəzarət mexanizmlərinə əsaslanan münasibət formalaşdırır. Müşahidələr göstərir ki:

- Sosial təzyiqlər və "ailə işinə qarışmamaq" stereotipi zorakılığın gizlədilməsinə şərait yaradır.
- Alkoqol istifadəsi, işsizlik, erkən nikah, travmatik uşaqlıq təcrübələri zorakı davranış riskini artırır.
- Gender bərabərsizliyinə dair stereotiplər (məsələn, "kişinin sözü qanundur") zorakılığa bəraət mexanizmi kimi işlədilir.

Bu təsvir, yalnız fərdi psixoloji portreti deyil, həm də sosial-mədəni konstruksiyanı əks etdirir. Azərbaycan zorakılıqla mübarizə sahəsində Məişət zorakılığının qarşısının alınması haqqında Qanun və İstanbul Konvensiyasının prinsiplərinə uyğun tədbirlər tətbiq edir. Hüquqi çərçivədə zorakılıq formaları tanınır və qurbanların müdafiəsi üçün müdafiə qərarları, sığınacaqlar, hüquqi yardım mexanizmləri mövcuddur. Lakin praktikada:

- Hüquq-mühafizə, səhiyyə və sosial xidmətlər arasında koordinasiya yetərli səviyyədə deyil.
- Qurbanların hüquqlarını qoruma prosesində mədəni stereotiplər və ailə təzyiq ( və ya ailədən təzyiq) maneə yaradır.
- Qanunvericilikdə nəzərdə tutulan bəzi tədbirlər (məsələn, məcburi reabilitasiya proqramları) hələ də tətbiq olunmur.

Mədəni mühitdə ictimai münasibətlərdə ailə namusu anlayışlarının güclü olması, bəzi hallarda qurbanın hüquqi müdafiə mexanizmlərinə çıxışını məhdudlaşdırır.

Mövcud tədqiqatlar zorakılığın statistik miqyası, formaları və qurban profili barədə müəyyən məlumatlar versə də, zorakılıq törədənlərin psixososial profili, nəsillərarası zorakılığın ötürülməsi mexanizmləri, regional fərqlər və xüsusi həssas qruplarda (erkən nikah, miqrasiya, əlillik) zorakılıq dinamikası kimi mövzular hələ də az araşdırılıb. Bundan başqa:

- Zorakılıqla mübarizədə istifadə olunan beynəlxalq modellərin (Duluth, Holtzworth-Munroe tipologiyası, travma-yönümlü yanaşma) Azərbaycan mədəni kontekstinə uyğunlaşdırılması istiqamətində genişmiqyaslı empirik işlər aparılmayıb.
- Hüquqi tədbirlərin səmərəliliyini ölçən uzunmüddətli təsir araşdırmaları mövcud deyil.
- Qurbanların sosial reabilitasiyası və zorakı şəxslərin davranış

dəyişikliyi üzrə lokal metodologiyalar kifayət qədər inkişaf etdirilməyib.

Gələcək tədqiqatlar üçün prioritetlər aşağıdakılardır:

- Zorakı şəxslərin psixoloji tipologiyasının yerli empirik təsdiqi - davranış modellərinə uyğun fərdiləşdirilmiş müdaxilələr hazırlamaq üçün.
- Multidisiplinar cavab mexanizmlərinin effektivliyi -hüquq, səhiyyə və sosial xidmətlərin koordinasiyalı işləməsinin nəticələrini ölçmək.
- Mədəni təsirlər -gender rolları, ailə strukturu və ictimai münasibətlərin zorakılıq riskinə təsirinin sosioloji təhlili.
- Reabilitasiya və preventiv proqramların monitorinqi -həm qurbanların reinteqrasiyası, həm də zorakı şəxslərin davranış dəyişikliyi üzrə.
- Regionlararası müqayisə -şəhər və kənd ərazilərində zorakılıq dinamikasının fərqlərini araşdırmaq.

Zorakılıq anlayışının qlobal elmi çərçivəsi ilə Azərbaycan reallığının təhlili göstərir ki, effektiv mübarizə üçün qanunvericilik, mədəniyyət, sosial strukturlar və psixoloji yanaşmalar bir-birindən ayrılmaz şəkildə işlənməlidir. Zorakı kişi anlayışının yalnız fərdi problem kimi deyil, həm də sosial-mədəni konstruksiya kimi öyrənilməsi, mövcud elmi boşluqların aradan qaldırılması üçün lokal, mədəniyyətə həssas və empirik əsaslı tədqiqatların aparılması vacibdir. Belə bir yanaşma həm qurbanların müdafiəsini gücləndirəcək, həm də zorakılığın nəsillərarası ötürülməsi riskini azaldaraq, uzunmüddətli sosial dəyişikliklər üçün baza yaradacaq.

## II. Beynəlxalq elmi modellərə baxış

1975-ci ilə qədər, yaxın münasibətdə olan şəxslər tərəfindən zorakılığın tətbiqinə dair (IVR) sosiologiya elmində nəzəri və praktiki araşdırmalarda fenomenlə bağlı qeydlərə təsadüf edilmir. Qeyd edilən tendensiya 1975-ci ilədək psixologiya elmi sahəsində aparılan araşdırmalarda da aşkarlanmır. Belə ki, aqressiya daha çox bir birinə yad olan insanların davranışı qismində qəbul edilir. Psixoloji araşdırmalarda, aqressiyanın anadangəlmə və ya qazanılmış olduğu müzakirə edilir. Heç bir araşdırma və hesabatlarda, yaxın münasibətdə olan şəxslər tərəfindən təcavüzün mövcudluğu, yaxud yaxın münasibətdə olan şəxslərin törətdiyi təcavüzlə bağlı tədqiqatlar aşkarlanmır.

Evlilik və intim münasibətlərə həsr olunmuş ilk jurnal olan “Journal of Marriage and the Family”in nəşrlərinin təhlili göstərir ki, 1939-cu ildən 1969-cu ilə qədər olan nəşrlərdə “zorakılıq” ifadəsinə bir dəfə rast

gəlinmir. Evlilik münasibətlərində münaqişə ifadəsi işlənməsi qeyd edilsə də, lakin zorakılıq ifadəsi, yaxud probleminə toxunulmurdu.

Timothy Leary və onun həmkarlarının şəxsiyyət nəzəriyyəsinə dair 1951-ci ildə nəşr olunan ilk işlərində, insanın şəxsiyyətinin koordinatlarını dairəvi quruluş adlanan çoxölçülü xəritəylə əks etdirməyə çalışırdı: 16 ölçü və şəxsiyyətin 8 kateqoriyası diaqramda dairə şəklində düzülmüşdü. Dairəvi quruluş ideyasına əsasən, insanın yeri, iki ölçülü məkanda xarakter əlamətlərinin dairəvi irarxiyası idi (soyuq-isti və dominant-itaətkar kimi oxlarla kəsişən dairə)[58]

20-ci əsrin əvvəllərində psixiatriya, həyat yoldaşlarından birinin digərini öldürdüyü hallar istisna olmaqla, məişət zorakılığı fenomeninə göz yumdu. Mütəxəsisslər həmin dövrdə ("inkar əsri"),[59] ən çox diqqəti öz həyat yoldaşını öldürən kişilərin fərdi klinik hallarının öyrənilməsinə yönəldirdi. Bu paradoksal fenomen, patoloji asılılıq və evlilik paranoyası, həmçinin temporal lob epilepsiyası kimi izah edilir. Tez-tez istinad edilən bir araşdırmada,[60] zorakılığa, kişi və qadınların həddindən artıq asılılıq formalarını nümayiş etdirdiyi qarışmış sistemin patoloji nəticəsi kimi baxırdı. "Ərlərin aqressiv davranışı arvadın (və ər-arvadın) mazoxist ehtiyaclarını ödəməyə və tarazlığı təmin etməyə meyllidir". Başqa sözlə, qadınların zorakılıq və təhqiramiz münasibətlərdə qalması, belə ağır cəzalara dözməsinin səbəbi, onların şüuraltı, instinktiv ehtiyaclarının ödənilməsindən irəli gəlir.

Həmin dövrdə feministlər[61] bu nöqteyi-nəzəri "qurbanı günah-landırmaq" hesab edərək, ona qarşı çıxdılar. Folk digər araşdırmasında[62] arvadını öldürən və ya ağır yaralayan kişilərlə təhllilərin nəticələr göstərdi ki, 23 nəfərdən 16-da psixi pozğunluq var. Təəssüf ki, Folk, araş-dırmasında, məişət zorakılığının ən ekstremal formalarına baxsa da, öz nəticələrində həyat yoldaşı tərəfindən zorakılıq edən bütün kişiləri eyniləşdirdi. Dottona görə isə, zorakılığın daha ağır formalarının tətbiqi, zorakılıq törədən şəxsdə, şəxsiyyət pozğunluğuna malik olma ehtimalını

---

[58] Leary T.F. Interpersonal diagnosis of personality: A functional theory and methodology for personality evaluation. International Universities Press: New York, 1957.

[59] Dutton D.G. Rethinking domestic violence. UBC Press: Vancouver, 2006.

[60] Snell J.E., Rosenwald P.J., Robey A. The wifebeater's wife. Archives of General Psychiatry 1964; **2**: 107–113.

[61] *Hilberman E.* Overview: The "wife beater's wife" reconsidered. American Journal of Psychiatry 1980; 137 (11): 1336–1347.

[62] *Faulk M.* Men who assault their wives. Medicine, Science and the Law 1974**;** 14: 180–183.

daha da yüksəldir[63]. İlk dəfə Rounsaville[64] ərin arvadına hücumunun “adi zorakılıq”, yaxud, deviant və ya a-tipik davranış nümunəsi olmasını ciddi şəkildə araşdıraraq, müəyyən etdi ki, qadınların zorakı münasibətlərə dözməsinin səbəbi “mazoxist” olmasından irəli gəlmir. O, araşdırmasında, qadınların 71%-i ayrılmaq istəyədikləri təqdirdə, partnyorları tərəfindən ölümlə hədələndiyini qeyd etdi.

Psixoloq Daniel Sonkinə[65] görə, fiziki zorakılıq törədən kişilər, yüksək dərəcədə qəzəb və depressiyaya, aşağı özünə qiymətləndirməyə, zəif ünsiyyət bacarıqlarına və ailədaxili zorakılıq tarixçəsinə malik olanlardır.

Dutton, 1988-ci ildə məişət zorakılığı törədənləri üç qrupa bölməyi təklif edir: hipper nəzarətçilər (ifratçılar), sərhədisz zorakılıq edənlər (antisosial) və dövri zorakılıq edənlər[66].

1988-ci ildə digər tədqiqatçılar, Hamberger və Hastings araşdırmasına görə, zorakılıq tördənlər arasında şəxsiyyət pozğunluğu olmayıb, lakin zorakılıqdan sui-istifadə edənlərin sayı daha çoxdur.

Müəlliflər, üç amili ortaya çıxdı: “şizoid/sərhəd” (1-ci faktor), “narsisist/antososial” (2-ci faktor) və “passiv-asılı/kompulsiv” (3-cü faktor). Müəlliflər, ilk üç kateqoriyada klinik patologiyanın əlamətlərini aşkarlamadığını bir daha qeyd etdi.[67]

İ.G. Malkina-Pıx əsərlərində, “məişət zorakılığının tətbiqini, bir şəxsin digər şəxs üzərində hakimiyyət və nəzarəti, “davranış sistemi” nümunəsi olduğunu irəli sürür"[68]

**Holtzworth-Munroe və Stuart tipologiyası**

Holtzworth-Munroe və Stuart tipologiyası (bəzən “H-M&S tipologiyası” kimi qısaldılır) intim partnyor tərəfindən zorakılığı (IPV) törədən kişilərin homogen deyil, müəyyən oxlar üzrə fərqlənən alt-

---

[63] Dutton D.G. Personality profle of intimate terrorists. Journal of Interpersonal Violence, in press.

[64] Rounsaville B. Theories in marital violence: Evidence from a study of battered women. Victimology: An International Journal 1978; 3 (1–2): 11–31.

[65] Sonkin D.J., Martin D., Walker L. The male batterer: A treatment approach. Springer: New York, 1985.

[66] Dutton D.G. Profling wife assaulters: Some evidence for a trimodal analysis. Violence and Victims 1988; 3 (1): 5–30.

[67] Hamberger L.K., Hastings J.E. Personality correlates of men who abuse their partners: A cross-validation study. Journal of Family Violence 1986; **1** (4): 323–341. Hamberger L.K., Hastings J.E. Personality characteristics of spouse abusers: A controlled comparison. Violence and Victims 1988; **3**: 5–30.

[68] Малкина-Пых, И. Г. Психология поведения жертвы. М., 2006. 1008с.

tiplərdən ibarət olduğunu iddia edən ən çox istinad olunan modellərdən biridir. 1994-cü ildə Amy Holtzworth-Munroe və Gregory L. Stuart əvvəlki 15 tipologiyanı sistemli nəzərdən keçirərək üç əsas təsviri ölçü müəyyən etdilər[69]:

- zorakılığın şiddəti və tezliyi,
- zorakılığın ümumiliyi (yalnız ailə daxilində, yoxsa ailədən kənara da yayılır),
- psixopatologiya/şəxsiyyət pozuntuları. Bu ölçülərə əsasən üç alt-tip proqnozlaşdırıldı.

**Üç alt-tipin qısa təsnifatı:**

**Ailə-yönümlü (FO)**

- Zorakılıq nisbətən yüngül-orta səviyyədədir, adətən ailə daxilində qalır.
- Aydın psixopatologiya əlamətləri azdır və/ya yoxdur; daha çox stress, zəif münasibət bacarıqları kimi "aşağı səviyyəli" risk amilləri fonunda baş verir.

**Dizforik/serhəd (DB)**

- Zorakılıq orta-yüksək, əsasən partnyora yönəliklidir.
- Yüksək psixoloji sıxıntı, narahatlıq-depressiya simptomları, serhəd xüsusiyyətləri, qısqanclıq, tərk edilmə qorxusu, yüksək asılılıq və bağlanma problemləri xarakterikdir. Ümumən zorakı/antisosialdır.
- Yüksək şiddət, bu tipaloqiyada ailə daxilində, ailədən kənarda zorakılığı da əhatə edir.
- Antisosial xüsusiyyətlər, erkən davranış pozuntuları, cinayətkarlıq və maddə istifadəsi ilə daha çox bağlılıq diqqətə çatdırılır.

**Empirik yoxlama və genişlənmə**

- İlkin nəzəri model, yuxarıdakı üçlüyü təklif edir və inkişafetdirici model təqdim edir (tarixi risklər: uşaqlıqda zorakılıq, deviant həmyaşıdlar; proksimal risklər: bağlanma, impulsivlik, münasibət çətinlikləri, qadınlara qarşı düşmənçilik və s.).
- Toplum nümunəsində empirik test. 102 zorakı kişi və partnyorlarından toplanan göstəricilərin klaster analizi gözlənilən FO, DB, GVA ilə yanaşı dördüncü "aşağı səviyyəli antisosial (LLA)" klasterini də üzə çıxardı. LLA bir çox göstəricidə FO ilə GVA arasında yerləşirdi.
- Longitudinal izləmə, 1.5 və 3 il sonra qruplarda bir çox

---

69 Holtzworth-Munroe, A., & Stuart, G. L. (1994). Typologies of male batterers: Three subtypes and the differences among them. Psychological Bulletin, 116(3), 476–497. doi:10.1037/0033-2909.116.3.476.

dəyişkənlik proqnoz istiqamətində fərqlənməyə davam etsə də, hər bir fərdin eyni alt-tipdə qalması tam sabit edilmədi belə ki, xüsusilə DB və GVA arasında kəsişmə müşahidə olundu[70].

**Longitudinal izləmə üzrə izah:** Kateqoriya/klaster kəsişməsi. Bəzi davranış və şəxsiyyət göstəriciləri eyni anda bir neçə alt-tipə uyğundur. Məsələn, DB (dizforik/serhəd) və GVA (ümumən zorakı/ antisosial) qruplarında eyni anda yüksək şiddət ola bilər; fərqləndirici cizgilər (DB-də emosional disrregulyasiya, GVA-da antisosiallıq/ cinayətkarlıq) hər zaman "təmiz" olmur. Yəni bəzi şəxslər hər iki qrupa məxsus xüsusiyyətləri daşıya bilir.

- Ölçmə/indikator kəsişməsi: İstifadə olunan şkala və suallar oxşar konstruktları ölçürsə, faktorlar bir-birinə qarışa bilər (məs., qəzəb, impulsivlik və qısqanclıq eyni zamanda həm DB, həm də GVA ilə əlaqəli çıxır). Bu, konstruktların ayrı seçkiliyi validliyini zəifledər.
- Zaman üzrə kəsişmə (sabitliyin zəifliyi): Uzunmüddətli izləmələrdə eyni adamın göstəriciləri dəyişərək alt-tip "sərhədləri"ndə yerdəyişmə edə bilər. Bu, tipologiyanın sərt diaqnoz yox, istiqamətləndirici çərçivə kimi istifadə edilməli olduğunu göstərilir.

**Alt-tiplərin müqayisəli xülasəsi (praktik baxış)**

- FO: aşağı şiddət; ailə daxili; aydın psixopatologiya az; konflikt bacarıqları zəif, stressorlar ön planda. Risk: təkrarlanma orta/aşağı; təhlükəsizlik planı yenə vacibdir.
- DB: orta-yüksək şiddət; qısqanclıq/bağlanma qayğıları; emosional dəyişkənlik; kompleks psixoterapevtik ehtiyaclar. Risk: təkrarlanma/eskalasiya riski mövcud.
- GVA: yüksək şiddət; ailə daxili + kənarda zorakılıq; antisosial tarix, maddə istifadəsi və cinayətkarlıq. Risk: ən yüksək; çoxsahəli müdaxilə və güclü təhlükəsizlik planı.

**Holtzworth-Munroe & Stuart tipologiyası** sahədə nəyi dəyişdi, təsirləri və praktik tətbiqə nə verib?

- Nəzəriyyə, "Hamı eyni deyil" prinsipini əsaslandırdı. 1994-cu il icmalında müəlliflər əvvəlki araşdırmaları sintez edib zorakılıq törədən kişiləri 3 ox üzrə fərqləndirdi: (1) zorakılığın şiddəti/tezliyi, (2) zorakılığın ailədən kənara yayılması, (3) psixopatologiya/şəxsiyyət pozuntuları. Bu oxlara görə 3 alt-tip təklif olundu:

---

[70] Holtzworth-Munroe, A., Meehan, J. C., Herron, K., Rehman, U., & Stuart, G. L. (2003). Do subtypes of maritally violent men continue to differ over time? *Journal of Consulting and Clinical Psychology, 71*(4), 728–740. doi:10.1037/0022-006X.71.4.728.

➢ Nəzəri modeli empirik xəritəyə çevirdi. Tipologiya təkcə təsnifat deyil, həm də inkişafedici model qismində təklif etdi (uşaqlıq travmaları → şəxsiyyət/affekt tənzimi → zorakılığın şiddəti və yayılması). Bu model sonrakı tədqiqatların çərçivəsini müəyyənləşdirdi.

Uzunmüddətli tədqiqatlar göstərir ki, alt-tiplər arasında kəsişmə və zamanla keçidlər mümkündür; bu səbəbdən kəsimlər "sərt" interpretasiya olunmamalıdır.

**Alt-tip işarələrinə görə incə tənzimləmə**

➢ GVA meyli (ümumi zorakılıq, cinayət, maddə asılılığı): RNR yanaşması, cinayətkar davranışın dəyişdirilməsi, maddə asılılığı müalicəsi və hüquq-mühafizə orqanaları ilə təmas,

➢ DB meyli (insanın öz emosiyalarını idarə etməkdə çətinlik çəkməsi, qısqanclıq): Emosiya tənzimi, bağlanma, qısqanclıqla işləyən modullar; DBT-informasiya edilmiş elementlər.

➢ FO meyli: Güc-nəzarət dinamikası yoxdursa və qurbanın təhlükəsizliyi təmin edilə bilirsə, qısa müddətli bacarıq proqramlarının tətbiqi.

**Qeyd:** Koersiv nəzarət (Koersiv nəzarət -bir şəxsin (adətən kişi tərəfdaşın) digər üzərində (adətən qadın üzərində) sistemli, davamlı və məqsədli şəkildə nəzarət qurmaq və onu itaətə məcbur etmək üçün istifadə etdiyi strategiyalar toplusudur.)varsa, cütlük terapiyası yolverilməzdir.

Holtzworth-Munroe & Stuart tipologiyası əsasən ABŞ-da məişət zorakılığı törədən kişilərin psixoloji və davranış modellərini təsnifləşdiran elmi yanaşmadır. Bu model zorakılıq törədənləri üç əsas tipə ayırır:

1) Yalnız ailədaxili zorakı tip (Family-Only Batterer) -zorakılıq yalnız ailə daxilində olur, emosional reaktivlik yüksəkdir, amma antisosiallıq zəifdir.

2) Dissosial/Antisosial tip (Generally Violent/Antisocial Batterer) - zorakılıq həm ailədə, həm də ailədən kənarda baş verir; impulsiv, riskli davranışlar və cinayətə meyillilik güclüdür.

3) Duyğusal/Asılı tip (Dysphoric/Borderline Batterer) -yüksək emosional qeyri-sabitlik, depressiya, asılılıq və intihar meylləri müşahidə olunur.

Azərbaycanda bu tipologiyanın rəsmi və sistemli tətbiqi haqqında açıq elmi və ya dövlət hesabatlarında məlumat yoxdur. Məişət zorakılığı üzrə sosial iş və psixoloji qiymətləndirmə proseslərində bəzi elementlər (məsələn, risk səviyyəsinin müəyyənləşdirilməsi, zorakının psixoloji portretinin çıxarılması) Duluth modeli və digər beynəlxalq risk qiymətləndirmə alətləri ilə birlikdə istifadə olunur, amma Holtzworth-

Munroe & Stuart tipologiyası ayrıca metod kimi geniş yayılmayıb.

Bunun səbəbləri:

- Azərbaycan praktik psixologiyasında zorakılıq törədənlərin davranış tipologiyalarının hələ tam akademik tətbiq olunmaması.
- Mövcud qanunvericiliyin (Məişət Zorakılığının Qarşısının Alınması haqqında Qanun) zorakılıq törədənlərin reabilitasiyası üçün ayrıca strukturlaşdırılmış proqram tələb etməməsi.
- Yerli mütəxəssislərin çox vaxt daha praktik qiymətləndirmə alətlərinə üstünlük verməsi.

Bu tipologiyanın genetik ("DNA") uyğunluğu məsələsinə gəlincə, Holtzworth-Munroe & Stuart modeli genetik analizə deyil, psixososial və davranış meyarların**a** əsaslanır. Yəni, burada "DNA" daha çox metaforik mənada -sosial-mədəni kodlar, ailə modeli, gender rolları və emosional tərbiyə -nəzərdə tutulur.

**Azərbaycan kontekstində təsbit edilən uyğunluqlar:**

➢ Family-Only (ailə ilə məhdudlaşan) tipi Azərbaycanda ən çox yayılmış formadır. Zzorakılıq əsasən ailədaxili baş verir, lakin, qonşular və cəmiyyətdən gizli saxlanılır.

➢ Dysphoric/Borderline (sərhəd tipli) tipinə uyğun hallar, xüsusilə işsizlik, maddi sıxıntı, erkən nikah və uşaqlıq travmaları ilə bağlı kişilərdə daha çox müşahidə olunur.

➢ Generally Violent/Antisocial (hərtərəfli zorakı və antisosial tip) tip isə daha çox kriminal keçmişi olan, küçə zorakılığına meyilli və ailədaxili zorakılığı açıq şəkildə tətbiq edən kişilərdə müşahidə olunur.

Bununla belə, qeyd edilən uyğunluqların elmi şəkildə təsdiqi üçün Azərbaycanda genişmiqyaslı empirik tədqiqatlar aparılmayıb. Mövcud müşahidələr sosial işçilərin, hüquq-mühafizə orqanlarının və psixoloqların praktiki təcrübəsinə əsaslanır.

**Duluth modeli,** 1981–1984-cü illərdə ABŞ-ın Minnesota ştatının Duluth şəhərində fəaliyyət göstərən "Məişət zorakılığına qarşı müdaxilə layihəsi" (DAIP) çərçivəsində hazırlanıb. Bu layihə hüquq-mühafizə, məhkəmə, sosial xidmət və qadın sığınacaqları arasında koordinasiyalı cavab mexanizmini qurmaq məqsədi daşıyırdı[71].

Modelin əsasını Güc və Nəzarət Dairəsi adlanan vizual diaqram təşkil edir. Bu diaqram zorakılıq törədənlərin davranış strategiyalarını sistemləşdirir və məişət zorakılığını izah edən gender əsaslı yanaşma

---

[71] Pence, E., & Paymar, M. (1993). *Education groups for men who batter: The Duluth model*. Springer Publishing Company.

üzərində qurulub. Əsas yaradıcıları:

- Ellen Pence -sosioloq, DAIP təsisçisi, qadın hüquq müdafiəçisi.
- Michael Paymar -məhkəmə məsləhətçisi, zorakılıq törədənlər üçün reabilitasiya proqramlarının müəllifi.

İlk illərdə Duluth modeli yalnız hüquq-mühafizə və məhkəmə sisteminə təlimat kimi nəzərdə tutulmuşdu, lakin sonradan sosial iş, psixologiya və təhsil sahələrində də tətbiq olundu.

**Güc və nəzarət dairəsinin strukturu**

Dairə 8 əsas davranış strategiyasını əhatə edir və zorakılığın yalnız fiziki olmadığını, emosional, sosial və iqtisadi nəzarət formalarını da izah edir:

1. İntimidasiya (Intimidation) -qorxutma, hədə, gözlədilməyən aqressiv hərəkətlər.
2. Emosional zorakılıq (Emotional abuse) -alçaltma, təhqir, psixoloji təzyiq.
3. Təcrid (Isolation) -qurbanı ailə, dostlar və ictimai dəstəkdən ayırmaq.
4. Maliyyə idarəetməsi (Economic abuse) -maliyyə mənbələrinə çıxışı məhdudlaşdırmaq.
5. Uşaqların alət kimi istifadəsi (Using children) -uşaqları təzyiq vasitəsinə çevirmək.
6. Kişilik imtiyazının istifadəsi (Male privilege) -patriarxal üstünlüyü zorakılığa haqq qazandırmaq üçün istifadə etmək.
7. Qeyri-ciddi yanaşma / inkar (Minimizing, denying, blaming) -zorakılığı kiçiltmək, inkar etmək, günahı qurbana yükləmək.
8. Məcburetmə və təhdidlər (Coercion and threats) -fiziki və ya sosial təhdidlərlə itaəti təmin etmək.

**Tətbiq yolları**

Duluth modeli əsasən üç istiqamətdə tətbiq olunur:

**Hüquqi və institusional səviyyə**

✓ Koordinasiyalı icma cavabı-polis, prokurorluq, məhkəmə və sosial xidmətlərin məlumat və fəaliyyət mübadiləsi.

✓ Zorakılıq hallarının hüquqi təqibi zamanı müdafiə qərarının icrası və təkrar zorakılığın qarşısının alınması.

**Zorakılıq törədənlər üçün davranış dəyişmə proqramları**

- Batterer Intervention Programs ( Zorakılıq törədənlər üçün müdaxilə proqramları)nda -adətən 24–26 həftəlik qrup terapiyası tətbiq edilir. Məqsəd: zorakılığın səbəblərini anlamaq, güc və nəzarət davranışlarını dəyişmək.

**Maarifləndirmə və təhsil**

• Qadın sığınacaqları, məktəblər və ictimai mərkəzlərdə gender əsaslı zorakılıq barədə təlimlər həyata keçirilir. Təhsil materialları: plakatlar, təlim modulları, film və simulyasiyaları təşkil edir. Ümumiyyətlə bu tip problemləri izah etmək üçün simulyativ təlimlər daha effektiv nəticə verir. Lakin bu təlimlər ixtisaslaşmış və sahə üzrə çalışan qurum və mütəxəssislərin iştirakı ilə effektiv təsirə malik oluar.

**Modelin təsir və nəticələri**

**Müsbət tərəfləri**

• Gender əsaslı zorakılıq anlayışını formalaşdırıb -zorakılığın yalnız “ailədaxili münaqişə” kimi deyil, sistemli güc və nəzarət strategiyası kimi qəbul olunmasına səbəb olub.

• İnstitusional əməkdaşlığı gücləndirib -hüquq-mühafizə, sosial xidmət və psixoloji yardım arasında koordinasiya yaradıb.

• Qanunvericilik islahatlarına təsir edib -ABŞ və bir çox ölkədə məişət zorakılığına qarşı qanunların sərtləşdirilməsinə töhfə verib.

**Tənqidlər və məhdudiyyətlər**

• Bəzi tədqiqatçılar modelin bütün zorakılıq hallarını patriarxal sistemlə izah etməsini və fərdi psixoloji faktorları az nəzərə almasını tənqid edirlər[72] .

• Effektivlik araşdırmaları qarışıq nəticələr göstərib -bəzi meta-analizlər modelin təkrar zorakılığın qarşısını qismən aldığını, bəziləri isə təsirin zəif olduğunu bildirir [73].

• Mədəni adaptasiya olmadan tətbiq edildikdə nəticələr azalır -fərqli sosial-mədəni mühitlərdə gender rollarının fərqli olması nəzərə alınmalıdır.

**Azərbaycanda tətbiq imkanları**

• Azərbaycanda güc və nəzarət dairəsi konsepsiyası geniş istifadə olunmur, lakin məişət zorakılığına qarşı milli strategiya və sosial iş təlim modullarında bəzi elementləri tətbiq edilə bilər.

• Mədəni adaptasiya vacibdir: gender rolları, ailə strukturu və sosial norma fərqləri nəzərə alınmalıdır.

• Yerli BIP (zorakılıq törədənlər üçün müdaxilə proqramları) üçün Duluth modeli Holtzworth-Munroe tipologiyası ilə birləşdirilərək daha

---

[72] Dutton, D. G., & Corvo, K. (2006). Transforming a flawed policy: A call to revive psychology and science in domestic violence research and practice. *Aggression and Violent Behavior*, 11(5), 457–483.

[73] Babcock, J. C., Green, C. E., & Robie, C. (2004). Does batterers’ treatment work? *Clinical Psychology Review*, 23(8), 1023–1053.

effektiv tətbiq oluna bilər.

**Walker-ın "Zorakılığın dövrü" nəzəriyyəsi**

1979-cu ildə Walker özünün *"Zorakılığa məruz qalan qadın"* adlı kitabında məişət zorakılığı qurbanlarının davranış və emosional reaksiyalarını izah edən Zorakılığın Dövrü Nəzəriyyəsini təqdim etdi[74]. Lenore E. Walker -Amerika psixoloqu, feminist tədqiqatçı, qadın psixologiyası və məişət zorakılığı üzrə ixtisaslaşmış mütəxəssisdir.

Walker 400-dən çox məişət zorakılığına məruz qalmış qadınla dərin müsahibələr apararaq zorakılığın zamanla necə təkrarlanmasını müşahidə edib. Əsas məqsədi:

- Məişət zorakılığının təsadüfi deyil, təkrarlanan və müəyyən mərhələlərdən ibarət olduğunu göstərmək.
- Qurbanların zorakı münasibəti niyə tərk etmədiklərini psixoloji mexanizmlərlə izah etmək olub.

**Nəzəriyyənin strukturu -Zorakılıq dövrünün mərhələləri**

Walker zorakılıq münasibətlərinin tipik olaraq üç mərhələdən ibarət olduğunu müəyyənləşdirdi:

Gərginliyin artması mərhələsi (Tension-Building Stage)

- Kiçik mübahisələr, sözlü aqressiya, emosional gərginlik artmağa başlayır.
- Qurban təxribatdan qaçmaq üçün daha çox itaətkar davranır.
- Qorxu və narahatlıq səviyyəsi yüksəlir.

Zorakılıq epizodu (Acute Battering Incident)

- Fiziki, cinsi və ya ağır emosional zorakılıq baş verir.
- Qurbanın təhlükəsizlik riski yüksəkdir.
- Zorakılıq qəfil və intensiv ola bilər.

Bal ayı mərhələsi (Honeymoon Stage)

- Zorakı tərəfdaş üzr istəyir, bağışlanma diləyir, hədiyyələr verir.
- Münasibətdə müvəqqəti harmoniya yaranır.
- Qurban gələcəkdə zorakılığın təkrarlanmayacağına inanmağa başlayır.

Bu dövr təkrarlandıqca balayı mərhələsi qısalır, zorakılıq isə daha tez-tez və daha şiddətli baş verir [75].

---

[74] Walker, L. E. (1979). *The Battered Woman*. New York: Harper and Row.
[75] Walker, L. E. (1984). *The Battered Woman Syndrome*. Springer Publishing Company.

**Tətbiq yolları**

**Psixoloqların və sosial işdə tətbiqi**

- **Travma əsaslı müdaxilə**: Zorakılıq dövrünün mərhələlərini tanımaq, qurbanın emosional vəziyyətini proqnozlaşdırmaq.
- **Təhlükəsizlik planı hazırlamaq**: Zorakılıq epizodları zamanı qaçış strategiyalarını planlaşdırmaq.

**Hüquq-mühafizə orqanlarında tətbiqi**

- Təkrar zorakılıq riskini proqnozlaşdırmaq üçün istifadə olunur.
- Məhkəmələrdə qurbanın zorakı münasibətdən niyə dərhal ayrılmamasını izah etmək üçün ekspert rəyi kimi təqdim edilir.

**Maarifləndirmə və təhsil**

- Məişət zorakılığı üzrə ictimai kampaniyalarda zorakılığın təkrarlanan təbiətini izah etmək üçün vizual material kimi istifadə edilir.

**Nəzəriyyənin təsirləri**

**Müsbət təsirlər**

- Walker məişət zorakılığının sistemli və proqnozlaşdırıla bilən xarakterini elmi şəkildə göstərib.
- Qurbanın davranışını "zəiflik" kimi deyil, travmaya adaptasiya kimi izah etməyə kömək edib.
- "Qadın sindromu" (*Battered Woman Syndrome*) anlayışına əsas verib, bu da bəzi ölkələrdə müdafiə strategiyası kimi məhkəmə proseslərində istifadə olunur.

**Tənqidlər**

- Dövrü modelin bütün zorakılıq münasibətlərinə tətbiq oluna bilməməsi -bəzi münasibətlərdə mərhələlər fərqli ola bilər[76].
- Model əsasən heteroseksual münasibətlərdə qadın qurban -kişi zorakı üzərində qurulub; digər münasibət formaları az araşdırılıb.
- Mədəni fərqliliklər nəzərə alınmadıqda izah gücü zəifləyir.

**Azərbaycanda tətbiq perspektivi**

- Model sosial iş, psixologiya və hüquqi müdafiə sahələrində qurbanla işləyən mütəxəssislər üçün risk qiymətləndirmə aləti kimi tətbiq edilə bilər.
- Təhlükəsizlik planlarının hazırlanmasında, xüsusilə qadın sığınacaqlarında, zorakılıq dövrünün mərhələləri əsasında erkən xəbərdarlıq sistemləri qurula bilər.
- Mədəni uyğunlaşdırma zamanı ailə şərəfi, sosial təzyiq, maddi

[76] Dutton, D. G. (1994). *Patriarchy and wife assault: The ecological fallacy*. Violence and Victims, 9(2), 125–140.

asılılıq kimi yerli amillər modelə inteqrasiya edilməlidir.

**Sosial-öyrənmə və travma yönümlü yanaşmalar**

Banduranın "Bobo kuklası" eksperimentləri: uşaq və böyüklərdə observasion öyrənmə (nüumunə götürmə, təlqin) mexanizmlərini göstərdi. Observasion öyrənmə (ing. *observational learning*) -insanın və ya heyvanın başqasının davranışına baxaraq və onu müşahidə edərək yeni davranış formalarını öyrənməsidir. Bu öyrənmə prosesində şəxs birbaşa təcrübə keçirmir, yəni həmin davranışı özü sınamadan, başqalarının davranışını model götürməklə mənimsəyir.

Bu anlayışın elmi əsaslarını Albert Bandura (1961–1977) inkişaf etdirib və sosial-öyrənmə nəzəriyyəsinin əsas komponentlərindən biri kimi təqdim edib. 1977 -Banduranın *"Sosial öyrənmə nəzəriyyəsi"* davranışın formalaşmasında model götürmə, mükafat–cəmiyyət reaksiyası və gözləntilərin rolunu sistemləşdirildi. 1986-cı ildə öz-özünü tənzimləmə, öz-səmərəlilik (self-efficacy) kimi idrak mexanizmləri nəzriyyəyə əlavə olundu[77].

**Zorakılıq/məişət zorakılığı sahəsində əsas ideya**

- Zorakılıq öyrənilmiş bir davranışdır: ailədə[78], icmada və mediada zorakı modellər müşahidə edilir, mükafatlandırıcı nəticələr (hakimiyyət hissi, istədiyinə nail olma) və ya cəzalandırılmayan nəticələr bu davranışı möhkəmləndirir.
- İnkişaf dövründə ( uşaqlıq dövrü) zorakılığın şahidi olmaq və/və ya uşağa qarşı zorakılığa məruz qalmaq, sonradan partnyora qarşı zorakılığın riskini artırır (nəsillərarası ötürülmə hipotezi[79]).

**Tətbiq yolları**

- CBT-əsaslı müdaxilələr (Batterer Intervention Programs -BIP[80]): qəzəblə idarə, impuls nəzarəti, empatiya, kommunikasiya və problemin həlli bacarıqları; yenidən qurma (zorakılığı normallaşdıran inanc və məntiqi səhvləri hədəfləyir).
- Valideynlik və münasibət bacarıqları proqramları: ailə içi modelləşdirməni dəyişmək, pozitiv intizam, qarşılıqlı hörməti

---

[77] Bandura, A. (1986). *Social Foundations of Thought and Action: A Social Cognitive Theory*. Prentice-Hall.

[78] Mihalic, S. W., & Elliott, D. (1997). A social learning theory model of marital violence. *Journal of Family Violence*, 12(1), 21–47

[79] Ehrensaft, M. K., et al. (2003). Intergenerational transmission of partner violence. *Journal of Consulting and Clinical Psychology*, 71(4), 741–753.

[80] Smedslund, G., et al. (2011). Cognitive behavioural therapy for men who physically abuse their female partner. *Cochrane Database Syst Rev*, CD006048.

formalaşdırır.

• İcma səviyyəsi: şahid müdaxiləsi təlimləri, gender normlarının transformasiyası, məktəb-əsaslı zorakılığın qarşısının alınması proqramları effektiv nəticələnir.

• Probasiya/məhkəmə inteqrasiyası: məcburi iştiraklı qrup müdaxilələri, risk–ehtiyac–cavablılıq (RNR) çərçivəsi ilə uyğunlaşdırma müsbət dəyişiklik yaradır.

**Təsirlər (sübut bazası -qısa yekun)**

• BIP/CBT proqramlarının təkrar zorakılığın azalmasına təsiri ümumən kiçikdən orta səviyyəyə qədər dəyişir; meta-analizlər qarışıq nəticələr göstərir (bəzən statistik, lakin praktik olaraq kiçik effektlər).

• Effektlik proqram keyfiyyəti, risk səviyyəsinə uyğun hədəfləmə, alkoqol/sui-istifadə halalrı və monitorinqdən ciddi asılıdır.

**Travma-yönümlü yanaşma**

PTSD-nin DSM-III-də tanınması: zorakılıq və sui-istismarın psixoloji nəticələrinin klinik çərçivəsi 1980-ci ildə formalaşdı. Judith Herman, "Travma və reabilitasiya" əsərində -xroniki interpersonal travmanın (o cümlədən məişət zorakılığı) mərhələli sağalma modelini 1992 ci ildə tətbiq etdi. 1990–2000-ci illərdə Travma-fokuslu psixoterapiyalar, Koqnitiv bərpa terapiyası"(CPT), "Uzadılmış ekspozisiya terapiyası"(PE), EMDR, STAIR, DBT komponentlərinin tətbiqi başladı. 2001–2014-cü illərdə isə, xidmət sistemləri miqyasında "Travma məlumatlı yanaşma" (TIC)[81]: siyasət, protokol və təşkilati mədəniyyətdə travma həssaslığı prinsipləri[82] tətbiqə həyata keçirildi.

**Əsas prinsiplər (TIC -xidmət sistemi)**

• Təhlükəsizlik, etibarlılıq və şəffaflıq, seçim və muxtariyyət, ko-yaradıcılıq/əməkdaşlıq, gücləndirmə, mədəni/ gender/ dil həssaslığı.

• Məqsəd: "nə üçün belə davranır?" sualını "ona nə baş verib?" sualı ilə əvəzləmək; yenidən travmatizasiya riskini minimuma endirmək.

**Travma-fokuslu kliniki tətbiqlər (qurbanla fərdi iş)**

• CPT[83] travma narrativinin yenidən işlənməsi, günahkarlıq/utanc inanclarının modifikasiyası.

---

[81] Harris, M., & Fallot, R. D. (2001). Using trauma theory to design service systems. *New Directions for Mental Health Services*, 89, 1–103.

[82] SAMHSA. (2014). *Concept of Trauma and Guidance for a Trauma-Informed Approach*.

[83] Resick, P. A., & Schnicke, M. K. (1992). Cognitive processing therapy. *Journal of Consulting and Clinical Psychology*, 60(5), 748–756.

• PE[84]: təhlükəsiz şəraitdə travma xatirələrinin sistemli yerdəyişməsi, yaxud vitrinə çıxarılması.

• EMDR : ikitərəfli stimullaşma ilə emosinal idarəetmənin sürətləndirilməsi[85].

• STAIR[86]: emosional tənzimləmə + münasibət bacarıqları → travma narrativi.

• "Təhlükəsizlik axtarışı"[87]: PTSD + maddə istifadə pozuntusu komorbidliyində (hər hansı xəstəlik və ya pozuntunun başqa bir xəstəliklə yanaşı mövcud olması halını ifadə edir.) təhlükəsizlik fokuslu, strukturlaşdırılmış proqram.

• "Sığınacaq modeli" [88]: uşaq/yeniyetmə və böyüklər üçün təşkilat-səviyyəli travma-həssas sistem dizaynı.

**Təsirlər (sübut bazası -qısa yekun)**

• CPT və PE üçün çoxsaylı RKT və meta-analizlər PTSD və depressiya simptomlarında böyük ölçülü azalma göstərir.

• EMDR və STAIR üzrə sistematik icmallar orta-böyük effektlər bildirir, xüsusilə interpersonal travma kontekstində.

• "Təhlükəsizlik axtarışı' modeli" çərçivəsində funksionallaşma və simptom yükünü əhəmiyyətli azaldır.

• TIC (sistem səviyyəsi) personalın yanmasını azaldır, xidmətə çıxışı və məmnunluğu artır; klinik nəticələr proses göstəriciləri ilə paralel yaxşılaşır.

**Müqayisəli baxış (qısa cədvəl)**

| **Ölçü** | **Sosial-öyrənmə** | **Travma-yönümlü** |
|---|---|---|
| Nəzəri fokus | Davranış öyrənilir (model, mükafat, norma) | Davranış travmaya adaptasiyadır (təhlükəsizlik, dissosiasiya, iperoyanıqlıq) |
| Hədəf | Zorakını və konteksti dəyişmək: inanc və bacarıqlar | Qurbanın (və bəzən zorakının) travma simptomlarını azaltmaq; sistemin travma-həssaslaşması |
| Alətlər | CBT, bacarıq təlimi, valideynlik, bystander | CPT, PE, EMDR, STAIR, Seeking Safety; TIC prinsipləri |

---

84 Foa, E. B., et al. (1999). A comparison of exposure-based treatments for PTSD. *Journal of Consulting and Clinical Psychology*, 67(2), 194–200.

85 Shapiro, F. (1989). Eye movement desensitization. *Journal of Behavior Therapy and Experimental Psychiatry*, 20(3), 211–217.

86 Cloitre, M., et al. (2010). STAIR for PTSD related to childhood abuse. *Journal of Consulting and Clinical Psychology*, 78(3), 305–316.

87 Hien, D. A., et al. (2009). Seeking Safety RCT. *Journal of Consulting and Clinical Psychology*, 77(2), 354–366

88 Bloom, S. L., & Farragher, B. (2011). *Destroying Sanctuary*. Oxford University Press.

| | | |
|---|---|---|
| | təlimləri | |
| Sübut bazası | BIP-lərdə kiçik–orta təsir; icma və məktəb proqramları ilə güclənir | PTSD/komorbidlikdə orta–böyük təsir; sistem səviyyəsində məmnunluq və giriş artımı |
| Məhdudiyyət | Effektlər çox vaxt kiçik; uyğun hədəfləmə və keyfiyyət həssasdır | Resurs tələbkarlığı; mədəni adaptasiya və personal təlimi şərtdir |

**Azərbaycan konteksti üçün praktiki qeydlər**

Hibrid model: Zorakı şəxslər üçün CBT/Sosial-öyrənmə komponentləri + qurbanlar üçün travma-fokuslu psixoterapiyalar; sığınacaq və dövlət xidmətlərində TIC prinsipləri (təhlükəsizlik, məxfilik, seçim) uyğundur

Risk və skrininq: erkən aşkarlama üçün ACE, PTSD skrininqi (məs., PCL-5), depressiya/anksiyete alətləri; hüquqi hissədə təhlükə qiymətləndirilməsi (məs., Danger Assessment) tətbiqi mümkündür.

Mədəni uyğunlaşdırma: ailə/ictimai təzyiq, iqtisadi asılılıq, erkən nikah və miqrasiya kimi yerli risk amilləri protokollara daxil edilməlidir.

**İnteqrativ modellər-(müxtəlif nəzəriyyə, yanaşma, metod və ya sistemlərin vahid, əlaqəli bir çərçivədə birləşdirilməsi deməkdir.)**

• Psixologiyada və sosial işdə ilk "inteqrativ" yanaşmalar psixoterapiya məktəblərinin (psixoanalitik, davranış, humanist) birləşdirilməsi ilə 1960–1970-ci illərdə ortaya çıxdı[89]. Məqsəd: hər bir nəzəriyyənin güclü tərəflərini bir araya gətirib daha effektiv müdaxilə yaratmaq idi.

• Kliniki psixologiyada "eklektik" yanaşmadan fərqli olaraq "strukturlaşdırılmış inteqrativlik" konsepti 1980–1990-cı illərdə formalaşdı[90].

• Sosial iş və zorakılıqla mübarizə sahəsində inteqrativ modellər hüquq, psixologiya, tibb, sosial müdafiə və təhsili birləşdirən çərçivələrə 2000-ci illərdə çevrildi.

**Multidisiplinar çərçivə yanaşmaları**

• Səhiyyədə və ictimai sağlamlıqda (xəstəxana komandaları) "multidisiplinar" iş formaları 1940–1950-ci illərdə inkişaf etməyə başladı.

• Uşaq müdafiəsi, ailə zorakılığı və insan alveri sahələrində multidisiplinar komandalar (polislər, həkimlər, sosial işçilər, psixoloqlar,

---

[89] İnteqrativ (ing. *integrative*) -müxtəlif nəzəriyyə, yanaşma, metod və ya sistemlərin vahid, əlaqəli bir çərçivədə birləşdirilməsi deməkdir.

[90] Stricker, G., & Gold, J. R. (1996). *Comprehensive Handbook of Psychotherapy Integration*. Springer.

hüquqşünaslar) 1970–1980-ci illərdə fəaliyyət göstərməyə başladı[91] .

- Avropa Şurası, BMT və WHO kimi qurumların tövsiyələri ilə gender əsaslı zorakılıq, məişət zorakılığı və insan alveri üzrə multi-disiplinar cavab mexanizmləri standart hal 2000-ci illərdə yarandı[92].

**Əsas anlayışlar**

**İnteqrativ model**

- Tərifi: Müxtəlif nəzəriyyə, metod və praktiki yanaşmaların sistemli şəkildə birləşdirilməsi ilə formalaşan müdaxilə çərçivəsi.
- Məqsəd: Tək bir nəzəri yanaşma ilə məhdudlaşmadan, mürəkkəb sosial və psixoloji problemlərə çoxölçülü cavab vermək.
- Nümunə: Duluth modeli[93] + Holtzworth-Munroe tipologiyası + travma-yönümlü müdaxilə[94] + sosial-öyrənmə nəzəriyyəsi.

**Qurumlararası çərçivə**

- Tərifi: Müxtəlif peşə sahələrinin (məsələn, hüquq-mühafizə, səhiyyə, psixologiya, sosial iş, təhsil) əməkdaşlıqla işlədiyi struktur.
- Məqsəd: Qurban və ya icma ilə işdə bütün ehtiyacların koordinasiyalı şəkildə qarşılanması.
- Nümunə: Məişət zorakılığı qurbanı ilə işləyən komanda: polis + prokuror + psixoloq + sosial işçi + tibbi personal + QHT nümayəndəsi.

**Tətbiq yolları**

**Sosial iş və zorakılıqla mübarizə sahəsində**

Koordinasiyalı cavab mexanizmləri-hüquq, səhiyyə, sosial müdafiə, QHT-lərin koordinasiyasının birgə fəaliyyətini nəzərdə tutur. Risk qiymətləndirmə və yönləndirmə protokolları -hər peşə sahəsinin öz roluna uyğun standart prosedurlar hazırlanır. Birgə təlimlər və simulyasiyalar - polis, psixoloq, həkim və sosial işçilərin birgə təlim keçərərək real keyslər üzərində tətbiqi yollarında boşluqları aşkarlayır.

**Psixoloji və kliniki tətbiq**

İnteqrativ psixoterapiya -qurbanın vəziyyətinə uyğun olaraq CBT, EMDR, motivasiyalı müsahibə və travma-fokuslu metodların kombinasiyasından ibarətdir. Zorakı şəxslərlə müdaxilə -sosial-öyrənmə yanaşması + bilişsel yenidən qurma + empatiya təlimi + impuls nəzarəti texnikaları tətbiqi həyata keçirilir.

---

[91] Mitchell, J. (1983). Multidisciplinary teams in child protection. *Child Welfare*, 62(1), 5–18.

[92] Council of Europe. (2011). *Convention on preventing and combating violence against women and domestic violence (Istanbul Convention)*.

[93] Pence, E., & Paymar, M. (1993). *Education Groups for Men Who Batter: The Duluth Model*. Springer.

[94] Herman, J. (1992). *Trauma and Recovery*. Basic Books.

**İctimai siyasətdə**

Qurumlararası əməkdaşlıq -dövlət qurumları ilə QHT-lərin hüquqi və sosial proqramlarda birgə çalışması nəticəsində, qanunvericilik adaptasiyası -multidisiplinar tövsiyələr əsasında yeni qanun və qaydalar hazırlanır

**Müsbət təsirlər**

- Kompleks problemlərin daha effektiv həlli: Yalnız psixoloji və ya yalnız hüquqi yanaşma deyil, bütün sahələrin güclü tərəflərinin birləşdirilməsi ilə nəticələnir.
- Qurban mərkəzli yanaşma: Fərdin bütün ehtiyaclarının eyni anda qarşılanması (təhlükəsizlik, hüquqi müdafiə, tibbi yardım, psixoloji dəstək) həyata keçirilir.
- Təkrar travmanın azalması: Qurbanın hər dəfə eyni hekayəni təkrar danışmaq məcburiyyətinin qarşısı alınır.
- Resurs səmərəliliyi: Təkrarlanan xidmətlərin qarşısı alınır, resurslar daha məqsədyönlü istifadə olunur.

**Çətinliklər**

- Koordinasiya problemləri: Fərqli qurumlar arasında məlumat mübadiləsi və məsuliyyət bölgüsündə uyğunsuzluqlar bəzən effektivliyi azaldır
- Peşə mədəniyyəti fərqləri: Hüquq, tibb və sosial iş sektorlarının yanaşma fərqləri özünü göstərir.
- Məlumat məxfiliyi və etik məsələlər: Xüsusilə zorakılıq və travma hallarında məlumat paylaşımında hüquqi məhdudiyyətlər işi əngəlləyir.

**Azərbaycan kontekstində tətbiq**

- Mövcud baza: “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanun, Milli Fəaliyyət Planları.
- Potensial inkişaf: İnteqrativ model kimi Duluth + travma-yönümlü + sosial-öyrənmə yanaşmasının BIP və qurban dəstəyi sisteminə daxil edilməsi.
- Multidisiplinar mexanizm: Polis + DİN İctimai Təhlükəsizlik Baş İdarəsi + Səhiyyə Nazirliyi + QHT + Sığınacaqlar + Prokurorluq + Təhsil Nazirliyi əməkdaşlıq protokolları əsasında daha effektiv işləməlidir.

## YEKUN

Zorakılığın qarşısının alınması və qurbanların müdafiəsi sahəsində effektiv strategiya formalaşdırmaq üçün yalnız bir nəzəriyyəyə əsaslanmaq kifayət deyil. Fəsildə təhlil olunan Holtzworth-Munroe & Stuart tipologiyası, Duluth modeli -Güc və Nəzarət Dairəsi, Walker-ın

“Zorakılığın dövrü” nəzəriyyəsi, Sosial-öyrənmə və travma-yönümlü yanaşmalar, eləcə də inteqrativ və multidisiplinar çərçivə birlikdə zorakılığın həm fərdi, həm də struktur səviyyədə dərin anlaşılmasına, eləcə də institusional cavabların optimallaşdırılmasına xidmət edir.

Holtzworth-Munroe & Stuart tipologiyası zorakı şəxsləri yalnız ailədaxili zorakılıq, ümumilikdə zorakı/antisosial və emosional qeyri-sabit tiplərə ayırır. Azərbaycan reallığında:

• Yalnız ailədaxili zorakı tip ən geniş yayılmış formadır. Qonşular, qohumlar və icma adətən müdaxilə etmir və zorakılıq ailə “sirri” kimi qalır.

• Emosional qeyri-sabit tip tez-tez işsizlik, maddi sıxıntı, erkən nikah, alkoqolizm və uşaqlıq travmaları ilə əlaqəlidir.

• Ümumilikdə zorakı/antisosial tip daha çox kriminal keçmişi olan və zorakılığı həm ailədə, həm də ictimai mühitdə davam etdirən şəxslərdə rast gəlinir.

Bu təsnifat yerli hüquq-mühafizə orqanlarının risk dərəcəsinə görə yönləndirmə qərarlarını dəqiqləşdirmək və reabilitasiya proqramlarını fərdiləşdirmək üçün faydalıdır.

Duluth modeli zorakılığın əsas səbəbini patriarxal güc balanssızlığı və kişi imtiyazının normallaşması ilə izah edir. Azərbaycanda:

• Təcrid və iqtisadi nəzarət qadınların çoxu üçün ən dominant zorakılıq formalarındandır. Əmək bazarına çıxışın məhdudluğu iqtisadi asılılığı artırır.

• Kişilik imtiyazı dərin mədəni kodlarda möhkəmlənib -“ailə başçısının sözü qanundur” yanaşması zorakılığa bəraət qazandırır.

• Koordinasiyalı icma cavabı (CCR) prinsipləri yerli səviyyədə tətbiq olunsa da, hüquqi və sosial xidmətlər arasında koordinasiya hələ də zəifdir.

Bu modelin hüquqi müdafiə, sosial reabilitasiya və ictimai maarifləndirmə komponentləri Azərbaycanda gender əsaslı zorakılıq strategiyalarına uyğunlaşdırıla bilər.

Walkerın gərginlik -zorakılıq -“balayı” dövrü izahı Azərbaycanda xüsusilə:

• İctimai qınaq və ailə təzyiqi səbəbindən qurbanların münasibəti tərk etməməsinə izah gətirir.

• “Bal ayı” mərhələsində zorakı tərəfdaşın üzrxahlığı və ailə böyüklərinin “barışdırıcı” rolu zorakılığın təkrarlanma riskini artırır.

• Təhlükəsizlik planlarının hazırlanması, sığınacaq yönləndirmələri və hüquqi müdafiə mexanizmləri bu dövrün mərhələlərinə uyğun-

laşdırıldıqda, qurbanın müdafiə səviyyəsi yüksəlir.

Sosial-öyrənmə nəzəriyyəsi zorakılığın müşahidə, model götürmə və mükafat–cəza sistemi ilə öyrənildiyini göstərir. Azərbaycanda:

- Uşaqların zorakılığa şahid olması, gələcəkdə zorakı və ya qurban rolunu mənimsəmələrini asanlaşdırır.
- Kütləvi informasiya vasitələrində və sosial mediada zorakı kişi obrazlarının romantikləşdirilməsi zorakılıq davranışlarını normallaşdırır.

Travma-yönümlü yanaşma isə qurbanların sağalması üçün təhlükəsizlik, etibar, seçim azadlığı və mədəni həssaslıq prinsiplərinin vacibliyini vurğulayır. Bu, sığınacaqlarda və psixoloji xidmətlərdə yenidən travmatizasiyanın qarşısını alır.

İnteqrativ model, bütün bu nəzəri çərçivələri birləşdirərək zorakılıqla mübarizədə daha güclü nəticələr verir. Azərbaycan üçün:

- Multidisiplinar komanda (polis, prokuror, psixoloq, sosial işçi, həkim, QHT) arasında operativ məlumat mübadiləsi üçün vahid protokollar hazırlanmalıdır.
- Rol bölgüsü və yönləndirmə xəritələri qurbanın təkrar müraciətlərini və bürokratik gecikmələri azaldar.
- İnteqrativ yanaşma hüquqi müdafiəni, psixoloji dəstəyi, sosial reinteqrasiyanı və iqtisadi gücləndirməni eyni vaxtda təmin edə bilər.

Bu beş yanaşma birlikdə zorakılığın qarşısının alınması və qurbanların müdafiəsi sahəsində kompleks, çoxölçülü və elmi əsaslı bir çərçivə yaradır:

- Holtzworth-Munroe və Stuart tipologiyası -zorakının fərdi profilinin müəyyənləşdirilməsinə.
- Duluth modeli -zorakılığın struktur səbəblərinin və nəzarət mexanizmlərinin ifşasına.
- Walker nəzəriyyəsi -zorakılığın dövri təbiətinin anlaşılmasına.
- Sosial-öyrənmə və travma-yönümlü yanaşmalar -davranışın formalaşma və dəyişmə mexanizmlərinə.
- İnteqrativ və multidisiplinar çərçivə -nəzəri və praktik elementlərin birləşdirilərək institusional əməkdaşlıq mühitinin formalşamasına təsir göstərir.

Nəticə etibarilə, zorakılıqla mübarizə sahəsində effektiv strategiya yalnız bir nəzəriyyə və ya metoddan deyil, bu yanaşmaların inteqrativ şəkildə tətbiqindən doğur. Azərbaycan reallığında bu modelin mədəni adaptasiyası və hüquqi çərçivəyə inteqrasiyası, həm qurbanların müdafiəsi, həm də zorakı şəxslərin davranış dəyişikliyi istiqamətində mühüm əhəmiyyət kəsb edir.

Zorakılıq anlayışının qlobal elmi çərçivəsi ilə Azərbaycan reallığının təhlili göstərir ki, effektiv mübarizə üçün qanunvericilik, mədəniyyət, sosial strukturlar və psixoloji yanaşmalar bir-birindən ayrılmaz şəkildə işlənməlidir. Zorakı kişi anlayışının yalnız fərdi problem kimi deyil, həm də sosial-mədəni konstruksiya kimi öyrənilməsi, mövcud elmi boşluqların aradan qaldırılması üçün lokal, mədəniyyətə həssas və empirik əsaslı tədqiqatların aparılması vacibdir.

Belə bir yanaşma həm qurbanların müdafiəsini gücləndirəcək, həm də zorakılığın nəsillərarası ötürülməsi riskini azaldaraq, uzunmüddətli sosial dəyişikliklər üçün baza yaradacaq.

Zorakılığın beynəlxalq nəzəri çərçivələrdə təhlili göstərir ki, bu fenomen təsadüfi akt yox, dərin struktur kodlara malikdir. Sosial öyrənmə nəzəriyyəsi zorakılığı öyrənilmiş davranış kimi izah edir; Walkerin "zorakılıq dövrü" zorakılığın davamlı və dövri xarakterini açır, Starkın "məcburedici nəzarət" konsepsiyası (2007) zorakılığı güc və idarəetmə aləti kimi təsvir edir. Bu nəzəri yanaşmalar bizə göstərir ki, zorakılığın kökləri yalnız fərdi emosiyalarda deyil, həm də sosial, mədəni və psixoloji kodlarda gizlidir.

Azərbaycan reallığındakı müşahidələr isə bu beynəlxalq modelləri tamamlayır. Yerli tədqiqatlar göstərir ki, patriarxal dəyərlər, gender stereotipləri və hüquqi boşluqlar zorakılığı "normallaşdıran" mühüm mexanizmlərdir. Beləliklə, beynəlxalq nəzəriyyələrin işıqlandırdığı mexanizmlər ölkəmizin sosial reallığında konkret davranış nümunələri və gündəlik praktikalar vasitəsilə təsdiqlənir.

Bu mərhələdən sonra diqqəti daha spesifik bir məsələyə yönəltmək zəruridir: zorakılıq yalnız sosial strukturların məhsulu deyil, həm də kişilərin fərdi davranış modellərinin təzahürüdür. Başqa sözlə, zorakılığın "kodları" sosial mühitlə yanaşı, fərdi psixoloji mexanizmlərdə, motivlərdə və kişi davranışlarının tipologiyalarında da şifrələnmişdir.

Məhz bu səbəbdən növbəti hissədə, zorakılıq törədən kişi davranışlarının "şifrələrini" təhlil edəcəyik. Bu analiz bizə göstərir ki, kişilərin zorakılıq davranışları müxtəlif psixoloji tipologiyalar (məsələn, impulsiv-aqressiv, nəzarətçi-dominant, sosiopatik-antisosial), motivlər (güc, nəzarət, qorxu, travmatik təcrübə) və dərin psixoloji mexanizmlərlə formalaşır.

Beləliklə, I hissədə nəzəri və struktur səviyyədə müəyyənləşdirilən "zorakılığın kodları" II hissədə daha konkret, fərdi davranış modellərinin şifrələri səviyyəsində açılacaq. Bu keçid bizə zorakılığın həm sosial köklərini, həm də psixoloji mexanizmlərini dərk etməyə imkan verəcək.

# II HİSSƏ

## KİŞİ DAVRANIŞ MODELLƏRİNİN "ŞİFRƏLƏRİ": TİPOLOGİYALAR, MOTİVLƏR, PSİXOLOJİ MEXANİZMLƏR

Zorakılıq və aqressiv davranışların izahı yalnız sosial-mədəni faktorlarla məhdudlaşmır, eyni zamanda fərdi psixoloji xüsusiyyətlərin və şəxsiyyət tipologiyalarının analizi ilə sıx bağlıdır. Psixoloji tiplər zorakı davranış göstərən şəxslərin xüsusi psixi strukturlarını, motivasiya mexanizmlərini və davranış modellərini müəyyənləşdirməyə imkan verir[95]. Bu yanaşma, zorakılığın təsadüfi epizodlar deyil, davamlı və təkrarlanan davranış nümunələri əsasında formalaşdığını göstərir.

Davranış analizi mövcdu tiplərin praktikada necə təzahür etdiyini anlamaq üçün mühüm vasitədir. Xüsusilə, impulsiv–aqressiv, nəzarətçi–dominant, sosiopatik–antisosial, passiv–aqressiv və ikili şəxsiyyətli tiplər zorakılıq kontekstində ən çox rast gəlinən nümunələrdir. Hər bir tip özünəməxsus davranış repertuarına, emosional tənzimləmə mexanizmlərinə və qarşı tərəfə təsir üsullarına malikdir. Məsələn, impulsiv–aqressiv tip ani emosional partlayışlarla seçilirsə, nəzarətçi–dominant tip uzunmüddətli və sistemli nəzarət mexanizmləri ilə fərqlənir[96].

Psixoloji tiplərin təhlili klinik psixologiya, kriminologiya, eləcə də sosial iş sahəsində əhəmiyyətlidir. Bu yanaşma zorakılıq törədən şəxslərin risk dərəcəsini qiymətləndirməyə, reabilitasiya ehtiyaclarını müəyyənləşdirməyə və fərdiləşdirilmiş müdaxilə proqramları hazırlamağa imkan verir[97]. Davranış analizi əsasən qeyd eidlən psixoloji tiplərin real sosial kontekstdə necə işlədiyini, hansı vəziyyətlərdə aktivləşdiyini və qadınların həyatına hansı təsirləri göstərdiyini ortaya çıxarır.

Azərbaycan kontekstində bu məsələ xüsusi aktuallıq kəsb edir. Burada zorakı davranış çox zaman sosial norma kimi qəbul olunur və "ailədaxili məsələ" çərçivəsində gizlədilir. Bu səbəbdən, zorakılıq törədən şəxslərin psixoloji tiplərinin öyrənilməsi yalnız fərdi müalicə və reabilitasiya üçün deyil, həm də qadınların müdafiəsini gücləndirən hüquqi və institusional mexanizmlərin qurulması üçün vacibdir. Psixoloji

[95] Holtzworth-Munroe, A., & Stuart, G. L. (1994). Typologies of male batterers: Three subtypes and the differences among them. *Psychological Bulletin, 116*(3), 476–497.

[96] Stark, E. (2007). *Coercive Control: How Men Entrap Women in Personal Life*. Oxford University Press.

[97] Hare, R. D. (1999). *Without Conscience: The Disturbing World of the Psychopaths Among Us*. Guilford Press.

və davranış yönümlü yanaşma zorakılığın yalnız nəticələrinə deyil, həm də mənbələrinə müdaxilə etməyə imkan yaradır.

**Zorakılıq dövrünün mərhələləri**

Zorakılığın dinamikasında ən çox müzakirə olunan nəzəriyyələrdən biri Walkerın "zorakılıq dövrü nəzəriyyəsi"dir. Bu nəzəriyyəyə görə, zorakılıq xətti şəkildə baş vermir, mərhələlərlə təkrarlanan bir sikl formalaşdırır. Məhz həmin mərhələlərin birincisi gərginliyin yığılması (təzyiq kodu) mərhələsidir. Bu mərhələ həm psixoloji, həm də sosial mühitdə tədricən formalaşan təzyiqin və emosional gərginliyin toplandığı, lakin açıq zorakı partlayışa hələ keçilmədiyi dövrdür.

**Gərginliyin yığılması mərhələsinin əsas xüsusiyyətləri**

Əsəbilik, narahatlıq, kiçik qıcıqların böyük konfliktlərə çevrilməsi, partnyor üzərində nəzarət və ittihamların artması psixoloji gərginlikdən doğan haldır. Adərtən gərginliyin idarə edilməsi üçün müəyyən adımların atılması mümükn olsa da şəxs vəziyytəi idatə etməyə çəhd göstərmir. Bəzi hallarda, əsəbilik, narahatlıq, kiçik qıcıqlar sanki idarə etmə, hakimiyyəti daha ügclü etmək üçün alət kimi də istifadə edilir. Araşdırmalara görə, bu dövrdə zorakılıq törədən tərəf daha çox "mikro-aqressiyalar"dan istifadə edir[98].

İntim partnyorun davranışları daim təftiş edilir, gündəlik məişət məsələləri (məsələn, yemək, ev işləri, ünsiyyət tərzi) mübahisə səbəbinə çevrilir. Cüzi bir hal, qarşı tərəfin davranışını təftiş etmək, ona əsabləşmək üçün motivə çevrilməsindən sui istifadə edilir. 2024 cü ildə mətbuatın monitorinqi zamanı, müəyyən edilmişdi ki, həyat yoldaşına çayı gec veridyinə görə, ər onu ölümcül döymüşdü. Bu, təzyiqin yığıldığının xarici göstəricisidir.

Azərbaycan reallığında da, qorxu, özünü ittiham, "münaqişədən qaçma" cəhdləri və əksər hallarda qurbanlarda təslim davranışını möhkəmləndirir. Araşdırmalar göstərir ki, qadınlar bu mərhələdə "təhlükəni azaltmaq üçün adaptiv strategiyalar" (sakit durmaq, itaət göstərmək və ya təxirəsalma) tətbiq edirlər[99]. Bu davranış, əksər ailələrdə müşahidə edilir, çünki ənənvi olaraq, "Yaxşı at özünə qamçı vurdurmaz" misalı, qurbanaların bu səbəbdən münaiqşədən qaçmasını, baş verənlərdən günahın onda olmasını əsaslandırlmasında ehtiyatlanır.

---

98 Dutton, D. G., & Golant, S. (1995). *The Batterer: A Psychological Profile*. Basic Books.

99 Kelly, L. (2003). Disabusing the definition of domestic violence: Debates and developments. *International Journal of Criminology*.

**Təzyiq kodu və “mikro-nəzarət”**

Gərginliyin yığılması mərhələsi Starkın coercive control (koersiv nəzarət) nəzəriyyəsi ilə sıx bağlıdır. Zorakılıq törədən tərəf bu mərhələdə, kiçik, amma davamlı nəzarət alətlərindən istifadə edir (məsələn, telefonun yoxlanması, kimlə danışıldığının sorğulanması). Əksər vaxt bu tanışlıq və ya nişanlı olma münasibətlərindən başlaya bilir. Doğrudur həmin ərəfədə əsəbilik və ya gərginlik hiss edilməsə də nazərət mexanimzi “işə salınır”. Təhlükəsiz görünən bu nəzaərt mexanizmi yüngül emosional təzyiqlə başlanan proses evlilikdən sonra partnyoru tədricən “təslim” vəziyyətinə gətirir. Qeyd edilən nəzarət mexanizmi zamanı fiziki zorakılıq hələlik tam gücü ilə üzə çıxmasa da, psixoloji atmosfer artıq basqı ilə doludur.

Qeyd edilən amilləri əsas gətirərək bəzi tədqiqatçılar bu dövrü “təzyiq kodu” adlandırır: yəni zorakılıq aktının qaçılmazlığına işarə edən kodlaşdırılmış davranışların ardıcıllığı kimi qiymətləndirirlər.

Azərbaycan cəmiyyətində də ailədaxili münasibətlərdə “kiçik əsəbiliklərin normal sayılması” tendensiyası bəzən hətta ənənəvilik qsimində qəbul olunur. Bu isə gərginliyin yığılması mərhələsini gözə görünməz edir. Misal üçün, toplumun “kişi əsəbiləşə bilər, normaldır” yanaşması, qadının “sakit dayanmaqla ailəni qorumaq” öhdəliyinə inandıramqla qadının zorakılığı qəbul etməsini legitmişlədirir. Valideyn və cəmiyyətin “ərlə aravadın davası yaz yağışı kimidir, başlayan kimi də kəsir” kimi misalları bu qabildəndir. Bu kodlaşdırılmış yanaşmalar zorakılıq dövrünü qırmaq əvəzinə, onun təkrarlanmasını möhkəmləndirir.

Gərginliyin yığılması mərhələsi zorakılıq dinamikasının ən kritik və müdaxilə üçün ən əlverişli nöqtəsidir. Əgər sosial işçilər, psixoloqlar və hüquq-mühafizə orqanları bu mərhələni vaxtında tanıyıb müdaxilə edə bilsələr, zorakılıq aktı baş vermədən qarşısı alınar, qurbanın travma dərinliyi azaldılar, uzunmüddətli reabilitasiya xərcləri və riskləri azalır.

**Zorakılıq partlayışı (aqressiya kodu)**

Zorakılıq dövrü nəzəriyyəsində “gərginliyin yığılması”ndan sonra baş verən kəskin epizod -fiziki, cinsi, psixoloji və ya iqtisadi zorakılığın açıq və yüksək intensivlikli təzahürü “zorakılıq partlayışı”dır. Bu mərhələ həm koersiv nəzarət rejiminin kulminasiyası, həm də təkrarlanan zorakılıq riski baxımından ən görünən hissəsidir. Ailədaxili zorakılıq mərhələsində gərginliyin yığılmasından sonra baş verən “zorakılıq partlayışı” (akut zorakılıq mərhələsi) fiziki, cinsi, psixoloji zorakılığın açıq şəkildə təzahür etdiyi, zədələr və yüksək letallıq risklərinin artdığı kritik dövrdür. Bu mərhələ Walkerin “zorakılıq dövrü” modelində “akut döyülmə” fazası kimi təsvir olunur; müasir tədqiqatlar onu çox vaxt koersiv nəzarət

dinamikasının (zorakı nəzarət, təcrid, qorxutma) kulminasiyası kimi izah edir.

**Risk qiymətləndirməsi və letallıq göstəriciləri**

**Yüksək risk siqnalları.**

Boğma epizodu (≈7 qat femisid riski artımı), silahala hədə, ölümlə təhdid, ayrılıq dövrü, məcburi cinsi əlaqə, hamiləlikdə zorakılıq, artan təqib[100] yüksək risk siqnallarıdır. Maddə istifadəsi= alkoqol, psixostimulyator istifadə edən şəxslərdə partlayışın tezliyi və şiddət daha yüksək risk siqanlalrında xəbər verir, lakin əslində əsas səbəb bu deyil, əsas motiv mövcud hakimiyyət dinamikasını gücləndirməkdir[101].

**Davranış göstəriciləri**

Təqdim edilən mərhələdə tipik davranışlar- təhqir və hədələrin kəskinləşməsi, boğma (strangulasiya), yumruq–təpik, itələmə–divara sıxma, boğazı sıxma, ölümələ hədələmə, zorla cinsi əlaqə, bəzi hallarda silah nümayişi, əmlaka ziyan vurma halları qeydə alınır. Strangulasiya (boğmaq- nəfəs yollarının, qan dövranının və ya hər ikisinin boyun nahiyəsindən xarici təzyiq nəticəsində qismən və ya tam bloklanmasıdır) xüsusi siqnaldır, xilas olmuş qadınlarda sonrakı femisid riskini kəskin artırır. Qeyd edilən davranışılar sərgiləyən şəxs, əksər zorkılıq tətbiq etdiyi şəxsdə zorakılığın əlamətləri və izinin qalmaması üçün öz tədbirini görür, bu da baş vermiş zorakılığın diaqnozu çətinləşdirir. Bəzən isə qadınlar vaxtında müraciət etməməklə, zorakılığın izini itirir, bu da diqanozu çətinləşdirir. Digər bir vacib məqəm istə, zorakılığın izlərinin yüngül olması, cinayət təqibi üçün əsası yaratmadığından qadınlar partnyorları tərəfidən tətbiq edilən bu davranışla bağlı müraciət etmirlər. Tibbi məlumatlarda isə qeyd edilir ki, boğma əlamətləri bəzən dərhal deyil, bir neçə gündən sonra özünü biruzə verə bilir.

**“Qırmızı zonada” nə edilir?**

Müdaxilənin ilkin prinsipi, təhlükəsizliyin təminatı, sübutun toplanması, psixososial dəstəyin göstərilməsidir. Təhlükəsizlik planıın (real-time) hazırlanması, etibarlı yer olan sığıncaqla təmin etməkdir. Sığınacaq dedikdə, “kod söz”, çıxış marşrutu, sənəd və pul dəstəyi, telefonun “sürətli zəng” siyahısının hazırlanmasıdır Strangulyasiya əlamətləri varsa, təcili tibbi baxışın keçirilməsidir.

Mühafizə qərarları, 102 çağırışı, hadisə protokolu, sübutun

---

[100] Glass, N. et al. (2008). Non-fatal strangulation is an important risk factor for homicide. *Journal of Emergency Medicine*, 35(3), 329–335.

[101] Leonard, K. E., & Quigley, B. (2017). Drinking and IPV. *Addiction*, 112(12), 2110–2119.

toplanamsı alətləridir. ayrılıq və ya təhükə dövründə polis müşayiətinin təmin edilməsi hüquqi mexanizmlər çərçivəsində həyata keçirilir.

Qısa psixoedukasiya, somatik sabitləşdirmə, dissosiasiya idarəsi, sonrakı mərhələdə KDT-əsaslı müdaxilələrdə (CPT, PE) zamanı travma-əsaslı yanaşmanın vacibliyini diqqətə alır.

Yüksək letallıq riski və antisosial tipologiyada standart "BIP" proqramları az effektlidir, çoxtərəfli nəzarət və hüquqi cavabdehlik bu mərhələdə olduqca mühümdür[102].

"Zorakılıq partlayışı" mərhələsi ölümcül riskin yüksək hədd zamanıdır. Sahə mütəxəssisləri üçün ən effektiv yanaşma: yüksək risk siqnallarını (boğma, silah, ayrılıq, ölüm təhdidi) sistemli soruşmaq, LAP/DA kimi alətlərlə yerində qiymətləndirmək, ÜST-ə uyğun travma-mərkəzli klinik protokolları tərtib etmək, dərhal təhlükəsizlik planı və sığınacağa yönləndirməkdir. Bu addımlar femisidlərin qarşısını almaqda sübut əsaslı olmaqla faydalıdır.

**"Bal Ayı" mərhələsi (Manipulyasiya kodu)**

"Bal ayı mərhələsi" (*honeymoon phase*) məişət zorakılığı, ailədaxili münasibətlər və travma psixologiyasında zülmkar davranışın ardıcıllıq modelinin bir hissəsi kimi təsvir olunur. Bu model ilk dəfə Lenore Walker tərəfindən təqdim edilmiş "Zorakılıq dövrü nəzəriyyəsi" çərçivəsində işlənib. Nəzəriyyəyə görə zorakılıq münasibətləri üç əsas mərhələdən ibarətdir:

1. Gərginliyin artması (*tension building*),
2. Zorakılıq partlayışı (*acute battering incident*),
3. Bal ayı mərhələsi (*honeymoon/reconciliation phase*).

Üçüncü mərhələ zorakılıqdan sonra zorakılıq törədən tərəfin üzrxahlıq, hədiyyə, sevgi nümayişləri və s. vasitəsilə münasibətləri yenidən "sakitləşdirmə" və qurbanı münasibətdə saxlama prosesini ifadə edir.

**Psixoloji mahiyyət**

"Bal ayı mərhələsi" manipulyasiya kodu kimi işləyir. Yəni zorakılıq törədən tərəf, sevgi, diqqət və qayğı nümayiş etdirərək qurbanı emosional olaraq "yenidən özünə bağlayır", onda münasibətlərin bərpasına ümid oyadır, zorakılığın təkrarlanmayacağına, münasibətin dəyişəcəyinə dair yalan vədlər verir. "Mən əsəbiləşmişdim, sən məni daha da qıcıqlandırdın" kimi bəhanələrlə günahı qurbana yükləyir və məsuliyyətiöz üzərində atır. Qurban zorakılıqla sevginin eyni münasibətdə təkrar olunması

[102] Gondolf, E. (2002). *Batterer Intervention Systems*. Sage.

nəticəsində "travmatik bağlılıq" (*trauma bond*) yaşayır[103]. Bu mərhələ, qurbanın emosional asılılığını dərinləşdirən və zorakılıq dövrünün təkrarlanmasına zəmin hazırlayan əsas mexanizmdir.

**Sosial-psixoloji nəticələr**

Zorakılığı törədənin sevgi jestləri, qurbanın reallığı dərk etməsinin zəiflədir, zorakılığı inkar etməyə və ya minimallaşdırmasına səbəb olur. Azərbaycan reallığında "ailə dağılmasın", "uşaqlar atasız qalmasın" kimi ictimai təzyiqlər, mədəni kodlarla gücləndirərək, bal ayı mərhələsini daha da təsirli edir. Araşdırmalara görə, zorakılıq münasibətlərində bu mərhələ, zorakılığın davamlılığını təmin edir. Tədqiqatçıların fikrinə görə 7 dəfə təkrarlandıqdan sonra qadın ayrılmağa cəhd edir[104].

"Bal ayı mərhələsi" zorakılıq dövründə ən təhlükəli manipulyasiya kodudur, çünki zorakılıqla sevgi arasındakı təzadlı emosiyalar, qurbanın psixikasını qarışdırır, travmatik bağ yaradır və münasibətin davamlılığını təmin edir. Bu mərhələnin tanıdılması sosial işçilər, psixoloqlar və hüquq-mühafizə orqanları üçün qurbanın müdafiəsində mühüm elmi-praktik əhəmiyyət kəsb edir.

**Təkrar dövr (Davamlılıq kodu)**

Təkrar dövr (cycle of repetition) -zorakılıq münasibətlərində zorakılığın fasilələrlə, lakin mütəmadi olaraq təkrarlanması prosesini izah edən nəzəri çərçivədir. Bu dövrün əsas mahiyyəti ondan ibarətdir ki, zorakılıq birdəfəlik hadisə deyil, müəyyən kodlaşdırılmış mərhələlərin təkrar olunması ilə xarakterizə olunan davamlı davranış nümunəsidir.

Bu anlayış Walkerın "Zorakılıq dövrü nəzəriyyəsi" modelində əsaslanır. Model göstərir ki, zorakılıq münasibətləri təkrar olunan üçlü mərhələ üzərində qurulur:

1. Gərginliyin yığılması (*tension building*)
2. Zorakılıq partlayışı (*acute battering incident*)
3. "Bal ayı" mərhələsi (*honeymoon/reconciliation*) Bu mərhələlər bir-birini izləyərək təkrar dövr yaradır.

**Psixoloji mahiyyət**

"Təkrar dövr" qurban və zorakılıq törədən arasında patoloji münasibət mexanizmi formalaşdırır.

---

[103] Dutton, D. G., & Painter, S. (1993). *Emotional attachments in abusive relationships: A test of traumatic bonding theory.* Violence and Victims, 8(2), 105–120. -Travmatik bağlılıq nəzəriyyəsini açıqlayır.

[104] Gondolf, E. W. (2002). *Batterer Intervention Systems: Issues, Outcomes, and Recommendations.* -Zorakılıqdan sonra təkrarlanan manipulyasiya mərhələlərinin sosial təsirlərini araşdırır.

Zorakılıqla ümidin (bal ayı mərhələsində verilən vədlər) qarışması nəticəsində qurbanda travmatik bağlılıq (*trauma bonding*) yaranır. Bu, qurbanın münasibətdən ayrılmasını çətinləşdirir. Təkrar dövr zorakılıq törədən üçün, güc və nəzarəti qoruma vasitəsinə çevrilir. Zorakılığı "normallaşdırır" və qurbanı emosional olaraq idarə etmək üçün istifadə olunur. Mədəniyyət və ənənələr (məsələn, "ailəni qorumaq" təzyiqi) dövrün davamlılığını sosial müstəvidə gücləndirir.

Davamlılıq kodu olaraq "təkrar dövr". "Təkrar dövr" davamlılıq kodu kimi, zorakılığın qarşısının alınmasını çətinləşdirən struktur olduğunu izah edir. Burada "kod" ifadəsi zorakılığın proqnozlaşdırılan və təkrarolunan xarakterini göstərir:

Belə ki, zorakılıq "proqramlaşdırılmış" qismdə təkrarlanır. Qurbanın davranışı təkrarlama dövrünün davamlılığına xidmət edir (məsələn, gərginlik zamanı susmaq və ya zorakılıqdan sonra bağışlamaq). Zorakılıq tördən, bu dövrün mexanizmini manipulyasiya aləti kimi istifadə edir.

"Təkrar dövr" (davamlılıq kodu) məişət zorakılığının ən kritik mexanizmlərindən biridir. O, zorakılığı təkrarlanan, mərhələli və davamlı bir davranış nümunəsi kimi göstərir. Bu dövrün başa düşülməsi, psixoloqlar tərəfindən travma yönümlü terapiya planı qurmaqda, sosial işçilər tərəfindən qurbanların müdafiə və gücləndirilməsində, hüquq-mühafizə orqanları tərəfindən isə zorakılıq riskini proqnozlaşdırmaqda vacibdir.

Məişət zorakılığı fenomeni sadəcə bir dəfəlik aqressiya aktı deyil, təkrarolunan və kodlaşdırılmış dövr əsasında fəaliyyət göstərən sosial-psixoloji mexanizmdir. Lenore Walker-in (1979) təqdim etdiyi "Zorakılıq dövrü nəzəriyyəsi" bu mexanizmin ən tanınmış izahıdır. Dövrün dörd mərhələsi (gərginliyin yığılması, zorakılıq partlayışı, "bal ayı" manipulyasiyası və təkrar dövr) zorakılığın dinamik strukturunu aydınlaşdırır.

Dinamika və kodlaşdırmanın təhlili göstərir ki, təzyiq kodu (gərginliyin yığılması) -zorakılıq törədənin aqressiyasını legitimləşdirən fondur. Aqressiya kodu (zorakılıq partlayışı) -güc və nəzarətin açıq tətbiqini izah edir, manipulyasiya kodu ("bal ayı" mərhələsi) -zorakılığın davamlılığını təmin edən emosional bağlılığı gücləndirir. Davamlılıq kodu (təkrar dövr) -zorakılığın sistemli xarakterini möhkəmləndirən struktura çevirir. Bu ardıcıllıq qurbanın "travmatik bağlılıq" içində zorakı münasibətdə qalmasını təmin edir.

Zorakılıq dövrünün mexanizmi yalnız davranışların ardıcıllığını göstərir, lakin zorakılıq törədənlərin fərqli psixoloji motivlərini və şəxsiyyət tiplərini izah etmir. Məsələn: bəzi zorakılıq törədənlər impulsiv

davranaraq aqressiya kodunu daha qısa intervallarla təkrarlayırlar. Bəziləri isə nəzarətçi-dominant yanaşma ilə "bal ayı" mərhələsini daha uzun saxlayaraq qurbanı asılı vəziyyətdə tuturlar. Digərlərində isə sosiopatik və ya narsisistik xüsusiyyətlər ön planda olur və manipulyasiya kodu daha incə psixoloji oyunlarla müşahidə edilir.

Beləliklə, dövr modeli dinamikanı izah edir, tipologiya isə subyekti. Yəni dövr bizə "zorakılıq necə baş verir?", tipologiya isə "zorakılıq törədən kimdir və niyə belə davranır?" sualına cavab verir.

Zorakılıq dövrü zorakılığın dinamik strukturunu anlamaq üçün nəzəri əsasdır, lakin dövrün necə yaşandığı, hansı mərhələnin dominant olduğu və zorakılıq mərhələsinin nə qədər uzun davam etdiyi çox vaxt zorakılıq törədən şəxsin psixoloji tipindən asılıdır. Buna görə də, növbəti mərhələdə zorakılıq törədənlərin tipologiyalarını öyrənmək zəruridir. Çünki yalnız dinamikanı deyil, həm də subyektin psixoloji portretini bilmək müdaxilə proqramları və reabilitasiya alətləri üçün əsas şərtdir.

## Zorakılıq törədən kişi tipləri

### İmpulsiv–aqressiv tip

İmpulsiv–aqressiv tip, emosional tənzimləmədə çatışmazlıq, aşağı impuls nəzarəti və yüksək emosional reaktivlik ilə xarakterizə olunan davranış modelidir. Bu tip şəxslər aqressiv reaksiyaları planlaşdırmadan, qəfil emosional partlayışlarla göstərir. Aqressiya çox vaxt situasiyaya həddən artıq reaksiya vermək və özünü nəzarətdə saxlaya bilməmək nəticəsində ortaya çıxır. Əsas xüsusiyyətləri

- Qəzəb və aqressiv reaksiya ortaya çıxmazdan əvvəl düşünmə və nəticələri dəyərləndirmə mərhələsinin çox zəif olması ilə bağlıdır. Belə şəxslər aşağı impuls nəzarəti olan şəxslərdir.
- Kiçik qıcıqlandırıcılara qarşı güclü emosional cavablar verilməsi yüksək emosional reaktivlikdən xəbər verir.
- Aqressiv davranış öncədən məqsədli şəkildə planlaşdırılmadığından bu, planlaşdırılmamış zorakılıq kimi qeydə alınır.
- Hadisədən sonra, zorakılıq törədən şəxs qısamüddətli peşmançılıq hiss yaşaya bilir, lakin bu, növbəti impulsiv davranışın qarşısını tam almır. Əksinə hər zorakılıq aktından sonra peşmaçılıq hissi hər dəfə təkrarlansa da, zorakılığın tezliyi də artmağa başlayır.

**Neyropsixoloji və bioloji mexanizmlər. Araşdırmalar göstərir ki, impulsiv–aqressiv tip** şəxslərdə:

Prefrontal korteksdə (alın payı) aktivliyin azalması[105], serotonin səviyyəsinin (5-HT) aşağı olması -aqressiv davranışla əlaqələndirilir[106]. Amigdala (amigdala beynin limbik sistemində, hər iki yarımkürədə yerləşən badam formalı sinir quruluşudur. Emosiyaların (xüsusilə qorxu və qəzəb) işlənməsi, təhlükənin sürətli tanınması və emosional xatirələrin formalaşmasında əsas rola malikdir.) hiperaktivliyi -təhlükə və qəzəb reaksiyalarının həddindən artıq yaranmasına səbəb olur.

Sosial–psixoloji faktorlar:

Fiziki və emosional zorakılıq, valideyn nəzarətinin zəifliyi nəticəsində uşaqlıq travmaları yaranır. Aqressiv valideyn və ya icma nümunələrindən (sosial-öyrənmə mexanizmi) nümnə götürməsi bu travmanı dərinləşdirir. Yuxarı yaşlarda maddi sıxıntılar, işsizlik, sosial təzyiqin davamlılığı sterss  vəziyyəti yaradır, nəticədə impulsiv reaksiyalar güclənir.

Aqressiya tipləri ilə müqayisə

İmpulsiv–aqressiv tip çox vaxt reaktiv aqressiya ilə üst-üstə düşür.

- İmpulsiv/reaktiv aqressiya: Qəzəb, qıcıq, qorxu kimi emosional reaksiya ilə yaranır; səbəb çox vaxt təxribat və ya təhlükə hissidir.
- Instrumental/proaktiv aqressiya: Planlaşdırılmış, məqsədli və fayda yönümlü (məsələn, cinayət məqsədi ilə zorakılıq).

Risk və sosial nəticələr

Müdaxilə proqramı olmadan aqressiv davranışların yüksək təkrarlanma təkrarlanma risk ehtimalı böyükdür. Qanun pozuntusu, məişət zorakılığı, ictimai asayişin pozulması halları hüquqi problemlərin tezliyini artırır. Ailə və iş münasibətlərində davamlı gərginlik  onun ailə və sosial münasibətlərinə ciddi zərbə vurur

Müdaxilə və müalicə

- Bilişsel–davranış terapiyası (CBT): Qəzəbin idarə edilməsi, impuls nəzarəti texnikaları.
- Dialektik–davranış terapiyası (DBT): Emosional tənzimləmə bacarıqlarını inkişaf etdirmək.
- Farmakoterapiya: SSRI tipli antidepressantlar və bəzi hallarda

[105] Raine, A. (2002). Annotation: The role of prefrontal deficits, low autonomic arousal, and early health factors in the development of antisocial and aggressive behavior. *Journal of Child Psychology and Psychiatry*, 43(4), 417–434.

[106] Coccaro, E. F., Sripada, C. S., Yanowitch, R. N., & Phan, K. L. (2011). Corticolimbic function in impulsive aggressive behavior. *Biological Psychiatry*, 69(12), 1153–1159.

impulsivliyi azaldan dərmanlar[107].

- Sosial bacarıq təlimi: Əlverişli ünsiyyət və problem həll strategiyalarını öyrətmək.

**Davranış nümunəsi -Azərbaycan reallığında impulsiv–aqressiv tip**

Profil: 35 yaşlı kişi, ailəlidir, iki uşağı var. Şəhər kənarında yaşayır, mövsümi işlə məşğuldur. Uşaqlıqda atasından tez-tez fiziki cəza görüb, ailədə emosional dəstək az olub. Qəzəbini idarə etmə bacarığı zəifdir.

Hadisə ssenarisi: Axşam evə gəldikdə həyat yoldaşının qonşu ilə söhbət etdiyini görür. Hər hansı bir real təhlükə və ya xəyanət sübutu yoxdur, lakin ani qısqanclıq hissi və "hörmətsizlik" təəssüratı onu dərhal emosional partlayışa gətirir. Səsi qaldırır, təhqir edir, fiziki zorakılığa əl atır. Hadisədən sonra sakitləşir, üzr istəyir, "əsəbləşdim, nə etdiyimi bilmədim" deyir. Bir neçə həftə sonra oxşar hal təkrar baş verir.

**Davranış xüsusiyyətləri:**

Şəxs, situasiyanı təhlil etmədən ani emosional reaksiya ilə hərəkət edir, heç bir planlaşması yoxdur, zorakılıq anlıq hisslərə əsaslanır. Adətən,"əsəblərim dözmədi, amma mənim yerimdə hər kişi belə edərdi" kimi peşmanlıq və özünü haqlı göstərmə bəraətləri, yəqin ki, çxolarına tanışdır.

**Psixoloji iş nümunəsi**

Məqsəd: Emosional tənzimləmə və impuls nəzarət bacarıqlarının inkişafı.

Metodlar:

1. Bilişsel–davranış terapiyası (CBT) -Zorakılığa səbəb olan avtomatik düşüncələri müəyyənləşdirmək və dəyişmək (məsələn, "qadın ərinin icazəsi olmadan kiminləsə danışmamalıdır" düşüncəsi).
2. Qəzəbin idarəetmə təlimi -Fizioloji siqnalları (ürək döyüntüsünün artması, əzələlərin gərilməsi) tanımaq və həmin anda dayandırıcı texnikaları tətbiq etmək (nəfəs məşqləri, yer dəyişdirmə, sayma metodu).
3. Empatiya bacarıqları -Qurbanın hisslərini başa düşmək üçün rolların dəyişdirilməsi texnikaları.
4. Travma işlənməsi -Uşaqlıqda yaşadığı zorakılıq təcrübələrinin dəyişməsi (lazım gələrsə, EMDR və ya digər travma-fokuslu metodlar).

Sessiya nümunəsi:

Terapevt impulsiv reaksiya anını təhlil etdirir ("Hadisə baş

[107] Coccaro, E. F., & Kavoussi, R. J. (1997). Fluoxetine and impulsive aggressive behavior in personality-disordered subjects. *Archives of General Psychiatry*, 54(12), 1081–1088.

vermədən 5 saniyə əvvəl nə hiss etdin?") sualını verir, daha sonra isə, aqressiv partlayışın ardınca yaranan nəticələri subyektiv və obyektiv baxımdan dəyərləndirir. Görüşdən sonra, ev tapşırığı: Təxribat hiss etdikdə dərhal tətbiq ediləcək 3 alternativ reaksiya variantı yazmağı tapşırır

İmpulsiv–aqressiv tipli pasiyentlə psixoloqun işi strukturlaşdırılmış, mərhələli və həm emosional tənzimləməni, həm də davranış dəyişikliyini hədəfləyən şəkildə aparılmalıdır.

**Başlanğıc mərhələsi -Etimad və motivasiya qurmaq**

Məqsəd: Pasiyentin seansa davamlı qatılmasını təmin edəcək motivasiya və etimad yaratmaq.

Motivasiyalı müsahibə aparmaqla zorakılıq və impulsiv davranışın nəticələrini pasiyentin özü dəyərləndirməsi[108] reabilitasiya prosesinin başlanması üçün effektiv zəmindir. Əksər vaxt kişilər psixoloqa getməkdən imtina egtdiyini nəzərə alaraq qoruyucu ittifaqın yaradılması nəticəli texnikadır. Psixoloq pasiyentə  görüşd onun "ittiham edilməsi, yaxud cəzalanması yox" dəyişim olduğunu bildirir.

Dəyişiklik müqaviləsi  texnikası, prosesin gedişatına dair qaydaları yazılı şəkildə  şəxslə razılaşdırılmasdır,  təqdim ediləntexnima şəxsin üzərinə  görünməyən öhdəliklər qoyur (məsələn, seanslara vaxtında gəlmək, ev tapşırıqlarını yerinə yetirmək), o cümlədən özünün könüllü iştirakını təmin edir.

Azərbaycan reallığında: kişi pasiyentlər terapiyaya "məcbur" gəldiyi üçün psixoloq ilk seanslarda qınayıcı dildən uzaq durmalı, "kişilik ləyaqətini alçaltmayan" ifadələrlə dəyişimin üstünlüklərini vurğulamalıdır.

**İkinci mərhələ -Davranışın və hadisələrin analizi**

Məqsəd: Aqressiv reaksiyaların hansı vəziyyətlərdə və necə başladığını anlamaq.

Görüş zamanı son zorakılıq epizodunun əvvəlində, ortasında və sonunda nə baş verdiyini  gadisə zənciri texnikası analizini birgə təhlil etmək. Həftə ərzində qəzəb hissi yaradan halları yazmaqla şiddətini 0–10 şkalasında qiymətləndirməklə aqressiya günlüyü texnikasını tətbiq etmək effektivdir. Ürək döyüntüsü, nəfəs ritmi, əzələ gərginliyi kimi fizioloji əlamətləri müzakirə etməklə bədən siqnallarının tanınması texnikası ilə fərqləndirmək.

Qeyd: Araşdırmalar göstərir ki, impulsiv-aqressiv şəxslərin çoxu öz

---

[108] Miller, W. R., & Rollnick, S. (2013). *Motivational Interviewing: Helping People Change*. Guilford Press.

emosional yüksəlişlərini tanımaqda çətinlik çəkir[109].

**Üçüncü mərhələ -Koqnetiv yenidən qurma**

Məqsəd: Zorakılığa səbəb olan yanlış inancları və avtomatik düşüncələri dəyişmək.

Misallar:

- Avtomatik fikir: "Əgər həyat yoldaşım sözümə qarşı çıxırsa, deməк hörmətsizlik edir."
- Yenidən qurulmuş fikir: "Mübahisə hər zaman hörmətsizlik deyil, fərqli fikir ola bilər."

Metod: Sokratik suallar, məntiq testləri, alternativ düşüncə yaratmaq.

**Dördüncü mərhələ -Emosional tənzimləmə və impuls nəzarəti[110]**

Texnikalar:

- STOP texnikası: Dayan -nəfəs al -vəziyyəti müşahidə et -davam et.
- Nəfəs məşqləri: 4-7-8 texnikası (4 saniyə nəfəs alma, 7 saniyə saxlama, 8 saniyə buraxma).
- "Təxirə salma" strategiyası: Aqressiv cavabı 20 dəqiqə gecikdirmək.
- Alternativ davranış siyahısı: Məsələn, qəzəb anında otağı tərk etmək, idman hərəkəti etmək, musiqi dinləmək.

**Beşinci mərhələ -Empatiya və perspektiv götürmə bacarığı**

Metodlar:

- Rol dəyişdirmə məşqi -qurbanın yerinə keçərək hadisəni onun baxış bucağından izah etmək.
- Hisslərin xəritəsi -qarşı tərəfin hisslərini adlandırmaq və qiymətləndirmək.

Azərbaycan konteksti: patriarxal mədəniyyət empatiya bacarığının formalaşmasını çətinləşdirə bilər, buna görə də psixoloq real ailə nümunələrindən istifadə etməlidir.

**Altıncı mərhələ -Relapsın qarşısının alınması**

Məqsəd: Davranış dəyişikliyinin uzunmüddətli qorunması.

Addımlar:

---

[109] Stanford, M. S., Houston, R. J., Mathias, C. W., Villemarette-Pittman, N. R., Helfritz, L. E., & Conklin, S. M. (2003). Characterizing aggressive behavior. *Assessment*, 10(2), 183–190.

[110] Barratt, E. S. (1994). Impulsiveness and aggression. In J. Monahan & H. J. Steadman (Eds.), *Violence and Mental Disorder*. University of Chicago Press.

Təkrar zorakılıq riskini artıran halları (stress, spirtli içki, maliyyə çətinliyi) müəyyən etmək. "Fövqəladə vəziyyət planı" -qəzəb yüksələndə tətbiq ediləcək 3 addımımı müəyyənləşdirmək. Ailənin və sosial dəstək şəbəkəsinin ( dostlar, icma) prosesə cəlb olunmasını təmin etmək.

**12 Həftəlik reabilitasiya proqramı (İmpulsiv–aqressiv tip üçün)**

| Həftə | Mövzu | Məqsəd | Metod və alətlər |
|---|---|---|---|
| 1-ci həftə | Tanışlıq və məsuliyyətin qəbul edilməsi | Zorakılıq üçün məsuliyyət daşıdığını qəbul etdirmək | Motivasion müsahibə, fərdi öhdəlik müqaviləsi |
| 2-ci həftə | İmpuls və aqressiya anlayışı | Ani reaksiya ilə zorakılıq arasındakı əlaqəni başa düşmək | Psixoedukasiya, flipchart izah |
| 3-cü həftə | Qəzəb partlayışlarının tanınması | Zorakılığa aparan "tetikleyiciləri" tanımaq | Davranış zənciri təhlili (trigger–reaksiya–nəticə) |
| 4-cü həftə | Emosional tənzimləmə bacarıqları | Qəzəbi idarə etməyi öyrətmək | Relaxasiya, nəfəs texnikası, CBT məşqləri |
| 5-ci həftə | Alternativ davranış formaları | Aqressiv reaksiya əvəzinə dialoqdan istifadə | Rol oyunları, "Stop–Think–Act" modeli |
| 6-cı həftə | Qısqanclıq və emosional qeyri-sabitlik | Qısqanclığın zorakılığa səbəb olduğunu anlama | Case study, qrup müzakirəsi |
| 7-ci həftə | Maddə istifadəsi və aqressiya | Alkoqol/narkotikin zorakılığa təsirini dərk etmək | Psixoedukasiya, asılılıq müalicəsinə yönləndirmə |
| 8-ci həftə | Empatiya və qurbanın baxışı | Qurbanın hisslərini anlamaq | Qurban ifadələri, refleksiya məşqi |
| 9-cu həftə | Ünsiyyət bacarıqları | Mübahisəni zorakılıqsız həll etmə | "Mən-mesajları" texnikası, dialoq məşqləri |
| 10-cu həftə | Ailə və atalıq məsuliyyəti | Zorakılığın uşaqlara təsirini başa düşmək | Video material, uşaqların ifadələri ilə refleksiya |
| 11-ci həftə | Sosial bacarıqlar və stress idarəsi | Stress faktorlarına qarşı impuls nəzarətini gücləndirmək | Stress diaqramı, məşğulluq dəstəyi |
| 12-ci həftə | Yekun sessiya və dəyişmə planı | Fərdi dəyişiklik planı hazırlamaq | Yazılı təhlükəsizlik planı, fərdi öhdəlik, sertifikat |

Əlavə izah

- Sessiya müddəti: 2 saat (həftədə 1 dəfə).
- Format: Qrup (8–12 nəfər) + fərdi konsultasiya.
- Metodologiya: CBT, motivasion müsahibə, empatiya məşqləri, qəzəb idarəetməsi texnikaları.
- Monitorinq: hər 3 həftədən bir risk və davranış testləri.
- Nəticə: impulsiv zorakılığın azalması, emosional tənzimləmə və ünsiyyət bacarıqlarında inkişaf.

**Nəzarətçi-dominant tip:**

Nəzarətçi-dominant tiplər, zorakılıq törədənlər arasında ən sistemli və təhlükəli davranış xüsusiyyəti ilə tanınır. Bu tip şəxslərin əsas məqsədi partnyor üzərində güc və tam nəzarət qurmaqdır. Onların zorakılıq davranışı təsadüfi deyil, məqsədli, planlı və sistemlidir. Nəzarət ehtiyacı-koersiv nəzarətin əsas elementlərindən biridir və Evan Stark tərəfindən məişət zorakılığı kontekstində qurbanın gündəlik həyatını idarə etmə və azadlığını məhdudlaşdırma strategiyası kimi izah edilir[111]. Bu, sadəcə bir neçə qayda qoymaq deyil, qurbanın sosial, şəxsi və emosional fəaliyyətini sistemli şəkildə nəzarət altına almaq deməkdir.

Nəzarət ehtiyacı aşağıdakı psixososial mexanizmlərlə təzahür edir:

1. **Gündəlik davranışa müdaxilə**. Zorakı tərəfdaş qurbanın hansı saatda evdən çıxacağını, kimlə görüşəcəyini, hansı yolla gedəcəyini müəyyənləşdirir. Məsələn, Azərbaycan reallığında bəzi hallarda qadına yalnız yaxın qohumlarının evinə getməyə "icazə" verilir və bu icazə də öncədən təsdiqlənməlidir. Əslində mədəni mühitin normalarına görə, qeyd edilən "icazə" forması ailə üzvlərinin bir birinin nüfuzuna hörmət əlaməti kimi qiymətləndirilir. İcma və cəmiyyət səviyyəsində bu normalar icra edilmədikdə, qadın yalnız ər tərəfdən deyil, icma və cəmiyytə tərəfindən də təzyiqə məruz qala bilir. Əslində tərəflərin bir birini məlumatlandırma ənənəsi, mədəni mühitin normalarının nümayişinin bariz forması olardı. Əgər, məlumatlandırma öz formasını dəyişib "icazə" nəzarət formasına keçirsə, artıq heç bir mədəni münasibətlərin olmadığı göstəricisinə çevrilir[112].

2. **Geyim və xarici görünüşün diktə edilməsi**. Kişi, ər, həyat yoldaşının, portnyorunun geyim seçiminə nəzarət edir, hətta müəyyən rəngləri, formaları və ya makiyajın istifadəsinə qadağa qoyur. "Bunu geyinə bilməzsən", "çox açıq geyinirsən" kimi qadağalarla qadının

---

[111] Stark, E. (2007). *Coercive Control: How Men Entrap Women in Personal Life*. Oxford University Press.

[112] Müəllifdən.

özünüifadəsini məhdudlaşdırır. Bu, qurbanın fərdi identikliyini və özünə inamını zəiflətmək məqsədini daşıyır.

3. **Sosial təcrid**. Qadının dostları, qohumları ilə görüşməsini qadağan etmək, telefon zənglərinə və ya sosial mediaya çıxışını məhdudlaşdırmaqla yanaşı, bəzən görüşlərinə qadağa qoyur. Cəmiyyətlə əlaqələrin zəiflədilməsi qurbanın alternativ dəstək mənbələrini itirməsi ilə nəticələnir.

4. **Hərəkət azadlığının məhdudlaşdırılması**. Evdən nə vaxt çıxacağına, hara gedəcəyinə, kiminlə danışacağına icazə vermək və ya qadağan etmək. Evdən çıxma vaxtı və marşrutlara ciddi şəkildə nəzarət edilir. Bəzən qurbanın mobil telefonu izlənilir, zəng və mesajlar yoxlanılır[113].

5. **Maliyyə nəzarəti:** Pul verməmək, bank kartına girişini bağlamaq, hər xərci sorğu-sual etmək.

6. **Zamanın idarəsi:** Günün planını, iş saatlarını və hətta istirahət vaxtını belə diktə etmək.

Bunların hər biri qadının müstəqil qərarvermə hüququnu əlindən almağa xidmət edir və uzunmüddətli psixoloji asılılıq yaradır[114].

Araşdırmalar göstərir ki, davamlı nəzarətə məruz qalan qadınlarda:

- Özünə güvənin azalması,
- "təhlükəsizlik üçün itaət strategiyaları"nın formalaşması,
- posttravmatik stress pozuntusu (PTSP) və depressiya əlamətləri,
- "təcrid olunmuş mənlik hissi" inkişaf edir[115].

Bu hal qurbanı uzun müddət "görünməz zindanda" saxlayır. Yəni qadın cəmiyyətlə əlaqəsini itirir, hər addımında zorakılıq edən tərəfin reaksiyasını düşünməyə məcbur olur.

Nəzarət ehtiyacı zorakı tərəfdaşın patriarxal güc mövqeyini möhkəmləndirmək və qurbanın özünüidarəetmə qabiliyyətini məhv etmək məqsədi daşıyır. Bu halda zorakılıq yalnız fiziki zərbə deyil, psixoloji məhvetmə prosesi kimi işləyir. Qeyd edilən psixoloji tipin davranışı "koersiv nəzarət" (zorakılıq edən şəxsin qurban üzərində davamlı psixoloji, sosial və iqtisadi təzyiq vasitəsilə görünməz məhdudiyyətlər və

---

[113] Williamson, E. (2010). Living in the world of the domestic violence perpetrator: Negotiating the unreality of coercive control. *Violence Against Women, 16*(12), 1412–1423.

[114] Kelly, J. B., & Johnson, M. P. (2008). Differentiation among types of intimate partner violence: Research update and implications for interventions. *Family Court Review, 46*(3), 476–499.

[115] Herman, J. L. (1992). *Trauma and Recovery*. Basic Books.

idarəçilik sistemi qurmasıdır. Azərbaycan dilində bu anlayış,“məcburedici nəzarət” və ya “zorakı nəzarət” kimi də işlədilə bilər.

**Psixoloji xüsusiyyətlər**

- Nəzarət ehtiyacı -şəxsin həyat yoldaşı və ya portnoyorunun hərəkətlərini, kimlə görüşəcəyini, necə geyinəcəyini, evdən nə vaxt çıxacağını diktə etməsidir.
- Mülkiyyətçilik -qadını müstəqil insan yox, “özünə məxsus əmlak” kimi görməsi.
- Empatiya çatışmazlığı -qurbanın hisslərini anlamaq və qəbul etmək qabiliyyəti zəifdir[116]. Qeyd edilən tiplər ümumiyyətlə qadının nə düşündüyü və ya nə hiss etdiyini özü üçün məqbul saymır.
- Manipulyasiya bacarığı -özünü bəzən qayğıkeş göstərərək, bəzən isə hədə və qorxu ilə davranışlarını tənzimləyərək, qadını gah ümidləndirir, gah da qorxu altında saxlayır. Nəzarətçi tiplər fiziiki zorakılığa əsasən çox az əl atırlar, yalnız “itaətsizlik” zamanı tətbiq edir. Bu tipin amma əsas zorakılıq aləti nəzarətdir.
- İnkar və minimizasiya -“Mən bunu səni qorumaq üçün edirəm”, “bu, əslində zorakılıq deyil” kimi ifadələrin tez tez işlədilməsi müşahidə edilir.

**Sosial və mədəni kontekst**

Patriarxal mədəniyyətlərdə bu tip daha çox yayılmışdır, çünki kişi “ailə başçısı” rolunda qadının davranışlarını tam idarə etmək hüququna sahib olduğunu düşünür[117]. Azərbaycanda da gender stereotipləri (“qadın ərinə itaət etməlidir”, “qadın evdən çölə çıxmamalıdır” fikirləri) bu tip davranışları legitimləşdirir. Nəticədə qadınların çoxu zorakılığı zorakılıq kimi qəbul etmir, çünki nəzarəti “normal ailə qaydası” hesab edir.

**Risk və təhlükə**

Araşdırmalara görə: Bu tip kişilər məişət zorakılığı ilə bağlı ən yüksək femisid riski yaradır[118] (Femisid anlayışı qadınların cinsiyyətlərinə görə öldürülməsini ifadə edir[119]. Bu anlayış 1976-cı ildə Diana E.H. Russell tərəfindən akademik müstəviyə gətirilib) Qadın ayrılmaq istədikdə

---

[116] Dutton, D. G., & Golant, S. K. (1997). *The Batterer: A Psychological Profile.* Basic Books.

[117] Dobash, R. E., & Dobash, R. (2004). *Women's Violence to Men in Intimate Relationships: Working on a Puzzle.* British Journal of Criminology, 44(3), 324–349.

[118] Campbell, J. C. (2003). *Risk Factors for Femicide in Abusive Relationships: Results From a Multisite Case Control Study.* American Journal of Public Health, 93(7), 1089–1097.

[119] Russell, D.E.H., & Radford, J. (1992). *Femicide: The Politics of Woman Killing*. Twayne Publishers.

nəzarətçi-dominant tipin davranışı daha da şiddətlənir, zorakılıq qətllə nəticələnir.

**Nəzarətçi-dominant tip kişilərin reabilitasiyası**

Zorakılıq edən kişilərdə "nəzarət ehtiyacı" onların partnyorun davranışlarını, sosial əlaqələrini və gündəlik seçimlərini məhdudlaşdırmaq istəklərində təzahür edir. Bu, çox vaxt:

Ppatriarxal gender rolları (kişinin hökmran, qadının isə itaətkar olması düşüncəsi),psixoloji qeyri-adekvatlıq (özünə güvənin zəifliyi, qısqanclıq), travmatik uşaqlıq təcrübələri (zorakılıq müşahidəsi, ata hökmranlığı) ilə izah olunur[120]. Bu ehtiyac təkcə ailə içi davranış deyil, həm də sosial güc münasibətlərinin davamı kimi başa düşülür.

Kişilərdə nəzarətçi davranışların dəyişdirilməsi çətin prosesdir, lakin bir sıra psixoloji müdaxilə modelləri effektiv sayılır.

**Koqnitiv-davranış terapiyası (CBT)**

Məqsəd: Zorakılığa səbəb olan yanlış inancları və "kişilik" stereotiplərini dəyişdirmək. Məsələn: "Qadın mənim dediyim kimi davranmalıdır" düşüncəsinin əvəzində bərabərlik və hörmət dəyərləri qurulur. Araşdırmalar göstərir ki, koqnitiv-davranış terapiyası zorakılıq hallarının təkrarlanmasını azaltmaqda effektlidir[121].

**Duluz modeli: güc və nəzarət dairəsi**

Ən geniş istifadə olunan proqramlardan biridir. Proqramın mahiyyətinə görə, zorakılıq "fərdi qəzəb" deyil, güc və nəzarət mədəniyyətinin nəticəsidir. Proqram qrup terapiyası formasında tətbiq olunur və kişilərin zorakı davranışlarını məsuliyyət qəbul etmə və alternativ münasibət formaları öyrənməklə dəyişməsinə yönəlib[122].

**Motivasiyalı müsahibə (Motivational Interviewing)**

Təqdim edilən model, kişilərin dəyişməsinə daxili motivasiyasını artırır. Əksər zorakı kişilər dəyişməyə hazır olmur, bu yanaşma müdafiə reaksiyasını zəiflədir[123].

---

[120] Holtzworth-Munroe, A., & Stuart, G. L. (1994). Typologies of male batterers: Three subtypes and the differences among them. *Psychological Bulletin, 116*(3), 476–497.

[121] Babcock, J. C., Green, C. E., & Robie, C. (2004). Does batterers' treatment work? A meta-analytic review. *Clinical Psychology Review, 23*(8), 1023–1053.

[122] Pence, E., & Paymar, M. (1993). *Education Groups for Men Who Batter: The Duluth Model*. Springer.

[123] Miller, W. R., & Rollnick, S. (2013). *Motivational Interviewing: Helping People Change*. Guilford Press.

**Travma yönümlü terapiya**

Uşaqlıqda zorakılıq görmüş, çox vaxt eyni davranış modelini təkrarlayan kişilər üçün effektivdir. Travma yönümlü terapiya ilə onların emosional tənzimləmə bacarıqları gücləndirilir[124].

**Təhlükəsiz məkan modeli və təhlükəsizliyə doğru yönəlmə yanaşmaları**

Bu yanaşmalar xüsusilə komorbidlik halları (alkoqolizm, narkomaniya, PTSD) olan kişilərin reabilitasiyasında tətbiq olunur. Məqsəd: zorakılığın kökündə dayanan psixoloji qeyri-sabitliyi müalicə etmək. Seeking Safety (təhlükəsizliyə doğru yönəlmə) -1990-cı illərdə Lisa M. Najavits tərəfindən hazırlanmış terapevtik müalicə modelidir. Bu model travma (xüsusilə PTSD) və asılılıq (alkoqol, narkotik və s.) birlikdə müşahidə olunan insanlarla işləmək üçün nəzərdə tutulub. Yuxarıda qeyd edilən modellərlə yanaşı, empatiya təlimləri, qəzəbin idarə edilməsi, gender rollarının sorğulanması və sosial bacarıqların inkişafı da proqramlara daxil edilir.

**Nəzarətçi-dominant tipin davranış nümunəsi- Azərbaycan reallığında.**

Bir qadın məhkəmədə ifadə verərkən bunları dedi: "Ərim mənə deyirdi ki, qapıdan çölə yalnız onunla çıxa bilərəm. Əgər tək çıxırdımsa, bütün qonşulara zəng edib soruşardı. Maaş kartımı əlimdən alıb cib xərci kimi gündə 5 manat verərdi. Bacımla telefonda danışanda belə, qulaq asırdı. Mən yalnız uşaqları məktəbə aparmaq üçün evdən çıxa bilirdim.

**Başlanğıc mərhələsi -münasibətin qurulması**

Xüsusiyyət: Münasibətin ilk dövrlərində kişi özünü qayğıkeş, qoruyucu və "ideal tərəfdaş" kimi göstərir. Qadının emosional güvənini qazanır[125]. Azərbaycan reallığında, bu mərhələdə kişi çox vaxt "məni eşitsən, sənin üçün hər şey edərəm" mesajı verir. Qadın bunu sevgi və diqqət kimi qəbul edir.

**İdarəetmənin başlanması**

Xüsusiyyət: Kiçik "tələblər" irəli sürülür -kimlə danışmaq, necə geyinmək, haraya getmək. Başlanğıcda bu, "qısqanclıq" və ya "qayğı" kimi təqdim olunur[126]. Azərbaycan reallığında, "qadın evdən çox çıxmamalıdır", "ər icazə verməsə, qonaqlığa gedə bilməzsən", " mən səni

---

[124]Cloitre, M., Cohen, L. R., & Koenen, K. C. (2010). *Treating Survivors of Childhood Abuse: Psychotherapy for the Interrupted Life*. Guilford Press.

[125] Dutton, D. G. (1995). *The Domestic Assault of Women: Psychological and Criminal Justice Perspectives.*

[126] Stark, E. (2007). *Coercive Control: How Men Entrap Women in Personal Life.*

qoruyuram" kimi normalar geniş yayılıb.

**Təcrid mərhələsi**

Xüsusiyyət: Qadının sosial əlaqələri kəsilir, dost və qohumlarla görüşməsi məhdudlaşdırılır[127]. Azərbaycan reallığında, qardaş, ata və ya ər tərəfindən qadının üzərində nəzarətin qoyulması "namus" meyarı ilə əsaslandırılır. Qadını "xarici təsirlərdən qorunmaq" adı ilə demək olar ki, evdə təcird saxlanılır. Bu mərhələdə, ata və qardaş, ərin davranışını dəstəkləməsi, kişi tərəfindən davranışına daha yeni elementləri əlavə etməsi ilə nəticələnir.

**İqtisadi nəzarət**

Xüsusiyyət: Qadının maliyyə resurslarına çıxışı məhdudlaşdırılır. İşləməsinə icazə verilmir və ya qazancı ər tərəfindən idarə olunur[128]. Azərbaycan reallığında, "Ər işləyir, qadının işləməsi lazım deyil" düşüncəsi qadının iqtisadi asılılığını artırır( son illər bu normalar qismən dəyişilib, qadınların işləməsinə qadağalar azalıb). Praktikada əksər vaxt, qadına işləməyə icazə verilsə belə, onun qazancının ərin valideynlərinə- qaynana, qaynataya verilməsi qaydaları mövcuddur. Məsələn ər deyə bilər " bizim ailədə evə gələn gəlir böyüklərə verilir, çünki onlar pulu daha düzgün idarə edə bilirlər". Beləliklə, qadının maddi asılılığı zorakılıqdan çıxış yolunu çətinləşdirir.

**Psixoloji təzyiq və intimidasiya**

Xüsusiyyət: Daimi tənqid, alçaltma, qorxutma kimi alətlər, qurbanı "mən dəyərsizəm" hissinə gətirir[129].

Azərbaycan reallığında, kişi qadını "axmaq, bacarıqsız, səni kim alardı ki?" kimi ifadələrlə daim kiçildir( əslində Azərbaycan mədəniyyətində bu davranış, sonradan qazanılmış davranış növü kimi yaranıb). Qadın isə ailənin dağılmaması üçün susur. Əksər vaxt bu ifadələr o qədər təsirli olur ki, qadın özünün həqiqətən olduqca bacarıqsız və gərəksiz olması qənaətinə gəlir.

**Fiziki zorakılıq (idarəetmə aləti kimi)**

Xüsusiyyət: Fiziki zorakılıq mütəmadi yox, amma "idarəetmə mexanizmi" kimi tətbiq olunur. Məqsəd - qadını qorxu içində saxlamaqdır[130]. Azərbaycan reallığında, "əl qaldırmaq" bəzi mühitlərdə kişiliyin "normal" ifadəsi kimi qəbul olunur. Bu isə nəzarətçi-dominant

---

[127] Dobash, R. E., & Dobash, R. P. (2004). *Women's Violence to Men in Intimate Relationships: Working on a Puzzle.*

[128] Walby, S. (2009). *The Cost of Domestic Violence*

[129] Herman, J. (1992). *Trauma and Recovery.*

[130] Campbell, J. C. (2003). *Risk Factors for Femicide in Abusive Relationships*

tipin gücünü möhkəmləndirir. Məsələn, "Təmiz Dünya" Qadınlara Yardım İB nəzdində fəaliyyət göstərən sığınacaqda məskunlaşan qadınlarla aparılan ilkin müsahibədə, " ilk zorakılıq faktı evliliyin hansı günü və ayında baş verdi?" sualına, bəziləri "iki gündən sonra", " bir həftədən sonra", "bir aydan sonra", " bir uşaqdan sonra" kimi cavablar verir.

**Ayrılma mərhələsində şiddətin artması**

Xüsusiyyət: Qadın ayrılmaq, boşanmaq və ya müstəqil qərar vermək istədikdə zorakılıq şiddətlənir·

Azərbaycan reallığında: Femisid halları çox vaxt qadının "ailədən getmək istədiyi" zaman baş verir.

Bu, nəzarətçi-dominant tipin ən təhlükəli davranışıdır[131].

**Ayrıldıqdan sonra şiddətin davam etməsi**

Azərbaycan reallığında, nəzarətçi- dominant tiplər ayrıldıqda sonra da əksər vaxt qadına qarşı zorakılığı müxətəf formada davam etdirir. Məsələn, 17 il ailə həyatından sonra ayırlmağa qərar vemiş qadının 4 uşağı (oğlanlar) ər tərəfindən manipulyasiya edilərək, məhkəmədə atanın yanında qalmaq istədiyini bildirdilər. Qadın erkən nikah qurbanı olduğundan, onun təhsili yox idi. Lakin, buna baxmayaraq qadında fitri istedad var idi və o şeirlər yazırdı. Bəzən iş yerləri tapırdı. Ər dərhal onun iş yerlərinə müxtəlfi mesajlar göndərir, sosial hesabında paylaşımlarının altında " bu fərsizi necə işə götürüblər", "yəqin elə iş yerindəkilər də bu ağıldadır" kimi mesajlar yazır, beləliklə onun işini itirməsi ilə nəticələnirdi. Hətta bir neçə dəfə, qadının alimenti gecikdiriməsini görə, məhkəmə tərəfindən cərimələnməsinə nail oldu. Halbuki qadın, iş yerinin olmaması və gəlirinin az olmasına baxmayaraq gücü çatdığı məbləğdə alimenti ödəyirdir. Bütün bu hadisələrlə yanaşı kişi, "sən, ya evə qayıt, bir gün vaxt veririəm, ya da həbs etdirəcəm" mesajları ilə onu manipulyasiya etməkda davam edirdi. Qadının rayonların birində səfəri zamanı at üzərində çəkilmiş şəklini əldə edib, məhkəməyə "bu qadın öz keyfindədir, görün o heç uşaq haqqında düşünr" fikirini gücləndirməklə, qadını həm ictimai, eləcə də uşaqların gözü qarşısında dəyərsizləşdirməsini davam etdirirdi. Qadınla söhbətdə "geri qayıtmaq haqqında düşünürsüz?" sualına, " mən ondan çox qorxuram, hətta onu uzaqdan belə gördükdə, daxilimdə əsməcə başlayır" dedi[132].

Azərbaycan reallığında nəzarətçi-dominant tip davranış mərhələli şəkildə inkişaf edir: Qayğı→ məhdudiyyət→ təcrid→ iqtisadi

---

[131] Azərbaycan Respublikası Baş Prokurorluğu statistik məlumatları (2022–2024)

[132] Müəllifdən.

nəzarət→psixoloji təzyiq →fiziki zorakılıq→ ayrılmaq istəyən qadına qarşı ekstremal şiddət. Bu model qurbanın azadlığını və şəxsiyyətini məhv edir, zorakılığı isə “normal ailə qaydası” kimi gizlədir. O cümlədən, Azərbaycan reallığında nəzarətçi-dominant tip zorakılığı patriarxal dəyərlər və gender rolları ilə daha da güclənir. Təəsüüf ki, qadınların çoxu bunu zorakılıq kimi yox, “ailə qaydası” kimi qəbul etdiyindən, aşkarlanma və müdaxilə çətinləşir.

**Sosial iş və psixoloji müdaxilə**

Bu tip şəxslərlə klassik terapiya çox vaxt uğursuz olur, çünki onlar məsuliyyət qəbul etmir. Ən effektiv müdaxilə, “zorakılıq törədənlər üçün müdaxilə proqramları”, xüsusilə Duluth modelinin tətbiqi ilə müsbət göstəricilər əldə etmək olur.

Sosial işçilər qurban üçün təhlükəsizlik planı qurması vacibdir. Çünki nəzarətçi-dominant tipin zorakılığı “ayrılma mərhələsində” daha təhlükəli olur.

**Nəzarətçi-dominant tip üçün 12 həftəlik praktik reabilitasiya proqramı**

| Həftə | Mövzu | Məqsəd | Metod və Alətlər |
|---|---|---|---|
| 1-ci həftə | Tanışlıq və məsuliyyətin qəbul edilməsi | Zorakılığın inkarını aradan qaldırmaq, məsuliyyət hissi yaratmaq | Motivasion müsahibə, fərdi müqavilə |
| 2-ci həftə | “Güc və nəzarət dairəsi” | Zorakılığın güc və nəzarət mexanizmləri ilə izahını başa düşmək | Duluth modeli diaqramı, flipchart müzakirə |
| 3-cü həftə | Empatiya və qurbanın baxışı | Qurbanın təcrübəsini hiss etmə, empatiyanın formalaşması | Qurban ifadələrinin oxunması, rol oyunları |
| 4-cü həftə | Gender stereotipləri və dominantlıq | “Kişi hökmran olmalıdır” düşüncəsinin dağıdılması | Beyin fırtınası, dini və milli dəyərlərlə müqayisə |
| 5-ci həftə | Qısqanclıq və nəzarət davranışları | Qısqanclığın zorakılığa səbəb olduğunu anlamaq | Davranış zənciri təhlili (trigger → reaksiya → nəticə) |

| | | | |
|---|---|---|---|
| 6-cı həftə | Qəzəb idarəetməsi | İdarəetmə instinkti ilə bağlı aqressiyanı kontrol etmək | Relaxasiya texnikaları, nəfəs məşqi, CBT məşqləri |
| 7-ci həftə | İqtisadi və sosial nəzarət | Qadının müstəqilliyinin tanınması, maliyyə azadlığını qəbul etmək | Case study: “Maaş kartı kimindir?”, qrup müzakirəsi |
| 8-ci həftə | Ünsiyyət bacarıqları | Mübahisəni zorakılıqsız həll etmə yolları | Rol oyunları, “Mən-mesajları” texnikası |
| 9-cu həftə | Valideynlik və uşaqlar üzərində təsir | Uşaqlara zorakılığın mənfi təsirini dərk etmək | Video material, uşaqların ifadələri, refleksiya |
| 10-cu həftə | Münasibətlərdə bərabərlik | Bərabərhüquqlu tərəfdaşlıq modelini öyrənmək | Qrup müzakirəsi, bərabərlik dairəsi diaqramı |
| 11-ci həftə | Sosial məsuliyyət və icma dəyərləri | Zorakılığın cəmiyyət üçün təhlükəsini anlamaq | İcma liderlərinin iştirakı ilə müzakirə |
| 12-ci həftə | Yekun sessiya və fərdi dəyişmə planı | Dəyişiklik öhdəliyi, gələcəkdə zorakılığın qarşısını almaq | Yazılı fərdi dəyişmə planı, sertifikat təqdimatı |

**Əlavə izah**

- Sessiya müddəti: həftədə 1 dəfə, 2 saat.
- Format: 8–12 nəfərlik qrup terapiyası + fərdi konsultasiya.
- Metodologiya: CBT (koqnitiv (əqli anlatma)-davranışçı terapiya), Duluth modeli, empatiya (etibar qazanma) məşqləri, rol oyunları.
- Qiymətləndirmə: hər 3 həftədən bir psixoloji testlər və davranış müşahidəsi.
- Nəticə: nəzarət davranışlarının zəifləməsi, empatiya və münasibət bacarıqlarında inkişaf.

Nəzarətçi-dominant tip zorakılıq törədənlərin ən strukturlaşmış, ən təhlükəli və sistemli formasıdır. Onların davranışları yalnız emosional partlayış deyil, planlı güc və nəzarət strategiyasıdır. Azərbaycan reallığında patriarxal dəyərlər bu tip davranışları gizlədir və bəzən “normal ailə münasibəti” kimi təqdim edir. Təqdim edilən tiplərlə hüquq,

sosial iş, psixoloji  xidmət müstəvisində onların ifşa olunması və fərqləndirilməsi vacibdir. Azərbaycanda nəzarətçi-dominant tip zorakılığı patriarxal dəyərlər və sosial normalarla daha da möhkəmlənir. Bu tipin daşıyıcıları kişilər yalnız ailədaxili deyil, qadının azadlıq və seçim hüququnu sistemli şəkildə məhdudlaşdırır. Qadınların çoxu isə bunu zorakılıq kimi deyil, "normal ailə münasibəti" kimi qəbul etdiyindən, aşkarlanma və müdaxilə daha da çətinləşir.

**Sosiopatik–antisosial tip**

Sosiopatiya və ya antisosial davranış anlayışları çox vaxt Antisosial şəxsiyyət pozuntusu (ASPD) ilə sinonim kimi işlədilir. DSM-5  antisocial şəxsiyyət pozuntusunu belə xarakterizə edir:

"Digərlərinin hüquqlarına qarşı dərin və davamlı laqeydlik, təkrarlanan normapozucu davranışlar, empatiyanın olmaması və məsuliyyətsizlik." Məişət zorakılığı kontekstində bu tip kişilər emosional manipulyasiya, zorakı davranış və hüquqa qarşı laqeydliyi ilə seçilir[133].

**Əsas psixoloji xüsusiyyətləri**

Sosiopatik–antisosial tipin başlıca xüsusiyyətləri:

- Empatiyanın olmaması, digərlərinin ağrısını və emosiyalarını hiss etməsi müşhidə edilir. Zorakılığı normal və haqlı hesab edirlər.
- Manipulyativlik və aldatma, qurbanı daim aldatmaq, məsuliyyəti inkar edirlər. Bu davrnış  hətta hüquq-mühafizə orqanlarına qarşı da tətbiq edilir.
- Qaydalara qarşı etinasızlıq, sosial normalara və qanunlara məhəl qoymamaq və cinayətə meyillilik, təkrarən zorakılıq törətmək xüsussiyyətləri ilə seçilirlər.
- Aqressivlik və impulsivlik, istədiyi vaxt partnyora qarşı güc tətbiqi baş verir. Əksər vaxt alkoqol və narkotik istifadəsi vəziyyətində olurlar.
- Məsuliyyətsizlik, iş, ailə, valideynlik öhdəliklərinə qarşı laqeydliyi ilə seçilir və əksər vaxt maddi təminatı qadının üzərinə qoyurlar[134].

**Məişət zorakılığı kontekstində davranış**

Qadını daim qorxu altında saxlamaqla idarəedici zorakılığı tətbiq edirlər. "Xəyanət şübhəsi" və ya itaətsizliyə görə qadından qisas almaq və ya cəzalandırmağı həyata keçirməklə onları zorakı yolal idarə edirlər.

---

[133] American Psychiatric Association. (2013). *Diagnostic and Statistical Manual of Mental Disorders (5th ed.).*

[134] Hare, R. D. (1999). *Without Conscience: The Disturbing World of the Psychopaths Among Us*. Guilford Press.

Qadını dost və ailədən uzaqlaşdırmaqla cəzalandırmağı, onun maliyyə müstəqilliyini əngəlləmək, hətta qəfil və sərt fiziki zorakılığı ictimai yerlərdə törtmək davranışları ilə diqqəti çəkirlər[135]. Bu tip kişilər çox vaxt təkrar zorakılıq törədənlər olur və terapiyaya müqavimət göstərirlər.

**Sosial və kriminoloji perspektiv**

Antisosial tip kişilər çox vaxt cinayət mühitində formalaşır. Uşaqlıqda zorakılıq müşahidəsi, təhsil boşluğu, küçə qruplaşmaları bu tipin inkişafını gücləndirir[136]. Azərbaycan reallığında da, kriminal mühitdə yetişmiş, alkoqol və narkotikdən istifadə edən, "kişilik" anlayışını zorakılıqla bağlayan kişilər bu kateqoriyaya daxil olur.

**Psixoloji reabilitasiya imkanları**

Bu tip kişilərlə iş ən çətin sahədir:

- CBT proqramları qismən faydalıdır, lakin motivasiya çox aşağıdır.
- Məcburi probasiya proqramları olmadan dəyişiklik çətin olur.
- Qrup terapiyası (Duluth modeli) -məsuliyyət qəbul etdirmə cəhdləri.
- Sanctuary və Seeking Safety yanaşmaları yalnız asılılıqla bağlı hallarda əlavə dəstək ola bilər.

Araşdırmalara görə, antisosial tip kişilərdə reabilitasiya səviyyəsi çox aşağı, təkrar zorakılıq riski isə çox yüksəkdir[137].

Yekun qiymətləndirmə: Sosiopatik–antisosial tip zorakılıq törədənlərin ən təhlükəli qrupudur. Onların davranışı sistemli manipulyasiya və zorakılıq üzərində qurulur. Reabilitasiya yalnız məcburi hüquqi nəzarət (probasiya, məhkəmə yönləndirməsi) çərçivəsində mümkündür. Azərbaycan reallığında bu tip çox vaxt cinayətkar mühitində böyümüş, alkoqol və narkotik asılılığı olan kişilər arasında müşahidə olunur.

**Sosiopatik–antisosial tip üçün reabilitasiya strategiyası**

**1. İlkin mərhələ -Diaqnostika və risk qiymətləndirməsi**

Məsul qurum: Probasiya xidməti + Psixoloq + Sosial işçi

Risk alətləri:

- HCR-20 (zorakılıq risk qiymətləndirilməsi),
- PCL-R (psixopatiya meyillərinin ölçülməsi[138] -Hare 1999),

---

135 Holtzworth-Munroe, A., & Stuart, G. L. (1994). Typologies of male batterers: Three subtypes and the differences among them. *Psychological Bulletin, 116*(3), 476–497.

136 Farrington, D. P. (2005). Childhood origins of antisocial behavior. *Clinical Psychology and Psychotherapy, 12*(3), 177–190.

137 Babcock, J. C., Green, C. E., & Robie, C. (2004). Does batterers' treatment work? A meta-analytic review. *Clinical Psychology Review, 23*(8), 1023–1053.

138 Hare, R. D. (1999). *Without Conscience*. Guilford Press.

• TSQ və PCL-C (travma və PTSD üçün).

• Profil müəyyənləşməsi: şəxsin zorakılıq tarixi, cinayətkarlıq keçmişi, asılılıqlar, ailə mühiti.

• Fərdi Reabilitasiya Planı (FRP): risk səviyyəsinə görə məcburi proqram seçilir.

**Hüquqi və məcburi nəzarət mərhələsi**

**Məsul** qurum: Məhkəmə + probasiya xidməti

• Məhkəmə yönləndirməsi: məişət zorakılığı və digər zorakılıq hallarında hökmə "məcburi reabilitasiya proqramında iştirak" maddəsi əlavə edilməlidir.

• Müntəzəm qeydiyyat: şəxs ayda ən azı 2 dəfə probasiya xidmətinə gəlməlidir.

• İzləmə mexanizmi: proqramda iştirak etmədikdə əlavə sanksiyalar (cərimə, azadlıqdan məhrum etmə).

**Psixoloji müdaxilə proqramı (12–16 həftəlik qrup işi)**

Məsul qurum: Probasiya xidməti + Sosial Xidmət Agentliyi + QHT-lər

Strukturlu sessiyalar:

➢ Məsuliyyətin qəbul edilməsi -zorakılığı inkar və bəhanələrdən imtina.

➢ Empatiya məşqləri -qurbanın təcrübəsini anlamaq üçün simulyasiya və rol oyunları.

➢ Koqnitiv-davranışçı terapiya (CBT) -zorakı inancların dəyiş-dirilməsi ("Qadın mənim mülkümdür" → "Qadın bərabərhüquqlu insandır").

➢ Qəzəb idarəetmə -impulsiv reaksiyaların qarşısını alma texnikaları.

➢ Addiktiv davranışla iş -alkoqol və narkotik müalicəsinə yönləndirmə.

➢ Gender rollarının dekonstruksiyası -patriarxal stereotiplərin sorğulanması.

➢ Alternativ ünsiyyət bacarıqları -münaqişəni dialoq yolu ilə həll etmə.

➢ Ailə münasibətlərinə hazırlıq -gələcəkdə ailə ilə münasibətlərin sağlam qurulması[139].

**Sosial reinteqrasiya mərhələsi**

Məsul qurum: Probasiya xidməti + Əmək və Əhalinin Sosial

---

[139] Pence, E., & Paymar, M. (1993). *Education Groups for Men Who Batter: The Duluth Model*.

Müdafiəsi Nazirliyi + Bələdiyyələr

• Məşğulluq dəstəyi: işsizlik bu tip kişilərdə aqressiyanı artırır, ona görə peşə təlimləri və işə yönləndirmə əhəmiyyətlidir[140].

• Sosial xidmətlər: psixoloji məsləhət + asılılıq müalicəsi (narkoloji xidmətlərə yönləndirmə).

• İcma nəzarəti: icma sosial işçiləri və polis birgə monitorinq aparır.

• Mentorluq proqramı**:** bərpa olunmuş keçmiş zorakı şəxslər yeni iştirakçılar üçün nümunə ola bilər.

**Monitorinq və qiymətləndirmə**

• Daimi qiymətləndirmə: hər ay sosial işçi + psixoloq hesabat hazırlayır.

• Qurbanla paralel iş: qadının təhlükəsizlik planı daim yenilənir.

• Uğurun ölçülməsi: zorakılığın təkrar etmə dərəcəsi, iş tapma və sosial adaptasiya göstəriciləri.

• Uzunmüddətli nəzarət: proqram bitdikdən sonra ən azı 1 il probasiya xidməti tərəfindən izləmə[141].

Sosiopatik–antisosial tip kişilərin reabilitasiyası Azərbaycanda yalnız məcburi hüquqi nəzarət + psixoloji müdaxilə + sosial reinteqrasiya ilə mümkün ola bilər. Əks halda bu tip şəxslər zorakılığı davam etdirmə ehtimalı ən yüksək olan kateqoriyadır.

**12 Həftəlik praktik reabilitasiya proqramı**

| Həftə | Mövzu | Məqsəd | Metod və Alətlər |
|---|---|---|---|
| 1-ci həftə | Proqramla tanışlıq və məsuliyyətin qəbul edilməsi | Şəxsin zorakı davranışının məsuliyyətini qəbul etməsi | Motivasion müsahibə, qrup müzakirəsi, müqavilə imzalanması |
| 2-ci həftə | Zorakılıq və nəzarət anlayışı | Zorakılığın yalnız fiziki deyil, psixoloji və sosial formalarını dərk etmək | “Güc və nəzarət dairəsi” (Duluth modeli), flipchart təhlil |
| 3-cü həftə | İnkar və bəhanələrin aradan qaldırılması | “Mən əsəbiləşdim, ona görə vurdum” tipli bəhanələrin dağıdılması | Rol oyunları, koqnitiv-davranışçı texnikalar (CBT) |
| 4-cü həftə | Empatiya və | Qurbanın hisslərini | Qurban ifadələrinin |

[140] Farrington, D. P. (2005). *Clinical Psychology and Psychotherapy*.
[141] Gondolf, E. W. (2002). *Batterer Intervention Systems*. Sage.

| | | | |
|---|---|---|---|
| | qurbanın baxışı | anlama, empatiya formalaşdırma | oxunması, video materiallar, refleksiya məşqi |
| 5-ci həftə | Qəzəb idarəetmə | Aqressiv reaksiyaların alternativ üsullarla əvəz olunması | Relaxasiya texnikaları, nəfəs məşqləri, “stop–think–act” modeli |
| 6-cı həftə | Gender rolları və patriarxal stereotiplər | “Kişi hökmranlığı” anlayışını sorğulamaq | Beyin fırtınası, dini və milli dəyərlərlə zorakılıqdan uzaq yanaşmaların müqayisəsi |
| 7-ci həftə | Ünsiyyət və münaqişə həlli bacarıqları | Aqressiv davranış əvəzinə dialoq və kompromis bacarıqlarını inkişaf etdirmək | Rol oyunları, “Mübahisəni dialoqla həll et” məşqi |
| 8-ci həftə | Maddə asılılığı və zorakılıq | Alkoqol/narkotik istifadəsinin zorakılıqla əlaqəsini dərk etmək | Psixoedukasiya, qrup müzakirəsi, Narkoloji xidmətlərə yönləndirmə |
| 9-cu həftə | Şəxsi sərhədlər və münasibətlərdə hörmət | Partnyorun hüquq və azadlıqlarını tanımaq | “Mənim sərhədim -sənin sərhədin” məşqi, qrup diskussiyası |
| 10-cu həftə | Atalıq və ailə məsuliyyəti | Uşaqlara zorakılığın təsirini anlama | Case study: “Uşağın gözü ilə ata”, video və qrup refleksiyası |
| 11-ci həftə | Sosial reinteqrasiya bacarıqları | Sosial mühitə sağlam şəkildə qayıtmaq, qanuni və etik davranış | Praktiki məşğələ: iş müsahibəsi simulyasiyası, sosial bacarıq təlimi |
| 12-ci həftə | Yekun sessiya və təhlükəsizlik planı | Qazandığı bilikləri ümumiləşdirmək, təkrar zorakılığın qarşısını almaq | Fərdi təhlükəsizlik planı, yazılı öhdəlik, sertifikat təqdimatı |

**Əlavə İzah**

- Sessiyalar: Həftədə 1 dəfə, 2 saatlıq.
- Format: 8–12 nəfərlik qrup + fərdi konsultasiyalar.
- Metodologiya: CBT, Duluth modeli, motivasion müsahibə, empatiya məşqləri.
- Qiymətləndirmə: hər 3 həftədən bir risk və davranış qiymətləndirmə testləri.
- Nəticə: iştirakçıların zorakı davranışında dəyişiklik, empatiya və sosial bacarıqlarda inkişaf, təkrar zorakılıq riskinin azaldılması.

Bu proqram Azərbaycan reallığında probasiya xidməti + məhkəmə

yönləndirməsi + sosial iş və psixoloji dəstək çərçivəsində tətbiq edilə bilər. Əgər paralel olaraq qadın qurban üçün də təhlükəsizlik planı və psixososial dəstək işlənərsə, təsiri daha güclü olar.

İmpulsiv–aqressiv tip kişilər emosiyalarını idarə edə bilmədikləri üçün zorakılığa əl atır. Reabilitasiya proqramının məqsədi -ani qəzəbi tanımaq, emosional tənzimləmə bacarıqlarını öyrətmək və zorakılıq əvəzinə sağlam ünsiyyət formalarının tətbiqinə nail olmaqdır.

**Davranış nümunəsi -Azərbaycan reallığında İmpulsiv–Aqressiv tip**

Kişi evə işdən və ya məclisdən alkoqollu halda qayıdır. Qadın onu yeməyin hazır olmaması, ya da uşaqların səs-küy salması ilə qarşılayır. Kişi ani şəkildə qəzəblənir, səslənən hər sözə "hörmətsizlik" kimi reaksiya verir. Qadına qarşı fiziki zorakılıq (vurmaq, itələmək) və ya psixoloji təhqir (söymək, alçaltmaq) tətbiq edir.

Mövcud vəziyytədə kişidə planlı nəzarət yoxdur -bu, "nəzarətçi-dominant" tipdən fərqidir. Zorakılıq bir anda, emosional partlayış nəticəsində baş verir. Zərərçəkmiş qadın çox vaxt deyir: "Normal vaxtı mehriban insandır, amma əsəbiləşəndə özünü idarə edə bilmir."

Sosial kontekstən nəzər salsaq, kənd yerlərində bu tip zorakılıq çox vaxt məişət səbəbləri ilə baş verir (məsələn, "çay isti olmadı", "uşaq sakit dayanmadı"). Şəhərdə isə daha çox işsizlik, maddi sıxıntılar və stress fonunda müşahidə olunur. Bəzi hallarda kişi qəzəb partlayışından sonra üzr istəyir, hətta qadına hədiyyələr alır, amma bir müddət sonra zorakılıq təkrarlanır.

Bir qadının ifadəsindən:

"Ərim əsəbləşəndə gözümün içinə baxmır, bir anda qışqırır, qabları sındırır, uşaqlar qorxudan ağlayır. Əsəbi keçəndən sonra deyir ki, 'mən elə demək istəmirdim, əsəbləşdim'. Mən bilirəm ki, o, məni planla incitmir, amma özünü saxlaya bilmir. Elə buna görə də hər dəfə qorxu içində yaşayıram."

**Psixoloji nəticə**

İmpulsiv–aqressiv tiplərlə yaşayan qadın və uşaqlarda xroniki qorxu və stress vəziyyəti müşahidə olunur. Ailə başçısının bu davranış modeli uşaqlarda aqressiv davranışların model kimi öyrənilməsi, yəni nümunə götürmə ilə nəticələnir. Kişidə isə qəzəbi idarəetmə bacarıqlarının olmaması nəticəsində təkrar zorakılıq üçün yeni imkanlar yaradır. Azərbaycan reallığında impulsiv–aqressiv tip zorakılıq ani qəzəb partlayışları və emosional idarəsizliyin nəticəsi kimi təzahür edir. Bu tip kişilər çox vaxt "əsəbi keçəndən sonra" normal davranır, lakin zorakılıq

davamlı və təkrarlanan dövr halına gəlir.

**Passiv-aqressiv tip**

Passiv–aqressivlik -birbaşa açıq zorakılıq əvəzinə, dolayı və gizli düşmənçilik davranışlarla özünü göstərən aqressiya formasıdır. DSM-IV-də "passiv–aqressiv şəxsiyyət pozuntusu" ayrıca kateqoriya kimi qeyd olunmuşdu, DSM-5-də isə artıq müstəqil diaqnoz kimi göstərilməsə də, davranış nümunəsi kimi geniş işlədilir. Bu tip insanlar münaqişələrdə açıq qarşıdurmadan yayınır, lakin gizli etiraz, sabotaj, laqeydlik, kecikmə və s. yollarla aqressiya göstərirlər[142].

**Əsas xüsusiyyətləri**

Birbaşa zorakılıqdan qaçır. Açıq zorakılıq göstərmir, amma ailə üzvlərinə əsasən də həyat yoldaşına psixoloji və emosional əziyyət verir. Həyat yoldaşı ilə razılaşdığı işləri bilərəkdən gecikdirir və ya yarımçıq görərək bilərəkdən sabotaj yaradır. Məsələn, qadının xahiş etdiyi işləri "unutmaqla" cəzalandırır. Heç vaxt açıq "yox" demir, amma passiv müqavimətlə inad və müqavimət göstərir. Açıq danışmaq əvəzinə susaraq qarşı tərəfi inciklik və küsülülüklə cəzalandırır. İroniya, sarkazm, kinayə ilə Qadını dolayı təhqir və alçaltmaqla onun dəyərini heçə endirir[143].

**Məişət zorakılığı kontekstində davranış nümunələri**

Qadının sosial fəaliyyətini açıq qadağan etmir, amma maneələr yaradır: "gedə bilərsən, amma yadında saxla ki, mən səndən küsmüşəm". Ev işlərini bilərəkdən yarımçıq qoyur ki, qadın əziyyət çəksin. Ailədaxili qərarlarda susmaqla etiraz edir, amma sonradan problem yaradır. Qadını açıq şəkildə söymək və vurmaq əvəzinə kinayə və laqeydliklə psixoloji travma yaradır. Çox vaxt "mən heç nə demirəm, amma yenə özün bilirsən" tipli manipulyasiya ilə qorxu və gərginlik yaradır[144].

**Psixoloji mexanizm**

Bu tip kişilərin çoxu uşaqlıqda açıq emosiyaları ifadə etməyin qadağan edildiyi mühitdə böyüyürlər. Açıq "yox" deməyi bacarmadıqları üçün dolayı yollarla üsyan edirlər. Nəticədə partnyora qarşı "gizli cəza" sistemi formalaşır[145].

---

[142] American Psychiatric Association (2013). *DSM-5: Diagnostic and Statistical Manual of Mental Disorders*.

[143] Long, E. C. J. (2009). *The Passive-Aggressive Personality: Development, Dynamics, and Clinical Management*.

[144] Williamson, E. (2010). *Living in the world of the domestic violence perpetrator: Negotiating the unreality of coercive control*. *Violence Against Women, 16*(12).

[145] Millon, T., & Davis, R. (1996). *Disorders of Personality: DSM-IV and Beyond*.

**Reabilitasiya imkanları**

Passiv–aqressiv tip kişilərlə iş açıq zorakı tiplərə nisbətən fərqli yanaşma tələb edir[146]:

- **k**oqnitiv-davranış terapiyasında (CBT): passiv müqavimət əvəzinə açıq ünsiyyət bacarıqları öyrədilir.
- Ünsiyyət təlimləri: "mən-mesajları", dialoq bacarıqları.
- Emosional tənzimləmə məşqləri: kinayə və susma əvəzinə duyğuları birbaşa ifadə etmək.
- Motivasion müsahibə: dəyişməyə maraq yaratmaq.
- Qrup işi: digər zorakı tiplərlə müqayisədə bu tip kişilərdə qrup müzakirələri effektivdir, çünki öz davranışlarını başqalarının gözü ilə görürlər.

**Azərbaycan reallığında nümunə**

"Kişi qadınla mübahisə etməz" deyə açıq zorakılıq göstərməsə də, qadını daim laqeydlik və susqunluqla cəzalandırır. Məsələn, qadın nəsə xahiş edir, kişi bilərəkdən gecikdirir və ya unudur: "Yadımdan çıxıb" deyir. Sosial şəbəkədə qadının şəkillərinə açıq qadağa qoymur, amma sonra günlərlə danışmır. Maddi dəstəyi birbaşa kəsmir, amma pul verməyi gecikdirərək qadını "dərsini vermək" kimi cəzalandırır.

**Passiv–Aqressiv tip üçün 12 həftəlik reabilitasiya proqramı**

| Həftə | Mövzu | Məqsəd | Metod və Alətlər |
|---|---|---|---|
| 1-ci həftə | Tanışlıq və məsuliyyət | Davranışın məsuliyyətini qəbul etdirmək | Motivasion müsahibə, fərdi müqavilə |
| 2-ci həftə | Passiv–aqressiv davranış nədir? | Dolayı zorakılıq formalarını tanımaq | Psixoedukasiya, qrup müzakirəsi |
| 3-cü həftə | Susqunluq və sabotaj | Susmaqla və "unutmaqla" manipulyasiyanın təsirini dərk etmək | Rol oyunları, davranış zənciri təhlili |
| 4-cü həftə | Emosiyaların ifadəsi | Aqressiyanı dolayı yox, açıq və sağlam ifadə etməyi öyrətmək | CBT məşqləri, "Mən-mesajları" texnikası |
| 5-ci həftə | İroniya və kinayə | Dolayı təhqirin psixoloji zorakılıq olduğunu dərk etdirmək | Video nümunələr, qrup refleksiyası |
| 6-cı həftə | Ünsiyyət | Sağlam dialoq və | Rol oyunları, aktiv |

[146] Najavits, L. (2002). *Seeking Safety: A Treatment Manual for PTSD and Substance Abuse*. Guilford Press.

| | | | |
|---|---|---|---|
| | bacarıqları | mübahisə həllini öyrətmək | dinləmə məşqi |
| 7-ci həftə | Qısqanclıq və laqeydlik | Passiv cəzanın qadında yaratdığı qorxunu anlamaq | Case study, empatiya məşqləri |
| 8-ci həftə | Gender rolları | Patriarxal dominantlığın dolayı zorakılığa təsirini sorğulamaq | Beyin fırtınası, qrup müzakirəsi |
| 9-cu həftə | Emosional tənzimləmə | Küsülülük və inciklik əvəzinə açıq dialoq bacarığı | Relaxasiya, stres idarəsi texnikaları |
| 10-cu həftə | Ailə münasibətlərində hörmət | Münasibətlərdə bərabərlik və şəffaf ünsiyyət | "Hörmət dairəsi" məşqi, interaktiv diskussiya |
| 11-ci həftə | Sosial məsuliyyət | Passiv–aqressiv davranışın cəmiyyətə təsirini anlamaq | İcma liderlərinin iştirakı ilə debat |
| 12-ci həftə | Yekun sessiya | Fərdi dəyişmə planı hazırlamaq | Yazılı öhdəlik, sertifikat təqdimatı |

**Əlavə izah**

- Sessiya müddəti: 2 saat (həftədə 1 dəfə).
- Format: 8–12 nəfərlik qrup + fərdi konsultasiya.
- Metodologiya: Koqnitiv–Davranış Terapiyası (CBT), Duluth modeli, motivasion müsahibə, empatiya məşqləri.
- Monitorinq: hər 3 həftədən bir psixoloq tərəfindən qiymətləndirmə.
- Nəticə: passiv–aqressiv davranışların azalması, emosiyaların sağlam ifadəsi, empatiya və münasibətlərdə bərabərlik.

Passiv–aqressiv tip kişilər açıq zorakılıqdan qaçır, lakin gizli cəza üsulları ilə qadını idarə edirlər. Reabilitasiya isə emosiyaların sağlam ifadəsi, ünsiyyət bacarıqlarının inkişafı və empatiya üzərində qurulmalıdır.

**İkili şəxsiyyətli tip (Dual Personality / Dysphoric–Borderline Type)**

"İkili şəxsiyyətli tip" ifadəsi çox vaxt məişət zorakılığı törədən kişilərin tipologiyasında istifadə olunur. Bu tip şəxslər iki zidd davranış modelini nümayiş etdirirlər, belə ki, bəzən hədsiz mehriban, qayğıkeş və həssas görünür, digər hallarda isə aqressiv, zorakı və dağıdıcı davranış sərgiləyirlər.

Holtzworth-Munroe & Stuart bu kateqoriyanı "dysphoric–

borderline" tip kimi təqdim etmişdir[147].

Əsas xüsusiyyətlər

1. Davranışda ikilik. Xarici mühitdə (iş, dostlar arasında) "mükəmməl, mehriban, nümunəvi ailə başçısı" obrazı yaradır. Evdə isə qadına qarşı qəfil zorakılıq və aqressiya nümayiş etdirir.

2. Emosional qeyri-sabitlik sevgi–nifrət dalğalanmaları: bir gün qadını "həyatının mənası" kimi görür, sabah isə "xəyanətkar" kimi təhqir edir.

3. Yüksək qısqanclıq və paranoya. Həddindən artıq qısqanclıq, qadının hər addımını izləmək. "Sən kiminlə danışdın?", "sənə baxan kim idi?" tipli əsassız ittihamlar.

4. Travmatik keçmiş və şəxsiyyət pozuntuları. Çox vaxt uşaqlıqda zorakılıq, atadan aqressiya və ya valideynlərin boşanması kimi travmatik təcrübələr. Həssas şəxsiyyət strukturu ilə yanaşı şiddətli emosional partlayışlar.

5. Manipulyasiya və "yaxşı–pis" oyunu. Zorakılıqdan sonra qadına üzr istəmək, hədiyyə almaq, "mən dəyişəcəm" vədləri vermək. Bir müddət sakitlikdən sonra zorakılığın yenidən başlaması[148] ("zorakılıq dövrü").

Məişət zorakılığı kontekstində davranış

• Bu tip şəxslərlə yaşayan qadın və uşaqlar daim təhlükə hissi və inamsızlıqda yaşayır: evdə sakitlik olsa belə, hər an zorakılıq ola bilər. "İkiüzlü" davranış qadının kömək istəməsini çətinləşdirir, çünki ətrafdakılar kişini "mükəmməl ailə başçısı" kimi tanıyır. Bu tip kişilər qadını manipulyasiya edərək "problem qadındadır" obrazını cəmiyyətə təqdim edir[149].

Psixoloji mexanizm

• Bu tip çox vaxt sərhəd şəxsiyyət pozuntusu xüsusiyyətləri ilə əlaqələndirilir: emosional qeyri-sabitlik, intensiv qəzəb, özünə inamsızlıq nümayiş etdirir. Qurban qadın isə tez-tez "onu başa düşməyə və dəyişdirəcəyinə inanmağa" çalışır, təkrar zorakılıq dövrü üçün mühiti formalaşdırır[150].

Reabilitasiya imkanları

Aparılan tədqiqtalara görə, bu tip kişilər reabilitasiya

---

[147] Holtzworth-Munroe, A., & Stuart, G. L. (1994). Typologies of male batterers: Three subtypes and the differences among them. *Psychological Bulletin, 116*(3), 476–497.

[148] Walker, L. (1979). *The Battered Woman*. New York: Harper & Row.

[149] Johnson, M. P. (2008). *A Typology of Domestic Violence: Intimate Terrorism, Violent Resistance, and Situational Couple Violence*. Northeastern University Press.

[150] American Psychiatric Association. (2013). *DSM-5*.

proqramlarında ən çətin dəyişənlərdəndir, çünki ikili davranış onları məsuliyyətdən yayınmağa imkan verir[151].

Terapiya metodları:

- Koqnitiv-davranışçı terapiya (CBT) -yanlış inancların dəyişdirilməsi.
- Dialektik Davranış Terapiyası (DBT) -emosional tənzimləmə üçün.
- Motivasion müsahibə -dəyişmə motivasiyasını gücləndirmək.
- Qrup terapiyası -davranışlarının digərləri tərəfindən güzgülənməsi.

**İkili şəxsiyyətli tip üçün 12 həftəlik reabilitasiya proqramı**

| Həftə | Mövzu | Məqsəd | Metod və Alətlər |
|---|---|---|---|
| 1-ci həftə | Proqramla tanışlıq və məsuliyyət | Zorakılıq davranışına görə məsuliyyəti qəbul etdirmək | Motivasion müsahibə, fərdi müqavilə |
| 2-ci həftə | İkili davranışın tanınması | Cəmiyyətdə "mükəmməl kişi" imici ilə evdəki zorakılıq arasındakı fərqi dərk etmək | Case study, rol oyunları |
| 3-cü həftə | Zorakılıq dövrü (Walker modeli) | Sevgi–zorakılıq–üzr–təkrar dövrünü başa düşmək | Flipchart diaqram, qrup müzakirəsi |
| 4-cü həftə | Emosional qeyri-sabitlik | Hissləri idarə etməyi öyrənmək | Dialektik Davranış Terapiyası (DBT) məşqləri |
| 5-ci həftə | Qısqanclıq və paranoya | Qısqanclığın zorakılığa aparan mexanizmini tanımaq | Davranış zənciri təhlili, CBT texnikası |
| 6-cı həftə | Manipulyasiya və üzr mədəniyyəti | Üzr və hədiyyələrlə manipulyasiyanın tanıdılması | Rol oyunu: "Üzr və dəyişiklik fərqi" |
| 7-ci həftə | Empatiya inkişafı | Qurbanın təcrübəsini anlama bacarığı | Qurban ifadələrinin oxunması, |

[151] Linehan, M. M. (1993). *Cognitive-Behavioral Treatment of Borderline Personality Disorder*. Guilford Press.

| | | | |
|---|---|---|---|
| | | | refleksiya məşqi |
| 8-ci həftə | Ünsiyyət və münaqişə həlli | Aqressiv davranış əvəzinə dialoq və razılaşma öyrənmək | "Mən-mesajları" texnikası, dialoq simulyasiyası |
| 9-cu həftə | Gender rolları və bərabərlik | Patriarxal dominantlıqdan imtina, bərabərlik dəyərləri | Beyin fırtınası, bərabərlik dairəsi |
| 10-cu həftə | Atalıq və ailə məsuliyyəti | Uşaqların zorakılıqdan necə təsirləndiyini dərk etmək | Video material, qrup refleksiyası |
| 11-ci həftə | Sosial məsuliyyət və imic | Cəmiyyətdə imic və ailədaxili davranış arasındakı uyğunsuzluğu sorğulamaq | Diskussiya: "İctimai imic və real davranış" |
| 12-ci həftə | Yekun sessiya və fərdi dəyişmə planı | Qazandıqlarını ümumiləşdirmək və gələcək öhdəlik planı qurmaq | Yazılı öhdəlik, təhlükəsizlik planı, sertifikat |

**Əlavə izah**

- Sessiya müddəti: həftədə 1 dəfə, 2 saat.
- Format: 8–10 nəfərlik qrup + fərdi konsultasiyalar.
- Metodologiya: CBT (Koqnitiv-Davranışçı Terapiya), DBT (Dialektik Davranış Terapiyası), Duluth modeli, motivasion müsahibə.
- Qiymətləndirmə: hər 3 həftədən bir risk testləri (HCR-20, impulsivlik və empatiya ölçülməsi).
- Nəticə: manipulyativ davranışların azalması, emosional sabitlik, ünsiyyətdə bərabərlik.

İkili şəxsiyyətli tip zorakı kişilər cəmiyyətdə müsbət obraz saxlayaraq ev daxilində qadına qarşı qəfil zorakılıq edən, emosional qeyri-sabitlik və manipulyasiya ilə seçilən qrupdur. Onların davranışı sevgi və nifrət arasında sürətli dəyişmələr, qısqanclıq və manipulyasiya, zorakılıq dövrünün təkrarı ilə xarakterizə olunur. Reabilitasiya çətindir, lakin CBT, DBT və qrup terapiyası metodları ilə mümkündür.

Zorakılıq törədən kişilərin davranış tiplərinin elmi təsnifatı həm beynəlxalq, həm də yerli tədqiqatlarda xüsusi əhəmiyyət kəsb edir. Holtzworth-Munroe və Stuartun təqdim etdiyi tipologiya, eləcə də Starkın koersiv nəzarət konsepsiyası göstərir ki, zorakı davranış təsadüfi

emosional partlayış deyil, əksinə, sosial-mədəni faktorlarla şərtlənmiş və psixoloji mexanizmlərlə möhkəmləndirilmiş nümunədir.

Azərbaycan reallığında zorakılıq tiplərinin təhlili bir neçə mühüm məqamı üzə çıxarır. Bir tərəfdən, impulsiv–aqressiv tip geniş yayılmışdır və xüsusilə maddi sıxıntılar, işsizlik və alkoqol istifadəsi ilə əlaqəlidir. Digər tərəfdən, sosiopatik–antisosial tip azlıq təşkil etsə də, yüksək risk daşıyır, çünki bu qrup empatiya hissindən məhrum, cinayətkar davranışa meylli və ən az reabilitasiya olunan kateqoriyadır. Passiv–aqressiv tip açıq zorakılıq əvəzinə dolayı cəza üsullarına üstünlük verərək qadınlarda uzunmüddətli psixoloji travma yaradır, ikili şəxsiyyətli tip isə ictimaiyyət qarşısında müsbət imic saxlayaraq ev daxilində qəfil zorakılıq nümayiş etdirir, bu isə onun aşkarlanmasını və qadının müdafiəsini xeyli çətinləşdirir.

Lakin aparılan elmi araşdırmaların və yerli müşahidələrin[152] nəticələri göstərir ki, ən aktual və geniş yayılmış zorakılıq tipi -nəzarətçi–dominant tipdir. Bu tip zorakı kişilər qadının həyatının bütün aspektlərini - geyimindən tutmuş sosial əlaqələrinə, hərəkət azadlığından maliyyə imkanlarına qədər -məhdudlaşdırmağa çalışır. Zorakılıq burada yalnız fiziki güc tətbiqi ilə məhdudlaşmır, daha çox psixoloji nəzarət, sosial izolyasiya və iqtisadi asılılıq formasında təzahür edir. Bu isə qadının fərdi azadlığının sistemli şəkildə məhdudlaşdırılması deməkdir.

Nəticə etibarilə, Azərbaycan reallığında zorakılıqla mübarizə strategiyaları yalnız impulsiv zorakılıq aktlarını deyil, həm də nəzarətçi–dominant tipin strukturlaşdırılmış və mədəniyyətlə əsaslandırılmış davranış modelini hədəf almalıdır. Bu məqsədlə reabilitasiya proqramları sadəcə qəzəbin idarə etməsinə deyil, həm də patriarxal düşüncə tərzinin dəyişməsinə, gender bərabərliyi dəyərlərinin mənimsədilməsinə və empatiya bacarıqlarının inkişafına yönəlməlidir. Yalnız bu halda zorakılığın təkrar olması zəiflədilə və qadınların hüquqlarının təmin olunması istiqamətində dayanıqlı nəticələr əldə edilə bilər.

**Şəxsiyyət pozuntuları və psixoloji faktorlar**

Məişət zorakılığı və genderəsaslı zorakılığın psixoloji dinamikalarını anlamaq üçün zorakılıq törədən şəxslərin şəxsiyyət xüsusiyyətlərinin və psixoloji faktorlarının təhlili mühüm əhəmiyyət kəsb edir. Tədqiqatlar göstərir ki, zorakılıq yalnız sosial-mədəni və iqtisadi şərtlərlə izah olunmur, eyni zamanda fərdi psixoloji meyllər, şəxsiyyət pozuntuları və

---

[152] UNFPA Azerbaijan. (2022). *Gender əsaslı zorakılıq və məişət zorakılığına dair milli tədqiqat.*

emosional tənzimləmə problemləri ilə də sıx bağlıdır [153].

Şəxsiyyət pozuntuları çərçivəsində zorakı davranışa meylli kişilərdə impulsivlik, aqressivlik, empatiya çatışmazlığı, manipulyativ münasibət formaları və nəzarət ehtiyacı kimi xüsusiyyətlər daha çox müşahidə olunur. Bu xüsusiyyətlər zorakılığın təsadüfi deyil, müəyyən psixoloji struktura malik və təkrarlanan davranış nümunəsi olduğunu göstərir. Məsələn, impulsiv–aqressiv tip emosional partlayışlara meyllidirsə, sosiopatik–antisosial tipdə zorakılıq daha çox soyuq hesablanmış və məqsədyönlü davranış formasında özünü göstərir.

Bununla yanaşı, psixoloji faktorlar -uşaqlıqda zorakılığa məruz qalma, travmatik təcrübələr, ailədaxili rolların yanlış mənimsənilməsi, emosional tənzimləmə çətinlikləri və asılılıq (alkoqol, narkotik və s.) -zorakılıq riskini artıran mühüm determinantlardır[154]. Bu faktorlar çox zaman sosial-mədəni kontekstlə -patriarxal dəyərlərlə, gender bərabərsizliyi ilə və zorakılığın normalizasiyası ilə birləşərək zorakılığın davamlı istehsalına gətirib çıxarır.

Azərbaycan kontekstində isə bu məsələ xüsusilə aktualdır. Burada zorakılığın əsaslandırılması üçün tez-tez "ailədaxili məsələ", "kişinin nüfuzu", "tərbiyəvi məqsəd" kimi sosial stereotiplərdən istifadə olunur. Bu yanaşma zorakılıq törədən şəxslərin psixoloji xüsusiyyətlərinin dərin araşdırılmasına mane olur və beləliklə, reabilitasiya proqramlarının effektivliyini zəiflədir. Halbuki, şəxsiyyət pozuntuları və psixoloji faktorların sistemli təhlili həm risk qruplarının aşkarlanmasına, həm də məqsədli müdaxilə proqramlarının hazırlanmasına imkan yaradır.

**Narsisistik şəxsiyyət pozuntusu**

Narsisistik şəxsiyyət pozuntusu (NPD) -Amerika Psixiatriya Assosiasiyasının *DSM-5* diaqnostik kriteriyalarına əsasən, şəxsin özünü həddindən artıq əhəmiyyətli görməsi, daimi olaraq diqqət və heyranlıq ehtiyacı duyması, başqalarının hisslərini nəzərə almaması və empatiya çatışmazlığı ilə xarakterizə olunan davamlı davranış və düşüncə modelidir[155].

Bu pozuntu ilk dəfə klassik psixoanalizdə[156] "narsisizm" anlayışı ilə

---

[153] Hare, R. D. (1999). *Without Conscience: The Disturbing World of the Psychopaths Among Us*. Guilford Press.
[154] Linehan, M. M. (1993). *Cognitive-Behavioral Treatment of Borderline Personality Disorder*. Guilford Press.
[155] American Psychiatric Association. (2013). *Diagnostic and Statistical Manual of Mental Disorders* (5th ed.).
[156] Freud, S. (1914). *On Narcissism: An Introduction*.

bağlı müzakirə olunub. Freyd narsisizmi uşaqlıqda normal inkişaf mərhələsi hesab etmiş, lakin yetkinlikdə davam etdiyi təqdirdə patologiyaya çevrildiyini vurğulamışdır. Müasir psixiatriyada isə bu sindrom şəxsiyyət pozuntularından biri kimi qəbul olunur və həm fərdi, həm də ictimai münasibətlərə ciddi təsir göstərir[157].

**Əsas xüsusiyyətləri**

NPD olan şəxslərdə müşahidə olunan davranış nümunələri:

Şəxsin öz bacarıqlarını və nailiyyətlərini idealalşdırması və şişirtməsi ilə diqqəti cəlb edir. Onlarda başqalarının daim onun davranış və fikirlərini təsdiqləməsi və diqqət mərkəzində saxlamaqla onun heyranlıq ehtiyacı ödəməsini istəyir. Lakin başqalarının hisslərini anlamamaq və ya nəzərə almamaqla empatiya çatışmazlığı ilə nəzəri cəlb edir. Şəxsi məqsədləri üçün başqalarının hisslərini  istismarna,  sui -istifadə etməyə meyllikləri ilə fərqlənirlər. Tənqidə və ya rədd edilməyə qarşı həddindən artıq həssas reaksiya, qəzəb və aqressiya nümayiş etdirirlər İctimai mühitdə cazibədar görünməyə çalışmaq, lakin yaxın münasibətlərdə manipulyativ və dağıdıcı davranış göstərməklə ikili obrazda yaşayırlar.

**Zorakılıq və sosial münasibətlərdə təzahürü**

Tədqiqatlar göstərir ki, narsisistik xüsusiyyətlərə malik şəxslər xüsusilə məişət zorakılığı və münasibətlərdə güc-nəzarət davranışları ilə əlaqəlidir[158]. Bu tip şəxslər:

- partnyorunu özünün “kölgəsi” kimi görür;
- tənqid və müstəqilliyi qəbul etmir;
- manipulyasiya, psixoloji zorakılıq və nəzarət vasitələrindən istifadə edirlər.

Azərbaycan reallığında bu tip davranışlar tez-tez “kişinin nüfuzu” və ya “ailə başçısının hörməti” kimi mədəni çərçivələrdə legitimləşdirilir. Bu isə qadınların psixoloji asılılıq və qorxu vəziyyətində yaşamasına gətirib çıxarır.

**Psixoloji faktorlar**

NPD-nin yaranma səbəbləri tam aydın olmasa da, bir neçə istiqamət üzrə izah olunur:

- Valideyn tərəfindən imtina, laqeydlik və ya həddindən artıq idealizə olunma hallarından yaranan uşaqlıq travmaları.
- Fərdi uğuru kollektiv dəyərlərdən üstün tutan cəmiyyətlərdə daha

---

[157] Kernberg, O. (2007). The almost untreatable narcissistic patient. *Journal of the American Psychoanalytic Association, 55*(2), 503–539.

[158] Ronningstam, E. (2005). *Identifying and Understanding the Narcissistic Personality*. Oxford University Press.

çox yayılması, mədəni faktorlarla izah edilir.

- Neyrobioloji tədqiqatlar zamanı, NPD-də frontal korteks və emosional tənzimləmə mexanizmlərində pozulmalar aşkar edilməsi[159], bioloji faktorlar əsaslandırılır.

**Reabilitasiya və müdaxilə**

Narsisistik şəxsiyyət pozuntusu ilə işləmək çətin hesab olunur, çünki belə şəxslər problemini qəbul etməkdə və dəyişməkdə müqavimət göstərirlər. Buna baxmayaraq, bir neçə müdaxilə strategiyası mövcuddur:

- Psixodinamik terapiya -daxili konfliktlərin və uşaqlıq travmalarının işlənməsi.
- Koqnitiv-davranış terapiyası (CBT) -yanlış inancların və davranış nümunələrinin dəyişdirilməsi.
- Dialektik-davranış terapiyası (DBT) -emosional tənzimləmə və münasibət bacarıqlarının gücləndirilməsi.
- Qrup terapiyası -sosial empatiya və münasibət bacarıqlarının öyrədilməsi.

Azərbaycan kontekstində NPD ilə bağlı reabilitasiya yanaşmalarının sığınacaqlarda, probasiya xidmətlərində və məhkəmə yönləndirmələrində tətbiqi mümkündür, lakin hələ geniş yayılmamışdır.

**Narsisistik şəxsiyyət pozuntusu üçün reabilitasiya sxemi**

| Həftə | Mövzu / Fokus | İstifadə olunan metodlar | Azərbaycan reallığına uyğunlaşdırma |
|---|---|---|---|
| **1** | İlkin qiymətləndirmə və müqavimətin azaldılması | Fərdi müsahibə, psixoloji testlər (NPI, PCL), motivasiya yönümlü müsahibə (MI) | Şəxs problemini qəbul etmir → daha çox “ailə harmoniyası” və “ictimai hörmət” dəyərləri üzərindən motivasiya qurulur |
| **2** | Özünüidealizasiya və eqo mərkəzçiliyin dərk edilməsi | Koqnitiv-davranış terapiyası (CBT) - “şişirdilmiş inanclar” üzərində iş | Misal: “Mən həmişə haqlıyam” inancı yerinə “mən də səhv edə bilərəm” düşüncəsinin qurulması |
| **3** | Empatiya bacarığına giriş | Rol oyunları, qrup müzakirəsi | Ailə üzvlərinin hisslərini anlama məşqləri -qadın və uşağın hisslərini təqlid etmə və ya dinləmə tapşırıqları |
| **4** | Tənqidə dözümlülük və qəzəb idarəsi | Emosional tənzimləmə texnikaları, nəfəs məşqləri, “stop | Azərbaycan mədəniyyətində “kişiyə söz demək olmaz” stereotipini müzakirə etmək, |

[159] Skodol, A. E. (2012). Personality disorders in DSM-5. *Annual Review of Clinical Psychology, 8*, 317–344.

| | | | |
|---|---|---|---|
| | | texnikası” | alternativ davranış formaları təklif etmək |
| **5** | İstismarçı davranışların aşkarlanması | “Trigger–reaksiya–nəticə” kartları, davranış izləmə jurnalı | Qadına və ya uşağa yönəlik manipulyasiyanın konkret nümunələri qeyd olunub davranış jurnalı tutulur |
| **6** | Münasibətlərdə güc və nəzarət anlayışı | Duluth modeli üzrə təhlil, qrup müzakirəsi | “Nəzarət = hörmət deyil” prinsipi izah olunur, Azərbaycan ailə modelində “hörmət” anlayışı ilə uzlaşdırılır |
| **7** | Özünütənqid bacarığının inkişafı | Fərdi seans, koqnitiv restrukturizasiya | Şəxs öz davranışını videoya baxaraq və ya psixoloqla geridönüş alaraq təhlil edir |
| **8** | Empatiyanın dərinləşdirilməsi | “Rol dəyişmə” məşqi, hekayə əsasında empatiya qurma | Uşaqların və qadınların zorakılıq təcrübələrini dinləyərək “qurbanın gözü ilə baxma” məşqləri |
| **9** | Alternativ ünsiyyət bacarıqları | Qəzəb əvəzinə “mən-mesajları” (I-statements) texnikası | Misal: “Sən məni əsəbiləşdirdin” yerinə → “Mən bu vəziyyətdə əsəbiləşdim” ifadəsi öyrədilir |
| **10** | Sosial məsuliyyət və hüquqi nəticələr | Hüquqi məlumatlandırma seansı (probasiya əməkdaşı ilə) | Azərbaycan qanunvericiliyində məişət zorakılığı və NPD davranışlarının hüquqi nəticələri (məhkəmə qərarları, cərimələr) |
| **11** | Ailə ilə birgə seans | Qrup terapiyası, ailə terapiyası elementləri | Qadın və uşaqların səsini eşidə biləcəyi təhlükəsiz ailə seansı keçirilir |
| **12** | Yekun qiymətləndirmə və gələcək plan | Psixoloji testlərin təkrar keçirilməsi, fərdi planlama | Təkrar risk qiymətləndirməsi → azaldılma və sosial reinteqrasiya planı hazırlanır |

- Narsisistik tip Azərbaycan reallığında xüsusilə nəzarətçi-dominant davranışlarla üst-üstə düşür.
- Proqramda empatiya öyrətmək, tənqidə dözümlülük və hüquqi məsuliyyət barədə məlumatlandırma əsas yer tutur.
- Reabilitasiya yalnız fərdi terapiya ilə deyil, həm də probasiya nəzarəti + ailə seansları + hüquqi maarifləndirmə ilə daha effektiv ola bilər.

**Şəxsiyyətin antisosial deqradasiyası**

Şəxsiyyətin antisosial deqradasiyası (ASPD) DSM-5 və ICD-11 tərəfindən tanınan klinik diaqnozdur. Bu pozuntu başqalarının hüquqlarını davamlı şəkildə pozma, empatiya çatışmazlığı, manipulyativ davranışlar və sosial normalara uyğun gəlməmə ilə xarakterizə olunur. Adətən, uşaqlıq dövründə davranış pozuntusu əlamətləri ilə başlayır və 18 yaşdan sonra ASPD diaqnozu qoyula bilər.

**İzah:** DSM-5 , Amerika Psixiatriya Assosiasiyası tərəfindən hazırlanmış psixi pozuntuların diaqnostik və statistik təlimat kitabıdır. Bura, şəxsiyyət pozuntuları (narsisistik, sərhəd tipli və s.), şizofreniya spektri və digər psixotik pozuntular, depressiv və bipolyar pozuntular, anksiyete (həyəcan) pozuntuları, Ttravma və stresslə bağlı pozuntular (PTSD daxil olmaqla), obsesiv-kompulsiv spektr pozuntuları, uşaqlarda inkişaf pozuntuları (autizm, DEHB və s.), maddə istifadəsi və asılılıqlar, dissosiativ, somatoform və digər nadir pozuntular aiddir.

ICD-11 (Xəstəliklərin Beynəlxalq Təsnifatı, 11-ci versiya)-dır. ÜST tərəfindən hazırlanmış qlobal diaqnostik təsnifat sistemidir. ICD-11 və DSM-5 arasında fərqlər ondan ibarətdir ki, ICD-11, ÜST tərəfindən hazırlanıb, beynəlxalq istifadə üçün nəzərdə tutulub və bütün xəstəlikləri əhatə edir. DSM-5 isə yalnız psixi pozuntulara fokuslanıb, əsasən ABŞ və bəzi Qərb ölkələrində klinik praktikada geniş tətbiq edilir. ICD-11 və DSM-5 mümkün qədər uyğunlaşdırılıb, amma bəzi anlayış və təsnifatlarda fərqlər qalır.

**Əsas xüsusiyyətləri**

Empatiya çatışmazlığıdır. Antisosial şəxsiyyət pozuntusu olan şəxslərdə başqalarının hisslərini dərk etməmək, vicdan əzabı hiss etməmək kimi xüsusiyyətlərə malikdir. Onlarda, aqressivlik və impulsivlik baş verməsi tez-tez fiziki zorakılıq, əsəb partlayışları ilə nəticələnir. Bu tip şəxlər sosial və hüquqi normalara qarşı çıxmaqla, tez- tez qanun pozaraq krminal davranışlar nümayiş etdirir Münasibətlərindəki manipulyasiya əsasən yalan və aldatma yolu ilə şəxsi məqsədlər üçün istifadə edilir. İş və ailə öhdəliklərinə qarşı kiayət qədər laqeyd olurlar. Nnarkotik istifadəsi, təhlükəli davranışlar onları rsikli davranış kateqoriyasına aid edir.

**Yaranma səbəbləri və risk faktorları**

Tədqiqatlar göstərir ki, ASPD-də genetik meyllilik əhəmiyyətlidir. İkiz tədqiqatlarında (riskin 50%-ə qədər genetik komponentlə bağlı olduğu aşkarlanıb. İkiz tədqiqatları genetik faktorların və ətraf mühitin insan davranışına, psixoloji xüsusiyyətlərinə və xəstəliklərin inkişafına hansı dərəcədə təsir etdiyini öyrənmək üçün aparılır

Prefrontal korteksin zəif fəaliyyəti və amigdala disfunksiyası impuls nəzarətində pozulmaya səbəb olur[160]. Prefrontal korteks (PFC) beynin ön payının (frontal lobun) ən qabaq hissəsində yerləşən, insan idrakı, emosional tənzimləmə və sosial davranış üçün ən vacib bölgələrdən biridir ki, bu da nevroloji faktorların mövcudluğundan xəbər verir.

Fiziki, emosional zorakılıq, valideyn laqeydliyi, erkən deviant davranış uşaqlıq travmalırının nəticəsi kimi qiymətləndirilir. Bizim reallıqda əksər vaxt uşaq vaxtı uşaqlara qarşı fiziki və psixoloji zorakılıq tərbiyə metodu kimi tətbiq edilir, lakin əksər valideynlər anlamır ki, bu davranışlar uşaqlarda trvama olaraq qalır, yetkinlik yaşlarında deviant davranışa çevrilir.

Sosial-iqtisadi çətinliklər, kriminal mühit, qeyri-sabit ailə mühiti sosial amillər kimi qiymətləndirilir.

**Diaqnostik meyarlar (DSM-5 əsasında)**

ASPD diaqnozu üçün aşağıdakılardan ən azı 3 meyar olmalıdır:

1. Sosial normalara əməl etməmək, qanun pozuntuları.
2. Yalan və manipulyasiya.
3. İmpulsivlik və planlaşdırma çətinlikləri.
4. Aqressivlik və zorakı davranış.
5. Məsuliyyətsizlik (iş, maliyyə və ailədə).
6. Başqalarına zərər vurduqda peşman olmamaq.

**Epidemiologiya**

Antisosial şəxsiyyət pozuntusu olanların, ümumi əhali arasında göstəriciləri təxminən 1–4% təşkil edir. Kişilərdə qadınlara nisbətən daha çox qeyd edilən diaqnoz (təxminən 3:1 nisbətində)müəyyən edilir. Həbsdə olan şəxslər arasında ASPD yayılması (təxminən 40–70%)[161] daha yüksəkdir.

**Müalicə və reabilitasiya**

- Psixoterapiya: Koqnitiv-davranış terapiyası (CBT), Dialektik Davranış Terapiyası (DBT), Travma-yönümlü terapiyalar.
- Farmakoterapiya: Spesifik dərman yoxdur, lakin impulsivliyi azaltmaq üçün antipsikotiklər və SSRI-lar istifadə edilə bilər.
- Reabilitasiya proqramları: Sosial bacarıqların inkişafı, qəzəb idarəetməsi təlimləri, kriminal davranışın dəyişdirilməsinə yönəlmiş

[160] Blair, R. J. R. (2013). The neurobiology of psychopathic traits in youths. *Nature Reviews Neuroscience*, 14(11), 786–799.

[161] Fazel, S., & Danesh, J. (2002). Serious mental disorder in 23,000 prisoners: a systematic review. *The Lancet*, 359(9306), 545–550.

müdaxilələr.

- Çətinliklər: Pasiyentlərin müalicəyə motivasiyası zəif olur; empatiya çatışmazlığı səbəbindən terapiyaya müqavimət göstərirlər.

ASPD olan şəxslər məişət zorakılığı, küçə cinayətləri, narkotik aludəçiliyi və insan alveri şəbəkələrində daha çox müşahidə olunur. Sosial işçilər və psixoloqlar üçün ən böyük problem təhlükəsiz ünsiyyətin qurulması və təkrar zorakılığın qarşısını almaqdır. Beynəlxlaq tədqiqatlarda, ASPD xüsusiyyətlərinə malik şəxslərin nəzarətçi-dominant zorakılıq törədən profillə üst-üstə düşdüyü göstərilir.

**Şəxsiyyətin antisosial deqradasiyası üçün DSM-5 meyarları**

ASPD diaqnozu qoymaq üçün şəxs 18 yaşdan yuxarı olmalı və uşaqlıqda davranış pozuntusu tarixi olmalıdır. Bundan əlavə, aşağıdakı 7 meyardan ən azı 3-ü mövcud olmalıdır:

1. Sosial normalara əməl etməmək -dəfələrlə qanun pozuntuları.
2. Yalan danışmaq, manipulyasiya və aldatma.
3. İmpulsivlik və planlaşdırma çətinliyi.
4. Aqressivlik və zorakı davranış (döyüşlər, hücumlar).
5. Öz təhlükəsizliyini və başqalarının təhlükəsizliyini saymamaq.
6. Daimi məsuliyyətsizlik (işdə, maliyyə öhdəliklərində).
7. Başqalarına zərər vurduqda peşman olmamaq və vicdan əzabı çəkməmək.

**Şəxsiyyətin antisosial deqradasiyası üçün reabilitasiya sxemi**

| **Mərhələ** | **Məqsəd** | **Metod və alətlər** | **Məsul tərəf** |
|---|---|---|---|
| 1. İlkin qiymətləndirmə | Risk dərəcəsini və psixoloji vəziyyəti müəyyənləşdirmək | - Psixiatrik müsahibə - **HCR-20**, **PCL-R** (psixopatiya və risk testləri) -Travma və komorbidlik skrininqi | Psixoloq, psixiatr |
| 2. Motivasiya və etimad yaratmaq | Müalicəyə müqaviməti azaltmaq, iştirakçını prosesə cəlb etmək | - Motivasiya yönümlü müsahibə (MI) -Kiçik və real hədəflərin qoyulması -Qanun pozuntularının nəticələri haqqında psixoedukasiya | Psixoloq, sosial işçi |
| 3. Psixoloji terapiya | Davranış və düşüncə dəyişikliklərini təmin etmək | - Koqnitiv-Davranış Terapiyası (CBT) - Dialektik Davranış Terapiyası (DBT) - | Psixoloq, psixoterapevt |

| | | | |
|---|---|---|---|
| | | Qəzəb idarəetməsi təlimi -Travma yönümlü terapiya | |
| 4. Sosial bacarıqların İnkişafı | Sosial uyğunlaşmanı artırmaq, aqressiv davranışların qarşısını almaq | - Rol oyunları və empatiya məşqləri - Zorakılıqsız ünsiyyət texnikaları - Konfliktlərin həlli - Qrup terapiyası | Sosial işçi, psixoloq |
| 5. Tibbi müdaxilə | Aqressiya və impulsiv davranışların azaldılması | - SSRI-lar (impulsivliyi azaltmaq üçün) - Antipsikotiklər (aqressiv epizodlarda) -Asılılıq varsa -narkotikdən azad proqramlar | Psixiatr |
| 6. Sosial reabilitasiya və reinteqrasiya | Təkrar zorakılığın və cinayətin qarşısını almaq, cəmiyyətə uyğunlaşdırmaq | - Sosial müşayiət və nəzarət -Peşə hazırlığı və işə yönləndirmə - Ailə ilə psixoedukasiya və təhlükəsizlik planı - Sosial xidmət və QHT dəstəyi | Sosial işçi, dövlət qurumları, QHT-lər |

**Əlavə izah:**

ASPD xüsusiyyətli şəxslər çox vaxt məişət zorakılığı törədənlər və ya bir neçə dəfə cinayət törətmiş şəxslər arasında olur. Onlarla işləyərkən, təhlükəsizlik planı sosial işçilər və qurbanlar üçün mütləqdir. Sığınacaq və reabilitasiya mərkəzlərində zorakılıq törədənlərlə ayrıca proqramlar (Batterer Intervention Programs -BIP) tətbiq olunmalıdır. Probasiya xidməti və QHT-lərin reabilitasiya proqramları ilə əməkdaşlıq vacibdir.

**Histrionik və sərhəd şəxsiyyət pozuntuları**

Histrionik şəxsiyyət pozuntusu DSM-5-də "Cluster B" pozuntuları arasında təsnif olunur. Bu pozuntuya sahib şəxslər emosional olaraq ifrat dramatik, diqqət mərkəzində olmaq istəyən və başqalarının rəğbətinə həddindən artıq ehtiyac duyan insanlardır[162] .

[162] American Psychiatric Association. (2013). *DSM-5*.

**Əsas xüsusiyyətləri**

Histronik şəxsiyyət pozuntusu olan şəxslər, daim diqqət mərkəzində olmağa çalışır, Haidsələr və ya söhbətlərində emosiyalarını şişirdilmiş və teatrvari ifadəetməyi sevir. Davranışlarında tez-tez baş verən dəyişkənlik, "rol oynama" meyllərini göstərir. Əksər vaxt cazibədar və ya provokativ davranışlarla diqqət özünə doğru cəmləməyi bacırır. Bəzi hallarda, kənar şəxslər üçün münasibətləri realdan daha yaxın göstərmə meyilləri müşahidə edilir ( məsələn tanınmış bir şəxsə küçədə yaxınlaşaraq, onunla əl verib görüşmək və s). Bu şəxslərdə asanlıqla təsirlənmə və başqalarının təsirinə düşmə halları güclü olur.

**Yaranma səbəbləri**

İkiz tədqiqatlarında emosional ifrat reaksiyaların genetik komponenti təsdiqlənmişdir[163]. Genetik amillərin şəxsin davranışına təsiri ilə bağlı müxtəlif mübahisələrə baxmayaraq

- **Psixodinamik yanaşma:** Uşaqlıqda valideynlərin laqeydliyi, "diqqət əldə etmək" üçün dramatik davranışlar formalaşır.
- **Sosial-mədəni amillər:** Cinsiyyət rolları (xüsusilə qadınlarda daha çox diaqnoz qoyulur).
- **Validеynlik üslubu :**Məsələn, uşağa qarşı sərhədsiz, həddindən artıq bəyənən, inkonsistent (dəyişkən) və dramatik davranışlar, həmçinin valideynin özünün teatral və ya seksual davranışları uşağın diqqət mərkəzi olma ehtiyacını artıra bilər
- **Neyro-bioloji fərqliliklər** (noradrenerjik sistemlərdə yüklənmə
- **Epidemiologiya**

Qeyd edilən xüsusiyyətlərin yayılma dərəcsi 1.5–3% (ümumi əhali) təşkil edir. Qadınlarda kişilərə nisbətən daha çox müşahidə olunur. Kliniki psixiatriya praktikalarında daha çox rast gəlinir[164]

**Sərhəd şəxsiyyət pozuntusu (Borderline Personality Disorder - BPD)**

Sərhəd şəxsiyyət pozuntusu emosiyaların qeyri-sabitliyi, özünü dəyərləndirmədə dəyişkənlik, impulsivlik və intensiv münasibətlərin olması ilə xarakterizə olunur. BPD "Cluster B" pozuntularına daxildir və

---

[163] Livesley, W. J., Jang, K. L., & Vernon, P. A. (1993). Genetic basis of personality disorder. *Archives of General Psychiatry*, 50(11), 789–796.

[164] Paris, J. (2010). Estimating the prevalence of personality disorders in the community. *Journal of Personality Disorders*, 24(4), 405–411.

müasir psixiatriyada ən çox araşdırılan şəxsiyyət pozuntularındandır[165].

**Əsas xüsusiyyətləri**

Sərhəd şəxsiyyət pozuntusu daşıyıcılarında emosional qeyri-sabitlik, hisslərin sürətlə dəyişməsi qeydə alınır. Özünə zərər vurma, xüsusilə emosional və böhran anlarında intihar davranışları müşahidə edilir. Real və ya xəyali tərk edilmədən həddən artıq qorxur. İntensiv və qeyri-sabit münasibətləri ilə, məsələn ideallaşdırma və dəyərsizləşdirmə arasında tez-tez dəyişmə baş verir. Bu şəxslər ciddi kimlik böhranı yaşayır və narkotik istifadəsi, riskli seksual münasibətlər, qumar, alış-veriş kimi riskli davranış sərgiləyirlər.

**Yaranma səbəbləri**

- Bioloji: Serotonin sistemi pozuntuları, frontal və limbik strukturlarda disfunksiya[166] .
- Psixososial: Uşaqlıq dövründə travmalar (emosional və seksual zorakılıq).
- Marşal Linehan'ın Dialektik Davranış nəzəriyyəsi, BPD uşaqlıqda emosiyaların inkar olunduğu mühitdə formalaşır.

**Epidemiologiya**

Sərhəd şəxsiyyət pozuntusu olanlar atasında yayılma faktı 1–2% (ümumi əhali), psixiatriya pasiyentlərinin 10–20%-i dir. Kişi və qadınlarda rast gəlinir, amma kliniki praktikada daha çox qadınlarda diaqnoz qoyulur. İntihar riski yüksək olmaqla təxminən 10% pasiyent intiharla ölür .

**Histrionik və sərhəd şəxsiyyət pozuntuları üçün reabilitasiya sxemi**

| Mərhələ | Məqsəd | Metod və Alətlər | Məsul tərəf |
|---|---|---|---|
| İlkin qiymətləndirmə | Pozuntunun ağırlıq dərəcəsini, intihar riskini və komorbidlikləri müəyyənləşdirmək | - Klinik müsahibə və psixoloji testlər (MMPI, SCID-II) - İntihar riski qiymətləndirmə alətləri - Travma və uşaqlıq tarixi analizi | Psixiatr, psixoloq |
| Motivasiya və etimad | Müalicəyə müqaviməti azaltmaq, şəxs ilə terapevtik əlaqə | - Motivasiya yönümlü müsahibə (MI) - Kiçik və real hədəflərin müəyyənləşdirilməsi - | Psixoloq |

[165] Linehan, M. M. (1993). *Cognitive-Behavioral Treatment of Borderline Personality Disorder*. Guilford Press.

[166] Silbersweig, D., Clarkin, J. F., Goldstein, M., et al. (2007). Failure of frontolimbic inhibitory function in the context of negative emotion in borderline personality disorder. *American Journal of Psychiatry*, 164(12), 1832–1841.

| | | | |
|---|---|---|---|
| | qurmaq | Psixoedukasiya (pozuntunun izahı) | |
| Psixoloji terapiya | Emosiyaların stabilləşməsi və davranış dəyişiklikləri | - DBT (Dialektik Davranış Terapiyası) → xüsusilə BPD üçün effektivdir - CBT (Koqnitiv-Davranış Terapiyası) → HPD üçün effektivdir - Mentalizasiya əsaslı terapiya (MBT) → münasibətlərdə sabitlik - Şema terapiya → uşaqlıqdan gələn “tərk edilmə”, “diqqət ehtiyacı” sxemlərinin işlənməsi | Psixoterapevt |
| Emosional və sosial bacarıqlar | Münasibətlərdə stabillik və sosial uyğunlaşma | - Rol oyunları, empatiya məşqləri - Zorakılıqsız ünsiyyət təlimi - Emosional tənzimləmə texnikaları - Qrup terapiyası (sosial bacarıqların öyrədilməsi) | Psixoloq, sosial işçi |
| Tibbi müdaxilə | Emosional qeyri-sabitlik, depressiya və anksiyetenin azaldılması | - SSRI-lar (emosional qeyri-sabitlik, anksiyete) - Stabilizatorlar (mood stabilizers, məsələn lamotrigin) -BPD üçün - Antipsikotiklər (impulsiv davranışlarda) | Psixiatr |
| Sosial reabilitasiya və reinteqrasiya | Cəmiyyətə uyğunlaşma və stabilliyi təmin etmək | - Sosial müşayiət - Ailə ilə psixoedukasiya və münasibətlərin stabilləşdirilməsi - İşə yönləndirmə və peşə hazırlığı - Təhlükəsizlik planı (BPD üçün intihar riskinin idarəsi) | Sosial işçi, QHT-lər |

**Azərbaycan reallığı üçün qeydlər**

HPD çox vaxt qadınlarda müşahidə olunur, ailədaxili münasibətləri və sosial mühitdə manipulyativ davranışları ön plana çıxır. BPD isə həm qadınlarda, həm kişilərdə müşahidə olunur, amma klinikada qadınlarda daha çox rast gəlinir; intihar və özünə zərər riski yüksəkdir. Sosial xidmətlər və QHT-lər tərəfindən ailə ilə psixoedukasiya və sosial müşayiət

vacibdir. Hər iki qrup üçün qrup terapiyası və sosial bacarıqlar təlimi müsbət nəticə verir.

**Uşaq yaşda travmaların şəxsiyyət pozuntularının yaranmasında rolu**

Uşaq travması / ACEs) -emosional/fiziki/cinsi zorakılıq, laqeydlik, valideyn itkisi və ya ailədaxili disfunksiya (spirt/narkotik, zorakılıq, psixi xəstəlik). Uzunmüddətli təsirlər sinir sisteminin yetişməsinə (amigdala, hipokampus, prefrontal korteks), stress sisteminə (HPA oxu) və bağlanmaya (attachment) təsir göstərir, nəticədə emosional tənzimləmə, impuls nəzarəti, öz-dəyər və münasibət sxemləri formalaşır.

**Yaranma səbəbləri.**

- Bağlanma pozuntusu: emosional laqeydlik və ya qeyri-sabit valideynlik → təhlükəsiz olmayan bağlanma → tərk edilmə qorxusu, ya da "şişirdilmiş özlük" kimi kompensasiya[167]
- Emosional tənzimləmə defisiti: limbik hiperreaktivlik + zəif prefrontal nəzarət → impulsivlik, partlayışlar, disforiya[168] .
- Koqnitiv-sxematik izlər: "mən dəyərsizəm", "yalnız diqqət görəndə qəbul edilə bilərəm", "dünya düşməncildir" kimi əsas inanclar[169] .
- Sosial öyrənmə və möhkəmləndirmə: ailədə zorakılıq/dramatik davranış modellərinin müşahidəsi və mükafatlandırılması.
- GxE (gen–mühit) qarşılıqlı təsiri: genetik meyllər travmatik mühitdə ifadəsini artırır[170] .

Pozuntu-spesifik icmal

A) Narsisistik şəxsiyyət pozuntusu (NPD)

Travma profili: emosional laqeydlik, utandırma/tənqid, qeyri-sabit sevgi; bəzən paradoksal olaraq həddən artıq ideallaşdırma/overvaluation (real istilik olmadan).

Mexanizm: "narsisistik zədə"nin kompensasiyası üçün şişirdilmiş öz-dəyər, təsdiqə asılılıq, empatiya defisiti.

Dəlil:

Uşaqlıqda valideynin uşağı reallıqdan artıq idealizə etməsi, gələcək narsisizmi proqnozlaşdırır, sağlam valideyn sevgisi uşaqlarda sağlam

[167] Bowlby, J. (1988). A Secure Base.

[168] Silbersweig, D., et al. (2007). Frontolimbic inhibitory failure in BPD. Am J Psychiatry, 164, 1832–1841.

[169] Linehan, M. (1993). Cognitive-Behavioral Treatment of BPD.

[170] Caspi, A., et al. (2002). Role of genotype in the cycle of violence. Science, 297, 851–854.

özünə-hörməti proqnozlaşdırır (narsisizmi deyil) artırır[171]. Emosional laqeydlik və alçaldıcı tənqid ilə narsisistik sxemlər arasında assosiasiyalar yaradır[172]. Psixodinamik çərçivədə, erkən qarışıq sevgi+inciklik (ambivalentlik), daxili ağrı və utanc, "mən həmişə üstünəm" maskası (yüksək mən) yaranır [173] .

Praktik nəticə: reabilitasiyada həqiqi empatik əlaqə + öz-dəyəri xarici təsdiqdən daxili dəyərə keçirmə; mentalizasiya və empatiya məşqləri.

**Şəxiyyətin antisosial deqradasiyası (ASPD)**

Travma profili: fiziki/emosional zorakılıq, kəskin laqeydlik, erkən itkilər; tez-tez erkən davranış pozuntusu.

Mexanizm: zəif icraedici nəzarət (prefrontal), amigdala reaktivliyi azlığı/callous-unemotional xüsusiyyətlər, düşmənçilik atribusiyası; sosial mühitdə zorakılığın modellənməsi; G×E (MAOA) riski

Uşaqlıq zorakılığı/laqeydliyi → yetkinlikdə cinayətkarlıq və ASPD riski[174].

- İkiz meta-analizi: antisosial davranışda əhəmiyyətli genetik + ətraf mühit payı[175].
- Həbsxana mühitində ASPD yüksək yayılır; travma tarixi geniş yayılmışdır

Praktik nəticə: risk yönümlü qiymətləndirmə (HCR-20), impuls və aqressiya tənzimi, maddə asılılığı ilə paralel müdaxilə, sosial öyrənmə əsaslı proqramlar.

- Uşaqlıq dövründə yaşanan emosional laqeydlik, zorakılıq, valideyn itkisi, təhqir, cinsi istismar və stabil olmayan ailə mühiti şəxsiyyətin formalaşmasına uzunmüddətli təsir göstərir.
- Beyin inkişafı: Travmalar hipokampus, amigdala və prefrontal korteksdə neyrobioloji dəyişikliklər yaradır ki, bu da impulsivlik,

---

[171] Brummelman, E., et al. (2015). Parental overvaluation predicts narcissism. PNAS, 112(12), 3659–3662.

[172] Otway, L. J., & Vignoles, V. L. (2006). Childhood experiences and two narcissisms. Personality and Social Psychology Bulletin, 32, 104–116.

[173] Kernberg, O. (1975). Borderline Conditions and Pathological Narcissism.

[174] Widom, C. S. (1989, 2007). Prospective studies of abused/neglected children and later outcomes.

[175] Rhee, S. H., & Waldman, I. (2002). Genetic/environmental influences on antisocial behavior (meta-analysis). *Psychological Bulletin*, 128, 490–529.

emosional qeyri-sabitlik və empatiya çatışmazlığına gətirib çıxarır[176] .

• Psixososial təsir: Uşaqlıq travmaları nəticəsində formalaşan "təhlükəli bağlanma" (insecure attachment) gələcəkdə özünü dəyərləndirmə problemləri və münasibətlərdə qeyri-sabitliklə nəticələnir[177]

**Histrionik şəxsiyyət pozuntusu (HPD)**

Histrionik şəxsiyyət pozuntu daşıyıcılarında, emosional laqeydlik, qeyri-sabit/inkonsistent valideynlik (bəzən dramatik ifadələr mükafatlandırılır), ailədə sərhədlərin qarışması; bəzi araşdırmalarda erkən cinsi sərhəd pozuntuları halalrı qeydə alınır.

Bu şəxslərdə, diqqət və təsdiqə yüksək ehtiyac; "dramatik ifadə" sosial möhkəmləndirmə ilə sabitləşir; ambivalent/ələ keçirici bağlanma nümunələri[178] artır.

HPD-də emosional laqeydlik və inkonsistent möhkəmləndirmə ilə əlaqə göstərən klinik və psixodinamik ədəbiyyat; icma səviyyəsində dəlil bazası BPD/ASPD qədər güclü olmasa da, istiqamət eynidir[179].

Praktik nəticə: emosional tənzimləmə, autentik ünsiyyət bacarığı, diqqət ehtiyacının sağlam kanallara yönəldilməsi (CBT/şema, MBT, qrup terapiyası) müsbət nəticə verir.

**Sərhəd şəxsiyyət pozuntusu (BPD)**

Sərhəd şəxsiyyət pozuntusu daşıyıcıları, ən güclü və ardıcıl əlaqə emosional laqeydlik və istismar (emosional, fiziki, cinsi) xüsusiyyətləri ilə seçilir. Bu şəxslər, etibarsız/inkar edən mühit, yüksək həssas temperament, emosional tənzimləmə defisiti, tərk edilmə qorxusu, dissosiasiya halları yaşayır. Neyro-səviyyədə frontolimbik tənzimləmə çatışmazlığı müşahidə edilir.

BPD olanlarda 60–80%-i uşaq travması qeydə alınır. Onlarda emosional istismar/laqeydlik ən güclü proqnoz verənlərdir[180].

• Uşaq zorakılığı/laqeydliyinin beyin quruluşu/funksiyasına davamlı

---

[176] Teicher, M. H., & Samson, J. A. (2016). Annual research review: enduring neurobiological effects of childhood abuse and neglect. *Journal of Child Psychology and Psychiatry,* 57(3), 241–266

[177] Bowlby, J. (1988). *A Secure Base: Parent-Child Attachment and Healthy Human Development*.

[178] Bornstein, R. F. (1996). Dependency & HPD. *Journal of Personality Disorders,* 10, 7–21.

[179] Westen, D., & Shedler, J. (1999). Revising PD diagnosis. *American Journal of Psychiatry,* 156, 258–272.

[180] Zanarini, M. C., et al. (2000). Pathological childhood experiences and BPD. *Am J Psychiatry,* 157, 953–959

təsirləri .

• Meta-analitik ədəbiyyat travma–BPD əlaqəsini ardıcıl təsdiqləyir.

Praktik nəticə: DBT/MBT/şema terapiyası; travma-yönümlü müdaxilələr (TF-CBT/EMDR); təhlükəsizlik planı və özünə-zərər riskinin idarəsi.

| Travma növü | Əsas mexanizm(lər) | NPD | ASPD | HPD |
|---|---|---|---|---|
| Emosional laqeydlik | Təhlükəsiz olmayan bağlanma; "dəyərsizəm/ancaq diqqətlə dəyərliyəm" sxemi | ●● | ● | ●●● |
| Emosional istismar/təhqir | Utanc, öz-dəyərin çökməsi, dissosiativ müdafiələr | ●● | ● | ●● |
| Fiziki zorakılıq | Düşmənçilik atribusiyası, aqressiya, impuls | ○ | ●●● | ○ |
| Cinsi istismar | Sərhəd pozuntusu, dissosiasiya, münasibətlərin qeyri-stabilliyi | ○ | ● | ●● |
| Ailədaxili disfunksiya (spirt/narkotik, zorakılıq) | Model öyrənmə, qeyri-sabitlik | ● | ●●● | ●● |

Qeyd: ● -zəif/orta; ●● -orta; ●●● -güclü/ardıcıl əlaqə (ədəbiyyat trendlərinə əsaslanan keyfiyyət göstərici).

Zorakılıq davranışlarının tiplərinə nəzər saldıqda, onların dəyişdirilmə imkanları arasında mühüm fərqlər görmək olar. Normativ və ya ənənəvi (mental vərdişli) zorakılıq çox zaman ailə və cəmiyyət daxilində nəsildən-nəsilə ötürülən davranış modelinə əsaslanır. Bu tip zorakılıq mədəni kodların və sosial normaların təsiri ilə formalaşdığı üçün, onun transformasiyası da məhz mədəni maarifləndirmə, ictimai kampaniyalar və sosial proqramlarla daha real görünür. Yəni belə davranışın dəyişdirilməsi üçün fərdi psixoloji müdaxilə ilə yanaşı, geniş miqyaslı sosial və mədəni təsir mexanizmləri kifayət qədər effektiv ola bilir.

Bunun əksinə olaraq, ideoloji–mizogin zorakılıq artıq daha dərin qatlara -qadına qarşı köklü nifrət, qərəz və düşmənçilik ideologiyasına əsaslanır. Bu tip davranışlar fərdi inancların, siyasi-dini ideologiyaların, gender stereotiplərinin və misoginiyanın təsiri ilə möhkəmlənir. Bu səbəbdən də onun dəyişdirilməsi sadəcə mədəni tədbirlərlə deyil, daha uzunmüddətli və kompleks strategiyalarla -ideoloji de-konstruksiya, gender bərabərliyi təhsili, hüquqi çərçivələr və psixososial reabilitasiya proqramları ilə mümkündür. Sahə üzrə tanınmış tədqiqatçıalardan Michael P. Johnson -zorakılıq tipologiyasında *"ailədaxili situativ zorakılıq"* (normativ/ənənəvi məişət zorakılığı) ilə *"patriarxal terror"* (ideoloji-mizogin zorakılıq) arasında fərq qoyur. O göstərir ki, birinci hal daha çox situativdir və dəyişdirilməsi mümkündür, ikinci hal isə patriarxal ideologiyanın məhsulu olduğu üçün çox çətin transformasiya olunur. Dobash & Dobash-patriarxal strukturların zorakılığın əsas qaynağı olduğunu vurğulayırlar[181]. Onlara görə, ənənəvi zorakılıq müəyyən şərtlərdə dəyişdirilsə də, mizogin zorakılıq gender bərabərsizliyi ideologiyasından qidalandığı üçün daha sərt müdaxilələr tələb edir. Holtzworth-Munroe & Stuart-zorakılıq törədən kişilərin tipologiyasında "yalnız ailədaxili zorakılıq törədənlər" (ənənəvi/normativ) ilə "generally violent–antisocial" və "dysphoric-borderline" tiplərini fərqləndirirlər[182]. Burada "ailə ilə məhdudlaşan" tipin davranışı daha çox sosial-mədəni proqramlarla dəyişdirilə bildiyi halda, digərləri üçün uzunmüddətli psixoloji və sosial reabilitasiya tələb olunduğu qeyd edilir. Walker-"Zorakılıq dövrü" nəzəriyyəsində ənənəvi zorakılığın dövri xarakter daşıdığını və müdaxilə ilə pozula biləcəyini, ideoloji zorakılığın isə dərin patriarxal inamlarla bağlı olduğunu qeyd edir[183].

Beləliklə, müəlliflərin də vurğuladığı kimi, ənənəvi (mental vərdişli) zorakılıq daha çox sosial-mədəni tədbirlərlə dəyişdirilə bilən bir davranış modelidirsə, ideoloji–mizogin zorakılıq isə ideoloji təməli dərin olan, dəyişdirilməsi daha çətin bir zorakılıq tipidir. Bu fərq, hər iki tip üçün reabilitasiya və sosial iş strategiyalarının da fərqli olmasını tələb edir.

---

[181] Dobash, R. E., & Dobash, R. P. (2004). Women's violence to men in intimate relationships: Working on a puzzle. British Journal of Criminology, 44(3), 324–349.
[182] Holtzworth-Munroe, A., & Stuart, G. L. (1994). Typologies of male batterers: Three subtypes and the differences among them. Psychological Bulletin, 116(3), 476–497.
[183] Walker, L. E. (1979). The Battered Woman. Harper & Row.

**Anlayışlar və fərqlər**

**Normativ/Ənənəvi (mental vərdişli) zorakılıq**

Normativ və ya ənənəvi zorakılıq ailə və yaxın münasibətlərdə daha çox müşahidə olunan zorakılıq formasıdır. Bu tip davranış çox zaman mədəniyyətin və mentalitetin təsiri ilə nəsildən-nəsilə ötürülən adətlərin davamı kimi formalaşır. Belə zorakılıq hallarına bəzən "ailədaxili qayda" və ya "nizam-intizam" adı altında sosial legitimlik qazandırılır. Burada məqsəd qadına qarşı sistemli nifrət deyil, daha çox ənənədən qaynaqlanan davranış vərdişidir.

Məhz bu səbəbdən normativ zorakılıq çox zaman sosial-mədəni müdaxilələrlə dəyişdirilə bilir. Maarifləndirmə proqramları, gender bərabərliyi təhsili və ailə institutunu dəstəkləyən sosial tədbirlər bu tip zorakılığın qarşısının alınmasında effektiv mexanizmlər hesab olunur.

Johnson bu davranışı *"ailədaxili situativ zorakılıq"* anlayışı ilə xarakterizə edir və qeyd edir ki, bu tip zorakılıq əsasən situativdir, münasibətlərdə yaranan mübahisə və gərginliklərdən doğur. Buna görə də onun transformasiyası daha asandır. Holtzworth-Munroe və Stuart da "yalnız ailədaxili zorakılıq törədən şəxslər" kateqoriyasını məhz bu qrupa aid edir və vurğulayırlar ki, belə şəxslərin davranışında dəyişiklik sosial və mədəni proqramlarla əldə oluna bilər.

Nəticə etibarilə, normativ zorakılıq dərin ideoloji nifrətdən qaynaqlanmadığı üçün onun dəyişdirilməsi daha real görünür.

**Xüsusiyyətlər:**

- Ənənədən və sosial normalardan qaynaqlanır.
- Çox vaxt situativdir (münasibətlərdə yaranan gərginlikdən doğur).
- Davranış dəyişiklikləri sosial-mədəni tədbirlərlə mümkündür.
- Daha çox "ailədaxili mübahisələrin zorakı həlli" kimi ortaya çıxır.

**İdeoloji–mizogin zorakılıq**

İdeoloji–mizogin zorakılıq qadına qarşı sistemli nifrət, qərəz və patriarxal ideologiyanın təsiri ilə formalaşmış zorakılıq formasıdır. Bu halda zorakılıq sadəcə ailədaxili mübahisələrdən deyil, qadını nəzarətdə saxlamaq və onun dəyərini alçaltmaq məqsədli ideoloji mövqedən qaynaqlanır.Bu halda zorakılıq artıq sadəcə vərdiş deyil, qadını nəzarətdə saxlamağa və onun insanlıq dəyərini aşağılamaga yönəlmiş sistemli davranış modelidir.

Dobash zorakılığın əsas səbəbini patriarxal strukturda görərək qeyd edir ki, bu tip zorakılıq *"Güc və nəzarət"* münasibətlərinin nəticəsidir. Onların fikrincə, belə davranışın dəyişdirilməsi yalnız maarifləndirmə ilə mümkün deyil, hüquqi çərçivələr, gender siyasəti və dərin ideoloji

transformasiya tələb edir.

Johnson bu fenomeni *“patriarxal terror”* adlandıraraq göstərir ki, mizogin zorakılıq sistematik və məqsədyönlüdür. Bu anlayış qadına qarşı sistemli, davamlı və məqsədyönlü zorakılıq formasını təsvir edir. Zorakılıq təkcə ailədaxili mübahisələrdən doğmur, qadını nəzarətdə saxlamağa, onun üzərində tam güc və nəzarət qurmağa yönəlmiş ideoloji davranış kimi təzahür edir. Burada zorakılığın hədəfi qadının həyatına tam nəzarət etməkdir. Johnson-un tipologiyasında bu, “common couple violence” (ailədaxili situativ zorakılıq) ilə müqayisədə daha sərt və dəyişdirilməsi çətin olan formadır. Walker isə “zorakılıq dövrü” nəzəriyyəsində göstərir ki, bu zorakılıq tipinin kökləri patriarxal inanclarda dərin şəkildə yerləşir və onun dəyişdirilməsi çox daha çətindir.

Beləliklə, ideoloji–mizogin zorakılıq ən çətin dəyişdirilə bilən zorakılıq formasıdır. Onun transformasiyası üçün hüquqi mexanizmlər, feminist yanaşmalar, gender bərabərliyi siyasətləri və uzunmüddətli psixososial reabilitasiya proqramları tələb olunur.

**Xüsusiyyətləri:**

- Patriarxal ideologiya və misoginiyadan qidalanır.
- Sistemli, məqsədyönlü və davamlıdır.
- Fərdin inancları, dini-siyasi baxışları və gender stereotipləri ilə güclənir.
- Dəyişdirilməsi çətindir və kompleks müdaxilə (hüquqi, psixososial, ideoloji transformasiya) tələb edir.

Müəlliflərin yanaşmalarından göründüyü kimi:

- Normativ zorakılıq – sosial və mədəni normaların təsiri ilə formalaşır və maarifləndirmə, sosial proqramlarla dəyişdirilə bilər.
- İdeoloji–mizogin zorakılıq – qadına qarşı sistemli nifrət və patriarxal ideologiyaya əsaslanır, dəyişdirilməsi isə daha mürəkkəbdir və uzunmüddətli, kompleks müdaxilə tələb edir.

**Normativ/ənənəvi zorakılığın reabilitasiya proqramları**

Bu qrup üçün dünyada daha çox maarifləndirmə və davranış dəyişikliklərinə yönəlmiş proqramlar tətbiq edilir. Ən geniş yayılmış modellər:

- Cognitive-Behavioral Therapy (CBT -Bilişsel-Davranış Terapiyası): Zorakı davranışın düşüncə və emosiyalarla əlaqəsini anlamaq və onu dəyişmək üçün istifadə olunur.
- Anger Management Programs (Qəzəb idarəetmə proqramları): Ailə mübahisələrində emosiyaların idarə olunmasına yönəlir.
- Duluth Model (Minnesota Domestic Abuse Intervention Project):

Gender bərabərliyi, güc və nəzarət dinamikasının izahı və alternativ davranış bacarıqlarının öyrədilməsi.

- Communication & Conflict Resolution Skills Training (Ünsiyyət və münaqişə həlli təlimləri): Cütlüklərə zorakılıqsız ünsiyyət və problem həll etmə üsullarını öyrədir.

Tədqiqatlar göstərir ki, bu tip zorakılıq törədənlərdə dəyişiklik əldə etmək mümkündür və nəticələr orta səviyyədə pozitivdir. Çünki onların zorakılığı dərin ideoloji nifrətdən deyil, situativ gərginlikdən qaynaqlanır.

**İdeoloji–mizogin zorakılığın reabilitasiya proqramları**

**Proqramlar:**

Bu qrup üçün reabilitasiya daha çətin və kompleksdir. Dünyada tətbiq olunan əsas yanaşmalar:

- Duluth Model – Güc və Nəzarət çarxı: Lakin tədqiqatlar göstərir ki, ideoloji zorakılıqda bu modelin təsiri məhduddur.
- Long-term Psychotherapy (Uzunmüddətli psixoterapiya): Xüsusilə misoginiyanı və qadına qarşı nifrəti azaltmaq üçün psixodinamik və ya bilişsel-davranış yönümlü terapiyalar.
- Restorative Justice Programs (Bərpaedici ədalət proqramları): Bəzi ölkələrdə zorakı şəxsin məsuliyyət daşımasını və cəmiyyətə hesab verməsini təmin etmək üçün tətbiq olunur.
- Legal Sanctions + Rehabilitation (Hüquqi sanksiya və reabilitasiya birgə): Bu qrup üçün ən effektiv yol qanuni məhdudiyyətlərlə yanaşı psixososial reabilitasiya tədbirlərinin paralel aparılmasıdır.

Araşdırmalar göstərir ki, ideoloji–mizogin zorakılıq törədənlərin reabilitasiyası ən çətin sahədir**.** Onlar daha çox proqramlardan yayınır, dəyişməyə müqavimət göstərirlər. Effektivlik səviyyəsi çox aşağıdır. Əksər hallarda təkrar zorakılıq riski yüksək qalır.

| Addım / Həftə | Məqsəd | Məzmun & fəaliyyətlər | Alətlər / tapşırıqlar | Çıxış (göstərici) |
|---|---|---|---|---|
| İlkin skrininq (başlanğıc) | Risk və profilin müəyyənləşdirilməsi | Hüquqi status, partnyor təhlükəsiz-liyi, risk (yenidən zorakılıq ehtimalı) | ASI, GEM, RPQ, maddə skrininqi; təhlükəsizlik planı; razılıq/məxfilik | Başlanğıc skorlar, risk kateqoriyası, yazılı məsuliyyət müqaviləsi |
| İstiqamətlən-dirmə / məsuliyyət | “Mən cavabdehəm” çərçivəsi | Proqram qaydaları, pozuntuya | Məsuliyyət bəyannaməsi; davranışın zərəri | İmzalanmış müqavilə; “məqsəd |

| | | | | |
|---|---|---|---|---|
| | | sanksiya; “səbəb yox, seçim” prinsipi | xəritəsi | kartı” |
| Güc–Nəzarət dairəsi | Nəzarət strategiyalarını tanımaq və dayandırmaq | Power & Control modeli, nümunələr (izləmə, maliyyə, sosial izolasiya) | Öz davranışlarının xəritəsi; “qırmızı siqnallar” siyahısı | Nəzarət davranışlarının siyahısı + dayandırma planı |
| Gender normları və ideoloji inamların auditi | Düşmənçi/benevolent seksizmin sökülməsi | “Kişilik/nədir?” müzakirəsi; qadın perspektivindən hekayələr | Sokratik suallar, dəlil–əleyhdəlil cədvəli; ASI alt-maddələrinin işlənməsi | Yenilənmiş inam cədvəli; ASI-də mikrodəyişmə |
| Ədalət düşüncəsinin (entitlement) yenidən qurulması | “Mənim haqqımdır” narrativinin dəyişməsi | Koqnitiv yenidənqurma; sərhədlər və razılıq | “Düşüncə–hiss–davranış” ABC; razılıq ssenariləri | Yeni düşüncə skriptləri; sərhəd razılaşması |
| Empatiya və mentalizasiya | Zərərçəkmişin perspektivindən görmə | Perspektiv məşqləri, rollar; zərərin çoxsəviyyəli təsiri | “Məktub yaz (göndərilməyəcək)”; empatiya miqyası | Empatiya ballarında artım; zərər xəritəsi tamamlanıb |
| Ünsiyyət və sərhəd bacarıqları | Aqressiyasız, konkret ünsiyyət | “Mən-mesajları”, aktiv dinləmə, münaqişə addımları | Rol oyunları; “time-out” protokolu; sərhəd cümlələri | Qaynar vəziyyətdə 3 addım tətbiqi (məşq protokolu) |
| Rəqəmsal zorakılıq və izləmə | Onlayn nəzarətin dayandırılması | Telefon/ şəbəkə sərhədləri; GPS/şifrə etikası | “Rəqəmsal davranış kodeksi”; real-time audit | Qayda pozuntusuz izləmə; rəqəmsal jurnal təmizdir |
| Qəzəb və impuls idarəsi (dəstək | Alovlanma nöqtələrini söndürmək | Tetik xəritəsi; fizioloji sakitləşdirmə | STOP, TIPP, 4-7-8 nəfəs, grounding | Öz-ziyarət kartı; epizodların |

| | | | | |
|---|---|---|---|---|
| modulu) | | | | intensivliyinin enməsi |
| Maddə istifadəsi və risk | Maddə–zorakılıq əlaqəsini kəsmək | Trigerlər, alternativlər; yönləndirmə | Maddə planı; funksional analiz (ABC) | Ayıqlıq hədəfi; test/jurnal nəticələri |
| 10. Hüquqi maarifləndirmə və nəticələr | Məsuliyyətin gücləndirilməsi | Qoruyucu qərarlar, probasiya qaydaları | Hüquqi brif; pozuntuya cavab pillələri | Pozuntusuz dövr; yoxlama iştirak protokolu |
| Düzəliş və təmir yönümlü addımlar | Zərərin tanınması və davranışın düzəldilməsi | Təmir addımları (kontaktsız!), valideyn/ailə rolu | "Əvəzləmə planı" (maliyyə, məsul işlər); ailə psixoeduk. | Təmir planı yazılı; qurbanla birbaşa təmas YOX |
| Saxlama və relapsın qarşısı | Davamlı dəyişimin qorunması | Risk ssenariləri, dəstək şəbəkəsi, böhran planı | "Əgər–onda" (implementation intentions); aylıq öz-ölçmə | 3–6–12 aylıq izləmə planı; ASI/GEM təkrar ölçmə |

**İzləmə və nəticə göstəriciləri**

• İlkin–12-ci həftə–3/6/12 ay: ASI/GEM skorlarında azalma, nəzarət davranışlarının sayı, rəqəmsal pozuntu halları, pozuntusuz iştirak, probasiya şərtlərinə riayət, qurban tərəfdə qorxu və risk göstəriciləri (xidmət qeydləri ilə).

Qısa qeydlər

• Yüksək "soyuq/merhəmətsiz" (callous–unemotional/psixopatik) nüvə olanda davranış dəyişikliyi məhdud ola bilər; prioritet təhlükəsizlik və hüquqi nəzarətdir.

• Proqram ən yaxşı qrupla (həftəlik 90 dəq) + hüquqi/probasiya inteqrasiyası ilə işləyir; vacib hallarda fərdi seanslar əlavə edilir.

İdeoloji–mizogin zorakılıq qadına qarşı sistemli və düşmənçilik üzərində qurulmuş ən sərt formalarından biri hesab olunsa da, müasir tədqiqatlar göstərir ki, bundan da daha ağır və təhlükəli bir qrup mövcuddur. Söhbət zorakılıqdan sadəcə hakimiyyət və nəzarət üçün deyil, birbaşa həzz almaq məqsədilə istifadə edən şəxslərdən -sadistik zorakı

qrupdan gedir. Bu tip şəxslər üçün zorakılıq yalnız nəzarət aləti deyil, həm də psixoloji və bəzən seksual zövq mənbəyidir. Onların davranışı çox vaxt planlı, davamlı və qətlə qədər uzanan ağır cinayət formalarında təzahür edir.

**Zorakılıqdan həzz alan qrup (Sadistik zorakılığa meylli şəxslər)**

Müasir dövrdə zorakılıq fenomeni yalnız güc və nəzarət üzərində qurulmur, bəzi hallarda o, birbaşa zövq və həzz alma motivasiyası ilə müşahidə olunur. Bu qrup zorakılığı birbaşa həzz, zövq və emosional qidalanma üçün törədir. Onların davranışı impulsiv deyil, çox vaxt planlı və davamlıdır. Bu qrup şəxslər "sadistik zorakı şəxslər" kimi tanınır və onların davranışı psixoloji və kriminoloji ədəbiyyatda xüsusi kateqoriya təşkil edir[184]. Qadın qətlləri (femicide), işgəncə xarakterli zorakılıqlar və təkrar cinayətlər bu qrupa aid edilir.

**Sadistik zorakılığın əsas xüsusiyyətləri bunlardır:**

Sadistik qrupa məxsus şəxslər üçün zorakılıq yalnız hakimiyyət və nəzarət üçün deyil, həm də psixoloji və bəzən seksual həzz almaq üçün törədilir. Onların davranışı planlı və davamlıdır, qəfil emosional partlayışdan çox sistematik zorakılıqla bağlıdır. Əksər hallarda qadın qətlləri (femicide), işgəncə xarakterli baş vermiş zorakılıqlar və təkrar cinayətlər bu qrupa aiddir. Bu tip şəxslərin əksəriyyətində antisosial şəxsiyyət pozuntusu, psixopatiya və ya seksual sadizm elementləri müşahidə olunur

**Sadistik zorakılıq qrupuna aid şəxslərin nümunələri müxtəlif ölkələrin hüquqi və kriminoloji praktikasında diqqəti cəlb edir.**

Seriyalı qadın qətlləri (femicide): Müasir dövrdə Latın Amerikası, Türkiyə, Hindistan və digər ölkələrdə qadınların planlı şəkildə öldürülməsi halları geniş tədqiq olunur. Məsələn, qeyd edirlər ki, qadın qətllərinin böyük bir hissəsi sadistik motivlərlə -yəni qadına əzab vermək və ondan həzz almaq məqsədilə törədilir.

Seksual sadistlər: Kriminoloji tədqiqatlarda zorlamadan sonra qadını öldürmək, bədənini işgəncə vasitəsi kimi istifadə etmək nümunələri geniş şəkildə araşdırılıb[185] Bu hallar əsasən "seksual sadizm pozuntusu" diaqnozu ilə bağlıdır

Müasir Avropa və ABŞ nümunələri: Feminist kriminologiya

---

184 American Psychiatric Association. (2013). *Diagnostic and Statistical Manual of Mental Disorders* (5th ed.). Washington, DC.

185 DeKeseredy, W. S., & Dragiewicz, M. (2014). *Routledge Handbook of Critical Criminology*. Routledge.

mütəxəssisləri[186] göstərirlər ki, qadın qətllərinin bir qismi sırf misoginiya və sadistik həzzdən qaynaqlanır. Qadının öldürülməsi "cəmiyyətə mesaj vermək"lə yanaşı, zorakı şəxsin şəxsi ehtiyacını təmin edir.

**Reabilitasiya imkanları**

Bu qrup üçün ənənəvi proqramlar (CBT, Duluth və s.) demək olar ki, təsirsizdir. Çünki zorakılıq onların "mədəni vərdişi" deyil, psixopatik şəxsiyyət quruluşunun bir hissəsidir. Ən çox istifadə olunan yanaşmalar: uzunmüddətli psixiatriya nəzarəti, məcburi psixoterapiya, hüquqi məhdudiyyətlər (uzunmüddətli həbs və ya məcburi müalicə). Effektivlik çox aşağıdır, təkrar cinayət riski yüksək qalır.

Zorakılıqdan həzz alan şəxslər ən təhlükəli qrup hesab olunurlar. Onların davranışı nə yalnız mədəni vərdişlərə, nə də situativ gərginliyə bağlıdır; bu, sadistik və patoloji motivasiya ilə əlaqədar olan zorakılıqdır. Müasir dövrdə qadın qətllərinin (femicide) əhəmiyyətli hissəsi məhz bu qrupun fəaliyyəti ilə bağlıdır. Belə şəxslərin reabilitasiyası son dərəcə məhduddur və əsas yanaşma cəmiyyətin hüquqi müdafiəsi, cinayətkarın izoləsiyası və uzunmüddətli psixiatriya nəzarəti hesab olunur.

**Yekun**

Zorakılıq fenomeninə nəzər saldıqda aydın olur ki, o, vahid bir davranış forması deyil; müxtəlif motivlər, psixoloji meyllər və sosial-ideoloji faktorların təsiri ilə fərqli tipologiyalarda təzahür edir. Həm psixoloji, həm də kriminoloji ədəbiyyat göstərir ki, zorakılıq törədən şəxslərin davranışını impulsiv aqressiyadan başlayaraq sadistik həzz almağa qədər geniş spektrdə təsnif etmək mümkündür.

İmpulsiv–aqressiv tiplər daha çox ani emosional partlayışların məhsulu kimi zorakılığa əl atırlar; nəzarətçi–dominant tiplər isə güc və nəzarəti əlində saxlamaq üçün zorakılığı sistemli bir vasitəyə çevirirlər. Passiv–aqressiv şəxslər zərərverici davranışı dolayı yolla -emosional manipulyasiya və laqeydliklə həyata keçirirlər. İkili şəxsiyyətli tiplərdə isə ictimaiyyət qarşısında və ailədaxili davranış arasında kəskin ziddiyyət müşahidə olunur.

Daha mürəkkəb qruplara gəldikdə, sosiopatik–antisosial zorakı şəxslər yalnız ailə müstəvisində deyil, cəmiyyətin bütün sahələrində zorakılığı həyat tərzi halına gətirirlər. Normativ/ənənəvi zorakılıq isə daha çox mental vərdişlərdən, patriarxal ailə normalarından qaynaqlanır və

---

[186] Radford, J., & Russell, D. E. H. (1992). *Femicide: The Politics of Woman Killing*. Twayne Publishers.

geniş maarifləndirmə proqramları ilə dəyişdirilməsi mümkündür.

Ən çətin və təhlükəli kateqoriyalar sırasında ideoloji–mizogin zorakı şəxslər və sadistik zorakılar dayanır. Birincilər qadına qarşı düşmənçiliyi və patriarxal hökmranlığı ideoloji əsaslandırmaya çevirir, ikincilər isə zorakılıqdan birbaşa həzz alır, davranışlarını planlı və davamlı şəkildə həyata keçirirlər. Bu tiplərin dəyişdirilməsi çox çətindir, reabilitasiya imkanları məhduddur və cəmiyyətin hüquqi müdafiə mexanizmləri daha ön plana keçir.

Psixoedukasiya (psychoeducation) psixi sağlamlıq xidmətlərinin əsas, sübut-əsaslı komponentidir: pasiyent və ailəsinə diaqnozun mahiyyəti, simptomların tanınması, emosianal partlayışların mahiyyəti, müalicə variantları, öz-yardım bacarıqları və hüquqlar barədə strukturlaşdırılmış bilik və bacarıqların öyrədilməsini hədəfləyir. Məqsəd yalnız "məlumat vermək" deyil, həm də öz-effektivliyi, müalicəyə sadiqliyi və gündəlik funksionallığı artırmaq, təkrar travmanın qarşısını almaq və təkrarlama riskini azaltmaqdır[187]

Son 30 ildə psixoedukasiya ən güclü sübut bazasına malikdir: ailə əsaslı psixoedukativ müdaxilələr zorakılıq hallarını və müalicəni azaldır, ailədə **"**expressed emotion" (tənqid, düşmənçilik, hədsiz müdaxilə) səviyyəsini aşağı salır[188]. Eyni zamanda**,** depressiya/anksiyete üçün də bilik+bacarıq paketləri (o cümlədən rəqəmsal formatlarda) simptom yüklənməsini orta ölçüdə azaldır[189].

Vəsitin bu bölməsi göstərir ki, uşaq yaşda travmalar (emosional/ fiziki/cinsi zorakılıq, laqeydlik, ailədaxili disfunksiya) "Cluster B" şəxsiyyət pozuntularının (narsisistik, antisosial, histrionik və sərhəd) etiologiyasında yüksək risk yaradan, lakin deterministik olmayan əsas amillərdir. Travmaların təsiri beyin pozulması, emosional tənzimləmə defisiti, stress sisteminin (HPA oxu) disfunksiyası və frontal–limbik şəbəkələrdə neyrobioloji dəyişikliklər vasitəsilə həyata keçir; nəticədə erkən formalaşan koqnitiv-emosional sxemlər (tərk edilmə qorxusu, grandioz özlük, düşmənçilik atribusiyası, diqqət ehtiyacı) yetkinlikdə stabil davranış nümunələrinə çevrilir .

Uşaq travmaları temperament və genetik meyllərlə qarşılıqlı təsirdə

---

[187] Lukens, E. P., & McFarlane, W. R. (2004). Psychoeducation as EBP. *Brief Treat Crisis Interv*, 4, 205–225.

[188] Colom, F., & Vieta, E. (2004). Psychoeducation in bipolar disorder. *BJPsych*, 184, 532–540.

[189] Donker, T. et al. (2009). Psychoeducation for depression/anxiety (meta-analysis). *BMC Med*, 7, 79.

şəxsiyyətin strukturlaşmasına dərin iz qoyur; nəticədə NPD-də yüksək kompensasiya, ASPD-də zorakı-impulsiv trayektoriya, HPD-də dramatik diqqət axtarışı, BPD-də emosional qeyri-sabitlik və tərk edilmə həssaslığı formalaşa bilər. Elmi dəlil erkən skrininq, travma-məlumatlı, çoxdisiplinar və kontekstə uyğunlaşdırılmış reabilitasiya modellərinin həm klinik nəticələri, həm də cəmiyyət səviyyəsində ziyanı azaltmaq gücünü dəstəkləyir.

Kişi davranış modellərinin təhlili göstərdi ki, zorakılıq sadəcə spontan aqressiyanın nəticəsi deyil, fərqli tipologiyalar, motivlər və psixoloji mexanizmlərlə kodlaşdırılmış davranış nümunəsidir. İmpulsiv-aqressiv tiplərin emosional idarəetmədə çətinlikləri, nəzarətçi-dominant tiplərin güc və hakimiyyət meylləri, sosiopatik-antisosial tiplərin empati çatışmazlığı və passiv-aqressiv modellərin gizli zorakı strategiyaları göstərir ki, zorakılıq çoxşaxəli və müxtəlif "şifrələrlə" ifadə olunur (Holtzworth-Munroe & Stuart, 1994; Murphy & Eckhardt, 2005).

Bu davranış şifrələri yalnız fərdi psixoloji xüsusiyyətlərin nəticəsi deyil, həm də patriarxal mədəniyyətin, gender stereotiplərinin və sosial normaların təsiri ilə möhkəmlənir. Beləliklə, zorakılıq həm sosial strukturlarda, həm də fərdi psixologiyada "kodlaşdırılmış" şəkildə yaşayır.

Lakin burada vacib məqam ortaya çıxır: əgər zorakılıq öyrənilmiş davranış nümunələri və mədəni kodlarla möhkəmlənirsə, onda onların dəyişdirilməsi və transformasiyası da mümkündür. Başqa sözlə, zorakılığın şifrələri dəyişməz deyil; onlar təhsil, reabilitasiya və sosial müdaxilə mexanizmləri vasitəsilə yenidən qurula bilər.

Beynəlxalq təcrübə göstərir ki, Duluth Modeli zorakılıq törədən kişilərin davranışlarının dəyişdirilməsində ən çox tətbiq olunan yanaşmalardan biridir. Bu model zorakılığı "güc və nəzarət dairəsi" üzərində izah edir və kişilərə zorakılığın yalnız fərdi seçim deyil, həm də mədəniyyətlə möhkəmləndirilmiş güc strukturu olduğunu göstərir (Pence & Paymar, 1993).

Bununla yanaşı, Azərbaycan kimi mədəniyyətlərdə reabilitasiya yalnız beynəlxalq modellərlə deyil, həm də yerli sosial və mədəni kontekstin nəzərə alınması ilə daha səmərəli ola bilər. Bu səbəbdən, Duluth yanaşmasının mədəni spektr hibrid modeli ilə birləşdirilməsi, yəni həm beynəlxalq standartlara, həm də yerli adət-ənənələrin reallıqlarına uyğunlaşdırılması vacibdir.

Beləliklə, kişi davranış modellərinin şifrələrindən əldə etdiyimiz nəticələr bizi təbii olaraq növbəti mərhələyə aparır: kodların dəyişdirilməsi və reabilitasiya yolları. Bu mərhələdə biz zorakılıq törədənlər üçün hansı

metodların tətbiq edilə biləcəyini, necə adaptasiya ediləcəyini və Azərbaycan reallığında hansı hibrid modellərin səmərəli ola biləcəyini araşdıracağıq.

**Motivasiya və davranışın dərin mexanizmləri**

İnsanın Davranışı heç vaxt təsadüfi deyil. Hər bir hərəkətin arxasında ya şüurlu məqsəd, ya da şüuraltı təkan dayanır. Bu təkanlara elmi dildə motivasiya deyilir. Motivasiya insanın nə üçün hərəkət etdiyini, niyə müəyyən seçim etdiyini və davranışını hansı istiqamətdə davam etdirdiyini izah edir.

Motivasiya tarixən instinkt və homeostaz izahlarından başlayaraq müasir allostatik (mühiti qabaqlayan tarazlıq) yanaşmalara, sinir şəbəkələri və hesablama modellərinə qədər inkişaf edib. Bu gün davranışı ən yaxşı şəkildə çoxsəviyyəli (bioloji–hesablama–koqnitiv–sosial) çərçivə izah edir: orqanizmin ehtiyac siqnalları, dopaminik "istəmək" (incentive salience) sistemi və proqnoz–xəta siqnalları seçimləri yeniləyir; prefrontal nəzarət bu motivasion çəkini məqsədlə uyğunlaşdırır; sosial norma və kimlik isə niyyəti davranışa çevirir.

**Motivasiya nədir?**

Motivasiya insanın daxili enerjisi və hərəkətverici qüvvəsidir. O, bəzən çox sadə ehtiyaclardan (aclıq, təhlükəsizlik, yaxınlıq ehtiyacı), bəzən isə daha mürəkkəb məqsədlərdən (nüfuz qazanmaq, güc nümayiş etdirmək, ideoloji inancları həyata keçirmək) qaynaqlanır. Məsələn: zorakı davranış bəzən qəzəbin idarə olunmaması (ani emosional motivasiya), bəzən də qadın üzərində hökmranlıq arzusu (ideoloji motivasiya) ilə əlaqəli olur[190].

**Davranışın mexanizmləri**

İnsan davranışı çox zaman üç əsas mexanizmin təsiri ilə formalaşır:

1. Bioloji mexanizmlər -instinktlər, fizioloji ehtiyaclar (məsələn, qorxu və ya aqressiya reaksiyası).
2. Psixoloji mexanizmlər -emosiyalar, travmalar, öyrənilmiş vərdişlər.
3. Sosial-mədəni mexanizmlər -ailə dəyərləri, ənənələr, gender stereotipləri, cəmiyyətin gözləntiləri.

Bu üç mexanizm birlikdə insanın davranışına istiqamət verir. Ona görə də zorakılığın səbəbini yalnız "qəzəb" və ya "pis xasiyyət"lə izah etmək sadəlövh yanaşmadır. Davranışın kökündə daha dərin sosial və

---

[190] Maslow, A. H. (1943). A theory of human motivation. *Psychological Review, 50*(4), 370–396.

psixoloji faktorlar dayanır[191].

**Zorakılıq kontekstində motivasiya**

- Normativ/ənənəvi zorakılıq -mental vərdişlər və patriarxal normaların təsiri ilə “ailə qaydası” adı altında törədilir. Motivasiya - “normal” sayılan davranışı təkrarlamaq.
- İdeoloji–mizogin zorakılıq -qadına qarşı nifrət və üstünlük ideologiyasından qidalanır. Motivasiya -qadını nəzarətdə saxlamaq və “hakimiyyətini təsdiqləmək”.
- Sadistik zorakılıq -birbaşa həzz alma motivasiyası ilə törədilir. Davranış burada zövq və hakimiyyətin birləşməsidir.
- İmpulsiv–aqressiv tip -motivasiya ani emosional boşalmadır. Qəzəbin idarə olunmaması davranışa təkan verir.
- Sosiopatik–antisosial tip -motivasiya sosial qaydaları rədd etmək, güc nümayiş etdirmək və cəmiyyətə meydan oxumaqdır.

Qeyd edilənlərilə bağlı aşağıda daha ətraflı izahlı cədvəl təqdim edilir.

| **Motivasiya növü** | **Tərif** | **Zorakılıqda təzahür forması** | **Müdaxilə / yanaşma** |
|---|---|---|---|
| Emosional motivasiya | Ani hisslərin (qəzəb, qorxu, qısqanclıq) təsiri ilə davranışa təkan verən mexanizm | İmpulsiv–aqressiv tip: ani qəzəb partlayışı, emosional idarə olunmazlıq | Qəzəb idarəetmə proqramları, emosional tənzimləmə bacarıqları |
| Sosial motivasiya | Cəmiyyətin, ailənin və ənənələrin təsiri ilə formalaşan davranış | Normativ/ənənəvi zorakılıq: “ailə qaydası” adı altında legitimləşdirilən zorakılıq | Maarifləndirmə, gender bərabərliyi təhsili, sosial dəyişiklik |
| İdeoloji motivasiya | Fərdin inancları, patriarxal ideologiya və qadın düşmənçiliyi əsasında formalaşan motivasiya | İdeoloji–mizogin tip: qadının üzərində hökmranlıq, “patriarxal terror” | Hüquqi sanksiyalar, ideoloji transformasiya, feminist yanaşma |

[191] Deci, E. L., & Ryan, R. M. (2000). Self-determination theory and the facilitation of intrinsic motivation, social development, and well-being. *American Psychologist, 55*(1), 68–78.

| | | | |
|---|---|---|---|
| Sadistik motivasiya | Zorakılıqdan psixoloji və ya seksual həzz alma | Sadistik tip: qadın qətlləri, işgəncə, zorlamadan həzz | Hüquqi izolasiya, psixiatriya nəzarəti; reabilitasiya çox çətin |
| Antisosial motivasiya | Sosial qaydaları və qanunları rədd etmə, güc nümayiş etdirmə ehtiyacı | Sosiopatik–antisosial tip: həm ailədə, həm də cəmiyyətdə zorakı davranış | Hüquqi məhdudiyyətlər, uzunmüddətli nəzarət, məhdud reabilitasiya |
| Psixoloji motivasiya | Travmalar, şəxsi komplekslər və şəxsiyyət pozuntularının təsiri | İkili şəxsiyyətli tip və passiv–aqressiv tip: manipulyasiya, təzyiq, “iki üzlü” davranış | Uzunmüddətli psixoterapiya, fərdi müşahidə və dəstək |

Cədvəldə, motivasiyanın növləri zorakılığın səbəblərinin müxtəlifliyini göstərir. Emosional və sosial motivasiyalar daha çox maarifləndirmə və qısa müdaxilələrlə dəyişdirilə bilər. İdeoloji, sadistik və antisocial motivasiyalar isə daha dərin, kompleks və çox zaman hüquqi nəzarət tələb edir. Motivasiya və davranışın dərin mexanizmlərini anlamaq bizə göstərir ki, zorakılıq yalnız bir insanın xarakter zəifliyi deyil; o, emosional, sosial və ideoloji faktorların birləşmiş nəticəsidir. Bu mexanizmləri düzgün təhlil etmək isə sosial işçi, psixoloq və hüquq-mühafizə orqanlarının qurbanı və zorakı şəxsi daha real qiymətləndirməsinə imkan verir.

**Güc və nəzarət ehtiyacı**

Zorakılıq davranışlarının böyük hissəsi təsadüfi emosional partlayış deyil, sistemli güc və nəzarət ehtiyacı ilə bağlıdır. Yəni zorakılıq edən şəxs partnyoruna qarşı sadəcə qəzəblənmir, həm də onu öz iradəsinə tabe etdirmək, həyatını nəzarət altına almaq istəyir.

Zorakılığın sadəcə “emosional partlayış” və ya “qəzəb” olmadığını ilk dəfə feminist tədqiqatçılar vurğuladılar. Onların fikrincə, zorakılıq qadına qarşı güc münasibətlərinin ən kəskin ifadəsidir. Zorakı şəxs zorakılığı partnyoruna qarşı hakimiyyətini təsdiqləmək və davamlı nəzarət sistemi qurmaq üçün alətə çevirir. Bununla da zorakılıq bir dəfəlik hadisə yox, davranış strategiyasıdır. Bu strategiyanın əsas məqsədi qurbanı fiziki, psixoloji, sosial və iqtisadi asılı vəziyyətə salmaqdır. Bu model zorakılığın kökündə emosional deyil, sistemli hakimiyyət qurma cəhdini göstərir.

**Güc və nəzarətin strukturu (Power and Control Wheel əsasında)**

Pence və Paymar zorakılığın müxtəlif formalarını **"Güc və nəzarət çarxı"** modeli ilə izah edirlər. Burada hər bir seqment zorakılığın bir üsulunu göstərir:

- İqtisadi nəzarət: Qurbanın pul resurslarını əlindən almaq, işləməsinə icazə verməmək.
- Psixoloji zorakılıq: Daim təhqir, aşağılama, manipulyasiya ilə qurbanın özünəinamını sındırmaq.
- Sosial təcrid: Dostlarla, ailə ilə ünsiyyətini məhdudlaşdırmaq.
- Təhdid və qorxutma: Qurbanı susdurmaq üçün fiziki zor tətbiqi ilə hədələmək.
- Uşaqlardan istifadə: Onları şantaj və təzyiq vasitəsinə çevirmək.
- Gender rollarına istinad: "Kişi ailə başçısıdır" və ya "qadın itaət etməlidir" kimi patriarxal inanclarla zorakılığı əsaslandırmaq.
- Gündəlik nəzarət: Hara getdiyini, kimlə danışdığını, necə geyindiyini idarə etmək.

Bu mexanizmlər bir yerdə işlədikdə zorakılıq artıq sadəcə fiziki akt yox, tam nəzarət sistemi halına gəlir.

**Psixoloji mexanizm**

Güc və nəzarət ehtiyacının psixoloji əsasları da var:

Zorakı şəxs münasibətdə nəzarəti itirməkdən qorxur və zorakılığı balansı bərpa üsulu kimi görür. O, hər cür nəzarət itkisi qorxusunu dəf etmək üçün üsullar axtarır. Bu axtarış yeni , formalara keçid ala bilir və getdikcə daha da ağırlaşır. "Kişi hökmranlığı" ideyası zorakılığı "haqlı davranış" kimi göstərən patriarxal kimlik gösgtəricisi kimi, bu mərhələdə daha qabarıq üzə çıxır. Uşaqlıqda zorakılığa şahid olan və ya zorakılıqla böyüyənlər üçün nəzarət güc modeli "öyrənilmiş davranış" olur. Əslində öyrənilmiş davranış nəzəriyyəsi uşaqlıq travmaları ilə əlaqələndirilir və özünü müstəqil ailə münasibətləri və ailə idarəçiyində zorakılıqla idarənin seçilməsi ilə nəticələnir. Uşaqlıq travmaları şəxslərdə zəif özünə inam hissini saxlayır. Paradoksal olaraq, nəzarətə ehtiyac, əksər vaxt daxili güvənsizliklə bağlılığı aşkarlanır.

Güc və nəzarət ehtiyacı yalnız fərdi psixoloji məsələ deyil, həm də sosial və mədəni problemdir. Bu səbəbdən müdaxilə də kompleks olmalıdır:

- Fərdi səviyyədə: Psixoterapiya, qəzəb idarəetmə, davranış dəyişiklik proqramları.
- Sosial səviyyədə: Maarifləndirmə, gender bərabərliyi təhsili,

zorakılığa qarşı ictimai kampaniyalar.

- Hüquqi səviyyədə: Qurbanı qorumaq üçün müdafiə mexanizmləri, zorakı şəxsin məsuliyyətə cəlb olunması.

Güc və nəzarət ehtiyacı zorakılığın ən mühüm dərin mexanizmlərindən biridir. Bu ehtiyac fərdi psixoloji faktorlarla yanaşı, patriarxal mədəniyyətin dəstəklədiyi sosial inamlarla möhkəmlənir. Zorakılığın mərkəzində duran güc və nəzarət ehtiyacı sadəcə şəxsi problem deyil, cəmiyyətin dərin patriarxal strukturlarının məhsuludur. Onu anlamaq zorakılığın qarşısını almaq və zorakı şəxslərlə işləmək üçün əsas açardır. Ona görə də belə davranışların qarşısını almaq üçün təkcə fərdi psixoterapiya kifayət deyil, həm də gender bərabərliyi siyasətləri, maarifləndirmə və hüquqi müdaxilələr zəruridir. Bu yanaşma həm sosial işçilərə, həm də hüquq-mühafizə və psixoloji xidmət sahələrinə daha məqsədyönlü strategiyalar hazırlamağa imkan verir.

**Qısqanclıq və itirmə qorxusu** bağlılığın göstəricisi deyil, həm də idarəetmə və nəzarət ehtiyacının təzahürü ola bilər. Xüsusilə yaxın münasibətlərdə qısqanclıq zorakılığın əsas təkanverici faktorlarından biri kimi qiymətləndirilir.

Qısqanclığın iki forması fərqləndirilir, münasibətdə partnyorun itirilməsindən doğan təbii normal qısqanclıq qorxusu və partnyoru daim nəzarətdə saxlamaq və xəyalı xəyanət uydurmaları əsasında patoloji qısqanclıqla (Othello sindromu) zorakı davranış göstərmək.

**Qısqanclığın zorakılıqla əlaqəsi.** Tədqiqatlar göstərir ki, məişət zorakılığı və qadın qətllərinin (femicide) mühüm hissəsi qısqanclıq və itirmə qorxusu ilə bağlıdır[192]. Bu motiv xüsusilə aşağıdakı hallarda güclənir:

- Partnyorun müstəqilləşməsi və asılılıqdan çıxmağa başlaması.
- Boşanma, ayrılma və ya münasibəti bitirmə qərarı.
- Sosial mühitdə başqaları ilə ünsiyyət və ya şübhə doğuran vəziyyətlər.

Campbell və həmkarlarının geniş araşdırmasına görə, qadın qətllərinin əhəmiyyətli bir qismi məhz "ayrılıq mərhələsində qısqanclıq və itirmə qorxusundan" qaynaqlanır[193].

---

[192] Dobash, R. E., & Dobash, R. P. (2015). *When Men Murder Women*. Oxford University Press.

[193] Campbell, J. C., Webster, D., Koziol-McLain, J., et al. (2003). Risk factors for femicide in abusive relationships: Results from a multisite case control study. *American Journal of Public Health, 93*(7), 1089–1097.

**Psixoloji mexanizmlər**

**Bağlanma nəzəriyyəsinə görə,** uşaqlıqda formalaşan qeyri-sabit bağlanma tərzi (tərk edilmə qorxusu) sonradan münasibətlərdə həddindən artıq qısqanclığa gətirə bilər[194]. Sığınacaqda 14 yaşlı bir uşağın anası dünyasını dəyişdikdən sonra, xalası onu himayəyə götürür. Lakin bir müddətdən sonra, xalanın əri, uşağın onlarda qalamasına qəti etiraz edir. Anasından sonra bütün sevgisini xalasına yönəldən yenyetməni sığınacağa yerləşdirirlər. Uşaqda ciddi itimrə qoruxusu, onu tez tez sığınacağı özbaşına tərk etmək istəməsi fikirinə gətirir. Vəziyyəti təhlil etdikdən sonra, xaladan həftədə bir dəfədən gec olmayaraq, yeniyetmə qızla heç olmasa telefon əlaqəsi qurmağa razılaşdıra bildik. Hazırda uşağın vəziyyəti stabilləşməyə doğru gedir, lakin zaman-zaman panik atakalar, o cümlədən ifrat qısqanclıq hissi də müşahidə edilir. Qısqanclıq çox vaxt daxili güvənsizlikdən doğur, şəxsin özünü dəyərsiz hiss etməsi onu partnyoru üzərində “süni nəzarət” yaratmasına vadar edir. Qısqanclığın digər bir səbəbi isə baölanma stilinin necə formalaşması ilə bağlıdır. Bu isə kişilərdə erkən yaşlarda ana ilə münasibətə əsaslanır.Cəmiyyətin patriarxal ideologiyası hesab edilən “qadın kişiyə məxsusdur” inancı, özünə inanmı gizlətmək üçün münbit imkanlar açır və qısqanclığı zorakılıqla əsaslandırmağa şərait yaradır.

Azərbaycanda məişət zorakılığı hadisələrinin xeyli hissəsi məhz qısqanclıq motivi ilə bağlıdır. Bu, çox vaxt “namus” və “şərəf” anlayışları ilə birləşdirilərək sosial şəkildə legitimləşdirilmiş zorakılıq formasına çevrilir. Qadın qətllərinin media analizləri göstərir ki, “qısqanclıq zəminində baş verən” hadisələr ən çox rast gəlinən izahlardandır. Qısqanclıq və itirmə qorxusu sadəcə emosional məsələ deyil, bu, zorakılıq davranışını əsaslandıran dərin psixoloji və sosial mexanizmdir. Normal bağlılıq hissi ilə patoloji qısqanclıq arasında sərhədin itməməsi üçün cəmiyyət səviyyəsində maarifləndirmə, fərdi səviyyədə isə psixoloji dəstək vacibdir.

**Patriarxal dəyərlərin təsiri**

Patriarxiya - sosial münasibətlərin elə quruluşudur ki, burada kişilərə üstünlük verilir, qadınlar isə ikinci dərəcəli mövqeyə keçirilir. Patriarxal dəyərlər ailə, cəmiyyət, hüquq və mədəniyyət sistemlərinə sirayət edərək “kişinin hökmranlığı” və “qadının itaəti” modelini normallaşdırır.

Bu dəyərlər zorakılığın əsas ideoloji dayaqlarından biridir. Çünki

[194] Bowlby, J. (1969). *Attachment and Loss: Vol. 1. Attachment*. Basic Books.

patriarxal düşüncə zorakılığı “ailədaxili nizam-intizam”, “kişinin haqqı”, “namus və şərəfin qorunması” kimi təqdim etməklə onun legitimləşdirilməsinə şərait yaradır.

**Patriarxal dəyərlərin zorakılığa təsir mexanizmləri**

“Kişi ailə başçısıdır, qadın ona itaət etməlidir” yanaşması gender rollarının sərt bölügüsünü göstərir. Qadının iqtisadi imkanlarını məhdudlaşdıraraq onun iqtsiadi asılılığına nail olmaq, qadına qarşı zorakılığı artırır, o cümlədən gender rolları arasında böyük fərq yaradır.

**Qadın bədəninin nəzarət altına alınması:**

Qadının geyimi, davranışı, ünsiyyət çevrəsi və qadının bədəninin nəzarət altına alınması “namus” anlayışı ilə idarə olunaraq patriarxal mühitdə bunu qoruyucu bir davranış modeli qismində təqdim edir. Qadının bədəninə nəzarət cinsi zorakılıq və erkən nikahların yazılammış qanunlarla idarəsinə şrəait yaradır. Belə ki, qadının bütün davranış və geyimini daimi nəzarətdə saxlamaqla, onu hər hansı təcavüzdən qorumaq mesajı verirlər. Mahiyytəcə bu mesaj həm də qadının öz bədəni və həyatına məsuliyyəti azaltmağa gətirib çıxardığının fərqinə varılmadığını heç kim nəzərə almır. Eləcə də valideynlər tərəfindən uşağın erkən nikaha məcbur edilməsi arxasında da qadının bədəninə nəzarətin əsas elementləri diqqəti cəlb edir.

Qadın və qızların döyülməsi bəzən “tərbiyə üsulu” kimi cəmiyyətin mədəni normaları kimi əsaslandırılaraq, qəbul edilir. Valideyn və ya ailənin yaşlı üzvrləinin zorakılığa müdaxilə etməməsi, “biz də belə böyümüşük” mesajı, cəmiyyətin mədəni normalarının nümunəsidir.

Patriarxiya zorakılığı “şəxsi məsələ” kimi göstərərək onu gizlətməyə çalışır, onu ideoloji çərçivəyə salır. Hüquqi və sosial institutların zəif müdaxiləsi isə ideloji çərçivəni yazılmamış qanunlara çevirirək ənənə halını almasına gətirb çıxarır.

Patriarxal dəyərlərin təsiri Azərbaycan cəmiyyətində də açıq görünür:

- Erkən nikahlar və qız uşaqlarının təhsildən uzaqlaşdırılması -ailə namusu və qadının “evə aid olması” düşüncəsi ilə əsaslandırılır.
- Məişət zorakılığının gizlədilməsi -“ailə məsələsinə qarışmaq olmaz” yanaşması zorakılığın açıq müzakirəsini əngəlləyir.
- Qadın qətllərinin “qısqanclıq zəminində” izahı -cəmiyyətin patriarxal normalarını gücləndirir.

Patriarxal dəyərlər zorakılığın kökündə dayanan ideoloji təməldir. Onlar zorakı davranışa bəraət qazandırır, qurbanı günahkar göstərir və kişi hökmranlığını “normal sosial nizam” kimi təqdim edir. Buna görə də

zorakılığa qarşı mübarizə yalnız fərdi səviyyədə deyil, patriarxal mədəniyyətin transformasiyası səviyyəsində aparılmalıdır. Bu isə gender bərabərliyi siyasətləri, təhsil proqramları və hüquqi islahatlarla mümkündür.

**Maddə asılılığı və aqressiya**

Maddə asılılığı (alkoqol və narkotiklərdən sui-istifadə) zorakılıq və aqressiv davranışların ən güclü katalizatorlarından biri hesab olunur. Psixoloji və neyrobioloji mexanizmlər göstərir ki, alkoqol və digər psixoaktiv maddələr özünənəzarəti zəiflədir, impulsivliyi artırır və zorakı davranışa meyli gücləndirir[195]

**Mexanizmlər**

İnhibisiyanın azalması (özünənəzarətin zəifləməsi). Alkoqol və narkotik maddələr beynin prefrontal korteks fəaliyyətini zəiflədir. Bu isə qərarvermə, emosional idarə və impulsların kontrolunda pozuntu yaradır[196].

1. **Aqressiv emosiyaların güclənməsi.** Maddələr emosional həssaslığı artırır. Qəzəb, qısqanclıq, qorxu halları daha tez aqressiyaya çevrilir. Xüsusilə, ailədaxili münaqişələrdə spirtli içkilərin istifadəsi zorakılıq riskini çoxaldır.
2. **Asılılıq və sosial mühit.** Maddə asılılığı olan şəxslərdə işsizlik, sosial təcrid və kriminal mühitlə əlaqə geniş yayılıb. Bu faktorlar zorakı davranışların daha sabit hala çevrilməsinə səbəb olur[197].

Araşdırmalarda göstərilib ki, ailədaxili zorakılıq hadisələrinin 50–70%-i alkoqoldan istifadənin müşayiəti ilə baş verir[198]. Meta-analizdə spirtli içkinin istifadəsi ilə intim partnyor zorakılığı arasında yüksək korrelyasiya (dəyişişiklik) təsdiqlənmişdir[199]. Maddə asılılığının müalicəsi paralel şəkildə aqressiyanın azalmasına da təsir göstərir.

Maddə asılılığı aqressiyanın təkrarlanmasıdna mühüm şərtdir və

---

[195] White, H. R., & Chen, P. H. (2002). Problem drinking and intimate partner violence. *Journal of Studies on Alcohol, 63*(2), 205–214.

[196] Giancola, P. R. (2000). Executive functioning: A conceptual framework for alcohol-related aggression. *Experimental and Clinical Psychopharmacology, 8*(4), 576–597.

[197] Stuart, G. L., O’Farrell, T. J., Leonard, K. E., Moore, T. M., Temple, J. R., & Ramsey, S. E. (2009). Examining the interface between substance misuse and intimate partner violence. *Substance Abuse: Research and Treatment, 3*, 25–29.

[198] Leonard, K. E. (1993). Drinking patterns and intoxication in marital violence: Review, critique, and future directions for research. *Psychology of Addictive Behaviors, 7*(3), 193–200.

[199] Foran, H. M., & O’Leary, K. D. (2008). Alcohol and intimate partner violence: A meta-analytic review. *Clinical Psychology Review, 28*(7), 1222–1234.

zorakılığın davamlılığına səbəb olan faktordur. Bu səbəbdən, yalnız psixoloji reabilitasiya deyil, həm də maddə və ya alkoqol asılılıqdan müalicəsi zəruridir. Aqressiv davranışların qarşısını almaq üçün təhlükəsizlik planı və sosial dəstək proqramlarına paralel olaraq maddə asılılığına qarşı tibbi-psixososial müdaxilələr həyata keçirilməlidir.

Davranışın davamlılığı - insanın müəyyən fəaliyyət formasını uzunmüddətli və sabit şəkildə təkrarlaması prosesidir. Bu mexanizm çoxsəviyyəli olub neyrobioloji, psixoloji, sosial və motivasion amillərin qarşılıqlı təsirindən formalaşır. Elm tarixində davranışın sabitliyi məsələsi həm öyrənmə nəzəriyyələri, həm də motivasiya nəzəriyyələri kontekstində izah edilmişdir. Davranışın davamlılığı (behavioral persistence) psixologiya, neyrobiologiya və sosial elmlərdə ən çox öyrənilən mövzulardan biridir. İnsan davranışının sabitliyi yalnız bioloji əsaslarla deyil, həm də öyrənmə prosesləri, motivasiya, sosial mühit və mədəniyyət kodları ilə bağlıdır. Davranışın hansı mexanizmlərlə sabit qalması həm fərdi psixoloji vəziyyətin, həm də cəmiyyətin sosial nizamının anlaşılması üçün əhəmiyyətlidir. Davranışın davamlılığını təmin edən mexanizmlər çoxşaxəlidir və onların hər biri - bioloji, psixoloji və sosial səviyyədə qarşılıqlı təsirdədir. Bu mexanizmlərin anlaşılması yalnız nəzəri əhəmiyyət daşımır, həm də praktik olaraq psixoterapiya, sosial reabilitasiya və asılılıqla mübarizə sahələrində tətbiq olunur.

Psixoloji səbəblər baxımından, davranışın sabitliyini bir tərəfdən öyrənmə mexanizmləri möhkəmləndirir: operant şərtlənmədə qismən möhkəmləndirmə (xüsusilə dəyişkən nisbət - *variable ratio* - cədvəlləri) davranışın "sönməyə" daha davamlı olmasına gətirir; yəni mükafat hər dəfə deyil, bəzən-bəzən gəldikdə reaksiya daha uzunmüddətli qorunur. Digər tərəfdən, vərdiş formalaşması sabit kontekstdə təkrar və nəticəyə bağlanan mükafatla (siqnal–rutin–mükafat dövrü) tədricən avtomatlaşır; bu prosesdə bazal qanglionlar və dopaminli gücləndirmə siqnalları mühüm rol oynayır. Gündəlik həyat üzərində aparılan tədqiqatlar göstərir ki, vərdişlərin avtomatikləşməsi çox vaxt düşünüləndən uzun çəkə bilər və orta hesabla təxminən 66 günə yaxınlaşır (fərdi və davranış tipinə görə daha az və ya daha çox ola bilər). Bu tapıntılar davranış sabitliyinin həm möhkəmləndirmə cədvəlləri, həm də neyrobioloji vərdiş dövrləri ilə əlaqəli olduğunu göstərir. Motivasiya ilə bağlı səbəblər də davamlılığın əsas dayaq nöqtələrindəndir. Özünütəyinetmə nəzəriyyəsi (SDT) daxili motivasiyanı gücləndirən üç psixoloji ehtiyacın - autonomiya, kompetensiya və əlaqəlilik - təminini vurğulayır; bu ehtiyaclar ödənəndə davranış daha davamlı olur. Öz-səmərəlilik (self-efficacy) - şəxsin konkret

tapşırığı bacarmağa dair inamı - səylərin davam etməsini, çətinlik qarşısında dözümlülüyü artırır və uğurlu təcrübələr bu inamı daha da möhkəmləndirir. İcra niyyətləri (implementation intentions) şəklində "əgər–onda" planları ("Əgər filan vəziyyət olarsa, onda filan davranışı edəcəyəm") məqsədə yönəlmiş hərəkətin avtomatlaşdırılmasına kömək edir və xüsusən başlanğıc maneələrini azaldaraq davranışın davamını asanlaşdırır. Davranışın sosial tərəfi kimi normativ təsirlər də önəmlidir: deskriptiv (başqalarının nə etdiyini qavramaq) və injunktiv (başqalarının nəyi təsdiq etdiyini qavramaq) normalar fərdin seçimlərini və inadkarlığını sistemli şəkildə istiqamətləndirə bilir; beləliklə, dəstəkləyici sosial kontekst davamlılığı artırır. Bu psixoloji mexanizmlərin praktik nəticəsi ondan ibarətdir ki, davranışın davamlılığını artırmaq üçün müdaxilələr möhkəmləndirmə cədvəllərindən (davamlı deyil, qismən və ağıllı ardıcıllıqla), vərdiş memarlığından (sabit siqnal və kontekstlərlə təkrar), motivasiya dizaynından (autonomiya, kompetensiya, əlaqəlilik hissinin gücləndirilməsi), öz-səmərəliliyin qurulmasından (kiçik qələbələrlə bacarıq inamının artırılması) və əgər–onda planlarından faydalana bilər; bu yanaşmalar psixoterapiyada, sosial reabilitasiyada və asılılıqla mübarizədə real və ölçülə bilən irəliləyiş verir

**Qurbanı günahlandırma**

"Qurbanı günahlandırma" (*victim blaming*) sosial psixologiya və kriminologiyada geniş müzakirə olunan bir fenomendir. Bu anlayış zərərçəkmiş şəxsin başına gələn zorakılıq, cinayət və ya ayrı-seçkilik hadisəsinə görə məsuliyyətin birbaşa və ya dolayı yolla onun özünə yüklənməsini ifadə edir. Başqa sözlə, qurbanın davranışı, geyimi, sosial statusu və ya həyat tərzi hadisənin əsas səbəbi kimi təqdim olunur. Bu yanaşma həm fərdi, həm də ictimai səviyyədə ciddi psixoloji və sosial nəticələrə gətirib çıxarır[200].

Qurbanı günahlandırma formaları

1. Birbaşa günahlandırma: Qurbanın zorakılığa səbəb olduğu iddiası.

*Məsələn:* "Əgər gecə tək çıxmasaydı, bu olmazdı."

2. Dolayı günahlandırma: Zorakının məsuliyyətini azaldaraq qurbanın seçimlərinə fokuslanmaq.

*Məsələn:* "Bəli, zorakılıq edib, amma qadın da onu əsəbləşdirdi."

3. Mədəni və dini əsaslandırma: Cəmiyyətin norma və dəyərlərinə

---

[200] Grubb, A., & Turner, E. (2012). Attribution of blame in rape cases: A review of the impact of rape myth acceptance, gender role conformity, and substance use on victim blaming. *Aggression and Violent Behavior, 17*(5), 443–452.

uyğun olmayan davranışların zorakılığa “səbəb” kimi göstərilməsi.

Sosial nəticələr

- **Psixoloji təsirlər:** Qurbanlarda travma sonrası stress, özünütənqid, utanc və sosial təcrid halları güclənir[201].
- **Hüquqi nəticələr:** Qurbanı günahlandırma müstəntiqlərin, məhkəmələrin və hüquq-mühafizə orqanlarının qərarlarına təsir edir, nəticədə zorakılar cəzasız qala bilir[202].
- **Sosial mühit:** Bu yanaşma zorakılığın normallaşmasına və qurbanların şikayət etməkdən çəkinməsinə gətirib çıxarır

Azərbaycan da daxil olmaqla patriarxal cəmiyyətlərdə qadınların “namus”, “ailə dəyərləri” və ya “qadınlıq rolları” ilə əlaqələndirilərək günahlandırılması geniş yayılmışdır. Erkən nikah, məişət zorakılığı və cinsi istismar hallarında qurbanların “öz davranışları ilə səbəb yaratdığı” barədə ictimai fikirlər hələ də mövcuddur. Bu isə qurbanların hüquqi müdafiəyə çıxışını məhdudlaşdırır və travmanın daha da dərinləşməsinə səbəb olur.

Qurbanı günahlandırma fenomeni fərdlərin psixoloji müdafiə mexanizmləri, gender stereotipləri və mədəni normalarla bağlıdır. Bu yanaşma həm qurbanların reabilitasiyasına, həm də cəmiyyətin zorakılıqla mübarizə qabiliyyətinə zərər vurur. Akademik müzakirələr göstərir ki, qurbanı günahlandırmanın qarşısını almaq üçün ictimai maarifləndirmə, hüquqi müdaxilə və gender bərabərliyi siyasətləri zəruridir.

**Özünü haqlı çıxarma**

Özünü haqlı çıxarma (*self-justification*) fərdin davranışlarını, qərarlarını və inanclarını mənalandırmaq və sosial cəhətdən qəbul edilən formaya salmaq üçün istifadə etdiyi psixoloji mexanizmdir. Bu fenomen sosial psixologiyada koqnitiv dissonans nəzəriyyəsi[203] ilə sıx bağlıdır. İnsan yanlış, ziddiyyətli və ya mənfi nəticələr doğuran hərəkət etdikdə daxili gərginlik (dissonans) yaşayır və bu gərginliyi azaltmaq üçün həmin davranışını rasionallaşdırmağa meylli olur.

**Özünü haqlı çıxarma formaları**

1. Rasionallaşdırma: Mənfi davranışı məntiqi səbəblərlə izah etmək.

---

[201] Campbell, R., & Raja, S. (1999). Secondary victimization of rape victims: Insights from mental health professionals who treat survivors of violence. *Violence and Victims, 14*(3), 261–275.

[202] Jordan, J. (2004). Beyond belief? Police, rape, and women’s credibility. *Criminal Justice, 4*(1), 29–59.

[203] Festinger, L. (1957). *A Theory of Cognitive Dissonance*. Stanford University Press.

2. *Məsələn:* "Mən yalan danışdım, amma onu qorumaq üçün lazım idi."

3. Minimizasiya: Zərərin ölçüsünü kiçiltmək. *Məsələn:* "Sadəcə bir dəfə oldu, böyük problem deyil."

4. Başqasını günahlandırma: Öz məsuliyyətini başqa şəxsə və ya şəraitə yönəltmək. *Məsələn:* "Əgər o məni əsəbləşdirməsəydi, belə etməzdim."

5. Normativ əsaslandırma: Mədəni və sosial qaydaları əsas gətirərək davranışını doğru kimi göstərmək.

**Sosial və psixoloji nəticələr**

- Fərdi səviyyədə: Özünü haqlı çıxarma insanın günahkarlıq hissini azaldır, lakin eyni zamanda davranış dəyişikliklərinə mane olur. Bu səbəbdən asılılıqlar və zorakı davranışlar davamlı hala gəlir[204].
- Sosial səviyyədə: Haqlı çıxarma zorakılığın, ayrı-seçkiliyin və korrupsiyanın cəmiyyətdə normallaşmasına şərait yaradır.
- Travma və münasibətlər: Məişət zorakılığı hallarının təhlilində zorakı tərəfin davranışını "haqlı çıxarma"sı zorakılıq dövrünün davamlılığında mühüm amil kimi göstərilir.

Patriarxal strukturlarda özünü haqlı çıxarma tez-tez "ailəni qorumaq", "qadının itaətkarlığı" və ya "kişilik heysiyyatı" kimi mədəni stereotiplərlə əsaslandırılır. Bu, zorakılıq hallarının leqitimləşdirilməsinə və qurbanların səsini ucalda bilməməsinə gətirib çıxarır. Özünü haqlı çıxarma mexanizmi insan psixikasının dissonansdan qaçma ehtiyacından qaynaqlanır. O, fərdi psixoloji müdafiə üsulu kimi rol oynasa da, sosial səviyyədə neqativ davranışların möhkəmlənməsinə səbəb ola bilir. Elmi ədəbiyyat göstərir ki, bu fenomenin qarşısını almaq üçün maarifləndirmə, psixoloji müdaxilə və sosial məsuliyyət mexanizmləri gücləndirilməlidir.

**Cəzasızlıq sindromu**

Cəzasızlıq sindromu (*impunity syndrome*) -cinayət, zorakılıq və ya hüquq pozuntularını törədən şəxslərin məsuliyyətdən yayınması, qanuni cəza ilə üzləşməməsi və bu səbəbdən oxşar davranışların davamlılıq qazanması fenomenidir. Bu anlayış xüsusilə münaqişə zonalarında, avtoritar sistemlərdə, gender əsaslı zorakılıq hallarında və insan haqlarının pozulmasında geniş müzakirə olunur. Akademik ədəbiyyatda cəzasızlıq təkcə hüquqi boşluq deyil, həm də psixoloji, sosial və siyasi mexa-

[204] Baumeister, R. F. (1998). *The self.* In D. Gilbert, S. Fiske, & G. Lindzey (Eds.), *The handbook of social psychology* (pp. 680–740). New York: McGraw-Hill.

nizmlərin nəticəsi kimi izah edilir[205].

**Mexanizmlər**

1. Məsuliyyət boşluğu: Cinayət törədən şəxsin hüquqi cəza almaması.

2. Qurbanın səsinin susdurulması: Qorxu, təzyiq və ya ictimai qınaq səbəbindən qurbanların şikayət etməməsi.

3. İnstitusional zəiflik: Polis, məhkəmə və prokurorluq sistemlərinin qeyri-effektivliyi.

4. Sosial normallaşma: Uzunmüddətli cəzasızlıq zorakılığın “adi hal” kimi qəbul edilməsinə gətirib çıxarır.

**Sosial nəticələr**

- Fərdi səviyyədə: Qurbanlarda ədalətsizlik hissi, posttravmatik stress pozuntusu və sosial təcrid güclənir[206].
- Cəmiyyət səviyyəsində: Cəzasızlıq zorakılığın davamlılığını artırır, vətəndaşların hüquqi institutlara inamını zəiflədir və “qorxu mədəniyyəti” yaradır[207].
- Siyasi səviyyədə: Cəzasızlıq hakimiyyətin legitimliyini zədələyir və korrupsiyanı strukturlaşdırır.

Tədqiqatlar göstərir ki, məişət zorakılığı və qadınlara qarşı cinayətlərdə cəzasızlıq halları daha çox müşahidə olunur. Qadın qətlləri, zorlamalar və erkən nikah hallarında hüquqi sistemin adekvat müdaxilə edə bilməməsi, cəmiyyətin qurbanı günahlandırması ilə birləşərək zorakılığın davamlılığını təmin edir[208].

Məişət zorakılığı, erkən nikah hallarında qurbanların şikayətlərinin nəticəsiz qalması, cəzasızlıq sindromunu gücləndirən əsas amillərdəndir. Bu isə həm qurbanların hüquqlarını məhdudlaşdırır, həm də təqsirkarların davranışlarının normallaşmasına gətirib çıxarır.

Cəzasızlıq sindromu hüquqi, sosial və siyasi ölçüləri olan mürəkkəb fenomendir. Bu sindromun mövcudluğu:

- zorakılıq və cinayətlərin davamlılığını artırır,
- qurbanların hüquqlarını zəiflədir,
- cəmiyyətin ədalətə inamını sarsıdır.

---

[205] Sikkink, K. (2011). *The Justice Cascade: How Human Rights Prosecutions Are Changing World Politics*. W.W. Norton & Company.

[206] Campbell, R. (2008). The psychological impact of rape victims’ experiences with the legal, medical, and mental health systems. *American Psychologist, 63*(8), 702–717.

[207] Kritz, N. J. (2009). The rule of law in conflict management. *Journal of International Affairs, 59*(2), 43–56.

[208] Merry, S. E. (2009). Gender violence: A cultural perspective. Wiley-Blackwell.

Onun aradan qaldırılması üçün effektiv hüquqi mexanizmlər, qurbanların müdafiəsinin gücləndirilməsi və cəmiyyətin maarifləndirilməsi vacibdir.

**Sosial mühitdən dəstək**

Sosial mühitdən dəstək (*social support*) fərdlərin ailə, dostlar, qonşular, həmkarlar, icma və institutlar vasitəsilə aldıqları emosional, informativ və praktiki yardımı ifadə edir. Akademik ədəbiyyatda sosial dəstək həm psixoloji rifahın qorunması, həm də travma və stres vəziyyətlərindən çıxış üçün mühüm qoruyucu faktor kimi göstərilir [209]. Fərdin həyat keyfiyyətinin yüksəldilməsi, sosial adaptasiya və sosial kapitalın güclənməsi sosial mühitin dəstəkləyici funksiyası ilə sıx bağlıdır.

**Sosial dəstəyin formaları**

1. Emosional dəstək -sevgi, qayğı, empatiya və dinlənilmə (məsələn, ailə və dost münasibətləri).
2. Instrumental dəstək -maddi və ya praktiki yardım (qida, sığınacaq, tibbi xidmət).
3. İnformativ dəstək -hüquqi, tibbi və sosial informasiya ilə təmin olunma.
4. Qiymətləndirici dəstək -davranışın müsbət təsdiqlənməsi, sosial qəbul və təqdir.

**Psixoloji və sosial təsirlər**

- Psixoloji komfort: Sosial dəstək depressiya, posttravmatik stress pozuntusu və özünütənqid hallarını azaldır[210].
- Fiziki sağlamlıq: Dəstək sosial əlaqələri gücləndirməklə həm də immun sistemini möhkəmləndirir[211].
- Münasibətlərin sabitliyi: Ailə və icma dəstəyi fərdin özünü dəyərli və güvənli hiss etməsinə səbəb olur.
- Resiliensiya (dayanıqlılıq): Travma və böhran hallarında sosial dəstək adaptasiyanı gücləndirən əsas faktorlardandır[212].

**Zorakılıq və travma kontekstində sosial mühitdən dəstək**

- Qurbanlar üçün: Məişət zorakılığı, insan alveri və erkən nikah

---

[209] Cohen & Wills, 1985

[210] Thoits, P. A. (2011). Mechanisms linking social ties and support to physical and mental health. *Journal of Health and Social Behavior, 52*(2), 145–161.

[211] Uchino, B. N. (2006). Social support and health: A review of physiological processes potentially underlying links to disease outcomes. *Journal of Behavioral Medicine, 29*(4), 377–387.

[212] Luthar, S. S., Cicchetti, D., & Becker, B. (2000). The construct of resilience: A critical evaluation and guidelines for future work. *Child Development, 71*(3), 543–562.

qurbanları üçün sosial dəstək travmanın emalı və reabilitasiyada əsas şərtdir [213].

- İctimai stigma ilə mübarizə: Sosial mühitin dəstəkləyici olması qurbanın özünü günahlandırma və ictimai təcrid hallarını azaldır.
- Hüquqi və institusional dəstək: Sığınacaqlar, QHT-lər və dövlət xidmətləri vasitəsilə təqdim olunan dəstək qurbanların sosial reinteqrasiyasına şərait yaradır.

Azərbaycan reallığında sosial dəstəyin ənənəvi forması ailə və qohumluq əlaqələri ilə bağlıdır. Lakin gender əsaslı zorakılıq hallarında ailə institutu bəzən qurbanın müdafiəsindən çox susqunluq və qınaq mexanizmi ilə çıxış edir. Bu səbəbdən QHT-lərin, sığınacaqların və sosial xidmət mərkəzlərinin dəstəyi xüsusi əhəmiyyət kəsb edir. Regionda aparılan araşdırmalar göstərir ki, ictimai təşkilatların müdaxiləsi qurbanların hüquqi və sosial imkanlara çıxışını əhəmiyyətli dərəcədə artırır[214].

Zorakı davranışların formalaşması və davamlılığı təkcə fərdin psixoloji xüsusiyyətləri ilə deyil, həm də sosial-mədəni kontekstlə, motivasiya mexanizmləri və institusional strukturlarla sıx bağlıdır. Akademik tədqiqatlar göstərir ki, zorakılığın dinamikası həm psixoloji faktorlar və motivasiya kodları, həm də davranışın davamlılığını təmin edən sosial və hüquqi mexanizmlər əsasında möhkəmlənir. Bu icmal zorakılığın psixoloji əsaslarını və onu gücləndirən sosial mexanizmləri sistemli şəkildə təhlil edir.

Psixoloji faktorlar zorakılığın başlanmasını izah edərkən, sosial və hüquqi mexanizmlər onun niyə davam etdiyini açıqlayır. Güc və nəzarət ehtiyacı, qısqanclıq və patriarxal dəyərlər zorakılığın “motivasiya kodları”dır. Lakin bu davranışların qurbanı günahlandırma, özünü haqlı çıxarma, cəzasızlıq sindromu və sosial dəstək strukturları vasitəsilə möhkəmlənməsi onların uzunmüddətli və dövri təzahürünə gətirib çıxarır. Bu qarşılıqlı təsir zorakılıq dövrü nəzəriyyəsi ilə üst-üstə düşür.

Zorakılığın davamlılığını başa düşmək üçün fərdi psixoloji motivlər və sosial-hüquqi mexanizmlər birlikdə təhlil olunmalıdır. Fərdi səviyyədə impulsivlik, qısqanclıq və patriarxal inamlar zorakı davranışa yol açır. Sosial səviyyədə isə qurbanı günahlandırma, özünü haqlı çıxarma,

---

[213] Goodman, L. A., & Smyth, K. F. (2011). A contextual analysis of trauma and resilience in survivors of intimate partner violence. *Violence Against Women, 17*(12), 1329–1348.
[214] UN Women. (2021). *Progress of the World's Women 2021–2022: Families in a Changing World*.

cəzasızlıq və sosial mühitin mövqeyi zorakılığın normallaşmasına xidmət edir. Bu səbəbdən, zorakılığın qarşısının alınması yalnız hüquqi tədbirlərlə deyil, həm də psixoloji müdaxilə, ictimai maarifləndirmə və institusional islahatlarla mümkündür.

# III HİSSƏ

## KODLARIN DƏYİŞDİRİLMƏSİ: REABİLİTASİYA YOLLARI, DULUZ + MƏDƏNİ SPEKTR HİBRİD MODELİ

Zorakılıq yalnız fərdi psixoloji meyllərin nəticəsi deyil, eyni zamanda sosial, mədəni və institusional kodlarla möhkəmlənən davranış nümunəsidir. Buna görə də zorakı davranışların dəyişdirilməsi prosesi sadəcə fərdi psixoloji müdaxilə ilə məhdudlaşmır; o, daha geniş bir sosial-mədəni kontekstdə nəzərdən keçirilməlidir. Akademik ədəbiyyat göstərir ki, zorakılığın qarşısının alınması və zorakı davranışın dəyişdirilməsi üçün tətbiq olunan modellər iki əsas istiqamətdə inkişaf etmişdir: psixoloji-reabilitasiya yanaşmaları və sosial-mədəni transformasiya proqramları.

Bu müstəvidə ən çox tətbiq olunan yanaşmalardan biri Duluth modelidir. Bu model zorakılığın mərkəzində "güc və nəzarət dairəsi"nin dayandığını qəbul edir və təqsirkar şəxslərin davranış dəyişimini təmin etmək üçün qrup müdaxilələri, təhsil və məsuliyyət mexanizmlərini əsas götürür. Lakin tədqiqatlar göstərir ki, universal yanaşmalar mədəni spesifikliyi nəzərə almadıqda məhdud effektivlik nümayiş etdirir. Bu səbəbdən Duluth modelinin mədəni spektrlə inteqrativ hibridləşməsi yeni reabilitasiya perspektivləri təqdim edir.

Azərbaycan və regional kontekstdə, patriarxal dəyərlərin güclü təsiri və ailə institutunun üstün mövqeyi nəzərə alınarsa, yalnız hüquqi mexanizmlərin deyil, həm də mədəni transformasiya alətlərinin tətbiqi zəruridir. Bu baxımdan, hibrid model bir tərəfdən qərb psixososial reabilitasiya təcrübəsini, digər tərəfdən isə yerli mədəniyyətin dəyərlər sistemini nəzərə almağı hədəfləyir. Belə yanaşma zorakı davranışların dəyişdirilməsində daha dayanıqlı nəticələrə gətirib çıxara bilər.

### Zorakılıq törədən kişilərin dəyişməsi: Mümkündürmü?

Məişət zorakılığı və genderəsaslı zorakılıq yalnız qurbanların deyil, həm də zorakıların davranışlarının təhlilini tələb edən çoxşaxəli problemdir. Ən kritik suallardan biri budur: zorakılıq törədən kişilər dəyişə bilərmi? Akademik müzakirələr göstərir ki, zorakı davranışların dəyişdirilməsi mümkündür, lakin bu, həm fərdi psixoloji faktorlar, həm də sosial-mədəni və institusional mexanizmlərin qarşılıqlı təsirindən asılıdır[215] .

---

[215] Eckhardt, C. I., & Murphy, C. M. (2019). Anger, hostility, and assaultive behavior. In *Clinical Handbook of Domestic Violence*.

**Zorakı davranışların davamlılığının səbəbləri**

Güc və nəzarət ehtiyacı, qısqanclıq, itirmə qorxusu, şəxsiyyət pozuntuları psixoloji faktorlar olaraq diqqət mərkəzinə alınır. Patriarxal dəyərlər, gender bərabərsizliyi, zorakılığın "norma" kimi qəbul olunması sosial faktorlar sırasında dayanır. Cəzasızlıq sindromu, qurbanı günahlandırma, zəif sosial müdafiə sistemləri hüquqi və institusional faktorlarla bağlı olsa da hər bir fator əslində birgə olur və ona görə də çox ciddi fəsadlarla müşahidə edilir. Eyni zamanda qeyd edilən amillər birgə şəkildə zorakı davranışların dəyişməsini çətinləşdirir və onların davamlılığını təmin edir

**Dəyişmə imkanları: nəzəri yanaşmalar**

- Koqnitiv-davranış yanaşmasıdır: Zorakıların düşüncə və inanclarının dəyişdirilməsi, qadınlara münasibətdə şablon stereotiplərin qırılması .
- Sosial öyrənmə nəzəriyyəsi: Zorakı davranış öyrənildiyi kimi, alternativ davranış modelləri də öyrədilə bilər[216].
- Duluth modeli: Zorakılığın kökündə "güc və nəzarət" ehtiyacının dayandığını vurğulayır və qrup təlimləri ilə məsuliyyətin artırılmasına yönəlir[217]).
- Mədəni spektr yanaşmaları: Yerli dəyərlər və icma institutlarının inteqrasiyası davranış dəyişməsini daha real və qəbul edilən edir[218].

**Təcrübədən nümunələr**

ABŞ və Avropada Batterer Intervention Programs (BIP) çərçivəsində kişilərin reabilitasiyası aparılmışdır. Araşdırmalar göstərir ki, yalnız hüquqi məcburiyyətlə proqramlara qatılanların dəyişmə ehtimalı az, lakin motivasiyalı və könüllü razılaşan şəxslərdə daha yüksəkdir[219]. Skandinaviya ölkələrində zorakılıq törədən kişilər üçün psixoterapiya və sosial dəstək proqramları ilə gender bərabərliyi siyasəti birgə tətbiq olunmuşdur. Burada zorakılığın təkrar riski 30%-dən aşağı salına bilmişdir[220]. Cənubi

---

[216] Bandura, A. (1999). Moral disengagement in the perpetration of inhumanities. *Personality and Social Psychology Review, 3*(3), 193–209.

[217] Pence, E., & Paymar, M. (1993). *Education groups for men who batter: The Duluth model*. Springer.

[218] Jewkes, R., Flood, M., & Lang, J. (2015). From work with men and boys to changes of social norms and reduction of inequities in gender relations. *The Lancet, 385*(9977), 1580–1589.

[219] Gondolf, E. W. (2002). *Batterer Intervention Systems: Issues, Outcomes, and Recommendations*. Sage.

[220] Hester, M., & Lilley, S. J. (2014). Domestic and sexual violence perpetrator programmes: Article 16 of the Istanbul Convention. Council of Europe.

Afrikada "Sonke Gender Justice" proqramı patriarxal kodları dəyişdirməyə yönəlmişdir. Burada icma iştiraklı dialoq metodları zorakı kişilərin qadınlarla münasibətə baxışlarını dəyişməkdə uğurlu olmuşdur [221]. Azərbaycanda yerli sığınacaqlarda və sosial xidmət mərkəzlərində qadın qurbanlarla yanaşı zorakıların da reabilitasiyası üçün pilot proqramlar hazırlanır. Lakin institusional dayanıqlılığın zəifliyi və patriarxal münasibətlərin güclülüyü dəyişimin qarşısında əsas maneədir. Ocümlədən gğstərilən nümunələr yerli mühitdə, mövcud gender rolları bölgüsü, ügc və nzəarətin mental kökləri, cəmiyyətin zorakılığa münasibəti, kişilərin proqrama cəlb edilməsində orataya çıxa biləcək əngəlləri öyrəndikdən sonra təqdim edilən proqramlarının hansının daha rahat tətbiqi mütəxssislər tərəfindən qərara alınmalıdır. Bu halda tətbiqin əvvəlcə pilot, daha sonra isə geniş yayılması və qanunla tənzimlənməsi effektiv təsir edə bilər.

**Dəyişimin şərtləri**

Araşdırmalar göstərir ki, zorakı kişilərin dəyişməsi üçün aşağıdakı amillər həlledicidir:

1. Fərdi motivasiya -zorakılığın məsuliyyətini qəbul etmə və dəyişmək istəyi.
2. Peşəkar müdaxilə -psixoterapiya, qrup təlimləri, hüquqi nəzarət.
3. Sosial dəstək -ailə, icma və sosial institutların transformasiyaya dəstək verməsi.
4. Cəza və məsuliyyət mexanizmi -hüquqi sistemin təsirli işləməsi zorakılığın təkrar riskini azaldır.

**Reabilitasiyanın əhəmiyyəti**

Zorakılıq törədən kişilərin dəyişməsi mümkündür, lakin bu dəyişiklik mexaniki proses deyil. O, yalnız psixoloji reabilitasiya, sosial transformasiya və hüquqi məsuliyyətin birlikdə tətbiqi ilə reallaşa bilər. Fərdi səviyyədə dəyişmək istəyən və məsuliyyəti qəbul edən kişilər üçün dəyişiklik realdır. Lakin patriarxal dəyərlərin güclü olduğu, cəzasızlıq sindromunun mövcud qaldığı və sosial dəstəyin zəif olduğu mühitlərdə dəyişimin ehtimalı aşağı olur.

**Reabilitasiyanın nəzəri əsasları**

1. Sosial öyrənmə nəzəriyyəsi: Zorakılıq, öyrənilmiş davranışdır və alternativ, zorakılıqsız davranış modelləri də öyrədilə bilər.

---

[221] Jewkes, R., Flood, M., & Lang, J. (2015). From work with men and boys to changes of social norms and reduction of inequities in gender relations. *The Lancet, 385*(9977), 1580–1589.

2. Koqnitiv-davranışlı yanaşma: Zorakılıq törədən kişilərin qadınlara dair stereotiplərini, güc və nəzarət kodlarını dəyişməyə yönəlmişdir.

3. Duluth modeli: Zorakılığın əsas səbəbinin güc və nəzarət ehtiyacı olduğunu qəbul edərək qrup təlimləri və məsuliyyətin artırılması vasitəsilə davranış dəyişikliyini hədəfləyir.

4. Mədəni spektr yanaşmaları: Reabilitasiya proqramlarına yerli dəyərlərin inteqrasiyası sosial qəbulun artmasına və uzunmüddətli effektə səbəb olur[222].

**Reabilitasiyanın praktik əhəmiyyəti**

Əgər zorakılıq törədən kişi reabilitasiya olunmazsa, zorakılığın təkrar ehtimalı yüksək olaraq qalır. Araşdırmalar göstərir ki, müdaxilə proqramları zorakılığın təkrarlanma riskini 30–40% azalda bilir Təqsirkarın davranışlarının dəyişdirilməsi qurbanın fiziki və psixoloji təhlükəsizliyinə uzunmüddətli təminat yaradır. Reabilitasiya prosesi gender bərabərliyi və zorakılığa qarşı sosial normların güclənməsinə, o cümlədən patriarxal kodların transformasiyasına xidmət edir[223]. Zorakılığın fəsadları (tibbi xərclər, hüquqi proseslər, sosial dəstək) cəmiyyət üçün ciddi maliyyə yükü yaradır. Reabilitasiya zorakılığın davamlılığını azaldaraq iqtisadi və sosial yükün azalmasına və ya onu minimuma endirir[224].

**Mərhələli reabilitasiya proqramı**

**I Mərhələ -İlkin qiymətləndirmə və motivasiya**

İlkin mərhələdə məqsəd şəxsin zorakı davranışının mahiyyətini və risk dərəcəsini müəyyənləşdirməkdir. İlkin qiymətləndirmə əksər hallarda şəxslə görüləcək işin yol xəritəsini əvəz edir. Bəzi hallarda ilkin qiymətləndirmənin bir dəfə keçirilməsi effektiv olmur. Çünki, qarşı tərəflə etimad qurulmadan ilkin qiymətləndirmədə lazım olan məlumatların dolğunluğunu əldə etmək mümkün olmur. İlkin qiymətləndirmə bir neçə görüş nəticəsində tam dolğun nəticə verə bilir. İlkin mərhələdə istifadə edilən alətlər:

---

[222] Jewkes, R., Flood, M., & Lang, J. (2015). From work with men and boys to changes of social norms and reduction of inequities in gender relations. *The Lancet, 385*(9977), 1580–1589.

[223] Walby, S. (1990). *Theorizing Patriarchy*. Basil Blackwell.

[224] World Health Organization (WHO). (2013). *Global and regional estimates of violence against women*.

- Risk qiymətləndirmə testləri (*HCR-20, SARA*),
- Psixoloji müsahibələr,
- Sosial anamnezdir

Praktikada ilkin qiymətləndirmə mərhələsində zorakı şəxsdə məsuliyyət qəbul etmə motivasiyası yaradılmalıdır. Çox vaxt onlar davranışlarını inkar edirlər. Psixoloq "inkarı azaltma və məsuliyyəti qəbul etmə" texnikaları tətbiq etməlidir.

**II Mərhələ -Maarifləndirmə və təsəvvürlərin genişləndirilməsi**

İkinci mərhələ şəxsə, zorakılığın nəticələrini və qadınların hüquqlarını dərk etdirmək məqsədi qarşıya qoyulur. İkinci mərhələdə artıq digər üsullar tətbiq edilir. Bura daxildir:

- Qrup təlimləri (Duluth modelinin güc və nəzarət dairəsi),
- Təhsil modulları (gender bərabərliyi, hüquqi məsuliyyət),
- Qurbanların perspektivindən dinləmə sessiyaları.

Tətbiq edilən üsullar vasitəsilə zorakı şəxs zorakılığın təkcə fərdi deyil, həm də sosial və hüquqi nəticələrini anlamalısını praktikada tətbiqi vacibdir. Qeyd edilən mərhələdə, tətbiq edilən üsullar vasitəsilə şəxsin qadınlarla bağlı təssəvvürlərinin dəyişilməsinə nail olunmalıdır.

**III Mərhələ -Koqnitiv-davranışlı müdaxilə**

Üçüncü mərhələnin əsas məqsədi, düşüncə və inanclardakı zorakılıq yönümlü kodların dəyişdirilməsidir. Mərhələnin tətbiqindəki üsullarda, koqnitiv restrukturizasiya -"Qadın itaət etməlidir" tipli inancları üzərində iş aparmaq və dəyişdirmək, impuls nəzarəti və qəzəb idarəetmə texnikalarını öyrətmək, empatiya və emosional savadlılığı aratırmaqdır. Praktikada zorakı şəxsin davranış şablonları (qısqanclıq, nəzarətçilik) konkret keyslər və situasiyalar üzərindən işlənir.

**IV Mərhələ -Sosial və ailə münasibətləri üzərində iş**

Dördüncü mərhələnin məqsədi, fərdin sosial mühitini dəyişmək və zorakılıqsız münasibətləri öyrətməkdir. Bu mərhələdəki üsullarda,

- İctimai dialoq qrupları,
- Ailə və cütlük sessiyaları (yalnız qurbanın razılığı və təhlükəsizliyi ilə),
- Sosial dəstək şəbəkəsinə inteqrasiya.

Mərhələnin mühüm hissəsi praktikada, zorakılıq törədən şəxs ailə və icma içində yeni davranış modellərini tətbiq edir. Yəni öyrəndiyi, əldə etdiyi biliklər vasitəsilə ailə içərsində davranışı nümayiş etdirir.

**V Mərhələ -Məsuliyyət və hüquqi nəzarət**

Beşinci mərhələdə dəyişimin davamlılığını təmin etmək artıq əsas məqsəddir. Bütün mərhələlərlin tətbiqi şəxsin davranış, şüur, mental

düşüncə və s yanaşı  o cümlədən qanun qarşısında cavabdehlik hissini də formalaşdırır. Bu mərhələdə, əvvəlkilərdən fərqli olaraq, probasiya və məhkəmə nəzarəti əsas üsul kimi  işə düşür.

- Probasiya və məhkəmə nəzarəti,
- Sosial xidmətlərlə davamlı monitorinq,
- İctimai iş və məsuliyyət layihələri.

Bu mərhələdə praktik olaraq  cəzasızlıq sindromunun qarşısını alır. Şəxsin dəyişimi yalnız psixoloji müdaxilə ilə deyil, həm də hüquqi nəzarətlə möhkəmlənir.

**VI Mərhələ -Davamlılıq və reinteqrasiya**

Sonuncu mərhələdə artıq görülən tədbirlərin davamı olaraq zorakılığın təkrarlanma riskini minimuma endirməyə nail olmaqdır. Bu mərhələdə  əsas metodlar,

- Davamlı dəstək qrupları (*aftercare*),
- İctimai faydalı fəaliyyətlər (təlimçi kimi cəlb olunma, sosial maarifləndirmə),
- İş və məşğulluq dəstəyinin tətbiqidir.

Zorakı şəxs  praktikada yeni sosial kimlik qurmalı və zorakılıqsız davranışı həyat norması kimi mənimsəməli və tətbiq etməkdir.

**Zorakılıq törədən kişilərlə 12 addımlı reabilitasiya proqramı**

| Addım | İzah | Mütəxəssislər |
|---|---|---|
| İlkin qiymətləndirmə və risk analizi | Şəxsin zorakı davranış tarixçəsi, psixoloji profili və risk səviyyəsi müəyyən edilir (HCR-20, SARA testləri). | Psixoloq, sosial işçi, hüquq-mühafizə orqanı nümayəndəsi |
| Məsuliyyətin qəbul edilməsi | İnkar və minimizasiya ilə işlənir. Şəxsdə zorakı davranışına görə məsuliyyət hissi formalaşdırılır. | Psixoloq, psixoterapevt |
| Motivasiya yaratmaq | Zorakılığın nəticələri (hüquqi, sosial, psixoloji) izah edilir. Zorakılıqsız davranış alternativləri təqdim olunur. | Psixoloq, sosial işçi |
| Zorakılığın mahiyyətinin dərk edilməsi | *Duluth modelinin güc və nəzarət dairəsi* əsasında zorakılığın strukturu izah olunur. | Təlimçi, psixoloq |
| Gender rollarının yenidən öyrənilməsi | Patriarxal stereotiplərin sorğulanması, gender bərabərliyi və hüquqların izahı. | Gender mütəxəssisi, sosioloq |

| | | |
|---|---|---|
| Koqnitiv restrukturizasiya | Zorakılıq yönümlü inancların dəyişdirilməsi (məs. “qadın itaət etməlidir”). Alternativ düşüncə modellərinin qurulması. | Psixoloq, koqnitiv-davranışçı terapevt |
| Qəzəb və impuls idarəsi | Qəzəbi idarəetmə texnikaları (nəfəs, relaksasiya, davranışın gecikdirilməsi). | Psixoloq, psixoterapevt |
| Empatiya və emosional savadlılıq | Qurbanın perspektivindən hadisələri görmə məşqləri, emosiyaların tanınması və ifadəsi. | Psixoloq, psixoterapevt |
| Münasibət bacarıqlarının inkişafı | Konfliktlərin dinc həlli, zorakılıqsız ünsiyyət texnikaları öyrədilir. | Psixoloq, sosial işçi |
| Sosial mühitin transformasiyası | İcma qrupları, dəstək şəbəkələri ilə inteqrasiya. Sosial normların dəyişdirilməsi. | Sosial işçi, icma lideri, QHT nümayəndəsi |
| Hüquqi məsuliyyət və monitorinq | Probasiya nəzarəti, məhkəmə ilə koordinasiya, ictimai işlər. Cəzasızlıq sindromunun qarşısı alınır. | Hüquqşünas, polis, probasiya xidməti |
| Davamlı dəstək və reinteqrasiya | Dəstək qrupları (*aftercare*), məşğulluq dəstəyi, ictimai fəaliyyətlər. Davranışın təkrar zorakılığa çevrilməsinin qarşısı alınır. | Psixoloq, sosial işçi, məşğulluq mütəxəssisi, QHT |

**Zorakılıq törədən kişilərlə 12 addımlı reabilitasiya proqramı üçün metodik qeydlər:**

- Komanda yanaşması vacibdir: Psixoloq, sosial işçi, hüquqşünas, gender mütəxəssisi və icma liderləri birgə işləməlidir.
- Qurbanın təhlükəsizliyi hər zaman prioritetdir: zorakı ilə iş qurbanın razılığı və təhlükəsizlik planı əsasında aparılmalıdır.
- Monitorinq davamlı olmalıdır: davranış dəyişikliyi qısamüddətli deyil, uzunmüddətli izləmə tələb edir.
- Mədəni kontekstə uyğunlaşma vacibdir: proqramın məzmunu yerli dəyərlərə inteqrasiya edilməlidir ki, qəbul olunma səviyyəsi artsın.

Mərhələli reabilitasiya proqramı zorakı davranışın dəyişdirilməsini psixoloji müdaxilə, sosial dəstək və hüquqi nəzarətin inteqrasiyası ilə

təmin edir. Ən mühüm şərtlərdən biri şəxsin məsuliyyəti qəbul etməsi**,** digəri isə sosial mühitin dəyişməyə dəstək göstərməsidir**.** Beynəlxalq təcrübə göstərir ki, bu tip proqramlar zorakılığın təkrar riskini əhəmiyyətli dərəcədə azaldır.

Azərbaycan reallığında zorakılıq törədən kişilərlə sistemli reabilitasiya mexanizmləri hələ yeni mərhələdədir. Ənənəvi ailə institutunun dominantlığı, patriarxal stereotiplər və hüquqi mexanizmlərin zəif işləməsi dəyişimi çətinləşdirir. Buna baxmayaraq, sığınacaqların və QHT-lərin təşəbbüsləri çərçivəsində zorakı kişilərlə maarifləndirmə və psixoloji müdaxilə işlərinin başlanması ümidverici addım hesab olunur. Bu istiqamətdə dövlət dəstəyi ilə institusional proqramların yaradılması zəruridir.

**Çətinliklər və məhdudiyyətlər**

- Məcburi iştirakın effektivliyi: Məhkəmə qərarı ilə proqramlara qatılanların dəyişməsi motivasiyanın zəifliyinə görə məhduddur. Odur ki, bizim mühitdə məcburedici üsullardand eyil, mədəni və sosial mhit vasitəsilə, zorakılıq tördən kişiləri proqrama çəlb etmək daha effektiv olar.
- Mədəni müqavimət: Patriarxal dəyərlər kişilərin reabilitasiyaya qarşı müqavimətini artırır. Mövcud çətinliyi aradanq aldırmaq üçün sterotiplərlə işi gücləndirmək mühüm dəyişiklərə təsir göstərə bilər. Təlimlər, yaxşı nüumunələrin təbliği, mədəni tədbirlərin çoxalması, rayon və kənd yerlərində sosial və mədəni mühitin dəyişməsi üzrə proqramların artımı və qanunlarda sterotiplərlə bağlı dəyişikliyi bu qabildən hesab etmək olar.
- Resurs çatışmazlığı: İxtisaslı psixoloqların, sosial işçilərin və institusional dəstəyin məhdudluğu proqramların davamlılığını zəiflədir. Kişilərlə işləyən kadr potensialının artırılması, təkcə sayla bağlı deyil, qeyd edilənmütəxssislərin özlərinin ənənəvi davranış daşıyıcı olduğu təqdirdə, kadrların çoxluğunun effketi olmur. Çünki belə hallarda onlar, zorakılıq törədən tərəfə bəraət verərək reabiulitasiyanın əhəmiyyətini yoxa çxıara bilərlər.

Zorakılıq törədən kişilərlə reabilitasiya işi zorakılığın qarşısının alınması strategiyasının ayrılmaz hissəsidir. Bu, yalnız fərdi davranış dəyişikliyi deyil, həm də sosial və mədəni transformasiyaya xidmət edir. Beynəlxalq təcrübə göstərir ki, psixoloji müdaxilə, hüquqi məsuliyyət və sosial dəstəyin birgə tətbiqi zorakı davranışların dəyişdirilməsini mümkün edir. Azərbaycan kontekstində isə reabilitasiyanın institusional səviyyədə gücləndirilməsi, hüquqi və mədəni maneələrin aradan qaldırılması

vacibdir.

**Cəza ilə yanaşı dəyişdirici müdaxilələr**

Zorakı davranış və məişət zorakılığı hallarında ənənəvi yanaşma uzun müddət yalnız **cəza** üzərində qurulmuşdur. Cinayət-hüquq sistemində zorakılıq törədənlərin məsuliyyətə cəlb edilməsi vacib olsa da, tədqiqatlar göstərir ki, yalnız cəza zorakı davranışın qarşısını almaqda yetərli deyil[225]. Akademik müzakirələrdə cəza ilə yanaşı dəyişdirici müdaxilələrin tətbiqi zorakılığın davamlılığını azaltmaq və təkrar cinayət hallarının qarşısını almaq üçün zəruri hesab olunur.

**Cəzanın rolu və məhdudiyyətləri əsasən iki istiqamətlə müəyyən edilir.**

- Funksiya: Cəza hüquqi məsuliyyəti təmin edir, zorakı davranışa qarşı ictimai qınağı gücləndirir və qurbanların müdafiəsinə xidmət edir.
- Məhdudiyyət: Yalnız cəza mexanizmləri zorakılıq davranışının köklərini -psixoloji, sosial və mədəni faktorları -dəyişmir. Araşdırmalar göstərir ki, həbs və ya qısa müddətli cəza çox vaxt zorakılığın təkrar riskini aradan qaldırmır[226].

Lakin yeni, dəyişdirici müdaxilələrin mahiyyətində zorakı davranışın yalnız nəticəsini deyil, həm də səbəblərini hədəf alır. Onların məqsədi davranış transformasiyası və cəmiyyətə təhlükəsiz reinteqrasiyadır. Bu istiqmətlrə, koqnitiv-davranışlı terapiya, zorakılıqla bağlı disfunksional inancların dəyişdirilməsi, qəzəb və impuls idarəsini[227], Duluth modeli vaistəsilə güc və nəzarət ehtiyacının məsuliyyətlə əvəz olunması; qrup müdaxilələri və təhsil vasitəsilə zorakı davranışların müəyyən edilməsi[228], mədəni spektr yanaşmaları vaistəsilə yerli dəyərləri nəzərə alaraq zorakılıqsız davranış modellərinin öyrədilməsi[229], sosial dəstək və reinteqrasiyanın tətbiqi ilə icma əsaslı dəstək, məşğulluq proqramları, sosial normaların dəyişdirilməsinə nail olmaqdır.

---

[225] Gondolf, E. W. (2002). *Batterer Intervention Systems: Issues, Outcomes, and Recommendations*. Sage.

[226] Babcock, J. C., Green, C. E., & Robie, C. (2004). Does batterers' treatment work? A meta-analytic review. *Clinical Psychology Review, 23*(8), 1023–1053.

[227] Eckhardt, C. I., & Murphy, C. M. (2019). Anger, hostility, and assaultive behavior. In *Clinical Handbook of Domestic Violence*.

[228] Pence, E., & Paymar, M. (1993). *Education groups for men who batter: The Duluth model*. Springer.

[229] Jewkes, R., Flood, M., & Lang, J. (2015). From work with men and boys to changes of social norms and reduction of inequities in gender relations. *The Lancet, 385*(9977), 1580–1589.

**Cəza və müdaxilələrin inteqrasiyası**

Tədqiqatlar göstərir ki, ən effektiv nəticə cəza ilə davranış dəyişdirici proqramların birlikdə tətbiqi zamanı əldə olunur.

- Məhkəmə nəzarəti + Reabilitasiya proqramları: Təqsirkarın məsuliyyəti artırılır və davranış dəyişməsinə dəstək verilir.
- Probasiya + psixoloji müdaxilə: Probasiya xidməti çərçivəsində zorakı şəxslər qrup proqramlarına qatılmağa məcbur edilir, davamlı monitorinq aparılır[230] .
- "Məcburi, lakin dəstəkləyici" yanaşma: Hüquqi cəzanın qorxuducu təsiri ilə psixoloji və sosial müdaxilələrin bərpaedici rolu birləşdirilir.




Beynəlxalq təcrübəyə nəzər salsaq, ABŞ-da *Batterer Intervention Programs (BIP)* -məhkəmə nəzarəti altında tətbiq olunan Duluth modeli əsaslı qrup proqramları. Təkrar zorakılıq riskini azaltsa da, motivasiyaya bağlıdır. Skandinaviya ölkələrində hüquqi məsuliyyətlə yanaşı psixososial müdaxilələr geniş tətbiq olunur, zorakılıqla mübarizədə gender bərabərliyi siyasəti dəstəkləyici rol oynayır. Cənubi Afrikada isə icma əsaslı "Sonke Gender Justice" proqramı zorakıların məsuliyyətini artırmaqla yanaşı, sosial normaların dəyişdirilməsinə yönəlmişdir.

Problemə Azərbaycan kontekstində nəzər salsaq, cəza mexanizmləri mövcuddur, lakin zorakılıq törədənlərin reabilitasiyasına dair sistemli

[230] Hester, M., & Lilley, S. J. (2014). Domestic and sexual violence perpetrator programmes: Article 16 of the Istanbul Convention. Council of Europe.

proqramlar zəif inkişaf edib. Məişət zorakılığı hallarının təkrar yaşanmaması üçün məhkəmə nəzarəti ilə birlikdə mədəniyyətə uyğunlaşdırılmış davranış dəyişdirici proqramların tətbiqi zəruridir.

Cəza zorakılığın qarşısının alınmasında vacibdir, lakin təkbaşına yetərli deyil. Zorakı kişilərlə reabilitasiyada cəza ilə yanaşı dəyişdirici müdaxilələrin tətbiqi:

- zorakılığın təkrar riskini azaldır,
- qurbanların təhlükəsizliyini gücləndirir,
- patriarxal kodların dəyişdirilməsinə və sosial transformasiyaya xidmət edir.

Effektiv yanaşma -hüquqi məsuliyyətin qoruyucu funksiyası ilə psixoloji-sosial müdaxilələrin dəyişdirici funksiyasının birləşdirilməsidir.

**Dünya təcrübəsindən nümunələr:**

Zorakılıq törədən kişilərlə reabilitasiya proqramlarının effektivliyi dünya miqyasında geniş şəkildə öyrənilmişdir. Tədqiqatlar göstərir ki, yalnız cəza mexanizmləri zorakı davranışın qarşısını almaq üçün yetərli deyil, lakin cəza ilə yanaşı tətbiq edilən dəyişdirici müdaxilələr zorakılığın təkrar riskini əhəmiyyətli dərəcədə azalda bilər. Beynəlxalq praktika göstərir ki, müxtəlif ölkələrdə tətbiq edilən modellərin uğuru əsasən mədəniyyətə uyğunlaşdırma, institusional dəstək və monitorinq mexanizmləri ilə bağlıdır.

ABŞ təcrübəsində Batterer Intervention Programs (BIP): ABŞ-da ən çox istifadə edilən müdaxilə yanaşmasıdır. Duluth modelinə əsaslanan qrup proqramları hüquqi nəzarətlə birləşdirilir. Qısa müddətli təsir effektivdir, lakin uzunmüddətli davamlılıq zəifdir. Məcburi iştirak edənlərdə davranış dəyişməsi könüllü iştirakçılara nisbətən daha zəifdir. Təkrar zorakılıq riski müəyyən proqramlarda 30–40% azalmışdır

Skandinaviya ölkələrində əsasən inteqrativ model tətbiq edilir. Hüquqi məsuliyyət, gender bərabərliyi siyasəti və psixososial müdaxilə yanaşmaları paralel tətbiq olunur. Nəticələrə görə, zorakılıq hallarında təkrar riski 20–30% azalmışdır. Proqramların icmada qəbul səviyyəsi yüksəkdir, çünki gender bərabərliyi siyasəti sosial mədəniyyətin tərkib hissəsinə çevrilmişdir .

Böyük Britaniyada "Məişət zorakılığına qarşı inteqrativ proqram" (IDAP) tətbiq edilir.  Kişilərin davranışlarının dəyişdirilməsinə yönəlmiş məcburi probasiya proqramlarıdır. Nəticələrinə görə, proqram hüquqi nəzarətlə bağlı olduqda effektivdir. Lakin yalnız psixoloji müdaxiləyə əsaslanan proqramlar uzunmüddətli nəticə vermir .

Cənubi Afrikada "Hamı üçün gender ədaləti şəbəkə" icma əsaslı,

mədəniyyət yönümlü proqram vasitəsilə zorakılıq törədən şəxslərin reabilitasiyası ilə məşğul olurlar. Proqramın nəticələrinə görə, patriarxal kodlarla işləmək və icma liderlərini prosesə cəlb etmək zorakılığa münasibəti dəyişdirib. Proqram yalnız fərdlərə deyil, sosial normalara təsir göstərməklə zorakılığın qəbul olunma səviyyəsini azaltdı.

Avstraliya və Kanadada qrup əsaslı müdaxilələr və təkrar monitorinq mexanizmləri tətbiq edilir. Nəticələrə görə, təkrar zorakılıq halları azalsa da, nəticələrin effektivliyi regionlar üzrə dəyişkəndir. Davamlı dəstək (aftercare) olmayan proqramlarda uğursuzluq riski yüksəkdir[231]

Zorakılıq törədən kişilərlə reabilitasiya və zorakılığın qarşısının alınması üzrə dünyada müxtəlif modellər tətbiq olunmuşdur. Onların arasında Duluth modeli, Integrated Domestic Abuse Programme (IDAP), Sonke Gender Justice Network, habelə koqnitiv-davranışçı terapiya (CBT) və icma əsaslı yanaşmalar mühüm yer tutur. Bu proqramlar həm hüquqi mexanizmlərlə, həm də psixoloji-sosial müdaxilələrlə birləşdirilərək zorakılığın təkrar riskini azaltmağa yönəlir. Məişət zorakılığı və genderəsaslı zorakılıqla mübarizədə beynəlxalq təcrübə göstərir ki, yalnız hüquqi cəza mexanizmləri zorakı davranışın qarşısını almaq üçün kifayət etmir. Davranışın dəyişdirilməsi üçün cəza ilə yanaşı psixoloji, sosial və icma əsaslı müdaxilələr tətbiq olunmalıdır. Dünya ölkələrində işlənib hazırlanmış modellər zorakılığın səbəblərini hədəf alaraq fərdi və sosial dəyişikliklərə yönəlmişdir. Dünya təcrübəsi göstərir ki, zorakılıq törədən kişilərlə işdə universal model yoxdur. Effektiv nəticə yalnız yerli mədəniyyətin, sosial normaların və hüquqi sistemin xüsusiyyətləri nəzərə alınmaqla mümkündür. Hər bir ölkə öz reallıqlarını nəzərə alaraq beynəlxalq təcrübəni lokallaşdırmalı və inteqrativ reabilitasiya proqramları formalaşdırmalıdır.

**Zorakılığın işarələri ( kodlar**)

Gündəlik həyatımızda zorakılığın işarələri tez-tez gözümüzün önündə olur, amma biz onları ya “görmürük” ya da “normal” sosial davranış kimi qəbul edirik. Bu, fərdi psixoloji mexanizmlər, eləcə də mədəni–ictimai amillərlə bağlıdır. Zorakılıq törədənlərin davranış nümunələri və biz əlamətlərə (işarələrə) niyə əhəmiyyət vermədiyimizin səbəblərini akademik izah şəklində diqqət edək.

---

[231] Day, A., Chung, D., O’Leary, P., & Carson, E. (2009). Programs for men who perpetrate domestic violence: An examination of the issues underlying the effectiveness of intervention programs. *Journal of Family Violence*, *24*(3), 203–212.

**1. Zorakılıq törədənlərin davranış işarələri**

Zorakılıq nadir hallarda qəfil partlayışla başlayır. Əksinə, çox vaxt erkən xəbərdaredici işarələr olur. Elmi ədəbiyyatda bunlar qeyd olunur:

- Nəzarətçi davranışlar -partnyorun harada olduğunu, kimlə danışdığını daim yoxlamaq.
- Qısqanclıq və izolasiya -qurbanı ailədən və dostlardan uzaqlaşdırmaq.
- İqtisadi məhdudiyyətlər -pul verməmək, bütün maliyyə qərarlarını özü vermək.
- Aşağılama və təhqir -qurbanı dəyərsiz hiss etdirmək, özünəinamını sındırmaq.
- Qorxutma işarələri -qapını çırpmaq, əşyaları sındırmaq, uşaq və ya ev heyvanlarını hədələmək.
- Dəfələrlə üzr və "bal ayı" mərhələsi -zorakılıqdan sonra yumşalma, bağışlanma istəmək, hədiyyələr vermək. Bunların hamısı əslində zorakılıq dövrünün hissələridir.

**Niyə əhəmiyyət vermirik?**

Bir çox cəmiyyətlərdə "ailə daxili məsələdir, kənar qarışmasın" yanaşması kimi mədəni normalar mövcuddur. Qadının itaətkar olması, kişinin sərtliyi "ənənəvi rol bölgüsü" kimi qəbul edilir.

qurban və ya ətrafdakılar hadisəni kiçildir ("bir-iki dəfə vurub, amma sonra peşman oldu") əhəmiyyətsiz bir hal kimi təqdim edir ki, bu da zorakılığa məruz qalmış şəxsin psixoloji düşüncəsində özünə inamını yox edir. Zorakılıq törədən öz davranışını qəbul etmir, baş verənləri inkar edir, qarşı tərəfin onu fəqli anlaması formatına çevirir və belə olan halda, qurban təhlükəni dərk etməməyə çalışır. Vəziyyət o həddə çatır ki, qurban işarələri açıqlamağa qorxur, o, daha güclü zorakılıqdan çəkinir.

Qanunların icrasında boşluqlar -qurban polisə müraciət etsə də, çox vaxt "ailə məsələsidir" deyə geri qaytarılır. Bu sosial və institusional səbəblər olmaqla qurbanın müdafiəsini ön plana çəkmir və nəticədə qurban baş verənlərin hüquqi müstəvidə köməkdən məhrum olur. Sosial dəstək mexanizmlərinin zəifliyi -sığınacaq, hüquqi yardım, psixoloji dəstəyin məhdud olması, bu qabildən olan maniəlrədir. İctimai qınaq -qurban "ailəni dağıdan" kimi damğalana bilər kimi deyimlər, qurbanın zorakılığın işarələrindən danışmasını yerində "boğur".

**Niyə işarələri görməyimiz vacibdir?**

Əgər zorakılıq işarələri vaxtında tanınmazsa:

- Zorakılıq dövrü (təzyiq → partlayış → "bal ayı") davam edir.
- Qurbanın psixoloji və fiziki sağlamlığı ağır zərbə alır.

• Zorakılıq normal sosial davranış kimi nəsildən-nəsilə ötürülür.

Beynəlxalq təcrübə göstərir ki, təlimlər, ictimai kampaniyalar və maarifləndirmə proqramları zorakılıq işarələrinin tanınmasını artırır. Məsələn, Duluth modeli zorakılığın "güc və nəzarət dairəsini" ictimaiyyətə göstərməklə davranış nümunələrinin tanınmasına kömək edir.

**Zorakılığın işarələri**

| Kateqoriya | İşarələr | Niyə əhəmiyyət verilmir? |
|---|---|---|
| Fiziki | - Tez-tez göyərmələr və yaralar - Ziddiyyətli izahlarla açıqlanan xəsarətlər<br>- Sıx təkrar olunan tibbi müraciətlər | - "Qəza olub" kimi izahlarla ört-basdır edilir - Qurbanın qorxudan həqiqəti gizlətməsi - Ailə daxili məsələ kimi qəbul edilir |
| Psixoloji | - Daimi qorxu və narahatlıq - Özünü günahlandırma<br>- Depressiya, yuxusuzluq, kabuslar - Emosional uyuşma (numbness) | - "Xasiyyəti belədir" deyə normallaşdırılır - Psixi sağlamlıq problemi kimi yozulur, zorakılıqla əlaqəsi görülmür<br>- Qurbanın səsini eşitməmək üçün cəmiyyət göz yumur |
| Davranış | -Partnyorun həddindən artıq qısqanclığı - Telefon və hərəkətlərin izlənməsi<br>-İctimai yerlərdə partnyorun susqunluğu və qorxu hissi - Uşaqlarda aqressiya və ya həddən artıq itaətkarlıq | - "Sevgi və qayğı" adı altında qısqanclığın normallaşdırılması<br>- Uşaqların davranışı "tərbiyəsizlik" kimi yozulur<br>- İctimaiyyət zorakılığın dolayı işarələrini görməməzlikdən gəlir |
| Sosial | - Dostlardan və ailədən uzaqlaşma - İşdə və ya məktəbdə davamiyyətin azalması<br>-Maliyyə asılılığı və qərar verə bilməmək | - "Ailəsinə bağlıdır, çox gəzmir" kimi normal qəbul edilir - İqtisadi asılılıq qadın üçün "adi hal" kimi görünür<br>- İctimai qınaq qorxusu səbəbindən qurban kömək istəmir |
| Gender-spesifik | - Məcburi hamiləlik və abort<br>-Seksual zorakılıq əlamətləri<br>- Qadının sərbəst geyim, iş və təhsil seçimlərinə qadağa | - Cinsi zorakılıq mövzusu tabu olduğundan danışılmır<br>- Mədəniyyət qadının seçim azadlığını məhdudlaşdırmağı normallaşdırır - Hüquqi mexanizmlərə inamsızlıq mövcuddur |

**Sürətli skrininq (nününə modelləri) aləti (Zorakılıq işarələri)**

İstifadə qaydası:

• Suallar qısa, sadə və neytral tonda verilməlidir.

• Qurban cavab verməkdən çəkinirsə, məcbur edilməməlidir.

• Cavablar "bəli / xeyr" və ya qısa izahla toplanır.

• 2 və ya daha çox "bəli" cavabı risk siqnalı hesab edilir.

Fiziki işarələr üzrə skrininq

• Son 6 ayda izah etməkdə çətinlik çəkdiyiniz yaralar və göyərmələr oldumu?

• Partnyorunuz sizə zərər verməklə hədələyibmi?

Psixoloji işarələr üzrə skrininq

• Siz tez-tez qorxu və narahatlıq hiss edirsinizmi?

• Özünüzü çox vaxt günahkar və ya dəyərsiz hiss edirsinizmi?

• Gecələr yuxusuzluq, kabuslar sizi narahat edirmi?

Davranış işarələri üzrə skrininq

• Partnyorunuz telefon zənglərinizi, mesajlarınızı və ya hərəkətlərinizi dairi izləyirmi?

• Sizin dostlarla, ailə ilə görüşməyinizə məhdudiyyət qoyurmu?

• Onun yanında özünüzü sərbəst ifadə edə bilmirsinizmi?

Sosial işarələr üzrə skrininq

• İşə və ya məktəbə getmənizə maneələr yaradıbmı?

• Pul və ya maliyyə qərarları tamamilə onun nəzarətindədirmi?

Gender-spesifik işarələr üzrə skrininq

• Sizi istəmədiyiniz hamiləliyə və ya aborta məcbur edibmi?

• Seksual münasibətlərdə sizin razılığınız nəzərə alınmırmı?

Nəticələrin təhlili

• 0–1 "bəli" - Hal-hazırda açıq risk azdır, lakin müşahidə davam etməlidir.

• 2–3 "bəli" - Orta risk: əlavə dərinləşdirilmiş müsahibə lazımdır.

• 4 və daha çox "bəli" -Yüksək risk: təhlükəsizlik planı və təcili yönləndirmə zəruridir.

Bu skrininq aləti ÜST-nın "Violence Against Women Screening Tools", Duluth Model və Stark-ın *Coercive Control* nəzəriyyəsi əsasında uyğunlaşdırılıb. Azərbaycan reallığında tətbiqi üçün məxfilik və təhlükəsizlik prinsipləri mütləq gözlənilməlidir.

**Duluth modeli və digər beynəlxalq proqramlar**

Məişət zorakılığına qarşı mübarizədə və zorakılıq törədən kişilərlə davranış dəyişdirici müdaxilələrdə Duluth modeli və digər beynəlxalq proqramlar xüsusi əhəmiyyət kəsb edir. Bu proqramların əsas məqsədi yalnız zorakı şəxsləri cəzalandırmaq deyil, onların davranış kodlarını dəyişdirərək zorakılığın təkrar riskini azaltmaq, qurbanların təhlükəsizliyini gücləndirmək və sosial-mədəni transformasiya yaratmaqdır.

**Duluth modeli** 1980-ci illərdə ABŞ-ın Minnesota ştatının Duluth şəhərində hazırlanmışdır. Konsepsiyanın əsasını, məişət zorakılığının

kökündə "güc və nəzarət dairəsi" təşkil etdiyi ideyası dayanır. Zorakılıq kişilərin qadın üzərində hakimiyyət qurmaq üçün istifadə etdiyi bir vasitədir. Konsepsiya, bir neçə üsullara güz və nəzarti minimmalaşdırmaq, yaxud dayandırmağın yollarını göstərir. Belə ki, zorakılıq törədən kişilərlə qrup seansları, zorakılığın mexanizmlərinin açılması və məsuliyyətin zorakının üzərinə qoyulmasıdır. O cümlədən, qadının davranışını günahlandırmaq əvəzinə kişinin nəzarət və güc davranışları aşkarlamaq üsuludur. Təqdim edilən konspesiyada qadınlara qarşı zorakılıq hüquqi məsələ kimi dəyərləndirilir.

Modelien əhəmiyyəti görə, zorakıllq törədən şəxslərin məsuliyyəti qəbul etməsi və gender bərabərliyinin mahiyyətini[232] anlamasına nail olmaqdır. Lakin modelin tətbiqində əldə edilən nəticələrdə qısa müddətli effektivlik təsdiqlənsə də, uzunmüddətli nəticələr mübahisəlidir. Araşdırmalara görə, bəzi iştirakçılarda zorakılıq riski 30–40% azalmışdır.

**Böyük Britaniyada tətbiq edilən, Məişət zorakılığına qarşı inteqrasiya olunmuş proqramın** (Integrated Domestic Abuse Programme (IDAP) xüsusiyyətlərində probasiya xidməti ilə inteqrasiya olunmuş məcburi tədbirlər dayanır. Proqramın əsas məqsədi kişilərin davranışlarını dəyişdirmək və qurbanların təhlükəsizliyini artırmaqdır. Proqramın tətbiqində, Koqnitiv-davranışlı yanaşma, zorakılıqsız münasibətin qurulması bacarıqları, sosial məsuliyyətin gücləndirilməsi dayanır.

Proqramın nəticələrinə baxdıqda, təkrar zorakılıq halları müəyyən dərəcədə azalsa da, uzunmüddətli təsir yalnız monitorinq və davamlı dəstək olduqda qorunur.

**Cənubi Afrikada "Birlikdə gender ədaləti üzrə Şəbəkə**"nin (Sonke Gender Justice Network) fəaliyyət fəlsəfəsinə görə, gender bərabərliyinin təşviqi, patriarxal dəyərlərin transformasiyası zamanı zorakılığı dayandırmaq mümkündür. Transfarmasiya isə yalnız fərdlərlə deyil, icmalar və sosial normalarla işlədikdə effektiv təsirə malik olur. Şəbəkə tərəfindən irəli sürülən üsullar, əsasən icma dialoqları, maarifləndirmə kampaniyaları, kişilər və oğlanlarla gender rollarının yenidən qurulması ilə mümkündür. Tətbiq edilən üsullar nəticəsində, zorakılığın sosial qəbul səviyyəsi zəifləyir, gender bərabərliyinə dəstək artır[233].

---

232 Duval & Wicklund, 1972).

233 Jewkes, R., Flood, M., & Lang, J. (2015). From work with men and boys to changes of social norms. *The Lancet, 385*(9977), 1580–1589.

**Skandinaviya ölkələrinin proqramlarının xüsusiyyətlərinə gəlincə, bu proqramlar** hüquqi məsuliyyət, psixososial müdaxilələrin inteqrasiyasına üstünlük verir. Dövlət siyasətinin gender bərabərliyi ilə birləşdirilməsi nəticəsində proqramlar effektiv təsirə malikdir. Mövcud strategiyalar nəticəsində, **t**əkrar zorakılıq halları 20–30% azalması müşahidə edilib. Proqramların cəmiyyətdə qəbul səviyyəsi yüksəkdir olduğu tətqiqatçılar tərəfindən qeyd edilir.

**Avstraliya və Kanada proqramlarının tətbiqi üsulları əsasən, q**rup əsaslı müdaxilələr, **u**zunmüddətli monitorinq və sosial dəstəklə fərqlənir. Lakin proqramların icrasında **d**avamlı dəstək (aftercare) olmadıqda təkrar zorakılıq riski yüksəlir [234].

Beləliklə, təqdim edilən müxtəlif modellər, strategiyalar, proqramlar onu göstərir ki, cəza ilə yanaşı dəyişdirici müdaxilələr zəruridir -yalnız cəza zorakılığı azaltmır. Koqnitiv restrukturizasiya və məsuliyyətin qəbul etdirilməsi davranış dəyişikliyi üçün əsas mexanizmlərdir. Mədəni uyğunlaşma vacibdir -hər ölkədə tətbiq edilən proqram sosial dəyərlərə və gender normalarına uyğunlaşdırılmalıdır. Monitorinq və uzunmüddətli dəstək proqramların uğurunu müəyyən edən əsas şərtlərdir.

Duluth modeli və digər beynəlxalq proqramlar zorakılıq törədən kişilərlə işdə mühüm təcrübə təqdim edir. Onların uğuru yalnız hüquqi məsuliyyət və psixoloji müdaxilənin birləşdirilməsi ilə deyil, həm də yerli mədəniyyət, sosial dəyərlər və icma dəstəyi nəzərə alındıqda daha dayanıqlı olur. Azərbaycan kontekstində də bu modellərin elementlərini lokallaşdırmaq və institusional səviyyədə tətbiq etmək zəruridir.

**CBT (Koqnitiv-davranış terapiyası) əsaslı müdaxilələr**

Koqnitiv-davranış terapiyası (CBT) Aaron Beck və Albert Ellis tərəfindən inkişaf etdirilmiş, insanın düşüncə (koqnitiv), emosional və davranış proseslərinin qarşılıqlı əlaqəsinə əsaslanan bir psixoterapiya modelidir. Onun əsas prinsipi: "Düşüncələr emosiyaları, emosiyalar isə davranışları formalaşdırır."

Bu yanaşmaya görə, zərərli və disfunksional düşüncə sxemlərinin dəyişdirilməsi davranış və emosional vəziyyətin yaxşılaşmasına gətirib çıxarır [235].

**CBT əsaslı müdaxilələrin məqsədi**

Zərərli düşüncə və inancları (məsələn, "mən heç nəyə yaramıram",

---

[234] Day, A., Chung, D., O'Leary, P., & Carson, E. (2009). Programs for men who perpetrate domestic violence. *Journal of Family Violence, 24*(3), 203–212.

[235] Beck, J. S. (2011). *Cognitive Behavior Therapy: Basics and Beyond*. Guilford Press.

"zorakılığı özüm haqq edirəm") aşkarlayıb dəyişmək. Davranış nümunələrini (məsələn, zorakılığa dözmək, passivlik) dəyişdirərək adaptiv bacarıqları gücləndirmək. Qurbanlarda özünəinamı və resurslarını artırmaq, zorakılıqdan sonrakı həyatı planlamağa kömək etmək. Zorakılıq törədənlərdə isə aqressiv düşüncə sxemlərini və impulsiv davranışları dəyişməkdir.

**CBT əsaslı müdaxilələrin tətbiq sahələri**

**Zorakılıq qurbanları üçün, t**ravma sonrası stress pozuntusu (PTSP) müalicəsində geniş tətbiq edilir[236]. Qurbanların özünü günahlandırma və utanc hissini azaltmağa kömək edir. Safety planning (təhlükəsizlik planı) ilə birləşdirildikdə qurbanın özünü gücləndirmə prosesini sürətləndirir. Qadın sığınacaqlarında aparılan qrup seanslarında CBT əsaslı empowerment modeli effektiv nəticə göstərir[237] .

**Zorakılıq törədənlər üçün,** CBT əsaslı "Batterer Intervention Programmes (BIP)" zorakılıq törədən kişilərdə davranış dəyişdirici proqramların əsasını təşkil edir. Bu proqramlar aqressiv davranışa səbəb olan irrasional inancları ("qadın kişiyə tabedir", "qəzəb normadır") dəyişməyə yönəlir[238]**.** Impulse control, emosiya idarəsi və empatiya qurma məşqləri daxildir. Duluth modeli ilə birlikdə tətbiq ediləndə gender bərabərliyi kontekstini gücləndirir.

**CBT texnikaları və müdaxilə üsulları**

Mənfi avtomatik düşüncələrin müəyyənləşdirilməsi və alternativ pozitiv düşüncələrin inkişaf etdirilməsi koqnitiv restrukturizasiyanın tətbiqi ilə həyata keçirilir. Eyni zamanda yeni davranış nümunələrinin öyrənilməsi və tətbiqi paralel aparılır. Qorxu və travmatik xatirələrlə təhlükəsiz mühitdə üzləşməklə ekspozisiya texnikaları işə salınır. Narahatlıq və həyəcanın idarə olunması isə relaxasiya və nəfəs məşqləri ilə sabitləşdirilir. Problem həll etmə bacarıqları üzrəində iş, qurbanların gündəlik həyatda daha adaptiv qərarlar verməsinə kömək edir.

**Effektivlik və boşluqlar.** Tədqiqatlar göstərir ki, CBT əsaslı proqramlar qurbanlarda PTSP simptomlarını əhəmiyyətli dərəcədə

---

[236] Foa, E. B., Keane, T. M., Friedman, M. J., & Cohen, J. A. (2009). *Effective treatments for PTSD: Practice guidelines*. Guilford Press.

[237] Kubany, E. S., Hill, E. E., & Owens, J. A. (2004). Cognitive trauma therapy for battered women with PTSD. *Journal of Consulting and Clinical Psychology, 72*(1), 3–18.

[238] Babcock, J. C., Green, C. E., & Robie, C. (2004). Does batterers' treatment work? A meta-analytic review. *Clinical Psychology Review, 23*(8), 1023–1053.

azaldır[239]. Zorakılıq törədənlərdə isə nəticələr qarışıqdır -bəzi araşdırmalarda təkrarlanma riskini azaltsa da[240], bəzilərində məhdud effekt göstərmişdir. Bu səbəbdən, müstəqil deyil, mədəni və hüquqi çərçivələrlə birlikdə tətbiqi tövsiyə olunur.

Azərbaycanda məişət zorakılığı ilə bağlı reabilitasiya mərkəzlərində CBT yanaşmasının psixoloji dəstək və qadınların gücləndirilməsi kontekstində tətbiqi daha məqsədəuyğundur. Zorakılıq törədənlər üçün CBT əsaslı davranış dəyişdirici proqramların hazırlanması və pilot layihələrin tətbiqinə ehtiyac var.

**Qadınların psixoloji yardım almaqda çəkindiyi hallarda qısamüddətli CBT seansları (brief CBT) daha əlçatan ola bilər .** CBT əsaslı müdaxilələr zorakılığın həm qurban, həm də törədən tərəfi üçün elmə əsaslanan və strukturlaşdırılmış yanaşmadır. Qurbanlarda travmanın sağalmasına, zorakılıq törədənlərdə isə aqressiv düşüncə və davranışların dəyişməsinə imkan verir. Lakin bu müdaxilələrin effektivliyi mədəni kontekst, sosial dəstək və hüquqi mexanizmlərlə paralel qurulduqda daha yüksək olur.

**CBT əsaslı müdaxilə cədvəli**

| **Mərhələ** | **Nümunə (Düşüncə/Emosiya/Davranış)** | **CBT Müdaxilə Texnikası** |
|---|---|---|
| Düşüncə (Koqnitiv səviyyə) | “Mən heç nəyə yaramıram” - “Qəzəbimi göstərmək normaldır”. “Zorakılıqla ailə idarə olunur” | Koqnitiv restrukturizasiya - mənfi inancları və avtomatik düşüncələri dəyişdirmək |
| Emosiya (Hisslər) | Qorxu, hirs, günahkarlıq, Narahatlıq, depressiya, Özünəinamın azalması | Emosional tənzimləmə texnikaları -nəfəs məşqləri, relaksasiya, mindfulness |
| Davranış (Reaksiya) | Qurbanlarda: susqunluq, təcrid, passivlik Zorakılıq törədənlərdə: aqressiya, nəzarət, təhqir | Davranış eksperimentləri və rol oyunları -yeni davranış nümunələrinin öyrədilməsi |
| Düşüncə–emosiya–davranış dövrü | Düşüncə: “Mən günahkaram”. Emosiya: qorxu. Davranış: zorakılığa dözmək. | Problem həll etmə bacarıqları və ekspozisiya - yeni baxış bucağı formalaşdırmaq, travmatik |

[239] Watts, B. V., Schnurr, P. P., Mayo, L., Young-Xu, Y., Weeks, W. B., & Friedman, M. J. (2013). Meta-analysis of the efficacy of treatments for posttraumatic stress disorder. *Journal of Clinical Psychiatry, 74*(6), e541–e550.

[240] Feder, L., & Wilson, D. B. (2005). A meta-analytic review of court-mandated batterer intervention programs. *Journal of Experimental Criminology, 1*(2), 239–262.

| | | |
|---|---|---|
| | | xatirələrlə üzləşmə |
| Sabitlik | Özünəinamın bərpası. İctimai və sosial dəstək istifadəsi | Gücləndirmə (empowerment) yanaşmaları -sosial resurslara çıxış, dəstək qrupları, təhlükəsizlik planı |

Bu cədvəl göstərir ki, CBT yalnız simptomları deyil, düşüncə–emosiya–davranış zəncirini dəyişdirərək zorakılıq qurbanı və ya törədənin həyatında davamlı dəyişiklik yaradır.

**Integrated Domestic Abuse Programme (İnteqrasiya edilmiş Məişət Zorakılığı Proqramı) (IDAP)**

Integrated Domestic Abuse Programme (IDAP) Böyük Britaniyada tətbiq olunan və zorakılıq törədən kişilərə yönəlmiş davranış dəyişdirici proqramdır. Proqramın məqsədi yalnız cinayətkarı cəzalandırmaq deyil, eyni zamanda onun zorakı davranışlarını dəyişdirmək və qurbanın təhlükəsizliyini artırmaqdır. Bu model Duluth güc və nəzarət dairəsi yanaşmasına əsaslanır, lakin ona koqnitiv-davranış terapiyası (CBT) elementlərini inteqrasiya edir[241] .

**Proqramın əsas prinsipləri**

IDAP üç əsas sütun üzərində qurulmuşdur:

1. **Zorakılıq törədənlərin davranışının dəyişdirilməsi**
- Aqressiv və nəzarətçi inancları sorğulamaq.
- Empatiya və məsuliyyət hissini inkişaf etdirmək.
2. **Qurbanın təhlükəsizliyinin prioritetləşdirilməsi**
- Proqram yalnız cinayətkara deyil, eyni zamanda qurbanın təhlükəsizliyinin monitorinqinə də yönəlir.
- Qurban dəstək xidməti proqramın ayrılmaz hissəsidir.
3. **İnteqrasiya olunmuş çoxagentlikli yanaşma (multi-agency approach)**
- Probasiya xidməti, polis, sosial xidmətlər və QHT-lərin əməkdaşlığı.
- Qurbanın müdafiəsi ilə cinayətkarın reabilitasiyası paralel aparılır.

**Strukturu və metodologiyası**

**Müddət:** Təxminən 27 həftəlik qrup sessiyalarından ibarətdir.

**Sessiyaların məzmunu:**

[241] Home Office (2004). *Accredited Programmes: Integrated Domestic Abuse Programme (IDAP)*. London.

- Gender rolları və güc münasibətlərinin analizi.
- Qəzəb idarəsi və emosional tənzimləmə.
- Empatiya qurma məşqləri.
- Alternativ mübahisə həlli bacarıqları.
- Uşaqlara təsirin dərk edilməsi.

**Tətbiqi üsulu,** Koqnitiv-Davranış Terapiyası (CBT) prinsipləri, psixoedukativ yanaşmalar və rol oyunları ilə interaktiv işdən ibarətdir.

**Elmi əsaslandırma və effektivlik**

Araşdırmalar göstərir ki, IDAP bəzi hallarda zorakılığın təkrar riskini azaldır, lakin nəticələr qarışıqdır. Harrell[242] qeyd edir ki, proqramda iştirak edən kişilər arasında yenidən zorakılığa əl atma halları azalsa da, tamamilə aradan qalxmır. Dobash və həmkarları[243] göstərir ki, proqramda iştirak edən kişilər zorakılıq törətməyənlərə nisbətən daha yüksək empatiya bacarıqları qazanmışdır. UK Probation Service (2005–2010) hesabatlarında qeyd edilir ki, proqramın ən güclü tərəfinin qurban təhlükəsizliyi xidmətləri ilə inteqrasiya olduğunu vurğulamışdır. Bununla belə, tətqiqatçılar Babcock, Green və Robie meta-analizi göstərir ki, ümumilikdə CBT əsaslı zorakılıq müdaxilə proqramlarının təsiri orta səviyyədədir və sosial-mədəni dəstəklə gücləndirilməlidir.

**Tənqidlər**

"Bir ölçü hamıya uyğundur" yanaşması -proqram fərdi travma, mədəni kontekst və sosial faktorları yetərincə nəzərə almaya bilər. Məcburi iştirakın təsiri -bir çox kişi məhkəmə qərarı ilə proqramda iştirak edir, bu isə motivasiya səviyyəsini azalda bilər[244]. Uzunmüddətli davamlılıq -bəzi tədqiqatlarda proqramın davamlılığı təmin edilmədikdə, yəni bitdikdən sonra 1–2 il ərzində zorakılığın yenidən artdığı müşahidələrdə qeyd olunmuşdur.

**Azərbaycan konteksti üçün əhəmiyyəti**

Azərbaycanda zorakılıq törədənlər üçün sistemli reabilitasiya proqramları çox məhduddur. IDAP modelinin öyrənilməsi bu sahədə praktik baza yarada bilər. Yerli mədəniyyət və ənənələr nəzərə alınmaqla IDAP–Duluth hibrid modeli tətbiq oluna bilər. Qadın sığınacaqları və hüquqi strukturlarla inteqrasiya edilməsi qurbanların təhlükəsizliyini təmin edə bilər.

---

[242] Harrell, A. (2003). *Judicial oversight in domestic violence cases*. Urban Institute.
[243] Dobash, R. E., Dobash, R. P., Cavanagh, K., & Lewis, R. (2000). Changing violent men. *Sage Publications*.
[244] Feder, L., & Wilson, D. B. (2005). A meta-analytic review of court-mandated batterer intervention programs. *Journal of Experimental Criminology, 1*(2), 239–262.

IDAP zorakılıq törədənlərə yönəlmiş ilk sistemli və dövlət səviyyəsində qəbul olunmuş proqramlardan biridir. Onun ən mühüm yeniliyi -cinayətkar reabilitasiyasını qurban təhlükəsizliyi ilə birləşdirməsidir. Araşdırmalar göstərir ki, nəticələr tamamilə ideal olmasa da, proqram zorakılıq dövrünün qırılmasına mühüm töhfə verir. Azərbaycanda bu modelin uyğunlaşdırılması sosial və hüquqi mexanizmlərin güclənməsinə ciddi dəstək ola bilər.

**IDAP -27 həftəlik qrup sessiyaları**

| Həftə | Mövzu | Məqsəd | Metod |
|---|---|---|---|
| 1–2 | Giriş və müqavilə | Qrup qaydalarını müəyyən etmək, iştirakçıların məsuliyyətini anlamaq | Psixoedukasiya, müzakirə |
| 3–4 | Gender rolları və güc/nəzarət | Zorakılığın sosial-mədəni köklərini dərk etmək | Duluth güc dairəsi, qrup işi |
| 5–6 | Özünə məsuliyyət | Zorakılıq davranışının məsuliyyətini qəbul etmək | Koqnitiv restrukturizasiya, təhlil |
| 7–8 | Emosional idarəetmə | Qəzəb, stress və impulsların idarəsi | Relaxasiya texnikaları, rol oyunu |
| 9–10 | Empatiya və təsir | Qurbanın və uşaqların yaşadıqlarını anlamaq | Perspektiv götürmə məşqləri |
| 11–12 | Davranış alternativləri | Aqressiv davranış əvəzinə münaqişə həll bacarığı | Problem həll etmə, rol oyunları |
| 13–14 | İctimai və ailə münasibətləri | Sağlam ünsiyyətin qurulması | Komunikasiya təlimləri |
| 15–16 | İqtisadi zorakılıq | Maliyyə üzərində nəzarətin zorakılıq forması olduğunu anlamaq | Hadisə analizi, qrup müzakirəsi |
| 17–18 | Seksual zorakılıq | Razılıq anlayışının öyrənilməsi, zorlamanın nəticələri | Tədris materialı + müzakirə |
| 19–20 | Uşaqlara təsir | Uşaqların zorakılığa şahid olmasının psixoloji fəsadlarını dərk etmək | Video materiallar, qrup refleksiyası |
| 21–22 | Münasibətlərin bərpası | Şəxsi və ailə münasibətlərində alternativ davranış nümunələri | Rol oyunları, qrup tapşırıqları |
| 23–24 | Sosial məsuliyyət | Zorakılığın cəmiyyətə və | Hüquqi məlumat, qrup |

| | | | |
|---|---|---|---|
| | | qanuni nəticələrinə dair maarifləndirmə | işi |
| 25–26 | Relapsın (təkrar zorakılığın) qarşısı | Riskli vəziyyətlərdə zorakılığın qarşısını alma strategiyaları | Risk analizi, təhlükəsizlik planı |
| 27 | Yekun və qiymətləndirmə | İştirakçıların əldə etdiyi dəyişiklikləri qiymətləndirmək | Özünüqiymətləndirmə, qrup müzakirəsi |

**Qeydlər:**

Sessiyalar həftədə 1 dəfə, 2–2.5 saat davam edir. Hər sessiya interaktiv metodlarla (diskussiya, rol oyunları, refleksiya) aparılır. Paralel olaraq sığınacaqlar, yardım və reabilitasiya mərkəzləri  qurbanla mütəmadi əlaqə saxlayır. İştirakçılar proqramı tam bitirdikdən sonra probasiya və sosial xidmətlər tərəfindən monitorinq olunur.

**EMERGE modeli**

**EMERGE modeli (Kişilərin gender bərabərliyi yolunda roluna dair araşdırmalar)** gender bərabərliyinin təşviqində və kişilərin bu prosesdə fəal iştirakını artırmaqda istifadə olunan tədqiqat və proqram dizayn çərçivəsidir. Model 2016-cı ildə Promundo-US, Sonke Gender Justice və International Center for Research on Women (Promundo-US, Sonke Gender Hüququ və Beynəlxalq Qadınlar Araşdırma Mərkəzi) (ICRW) tərəfindən hazırlanmışdır.

Onun əsas məqsədi: gender ədalətinə nail olmaq üçün kişilərin davranışlarını, inanclarını və sosial institutlardakı rollarını transformasiya etməkdir.

**EMERGE modelinin mahiyyəti**

Model gender bərabərliyinə yol verən faktorları sistemləşdirərək, siyasətçilər, QHT-lər və tədqiqatçılar üçün “yol xəritəsi” təqdim edir. O, zorakılığın azaldılması, sağlam münasibətlərin təşviqi və qadınların gücləndirilməsi məqsədilə kişilərin dəyişdirici rolu üzərində dayanır.

**Əsas istiqamətlər:**

Kişi və qadın rollarına dair stereotiplərin transformasiyası ilə normativ dəyişikliklərə nail olmaq. Kişilərin zorakılıqdan imtina etməsi, ev işlərində və valideynlikdə daha çox iştirak etməsini təmin etməklə davranış dəyişikliklərini yaratmaqdır. Qanunvericilik, siyasət və xidmətlərin gender bərabərliyini dəstəkləyən şəkildə qurulması institusional dəyişikliklərlə nəticələnəndir. Proqramların effektivliyinin monitorinqi və qiymətləndirilməsi üçün göstəricilər sistemi məlumat və

sübut bazası qisimində tətbiqi üsulları ilə nəticə əldə etməkdir.

**Modelin strukturu**

EMERGE çərçivəsi üç əsas təbəqədən ibarətdir:

- Fərdi səviyyə → kişilərin inancları, dəyərləri, davranışları.
- İcma səviyyəsi → sosial normalar, ailə və icma münasibətləri.
- Struktur səviyyə → qanunlar, siyasətlər, iqtisadi və sosial institutlar.

Bu yanaşma ekoloji modelə bənzərdir[245], lakin fokus gender və kişilərin transformativ iştirakına yönəlir.

**Tətbiq sahələri**

Məişət zorakılığının qarşısının alınması proqramları və xdimətləri vasitəsilə kişilərin zorakılıq törətməməsi üçün erkən müdaxilə proqramlarının tətbiqi, kişilərin uşaqların tərbiyəsində aktiv iştirakını tətbiq etməklə onlarda balideynlik və qayğı hisslərini gücləndirmək. Kşilərin gender bərabərliyi üçün siyasət və kampaniyalarda tərəfdaşlığını artırmaqla ictimai və siyasi iştirakını stimullaşdırmaq, kişilərin reproduktiv sağlamlıq və ailə planlamasında daha məsuliyyətli iştirak etməsinə dair mövcud sterotip və davranışları dəyişməklə cəlb etməkdir

Məsələn, "MenCare" kampaniyası və Sonke Gender Justice Network-un proqramları EMERGE çərçivəsinə əsaslanan nümunələrdir.

**Elmi əsaslandırma və effektivlik**

EMERGE göstəricilərinə əsaslanan proqramlar kişilərin gender bərabərliyi barədə biliklərini artırmış və zorakılıq davranışlarını azaltmışdır[246]. Hindistan və Afrikada aparılan pilot tətbiqlərdə kişilərin ev işlərində iştirakı və zorakılığa münasibətində pozitiv dəyişikliklər qeydə alınmışdır[247]. EMERGE indikatorları ilə ölçülən müdaxilələrdə qadınların gücləndirilməsi göstəriciləri də artmışdır[248].

**Tənqidlər**

Model əsasən **"Qlobal Cənub"** kontekstində sınaqdan keçirilib, digər regionlara tətbiqi üçün adaptasiya tələb olunur. Davranış dəyişiklikləri çox vaxt qısa müddətli olur; uzunmüddətli təsir üçün sosial və

---

[245] Bronfenbrenner, U. (1979). *The ecology of human development*. Harvard University Press.

[246] Promundo, Sonke Gender Justice, & ICRW (2017). *EMERGE: Engendering Men - Evidence on Routes to Gender Equality*. Washington, DC.

[247] ICRW (2018). *Evolving Men: Initial results from the EMERGE project*. International Center for Research on Women.

[248] Jewkes, R., Flood, M., & Lang, J. (2020). From work with men and boys to changes of social norms and reduction of inequities in gender relations: A conceptual shift in prevention of violence against women and girls. *The Lancet*, *385*(9977), 1580–1589.

hüquqi dəstək mexanizmləri vacibdir. Bəzi tədqiqatçılar qeyd edir ki, model bəzən kişiləri mərkəzləşdirir və qadınların öz agentliyini arxa plana keçirə bilər[249].

**Azərbaycan konteksti üçün əhəmiyyəti**

EMERGE modeli Azərbaycanda gender əsaslı zorakılığın qarşısını almaq üçün maarifləndirmə kampaniyaları, kişi və oğlanların gender bərabərliyində iştirakı baxımından faydalı ola bilər. Məktəblərdə və gənclər proqramlarında tətbiqi erkən yaşda stereotiplərin qırılmasına kömək edər. Siyasət səviyyəsində isə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin proqramlarına inteqrasiya edilə bilər.

EMERGE modeli gender bərabərliyi üçün kişilərin transformativ iştirakına əsaslanan elmi və praktik bir çərçivədir. Onun gücü çoxsəviyyəli yanaşmasında (fərdi–icma–struktur) və empirik göstəricilərlə dəstəklənməsindədir. Azərbaycanda zorakılığın qarşısının alınmasında EMERGE modelinin tətbiqi həm profilaktik, həm də maarifləndirici tədbirlərin keyfiyyətini yüksəldə bilər.

| Səviyyə | Dəyişiklik nümunələri | Tətbiq sahəsi |
|---|---|---|
| Fərdi səviyyə | Zorakılıq davranışından imtina<br>Empatiya və məsuliyyət hissinin artması Gender bərabərliyi dəyərlərinin qəbulu<br>Ev işlərində və valideynlikdə iştirak | Psixoloji müdaxilə proqramları.<br>Maarifləndirici təlimlər.<br>Qrup terapiyaları |
| İcma səviyyəsi | Gender stereotiplərinin zəifləməsi Məktəb və icmalarda bərabərlik dəyərlərinin təşviqi<br>Zorakılığa qarşı kollektiv qınaq - İcma dəstək qrupları | Məktəblərdə gender təhsili - İcma kampaniyaları və QHT layihələri.<br>Dini və mədəni liderlərin iştirakı |
| Struktur səviyyə | Qanunvericilikdə gender ədalətini gücləndirmək<br>Dövlət və QHT əməkdaşlığının genişlənməsi<br>Media və institutlarda gender həssas yanaşma<br>Sosial və iqtisadi siyasətlərdə dəyişiklik | Milli qanunvericilik və dövlət proqramları<br>Media kampaniyaları<br>Sosial rifah və iqtisadi islahatlar |

[249] Cornwall, A. (2016). Men, masculinities and development: Politics, policies and practice. *Zed Books*.

EMERGE modelinin ideyası ondan ibarətdir ki, gender bərabərliyi yalnız fərdi dəyişikliklə deyil, həm də icma normaları və struktur islahatları ilə mümkündür.

Məişət zorakılığı (domestic abuse) sosial, psixoloji və hüquqi nəticələri ilə qlobal problem olaraq qalır. Onun qarşısının alınması və zorakılıq dövrünün qırılması üçün müxtəlif intervensiya modelləri işlənmişdir. Bu icmalda dörd əsas yanaşma -Duluth modeli, CBT əsaslı müdaxilələr, Integrated Domestic Abuse Programme (IDAP) və EMERGE modeli -elmi əsaslarla təqdim edilir və müqayisəli şəkildə ümumiləşdirilir.

| **Model** | **Fokus** | **Üstünlüklər** | **Məhdudiyyətlər** |
|---|---|---|---|
| Duluth modeli | Zorakılığın sosial və gender kökləri (güc və nəzarət dairəsi) | -Qurban təhlükəsizliyini prioritetləşdirir<br>-Hüquqi və sosial institutlarla inteqrasiya -Gender əsaslı zorakılığın köklərini açır | -Fərdi psixoloji faktorları nəzərə almır<br>-Bəzi kontekstlərdə “həddən artıq ideoloji” hesab olunur |
| CBT əsaslı müdaxilələr | Fərdi düşüncə–emosiya–davranış dövrü | -Travma sonrası stressin müalicəsində effektivdir -Zorakılıq törədənlərdə irrasional inancları dəyişir<br>-Elmi cəhətdən sınaqlanmış psixoloji metod | -Sosial və mədəni normaları dəyişmir<br>-Effekt yalnız fərdi səviyyədə məhdud qala bilər |
| IDAP (Integrated Domestic Abuse Programme) | Davranış dəyişdirici proqram: Duluth + CBT hibridi | 27 həftəlik strukturlaşdırılmış sessiyalar. Qurban təhlükəsizliyi ilə inteqrasiya. Davranış dəyişikliyi və empatiya bacarıqlarının inkişafı. | -Effektivlik qarışıq nəticələr göstərir<br>-İştirakçılar çox vaxt məhkəmə qərarı ilə qatılır (motivasiya problemi) |

| | | | |
|---|---|---|---|
| EMERGE modeli | Çoxsəviyyəli transformasiya: fərdi–icma–struktur səviyyələri | - Gender bərabərliyində kişilərin rolunu artırır - Sosial normaların dəyişməsinə təsir edir<br>-Qlobal tətbiq nümunələri mövcuddur (MenCare və s.) | -Uzunmüddətli nəticə üçün güclü institusional dəstək tələb edir<br>- Qadın agentliyi bəzən ikinci planda qala bilər |

**Təqdim edilən model və proqramları birləşdirən ortaq cəhətlər**

- Zorakılığın dövrünü qırmaq məqsədi -hamısı təkrarlanmanın qarşısını almağı hədəfləyir.
- Qurban təhlükəsizliyi -istər dolayı (CBT), istər birbaşa (Duluth, IDAP, EMERGE), bütün yanaşmalar qurbanın rifahını nəzərə alır.
- Dəyişdirici müdaxilə -yalnız cəza yox, davranış, düşüncə və sosial münasibətlərin dəyişdirilməsi məqsədi var.
- Təhsil və maarifləndirmə -hamısında zorakılığın öyrənilmiş və dəyişdirilə bilən davranış olduğu vurğulanır.
- İnteqrativ yanaşma ehtiyacı -hər model özündə kifayət deyil, birgə tətbiq edildikdə effektivdir.

**Yekun müqayisə**

- Duluth daha çox sosial strukturu göstərir → "zorakılıq güc münasibətidir".
- CBT fərdi psixoloji düşüncə və davranış mexanizmlərini dəyişir.
- IDAP ikisini birləşdirib praktik qrup proqramı yaradır.
- EMERGE isə ən geniş səviyyədə -fərdi, icma və struktur dəyişikliklərini birlikdə nəzərdə tutur.

Dörd modelin ortaq nöqtəsi, zorakılıq dəyişdirilə bilən bir davranışdır və müdaxilə həm fərdi, həm də sosial səviyyədə qurulmalıdır. Fərqli tərəfləri isə hansı səviyyəni diqqətə aldıqlarıdır -Duluth (cəmiyyət), CBT (fərd), IDAP (praktik hibrid), EMERGE (çoxsəviyyəli transformasiya) ehtiva edir.

Bəzi tədqiqatçılar tənqid edir ki, zorakılıq törədənlər üzərində dövlətin məcburi güc tətbiqi bəzən "gücü güclə yatırmaq" kimi görünür. Bu, ideoloji baxımdan ziddiyyət yaradır. Zorakılığa qarşı mübarizə apararkən, zorakılığı törədən şəxslərin hüquqları və azadlıqları da təhdid altına düşə bilər. Yəni "zorakılıq əleyhinə zorakılıq" paradoksu ortaya

çıxır.

Bu proqramların əksəriyyəti Qərb kontekstində hazırlanıb. Azərbaycanda və digər Şərq cəmiyyətlərində ailə strukturu, dini-mədəni normalar fərqli olduğuna görə, proqramlar eyni nəticəni verməyə bilər. Məsələn, Duluth modelində qadınların müstəqilliyi mərkəzdədir, amma bəzi cəmiyyətlərdə qadın iqtisadi asılılıqdadır və real dəstək mexanizmləri zəif olduqda proqram öz əhəmiyyətini itirir.

"Gücü güclə yatırmaq ideoloji yanaşması" kökündə müəyyən təhlükələr dayanır. Əgər proqramlar yalnız məcburi iştirak və nəzarət üzərində qurularsa, dəyişiklik uzunmüddətli olmaz. Ona görə də müasir yanaşmalar "məsuliyyət + dəstək" balansını təklif edir. Zorakılıq törədən məsuliyyət daşımalı, amma eyni zamanda dəyişməsi üçün psixoloji və sosial dəstək almalıdır. Məsuliyyət dedikdə, törədilən zorakılığa görə hesabatlılıq, məsuliyyət daşımaq və nəticələrini qəbul etmək deməkdir. Burada söhbət cinayətkarın davranışının izah edilməsindən yox, onun üzərinə götürülməsindən gedir ("özünü haqlı çıxarma" deyil, "məsuliyyəti qəbul etmə").

Dəstək dedikdə, dəyişiklik üçün imkanların yaradılması, yəni psixoloji, sosial və institusional dəstək nəzərdə tutulur. Bu dəstək olmadan məsuliyyət yalnız cəza formasında qalar və davranış dəyişikliyi baş verməz.

Təmiz Dünya Qadın və Uşaq sığınacağı olaraq 7 aylıq bir proqram həyata keçirdik və bu proqramın əsas hədəfi zorakılıq törədən kişilərlə reabilitasiya proqramı aparmaq idi. Zorakılıq törədən kişilərlə aparılan psixoloji konsultasiyalarda yekun nəticələr göstərir ki, ümumilikdə 102 müraciət qeydə alınıb; onların 32-si ali təhsilli, 58-i orta təhsilli, 12-si natamam orta təhsillidir, 48 nəfər işsizdir və 71 nəfər 3 ildən çoxdur evlidir; seanslara 61 nəfər (ən azı 4 dəfə) davam edib, 41 nəfər davam etməyib. Seansların ümumi məqsədi zorakı meylləri azaltmaq və şəxsin mənəvi-psixoloji rifahını yaxşılaşdırmaqla yanaşı, bu davranışların çoxsəviyyəli səbəblərini anlamaq olub: zorakılıq tək bir amildən deyil, fərdi, münasibət, icma və cəmiyyət səviyyəsində risk faktorlarının kəsişməsindən qaynaqlanır; buna görə də təhsil, məşğulluq, ailə müddəti, intellektual göstəricilər kimi indikatorlar müqayisəli təhlil üçün toplanıb, lakin bu göstəricilər determinist səbəb kimi deyil, mümkün əlaqələr kimi nəzərdən keçirilib.

Kliniki müşahidələr və ədəbiyyat zorakı davranışların arxasında bir neçə psixoloji mexanizmi önə çıxarır: (1) ailədaxili öyrənilmiş nümunələr və uşaqlıq təcrübələri (uşaqlıqda zorakılığa şahidlik/ məruz qalma)

yetkinlik dövründə zorakılıq riskini artıra bilər; (2) emosional tənzimləmə çətinlikləri — xüsusilə stress, narahatlıq və qəzəb anlarında impulsiv reaksiya vermə meyli — partnyora yönələn aqressiyanı proqnozlaşdıra bilir; (3) gender norma və gözləntilərinin təzyiqi (məsələn, “kişilik rolları” ilə bağlı uyğunsuzluq və “maskulin uyğunsuzluq stressi”) nəzarət və hakimiyyət davranışlarını qızışdıra, emosional dis-tənzimləmə vasitəsilə zorakılığa keçidi asanlaşdıra bilər; (4) alkoqol və psixoaktiv maddələrin istifadəsi qərarverməni və impulskontrolu pozaraq zorakı reaksiyaları artırır; (5) travmatik yaşantılar (məsələn, erkən həyat travmaları) və təhlükəsiz bağlanmanın olmaması utanc, qəzəb və nəzarət ehtiyacının patoloji formalarını gücləndirə bilər; (6) ünsiyyət və problem-həll bacarıqlarının zəifliyi münaqişələrin konstruktiv dialoq əvəzinə güc tətbiqi ilə “həllinə” şərait yaradır.

Konsultasiyalar zorakılığın heç bir bəhanə ilə rasionallaşdırılmaması prinsipinə söykənib; eyni zamanda, müdaxilələrdə zərərçəkənin təhlükəsizliyi və rifahı əsas prioritet kimi götürülüb, davranış dəyişikliyi üzrə iş (hesabatlılıq, məsuliyyətin qəbul edilməsi, emosional tənzimləmə və ünsiyyət bacarıqlarının öyrədilməsi, maddə istifadəsindən uzaqlaşma planları) bu çərçivəyə inteqrasiya edilib; iştirakçıların bir hissəsinin seanslardan erkən çıxması (41 nəfər) beynəlxalq ədəbiyyatda müdaxilə proqramları üçün yayğın müşahidə olunan attrisiya nümunəsi ilə uyğun gəlir və davamlılığı artırmaq üçün motivasiyaedici strategiyaların, təhlükəsizlik yönümlü standartların və sübut-əsaslı metodların sistemli tətbiqini zəruri edir

Effektiv strategiya üçün bu modellərin inteqrativ tətbiqi zəruridir: fərdi psixoloji müdaxilə + sosial norma transformasiyası + institusional dəstək. Bu yanaşma zorakılıq dövrünün qırılması və gender ədalətinin təşviqi baxımından ən optimal seçim hesab olunur.

**Proqramların boşluqları və gələcək integrativ yanaşma**

Məişət zorakılığı ilə mübarizə sahəsində mövcud proqramlar (Duluz modeli, CBT əsaslı müdaxilələr, IDAP, EMERGE) qlobal miqyasda əhəmiyyətli nəticələr vermişdir. Bununla belə, onların heç biri tam ideal deyil və hər birində nəzərdən qaçan aspektlər mövcuddur. Buna görə də gələcək yanaşmalar daha inteqrativ və multidissiplinar olmalıdır.

**Mövcud Proqramların Boşluqları**

**a) Duluz modeli**

- Boşluq: Psixoloji faktorları və fərdi travmaları az nəzərə alır.
- Risk: Zorakılıq törədən yalnız “patriarxal mədəniyyətin daşıyıcısı” kimi görülür, şəxsi psixoloji mexanizmlər ikinci planda qalır.

**b) CBT əsaslı müdaxilələr**

• Boşluq: Sosial və mədəni konteksti zəif nəzərə alır.

• Risk: Yalnız fərdin dəyişməsi üzərində qurulduğundan, zorakılığın sosial kökləri toxunulmaz qalır.

**c) IDAP (Integrated Domestic Abuse Programme)**

• Boşluq: Effektivlik qarışıq nəticələr göstərir.

• Risk: İştirakçılar çox vaxt məhkəmə qərarı ilə qatılır, motivasiya problemi yaranır.

**d) EMERGE modeli**

• Boşluq: Çoxsəviyyəli yanaşmanı nəzərdə tutur, lakin konkret klinik/psixoloji alətlər zəifdir.

• Risk: Qadınların agentliyi bəzən kişilərin transformasiyası fonunda ikinci plana keçə bilər.

**Ümumi problemlər və paradokslar**

• "Bir ölçü hamıya uyğundur" yanaşması: Proqramlar fərqləri nəzərə almadan standart tətbiq olunur.

• "Gücü güclə yatırmaq" paradoksu: Dövlətin məcburi güc tətbiqi bəzən zorakılığa qarşı zorakılıq təsiri bağışlayır.

• Mədəni uyğunluq boşluğu: Qərbdə hazırlanmış proqramların Şərq cəmiyyətlərinə birbaşa tətbiqi həmişə real nəticə vermir.

• Uzunmüddətli monitorinqin zəifliyi: Davranış dəyişikliyi qısamüddətli ola bilər, lakin davamlı nəticələr zəif izlənir.

**Gələcək integrativ yanaşma təklifi**

a) Fərdi səviyyə

• CBT əsaslı metodlarla psixoloji travmaların işlənməsi,

• Aqressiv inancların transformasiyası və empatiya bacarığının inkişafı.

b) İcma səviyyəsi

• Duluth modelindəki kimi sosial güc münasibətlərinin təhlili,

• Məktəblərdə və icmalarda gender bərabərliyi təhsili,

• QHT və dini/mədəni liderlərin zorakılığa qarşı ictimai qınağı gücləndirməsi.

c) Struktur səviyyə

• EMERGE modelinə uyğun olaraq qanunvericilik və siyasət islahatları,

• Qurban təhlükəsizliyini və sosial rifahı prioritetləşdirən inteqrə olunmuş xidmətlər.

d) Hibrid proqramlar (IDAP-ın təkmilləşdirilməsi)

• Duluth-un sosial yanaşması + CBT-nin psixoloji texnikaları +

EMERGE-in çoxsəviyyəli strukturu.

- Məsuliyyət və dəstək prinsipi: zorakılıq törədən məsuliyyət daşıyır, amma dəyişməsi üçün dəstək də alır.

| Səviyyə | Yanaşma | Dəyişiklik nümunələri | Nəticə |
|---|---|---|---|
| Fərdi səviyyə | CBT (Koqnitiv-Davranış Terapiyası) | - Travmanın işlənməsi - Aqressiyanın idarəsi - Empatiya və məsuliyyət | Davranış dəyişikliyi, zorakılıq dövrünün qırılması |
| İcma səviyyəsi | Duluth və sosial yanaşmalar | - Gender stereotiplərinin zəifləməsi - İcma dəstək qrupları - Maarifləndirici kampaniyalar | Sosial normaların transformasiyası, zorakılığa ictimai qınaq |
| Struktur səviyyə | EMERGE və siyasət çərçivəsi | - Qanunvericilik islahatları - Xidmətlərin inteqrasiyası - Sosial rifah mexanizmləri | Qanuni və institusional zəminin güclənməsi |
| İnteqrativ yanaşma | IDAP təcrübəsi ilə birləşdirilmiş model | - Fərdi + sosial + struktur elementlərin sintezi - “Məsuliyyət + Dəstək” prinsipi | Dayanıqlı nəticə və zorakılığın qarşısının alınması |

Mövcud proqramlar zorakılıqla mübarizədə mühüm rol oynasa da, onların məhdudiyyətləri inteqrativ yanaşmanı zəruri edir. Azərbaycan kontekstində optimal model, psixoloji müdaxilə (CBT), sosial transformasiya (Duluth və EMERGE), hüquqi və institusional dəstək (IDAP təcrübəsi) birlikdə tətbiq olunmalıdır.

Yalnız bu halda zorakılığın qarşısı fərdi, icma eləcə də struktur səviyyəsində alınacaq və davamlı nəticə əldə ediləcək.

**Azərbaycan üçün hibrid reabilitasiya modeli**

Son onilliklərdə genderəsaslı zorakılığın qarşısının alınması və zorakılıq törədən kişilərin reabilitasiyası istiqamətində müxtəlif beynəlxalq proqramlar işlənmişdir. Məsələn, Duluz Modeli, Koqnitiv-Davranış Terapiyası (CBT) əsaslı müdaxilələr, həmçinin inteqrativ gender ədaləti yanaşmaları zorakılığın “güc və nəzarət kodlarını” dəyişdirməyə yönəlmişdir. Lakin bu modellərin hər biri öz tarixi, sosial və mədəni kontekstində formalaşmışdır və onların birbaşa tətbiqi müxtəlif ölkələrdə, o cümlədən Azərbaycanda, uğurlu nəticə verməsi üçün kifayət qədər əsaslar yoxdur.

Azərbaycan reallığında zorakılıq yalnız fərdi psixoloji faktorlarla

deyil, həm də patriarxal mədəniyyət kodları, ənənəvi davranış nümunələri və sosial gözləntilərlə sıx bağlıdır[250]. Bu kodlar ailədaxili münasibətlərdə kişi üstünlüyü, qadın itaəti və "səbirli qadın" obrazı üzərindən formalaşır. Belə bir mühitdə zorakılığı yalnız psixoloji müalicə ilə deyil, mədəniyyətə uyğunlaşdırılmış reabilitasiya yanaşmaları ilə dəyişmək mümkündür.

Hibrid reabilitasiya modeli məhz bu ehtiyacdan doğur. O, beynəlxalq sınaqlardan keçmiş müdaxilə mexanizmlərini (məsuliyyət və dəstək balansı, güc və nəzarət dairəsinin təhlili, davranış dəyişiklikləri üçün koqnitiv texnikalar) yerli mədəni kodlarla birləşdirir. Bu birləşmə reabilitasiyanın həm elmi əsaslı, həm də sosial baxımdan qəbul edilə bilən olmasına imkan yaradır.

Beləliklə, Azərbaycan üçün hibrid reabilitasiya modeli zorakılığın "kodlarını" yalnız fərdi psixoloji səviyyədə deyil, həm də sosial normalar, ailə strukturları və mədəni davranış nümunələri üzərində işləməklə dəyişməyi hədəfləyir. Bununla həm qurbanların təhlükəsizliyi təmin olunur, həm də zorakılıq törədən şəxslərin sosial inteqrasiyası daha dayanıqlı şəkildə mümkün olur.

**Duluz Modelinin Azərbaycanda əsas mümkün elementlərin tətbiqi**

Duluz modeli 1980-ci illərin əvvəllərində ABŞ-ın Minnesota ştatının Duluz şəhərində formalaşdırılmış və dünyada genderəsaslı zorakılığa qarşı mübarizədə ən geniş tətbiq olunan yanaşmalardan biridir. Bu modelin əsasını "Güc və nəzarət dairəsi" təşkil edir və zorakılığın yalnız fərdi psixoloji davranış deyil, həm də sosial və mədəni sistemlərin məhsulu olduğunu vurğulayır. Modelin beynəlxalq miqyasda uğurlu tətbiqi onun çevikliyinə, yəni müxtəlif ölkələrin sosial və mədəni kontekstlərinə uyğunlaşdırıla bilməsinə bağlı olmuşdur[251].

Azərbaycan təcrübəsində Duluz modelinin bütün elementlərinin eynilə tətbiqi mümkün olmasa da, bəzi əsas komponentləri sosial iş və psixoloji reabilitasiya müstəvisində saxlanılmalıdır. Bunların sırasında aşağıdakı elementləri xüsusi qeyd etmək olar:

**Məsuliyyət və hesabatlılıq prinsipi**

Duluz modeli zorakılıq törədən şəxsin öz hərəkətlərinə görə məsuliyyət daşımasını və davranışının nəticələrini dərk etməsini əsaslandırır. Azərbaycan praktikasında bu element xüsusilə prokurorluq və

[250] Aliyev, N. (2019). Patriarchal norms and domestic violence in Azerbaijan: A socio-cultural analysis. *Caucasus Social Science Review, 5*(1), 77–95.
[251] Shepard, M. (2005). Twenty years of progress in addressing domestic violence: An agenda for the next 10. *Journal of Interpersonal Violence, 20*(4), 436–441.

polis nəzarətində olan sosial iş proqramlarında əksini tapır. Zorakılıq törədən şəxslərin yalnız "tövbə" deyil, hesabatlı davranış nümunələri göstərməsi tələb olunur[252].

**2. Güc və nəzarət dairəsi ilə maarifləndirmə**

Azərbaycan mütəxəssisləri arasında Duluz modelinin "Power and Control Wheel (Güc və Nəzarət dairəsi)" -güc və nəzarət dairəsi vizual aləti təlimlərdə və maarifləndirmə tədbirlərində saxlanılır. Bu, zorakılıq törədən kişilərin manipulyasiya, iqtisadi məhdudiyyət, təcrid və emosional təzyiq kimi davranışlarını daha aydın dərk etməsinə imkan verir[253].

**3. Qurbanların təhlükəsizliyi mərkəzli yanaşma**

Duluth modelinin əsas prinsiplərindən biri zorakılıqla mübarizə prosesində həmişə qurbanın təhlükəsizliyini prioritetləşdirməkdir. Azərbaycan sığınacaqları və sosial xidmət mərkəzlərində bu prinsip saxlanılır. Zorakılıq törədənlə reabilitasiya proqramı işlənərkən qurbanla təmasın qarşısı alınır, onun hüquqları qorunur[254]. Belə ki, Azərbaycan kontekstində, zorakılıq tördənlərə qarşı mühafizə orderi həmin proqramın elementlərindən hesab oluna bilər.

**4. İctimai və institusional əməkdaşlıq**

Duluth modelində polis, məhkəmə, sosial xidmət və QHT-lərin inteqrasiyası əsas mexanizmdir. Azərbaycanda da **"**İnsan alverinə qarşı mübarizə üzrə QHT Koalisiyası**"** və dövlət qurumları arasında əməkdaşlıq çərçivəsində bu element saxlanılır. Zorakılıq hallarında yalnız hüquqi deyil, sosial və psixoloji dəstəyin verilməsi təcrübəsi inkişaf etdirilir.

**5. Gender bərabərliyi və maarifləndirmə**

Model zorakılığın əsas səbəbinin patriarxal gender rolları olduğunu irəli sürür. Azərbaycan təcrübəsində gender bərabərliyi aspekti birbaşa hüquqi və sosial proqramlara daxil edilməsə də, maarifləndirici kampa-niyalarda və təlim modullarında geniş istifadə olunur[255].

---

[252] Əliyeva, S. (2020). Məişət zorakılığı ilə mübarizədə sosial xidmətlərin rolu. *Azərbaycan Sosial Elmlər Jurnalı, 12*(2), 55–67.

[253] Mammadova, L. (2021). Domestic violence prevention strategies in Azerbaijan: Cultural adaptation of international models. *Caucasus Journal of Social Policy, 3*(1), 91–108.

[254] OSCE (2022). *Combating violence against women in the South Caucasus: Policy brief.* Vienna.

[255] UNFPA Azerbaijan (2019). *Gender equality and domestic violence prevention programmes in Azerbaijan*. Baku.

**Duluz Modelinin Azərbaycanda tətbiqi elementlərinin müqayisəsi**

| Duluz modeli elementi | Azərbaycanda tətbiqində istifadə edilə biləcək tərəflər | Zəif və ya tam olmayan tətbiq |
|---|---|---|
| Məsuliyyət və hesabatlılıq (Accountability) | Zorakılıq törədən şəxslər hüquq-mühafizə orqanlarının nəzarəti altında sosial iş proqramlarına cəlb edilir; davranış dəyişikliyi üzrə psixoloji iş aparılır. | Hesabatlılıq hüquqi mexanizmlərlə məhdudlaşır; davranış dəyişikliyinə yönəlmiş uzunmüddətli reabilitasiya proqramları zəif inkişaf edib. |
| Güc və nəzarət dairəsi (Power & Control Wheel) | Maarifləndirici təlimlərdə və QHT-lərin hazırladığı proqramlarda vizual alət kimi istifadə olunur. | İctimaiyyət səviyyəsində geniş tanıdılmır; məktəb və icma səviyyəsində tətbiqi zəifdir. |
| Qurbanların təhlükəsizliyi prioriteti | Sığınacaqlarda və sosial xidmət mərkəzlərində qurbanın müdafiəsi əsas prioritetdir; təcili müdafiə tədbirləri mövcuddur. | Qurbanların uzunmüddətli təhlükəsizliyi (iqtisadi müstəqillik, sosial reinteqrasiya) zəif təmin edilir. |
| İnstitusional əməkdaşlıq (Multi-agency response) | Dövlət qurumları və QHT-lər arasında əməkdaşlıq mexanizmləri mövcuddur (Koalisiya, sığınacaq sistemləri). | Koordinasiya hələ fragmental xarakter daşıyır; vahid məlumat bazası və izləmə sistemi yoxdur. |
| Gender bərabərliyi yanaşması | Maarifləndirici kampaniyalar, təlim modulları və sosial təşviqat materiallarında gender bərabərliyi vurğulanır. | Gender bərabərliyi hüquqi və məhkəmə praktikalarında tam mərkəzləşdirilməyib; ictimai stereotiplər hələ güclüdür. |

Zorakılıq tətbiq edən tərəflər daha çox hüquqi nəzarət, qurbanın təhlükəsizliyi və maarifləndirmə ilə, zəif tərəflər isə sistemli reabilitasiya, gender bərabərliyinin institusional səviyyədə tam inteqrasiyası və uzunmüddətli sosial dəstək mexanizmləri ilə bağlıdır.

**Mədəni spektr uyğunlaşması**

Məişət zorakılığı və genderəsaslı zorakılıqla mübarizə sahəsində

işlənmiş beynəlxalq modellər, məsələn, Duluz modeli, koqnitiv-davranış yönümlü müdaxilələr və gender ədaləti yanaşmaları[256] - müxtəlif ölkələrdə tətbiq edildikdə fərqli nəticələr ortaya qoymuşdur. Bunun əsas səbəbi zorakılığın yalnız fərdi psixoloji mexanizmlərdən deyil, həm də mədəniyyət, sosial normalar və ənənəvi davranış nümunələrindən qidalanmasıdır [257]. Buna görə də hər bir cəmiyyət öz mədəni spektrinə uyğunlaşdırılmış reabilitasiya modellərinə ehtiyac duyur.

Azərbaycan kimi patriarxal ənənələrin güclü olduğu ölkələrdə gender rolları və ailə münasibətləri sosial-mədəni kodlarla dərin şəkildə bağlıdır. Məsələn, "kişinin ailə başçısı olması" və "qadının səbirli və itaətkar olması" barədə stereotiplər zorakılığı bəraət qazandıran normalar yarada bilir. Belə şəraitdə beynəlxalq modellərin olduğu kimi tətbiqi bəzən cəmiyyət tərəfindən qəbul olunmur, yaxud yalnız formal nəticələr verir.

Mədəni spektr uyğunlaşdırmaları bu boşluğu aradan qaldırmaq məqsədi daşıyır. Burada əsas ideya, zorakılıqla mübarizədə istifadə olunan elmi və metodoloji yanaşmaları yerli mədəniyyətlə toqquşdurmadan, əksinə, onun müsbət elementlərindən istifadə etməklə həyata keçirməkdir. Məsələn, Azərbaycan kontekstində ailənin qorunması, hörmət mədəniyyəti, dini, mədəni və etik dəyərlər zorakılığın qarşısının alınmasında konstruktiv vasitələrə çevrilə bilər.

Beləliklə, mədəni spektr uyğunlaşdırmaları həm beynəlxalq təcrübənin güclü tərəflərini saxlamağa, həm də Azərbaycan cəmiyyətinin sosial reallıqlarını nəzərə alaraq hibrid reabilitasiya modelinin formalaşdırılmasına zəmin yaradır. Bu yanaşma zorakılıq törədənlərin davranış dəyişməsini daha dayanıqlı edir və sosial reinteqrasiyanı asanlaşdırır.

**Azərbaycan üçün mədəni elementlərin müsbət resurs kimi istifadəsi**

1. Kollektivlik və icma dəstək

Azərbaycan cəmiyyətində ənənəvi kollektivçilik, yəni ailə, qohum və qonşuluq münasibətlərinin sıx bağlılığı mühüm resurs ola bilər. İcma dəstəyi zorakılıq törədən şəxsin sosial nəzarət altında saxlanmasına, həm də reabilitasiya prosesinə məsuliyyətlə yanaşmasına şərait yaradır[258].

2. Dini və əxlaqi dəyərlər

---

[256] Jewkes, R., Flood, M., & Lang, J. (2015). From work with men and boys to changes of social norms and reduction of inequities in gender relations: A conceptual shift in prevention of violence against women and girls. *The Lancet, 385*(9977), 1580–1589.
[257] Heise, L. (2011). What works to prevent partner violence? An evidence overview. *STRIVE Research Consortium*.
[258] Hofstede, G. (2010). *Cultures and organizations: Software of the mind*. McGraw-Hill.

İslam ənənəsi zorakılığı rədd edən, ailədə hörmət və mərhəməti təşviq edən normaları ilə müsbət təsir göstərə bilər. Dini liderlərin və ruhanilərin zorakılığa qarşı mövqeyi maarifləndirmə kampaniyalarında və reabilitasiya proqramlarında mühüm rol oynaya bilər[259].

3. Ailə hörməti və nəsil davamlılığı

Azərbaycan mədəniyyətində ailə münasibətlərində hörmət və "ailəni qorumaq" ideyası güclü sosial norma olaraq qalır. Bu, zorakılıq törədən şəxsin davranış dəyişikliyi üçün motivə çevrilə bilər: "zorakılıq ailəni dağıdır, hörməti azaldır" mesajı təsirli olur[260].

4. Qonaqpərvərlik və sosial hörmət

Qonaqpərvərlik Azərbaycan kimliyinin əsas simvolik elementlərindən biridir. Bu dəyər qarşı tərəfə hörmət, münasibətdə nəzakət və özünə nəzarət davranışlarını gücləndirmək üçün proqramlara daxil edilə bilər.

5. Böyüklərə hörmət və ictimai rəylə hesabatlılıq

"Böyüyün sözünə qulaq asmaq" və ictimai rəydən çəkinmək mədəni kodları kişilərin reabilitasiyasında güclü təsir aləti ola bilər. Çünki ictimai qınaq zorakılıq davranışlarının dəyişməsinə təkan verən sosial nəzarət mexanizmidir.

6. Mədəniyyət və ədəbiyyatda qəhrəmanlıq obrazları

Azərbaycan ədəbiyyatında və tarixində qadına hörmət, zəifin müdafiəsi və mərhəmət motivləri geniş yayılıb (məsələn, Nizami Gəncəvi əsərlərində qadına ədalət və hörmət ideyaları). Bu obrazlar zorakılığa qarşı alternativ kişi modeli kimi təqdim edilə bilər.

7. İcma və ailə arbitrajı

Ənənəvi olaraq kənd və icma səviyyəsində "ağsaqqal məsləhəti" və ya ailə böyüklərinin vasitəçiliyi mühüm sosial institut kimi mövcud olmuşdur. Bu element müasir reabilitasiya proqramlarında icma moderatorları vasitəsilə adaptasiya oluna bilər.

---

[259] Esposito, J. L. (2015). *Islam and gender: Normative frameworks and contemporary debates*. Oxford University Press.

[260] Aliyev, N. (2019). Patriarchal norms and domestic violence in Azerbaijan: A socio-cultural analysis. *Caucasus Social Science Review, 5*(1), 77–95




Mərkəzdə **“**Hibrid reabilitasiya modeli**”**, ətrafda isə (kollektivlik, ailə hörməti, dini-əxlaqi dəyərlər və s.), o cümlədən digər spektrlər (qınaq/imic, musiqi və folklor, əməkdaşlıq və birlik, dastan qəhrəmanlığı, mərasimlər və s.) yerləşdirilib.

Oxlar göstərir ki, bütün bu mədəni resurslar reabilitasiya modelinə dəstək verir və onu gücləndirir.

**Niyə mədəni spektr Azərbaycan üçün daha təsirli gücə malikdir?**

a) Patriarxal kodların gücü

Azərbaycan cəmiyyətində ailə və cinsiyyət rolları hələ də ənənəvi patriarxal kodlarla idarə olunur. Yəni kişi ailə başçısı, qadın isə itaətkar və qayğı göstərən obrazında təsvir olunur. Belə kontekstdə qanun və ya beynəlxalq model təkbaşına davranış dəyişməsinə yetərli olmur. İnsan davranışı daha çox mədəni normaya uyğunluq ilə tənzimlənir.

b) Sosial nəzarətin üstünlüyü

Qanun pozuntularına nisbətən “ictimai qınaq” daha güclü davranış tənzimləyicisidir. “Üz qarası”, “ayıb” anlayışları cəza mexanizmindən

daha təsirli ola bilir. Bu səbəbdən, reabilitasiya proqramında mədəni spektrə əsaslanan mesajlar, məsələn, ailəni qorumaq, hörmətli kişi olmaq, dini-əxlaqi dəyərlərə zidd davranmamaq, daha güclü psixoloji təsir göstərir.

c) Mədəniyyətin emosional gücü

Musiqi, folklor, ədəbiyyat və dastanlar Azərbaycan insanının emosional yaddaşında dərin iz buraxıb. Bu simvollar sadəcə maarifləndirici yox, emosional motivasiyaedici gücə malikdir.

d) Yerli qəbulolunma faktoru

Xarici modellərin bir çoxu insanlara "qərb dəyərləri" kimi görünə bilər və qəbul olunmaya bilər. Əksinə, mədəni spektrə söykənən mesaj yerli insanın mənəvi aləminə daha doğma gəlir və müqaviməti azaldır.

**Azərbaycan kişisinin psixoloji portreti**

Ədəbiyyat, sosioloji tədqiqatlar və psixoloji müşahidələr əsasında tipik Azərbaycan kişisinin psixoloji portreti belə ümumiləşdirilə bilər (əlbəttə ki, bu fərziyyə xarakterli ümumiləşdirmədir və bütün fərdlərə aid deyil):

a) Güclü kollektiv kimlik

Şəxsi kimlikdən çox ailə, qohum və icma kimliyi ön plandadır. Kişi "ailəsini təmsil edən", onun şərəf və ləyaqətini qoruyan şəxs kimi özünü dərk edir.

b) Status və nüfuz yönümlü

Azərbaycan kişisi üçün "hörmətli olmaq" əsas motivdir. Nüfuz və hörmətini qorumaq, "üzü ağ qalmaq" davranışlarının idarəedici faktorudur.

c) Patriarxal və nəzarətçi yönüm

Tarixi və mədəni kodlara görə kişi ailədə güc mərkəzi kimi qəbul olunur. Bu, bəzən müsbət (qoruyucu, təminatçı), bəzən də mənfi (dominant, nəzarətçi, zorakı) davranışlara gətirib çıxarır.

d) Emosional ifadədə məhdudiyyət

"Əsl kişi ağlamaz", "emosiyasını göstərməz" stereotipləri emosional repressiyaya səbəb olur. Bu isə aqressiyanın, zorakılığın artmasına zəmin yarada bilər.

e) Qoruyucu və təminatçı obraz

Müsbət tərəfdən Azərbaycan kişisi ailənin təminatçısı, uşaqların qoruyucusu, evin dayağı kimi dəyərləndirilir. Bu obraz zorakılığın qarşısını almaq üçün müsbət kişi modeli kimi istifadə oluna bilər.

f) Dual psixoloji təzad

Bir tərəfdən müasirlik və gender bərabərliyi dəyərlərinə açıqdır,

digər tərəfdən ənənəvi "kişi hökmranlığı" stereotipləri ilə yaşayır. Bu təzad Azərbaycan kişisinin psixoloji portretində ən xarakterik xüsusiyyətdir.

Mədəni spektr Azərbaycan üçün təsirli ona görədir ki, kişi davranışını hüquqdan çox ictimai rəy, ailə hörməti və mədəni kodlar tənzimləyir. Azərbaycan kişisinin psixoloji portreti isə "hörmət və status yönümlü, qoruyucu, lakin emosional repressiyalı və dual mədəni təzadlarla yaşayan" bir modeldir.

**Azərbaycan kişisinin psixoloji portreti: normativ və ideoloji zorakılıq kontekstində**

**Normativ/ənənəvi zorakılıq daşıyıcıları**

Bu tip zorakılıq Azərbaycan mədəniyyətində dərin köklərə malik patriarxal kodlardan doğur.

- Psixoloji xüsusiyyətlər: ailədə dominant olmaq, qadını itaətkar görmək, "kişinin sözü kəsərlidir" düşüncəsi, emosional repressiya.
- Motivasiya: hörmət, ailə nüfuzunu qorumaq, "üz qarası olmaq"ndan yayınmaq.
- Müsbət potensial: ailəni qoruyucu və təminatçı obraz, kollektivlik və ictimai nəzarət müsbət istiqamətdə yönləndirilə bilər.
- Risklər: zorakılığın "tərbiyə üsulu" kimi qəbul olunması, qadının azadlığını məhdudlaşdıran davranış normaları.

Bu qrupun reabilitasiyası üçün ən effektiv üsul mədəni spektr uyğunlaşdırmalarıdır -dini-əxlaqi dəyərlər, ailə hörməti, ictimai rəy vasitəsilə zorakılığa alternativ model qurmaq.

**İdeoloji–mizogin zorakı şəxslər**

Müasir dövrdə Azərbaycan reallığında yeni bir tendensiya formalaşır: qadınlara qarşı nifrəti (mizoginiyəni) ideoloji sistemə çevirən zorakı kişilər. Bu, daha çox qloballaşma, internet mədəniyyəti, "anti-feminist" onlayn icmalar və sosial şəbəkələrdə yayılan mizogin narrativlərlə əlaqəlidir.

- Psixoloji xüsusiyyətlər: qadını təhdid və rəqib kimi görmək, "kişi hakimiyyətinin bərpası" ideyası, qadınların hüquq və azadlıqlarına düşmənçilik.
- Motivasiya: qadının güclənməsini təhlükə kimi dərk etmək, öz gücsüzlüyünü qadın üzərində zorakı üstünlüklə kompensasiya etmək.
- Müsbət potensial: çox zəifdir; yalnız fərdi psixoloji müalicə, dərin travma yönümlü yanaşma ilə qismən işlənə bilər.
- Risklər: radikallaşma, rəqəmsal məkanda nifrət şəbəkələrinin

qurulması, qadınlara qarşı kollektiv zorakı davranış formalarının legitimləşdirilməsi.

Bu qrupun reabilitasiyası üçün sadəcə mədəni spektr kifayət deyil. Burada psixoloji terapiya (CBT, travma yönümlü yanaşmalar), hüquqi sərt nəzarət və rəqəmsal məkanın monitorinqi daha təsirlidir.

| **Tip** | **Psixoloji xüsusiyyətlər** | **Motivasiya** | **Risklər** | **Reabilitasiya imkanları** |
|---|---|---|---|---|
| Normativ/ənənəvi zorakı | Patriarxal düşüncə, dominantlıq, emosional repressiya | Ailə nüfuzunu qorumaq, hörmət qazanmaq | Zorakılığın tərbiyə üsulu kimi normallaşması | Mədəni spektr uyğunlaşdırmaları (din, ailə hörməti, ictimai qınaq) |
| İdeoloji–mizogin zorakı | Qadına nifrət, “kişi hakimiyyətinin bərpası” ideyası, rəqəmsal radikallaşma | Qadının güclənməsini təhlükə kimi görmək | Radikallaşma, qadın hüquqlarına düşmənçilik, kollektiv nifrət şəbəkələri | Psixoloji terapiya, hüquqi nəzarət, rəqəmsal təhlükəsizlik və monitorinq |

Azərbaycan kişisinin psixoloji portreti iki əsas zolaqda formalaşır:

1. Normativ zorakı -ənənəvi patriarxal kodların daşıyıcısı, lakin mədəni spektr vasitəsilə dəyişdirilə bilən tip.
2. İdeoloji-mizogin zorakı -müasir dövrün məhsulu, qadınlara düşmənçilik ideologiyasını daşıyan və daha çətin reabilitasiya olunan tip.

Bu ikili yanaşma göstərir ki, Azərbaycanda reabilitasiya modelləri paralel strategiyalarla işləməlidir: ənənəvi kodlara uyğunlaşdırılmış mədəni hibrid model və ideoloji zorakı qrup üçün xüsusi psixoloji-hüquqi yanaşmalar daha effektiv nəticə verə bilər.

**Azərbaycan üçün uyğunlaşdırılmış skrininq sorğusu**

**Normativ/ənənəvi zorakı davranış göstəriciləri (CTS, DVI, Gender Role Attitudes, Duluth əsasında)**

1. Ailədə qərarları əsasən mən verməliyəm.
2. Qadının əsas rolu ev işləri və uşaqlara baxmaqdır.
3. Partnyorumun kimlərlə görüşməsinə və hara getməsinə nəzarət etmək mənim haqqımdır.
4. Pulun necə xərclənəcəyinə yalnız mən qərar verməliyəm.
5. Bəzən “tərbiyə üçün” fiziki güc tətbiq etmək lazım olur.
6. Əgər qadın ərinə qarşı çıxırsa, bu, ailənin hörmətinə xələl gətirir.

**İdeoloji–mizogin zorakı davranış göstəriciləri (ASI, Hostile**

**Sexism, Misogyny miqyası əsasında)**

7. Qadınların hüquqlarının artması kişilərin mövqeyini zəiflədir.
8. Feminist qadınlar cəmiyyəti dağıdır və kişilərə hörməti azaldır.
9. Qadın rəhbər və ya lider ola bilməz, çünki qadın emosional qərarlar verir.
10. Kişilər təbii olaraq qadınlardan üstün mövqedədir.
11. Onlayn məkanlarda qadınlara qarşı sərt ifadələr işlətmək normaldır.
12. Mənim fikrimcə, kişilərin cəmiyyətə rəhbərliyi qadınlarınkından daha etibarlıdır.

**Qiymətləndirmə prinsipi**

- I bölmə (1–6 sual): Yüksək razılaşma normativ/ənənəvi zorakı davranış riskini göstərir.
- II bölmə (7–12 sual): Yüksək razılaşma ideoloji–mizogin zorakı tipə yaxınlığı göstərir.
- Hər cavab Likert şkalası (tam razı deyiləm -razı deyiləm -neytral -razıyam -tam razıyam) ilə qiymətləndirilə bilər.

**Psixoloji komponentlərin gücləndirilməsi**

Məişət zorakılığı və genderəsaslı zorakılıqla mübarizədə ənənəvi hüquqi və institusional yanaşmalar zəruri olsa da, onların təkbaşına effektivliyi məhduddur. Müasir tədqiqatlar göstərir ki, zorakılığın əsas səbəbləri yalnız sosial və mədəni amillərlə izah olunmur. Burada psixoloji faktorlar, travmalar və şəxsiyyət strukturu həlledici rol oynayır[261]. Buna görə də reabilitasiya proqramlarında psixoloji komponentlərin gücləndirilməsi fundamental şərt kimi qəbul edilməlidir.

**1. Şəxsiyyət tipologiyalarının dəqiq qiymətləndirilməsi**

Zorakılıq törədən kişilər homogen qrup deyil. Onların psixoloji xüsusiyyətlərini -impulsiv-aqressiv, nəzarətçi-dominant, antisosiopatik və mizogin-ideoloji tipləri -düzgün müəyyənləşdirmək psixoloji müdaxilələrin effektini artırır . Azərbaycanda bu tipologiyaların mədəni kontekstə uyğun skrininq alətləri ilə gücləndirilməsi vacibdir.

**2. Travma yönümlü yanaşmalar**

Bir çox zorakı şəxslər uşaqlıqda travma, zorakılıq və ya alkoqol-müxtəlif asılılıq mühitində böyüyüblər. Bu travmaların tanınması və işlənməsi olmadan yalnız davranış yönümlü müdaxilələr dayanıqlı nəticə

[261] Holtzworth-Munroe, A., & Stuart, G. L. (1994). Typologies of male batterers: Three subtypes and the differences among them. *Psychological Bulletin, 116*(3), 476–497

vermir. Travma yönümlü qayğı[262] yanaşmasının Azərbaycan reabilitasiya proqramlarına inteqrasiyası psixoloji komponentlərin gücləndirilməsinin vacib addımıdır.

**3. Koqnitiv-davranış terapiyası (CBT) rexnikaları**

CBT zorakılıq törədən şəxslərdə düşüncə səhvlərini ("qadın itaət etməlidir", "mənim nəzarətim normaldır") dəyişməkdə təsirlidir. Bu metod Azərbaycanda mədəni uyğunlaşdırma ilə tətbiq olunarsa, normativ zorakıların davranış dəyişməsi üçün effektiv psixoloji komponent rolunu oynaya bilər. Aşağıda CBT nin bəzi texnikaları qeyd edilmişdir.

–**Koqnitiv Restrukturlaşdırma (Cognitive Restructuring)** Pozitiv olmayan və səmərəsiz düşüncələri tanıma və daha real, balanslı düşüncələrlə əvəz etmə prosesi. Bu texnika «Sokrat sualları», «fikirlərin qeydiyyatı» və **hot-thoughts**-un dəqiq təhlili ilə həyata keçirilir.

–**Düşüncə Qeydiyyatı (Thought Records / Journaling)** Terapist tərəfindən verilən formatda hadisələr, hisslər, düşüncələr və s. analiz edilir. Sonra maddi sübutlarla «hot thought» yoxlanılır və alternativ daha balanslı düşüncə formalaşdırılır.

–**Eksponasiya Terapiyası (Exposure Therapy)** və **Qorxu Siyahısı (Exposure Hierarchy)**
Müştəriyə qorxulu vəziyyətlərə mərhələli şəkildə, kontrol altında tədricən baxma imkanı yaradılır. Qorxu səviyyəsinə görə sıralanmış hierarxiya əsasında, asılılıqla və təhlükəsizliklə irəlilənilir.

–**Davranış Aktivləşdirmə (Behavioral Activation)**
Xüsusilə depressiya üçün vacibdir: insanı daha çox xoşlanılan və anlamlı fəaliyyətlərə yönləndirərək əhval-ruhiyyənin bərpasına dəstək olur.

–**Öz-Monitorinq (Self-Monitoring)**
Düşüncə, hiss və davranışları daha diqqətli qeyd etmək və özünü müşahidə etmə texnikası. Bu üsul köklü dəyişikliklərin başlanğıcı olaraq önə çıxır.

–**Rahatlaşdırma Texnikləri: Diaprafagmatik Nəfəs və Proqressiv Əzələ Rilaksasiyası**
Stress, narahatlıq və gərginliyi əhəmiyyətli ölçüdə azaldır. Diaprafagmatik nəfəs dərin və səmərəli idarəetməyə kömək edir, proqressiv rilaksasiya isə fiziki gərginliyi azaldır

---

[262] Harris, M., & Fallot, R. D. (2001). *Using trauma theory to design service systems.* Jossey-Bass.

**4. Empati və emosional idarəetmə bacarıqları**

Azərbaycan kişisinin psixoloji portretində emosiyaların repressiyası ("əsl kişi ağlamaz") aqressiyaya yol açır. Reabilitasiya proqramlarında emosional ifadə və empati təlimləri zorakılığın qarşısının alınmasında kritik psixoloji komponent kimi gücləndirilməlidir.

**5. İdeoloji-mizogin zorakılıq tördənlərlə psixoloji iş**

Müasir dövrdə yaranan mizogin zorakı tiplər sadəcə mədəni spektrlə dəyişdirilə bilmir. Onların reabilitasiyası üçün dərin psixoterapevtik müdaxilələr, psixososial monitorinq və rəqəmsal radikallaşmaya qarşı psixoloji alətlər gücləndirilməlidir.

**Psixoloji komponentlərin gücləndirilməsi yolları**

| Psixoloji komponent | Məqsəd | Tətbiq üsulu | Azərbaycan konteksti |
|---|---|---|---|
| Şəxsiyyət tipologiyalarının müəyyənləşdirilməsi | Zorakı şəxslərin fərqləndirilməsi və fərdi yanaşma | Skrininq testləri, risk qiymətləndirmə alətləri | Holtzworth-Munroe tipologiyasının lokallaşdırılması; mədəni skrininq sualları |
| Travma yönümlü yanaşmalar | Uşaqlıq və həyat travmalarının zorakılıqla əlaqəsini işləmək | *Trauma-Informed Care*, EMDR, psixososial dəstək | Travmatik keçmişi olan kişilərlə sosial-psixoloji iş; ailə və icma dəstəyinə inteqrasiya |
| Koqnitiv-Davranış Terapiyası (CBT) | Zorakı düşüncə və davranış modellərinin dəyişdirilməsi | Düşüncə səhvlərinin təhlili, alternativ davranış öyrətmə | "Qadın itaət etməlidir" kimi yanlış inancların dəyişdirilməsi; mədəni misallarla işləmək |
| Empati və emosional idarəetmə | Aqressiyanı azaltmaq, alternativ emosional ifadə formaları yaratmaq | Emosional savadlılıq təlimləri, rollu oyunlar, qrup məşqləri | "Əsl kişi ağlamaz" stereotipini dəyişmək; ədəbiyyat və musiqi ilə emosional ifadəni təşviq etmək |
| Mizogin | Qadınlara qarşı | Antimizogin | Onlayn |

| | | | |
|---|---|---|---|
| ideologiyalara qarşı psixoloji iş | nifrəti azaldmaq, gender bərabərliyi dəyərlərini gücləndirmək | maarifləndirmə, psixoterapiya, qrup müzakirələri | radikallaşmaya qarşı rəqəmsal savadlılıq; dini-əxlaqi dəyərlərlə mizoginiyanın ziddiyyətini göstərmək |
| Reabilitasiyanın sosial inteqrasiyası | Zorakılıq törədən şəxsin dayanıqlı sosial mühitə qaytarılması | İş yerləri ilə əməkdaşlıq, sosial mentorluq, icma nəzarəti | İctimai qınağı pozitiv nəzarətə çevirmək; ağsaqqal və icma liderlərinin vasitəçiliyi |

Normativ/ənənəvi zorakı tipləri, həm də ideoloji–mizogin zorakı tipləri müəyyən etmək üçün istifadə olunan psixoloji və sosial sorğu alətləri mövcuddur. Amma bunlar birbaşa Azərbaycan üçün adaptasiya edilməyib, daha çox beynəlxalq mühitdə işlənib.

**Normativ/ənənəvi zorakıların müəyyənləşdirilməsi üçün alətlər**

Bu tip daha çox patriarxal kodların daşıyıcısıdır və sorğular "ailə daxilində münasibətləri necə gördüyünü" ölçməyə yönəlir: Məsələn, "Münaqişə taktikaları Şkalası" ailədaxili və ya partnyorlararası münaqişələr zamanı insanların hansı davranış üsullarından istifadə etdiyini ölçmək üçün hazırlanmış standart psixoloji alətdir. İlk dəfə Murray A.Straus tərəfindən hazırlanmışdır.
Ən geniş istifadə edilən alətdir. Ailədaxili münaqişələrdə zorakılığın formalarını (fiziki, psixoloji, iqtisadi və s.) sorğu sualları ilə ölçür[263].

Münaqişə taktikaları Şkalası (Azərbaycan üçün uyğunlaşdırılmış nümunə, 12 sual)

**Təlimat:** Aşağıdakı halları son 12 ayda həyat yoldaşınız/ partnyorunuzla münasibətlərdə nə dərəcədə etdiyinizi göstərin.

*Cavab variantları:*

0 -Heç vaxt,
1 -Bir dəfə,
2 -Bir neçə dəfə,
3 -Tez-tez,

[263] Straus, M. A., Hamby, S. L., Boney-McCoy, S., & Sugarman, D. B. (1996). The revised Conflict Tactics Scales (CTS2): Development and preliminary psychometric data. *Journal of Family Issues, 17*(3), 283–316. https://doi.org/10.1177/019251396017003001

4 -Çox tez-tez

**Suallar**

**A. Müsbət taktika (danışıqlar yolu ilə həll)**

1. Mübahisə zamanı kompromis axtardım.
2. Problemi sakit şəkildə danışaraq həll etməyə çalışdım.

**B. Psixoloji zorakılıq**

3. Partnyoruma qışqırdım, əsəbi sözlər işlətdim.
4. Onu təhqir etdim və alçaldıcı sözlər dedim.
5. Qısqanclıqla davranışlarını nəzarətdə saxladım.

**C. Fiziki zorakılıq (yüngül forma)**

6. Onu itələdim və ya sərt şəkildə tutdum.
7. Əşyaları qəsdən sındırdım və ya qapını çırpdım.

**D. Fiziki zorakılıq (ağır forma)**

8. Onu yumruqladım, təpik vurdum və ya vurmağa cəhd etdim.
9. Boğmağa və ya ciddi şəkildə zərər verməyə çalışdım.

**E. İqtisadi və sosial nəzarət**

10. Puldan istifadəsinə və ya işinə getməsinə qadağa qoydum.
11. Onun dostları/qohumları ilə ünsiyyətini məhdudlaşdırdım.

**F. Təhdid və qorxutma**

12. Onu boşanmaq və ya uşaqları əlindən almaqla hədələdim.

**Qiymətləndirmə prinsipi**

- A bölməsi (1–2)- pozitiv davranışları göstərir.
- B–F bölmələri -zorakı davranışların tezliyi ölçülür.
- Yüksək ballar -zorakılıq riskinin artdığını göstərir.

Bu sorğu zorakılıq formalarını (emosional, fiziki, iqtisadi, sosial, təhdid) və alternativ münaqişə həll üsullarını eyni vaxtda ölçür. Ona görə də həm risk skrininqi, həm də reabilitasiya proqramının monitorinqi üçün uyğundur.

Məişət zorakılığını qiymətləndirmə anketi 1990-cı illərdə J. Olsen tərəfindən hazırlanmış psixometrik testdir. Onun məqsədi zorakılıq törədən şəxslərin psixoloji xüsusiyyətlərini, risk faktorlarını və davranış meyillərini qiymətləndirməkdir. Bu alət, aqressiya səviyyəsini, məsuliyyət və hesabatlılıq hissini, alkoqol və narkotik istifadəsini, partnyora qarşı nəzarət və manipulyasiya meyillərini ölçür.

**Məişət Zorakılığını qiymətləndirmə anketi. (Azərbaycan üçün uyğunlaşdırılmış skrininq anketi**

**Təlimat:** Aşağıdakı ifadələrlə nə dərəcədə razı olduğunuzu qeyd edin.

*Cavab variantları:*

1 -Tam razı deyiləm,

2 -Razı deyiləm,

3 -Neytral,

4 -Razıyam,

5 -Tam razıyam

**Suallar**

1. Əgər qadın ərinə itaət etmirsə, cəza almaq haqqıdır.
2. Mən partnyorumun davranışına görə əsəbiləşdiyimdə onu qorxutmaq normaldır.
3. Pul və maliyyə məsələlərində son söz həmişə kişiyə məxsusdur.
4. Mən əsəbiləşəndə əşyaları sındırmaq və ya divarı yumruqlamaqla özümü sakitləşdirirəm.
5. Zorakılıq göstərməyimə səbəb çox vaxt qadının səhv davranışıdır.
6. Əgər qadın boşanmaq istəsə, onu biabır etməklə dayandırmaq olar.
7. İçki və ya narkotik istifadə etdikdə özümü idarə edə bilmirəm və zorakı oluram.
8. Uşaqların tərbiyəsi üçün bəzən fiziki güc tətbiq etmək vacibdir.
9. Qadının harada işləməsi və kiminlə görüşməsi barədə qərarı mən verməliyəm.
10. Mən partnyorumun telefonunu və mesajlarını yoxlamaq haqqına sahibəm.
11. Əgər qadın ərindən maddi cəhətdən asılı deyilsə, bu ailə üçün təhlükəlidir.
12. Mənim fikrimcə, zorakılıq bəzən ailəni qorumaq üçün lazım olur.

Qiymətləndirmə prinsipi

- 0–20 bal- Zorakı davranış riski aşağı.
- 21–35 bal - Orta risk: patriarxal inanclar və məhdud zorakı davranış nümunələri.
- 36–60 bal -Yüksək risk: zorakılıq davranışlarının davamlı olması ehtimalı.

Bu sorğu sosial işçilərə, psixoloqlara və hüquq-mühafizə orqanlarına zorakılıq meyllərini erkən müəyyənləşdirməkdə kömək edə bilər. Azərbaycan kontekstinə uyğun olaraq “ləyaqət”, “ayıb”, iqtisadi asılılıq, dini-əxlaqi arqumentlər kimi mədəni elementlər də suallara daxil edilib.

“Gender rolları ilə bağlı mövqelərin qiymətləndirilmə sorğusu” Bu sorğu insanların- kişilərin və qadınların rollarına dair inanclarını və stereotiplərini ölçmək üçün hazırlanmışdır. Məsələn, “Kişi ailənin başçısı olmalıdır” ,“Qadının əsas vəzifəsi ev və uşaqlara baxmaqdır”, “Qadın kişidən daha yaxşı lider ola bilərmi?” Belə suallar vasitəsilə insanların patriarxal, bərabərlikçi və ya qarışıq mövqeləri müəyyən edilir.

**Gender rollarına münasibət -Azərbaycan üçün skrininq anketi**

**Təlimat:** Aşağıdakı ifadələrlə nə dərəcədə razı olduğunuzu qeyd edin.

*Cavab variantları:*

1 -Tam razı deyiləm,
2 -Razı deyiləm,
3 -Neytral,
4 -Razıyam,
5 -Tam razıyam

**Sual bloku**

1. Kişi ailənin başçısıdır və ailədə son qərarı o verməlidir.
2. Qadının əsas vəzifəsi ev işləri və uşaqlara baxmaqdır.
3. Qadının işləməsi ailədə problemlərə səbəb ola bilər.
4. Əgər qadın ailədə çox söz sahibidirsə, bu, kişini zəif göstərir.
5. Kişilər qadınlardan daha yaxşı liderdir.
6. Qadınların siyasətdə və qərarvermədə iştirakı ənənələrimizə uyğun deyil.
7. Qadın kişidən maddi baxımdan asılı olmalıdır.
8. Qadın kişinin icazəsi olmadan mühüm qərar verməməlidir.
9. Uşaqların tərbiyəsində son söz kişiyə məxsusdur.
10. Qadın və kişi eyni dərəcədə ailənin rifahına cavabdehdir. *(sual pozitiv bərabərlik göstəricisidir)*

Qiymətləndirmə prinsipi

Patriarxal meyl: 1–9-cu suallarda yüksək razılaşma dərəcəsi, ənənəvi/patriarxal gender rollarına bağlılıq.

Bərabərlik meyli: 10-cu sualda yüksək razılaşma, gender bərabərliyinə açıq mövqeni göstərir.

Ümumi skor:

- 0–20 bal -Gender bərabərliyinə meylli baxış
- 21–35 bal -Qarışıq mövqe (həm ənənəvi, həm də bərabərlikçi elementlər)
- 36–45 bal- Güclü patriarxal mövqelər, zorakı davranış riski yüksək

Bu skrininq sosial işçilərə, psixoloqlara və tədqiqatçılara insanların gender rollarına münasibətini ölçmək və zorakı meylləri erkən aşkarlamaq üçün sadə və praktik alət kimi istifadə oluna bilər. "Güc və nəzarət çarxına əsaslanan yoxlama anketləri" (Duluth modelinə əsaslanan), şəxsin gündəlik davranışlarını (qısqanclıq, maliyyə nəzarəti, izolasiya, təhdid) kodlaşdıran sorğu formaları üzün nəzərdə tutulur. Bu anket, sosial işçilər, psixoloqlar və hüquq-mühafizə orqanları üçün zorakılıq davranışlarını kodlaşdırmaq və aşkar etmək üçün hazırlanır. Məsələn, sorğuda belə ifadələr ola bilər:

- "Mən partnyorumu dostlarından və ailəsindən uzaq tuturam."
- "Pulun necə xərclənəcəyini yalnız mən müəyyən edirəm."
- "Mən partnyorumu qorxutmaq üçün uşaqlardan istifadə etmişəm."

Cavablara əsasən zorakılığın hansı forması (emosional, iqtisadi, sosial, fiziki) üstünlük təşkil etdiyi müəyyən olunur. Azərbaycan üçün bu alətlər mədəni uyğunlaşdırma ilə işlənə bilər. Məsələn, suallara "ləyaqət", "ayıb" kimi lokal anlayışlar əlavə edilə bilər.

**Güc və nəzarət dairəsi əsasında yoxlama anketi (Azərbaycan konteksti)**

**Təlimat:** Hər bəndə cavab verin: "Bəli" və ya "Xeyr".

**1. Emosional zorakılıq.** Partnyorumu alçaldır, təhqir edir, ona "qadın kimi davranmırsan" deyirəm.

**2. Təcrid.** Partnyorumun dostları və ailəsi ilə ünsiyyətini məhdudlaşdırır və ya qadağan edirəm.

**3. İqtisadi nəzarət.** Ailənin maliyyəsini yalnız mən idarə edirəm, partnyorun puldan istifadəsinə icazə vermirəm.

**4. Qısqanclıq və nəzarət.** Telefonunu, mesajlarını yoxlayır və kiminlə danışdığına nəzarət edirəm.

**5. Qorxutma.** Hirsimi göstərərək (əşyaları sındırmaq, divarı yumruqlamaq və s.) partnyorumu qorxuduram.

**6. Uşaqlardan istifadə.** Partnyoruma təzyiq etmək üçün uşaqları vasitə kimi istifadə edirəm.

**7. Təhdidlər.** Ayrılacağı halda onu cəmiyyət qarşısında biabır edəcəyimlə hədələyirəm ("ləyqətsiz" mesajı ilə).

**8. Cinsəllik üzərindən nəzarət.** Partnyorun istəyi olmadan cinsi münasibətə məcbur edirəm.

**9. Dini və ya mədəni dəyərləri istifadə.** Qadının "səbirli və itaətkar olması" barədə dini-mədəni arqumentlərlə davranışına nəzarət edirəm.

**10. Sosial nüfuzun istifadəsi.** Ailədə "mən kişiyəm, mənim sözüm

keçməlidir" arqumentini istifadə edirəm.

**11. İctimai təhqir.** Partnyorumu dostlar, qohumlar və ya sosial şəbəkələr qarşısında alçaldıram.

**12. Fiziki zorakılıq.** Partnyorumu itələyir, vurur və ya güc tətbiq edirəm.

Qiymətləndirmə prinsipi

- Əgər 2–3 bənddə "Bəli" cavabı varsa, riskli davranış var.
- Əgər 4–6 bənddə "Bəli" cavabı varsa, yüksək risk mövcuddur.
- Əgər 7 və daha çox bənddə "Bəli" cavabı varsa, zorakılıq davamlıdır və təcili müdaxilə tələb olunur.

**Dini və ictimai liderlərin iştirakı**

Məişət zorakılığı və genderəsaslı zorakılıqla mübarizədə yalnız hüquqi və psixoloji müdaxilələr kifayət etmir; sosial dəyişikliklərin daha dərin və dayanıqlı olması üçün cəmiyyətin mənəvi nüfuz sahibləri -dini liderlər və ictimai rəy formalaşdıran şəxslər -prosesə aktiv cəlb olunmalıdır. Tədqiqatlar göstərir ki, dini liderlərin iştirakı zorakılığa bəraət qazandıran yanlış dini yozumların qarşısını alır, ictimai liderlərin iştirakı isə zorakılıqla bağlı "ayıb" və "ləyqətsiz" kimi sosial qınaq mexanizmlərini gücləndirir[264] .

**Nəzəri əsaslandırma**

1. **Sosial kapital yanaşması**: Putnamın sosial kapital nəzəriyyəsinə görə, dini və ictimai liderlər cəmiyyət daxilində etimad şəbəkələrinin daşıyıcısıdır. Onların zorakılığa qarşı mövqeyi sosial davranış normalarına birbaşa təsir edir[265].

2. **Normativ dəyişikliklər**: Heise göstərir ki, gender zorakılığını azaltmaq üçün cəmiyyət daxilində normativ dəyişikliklər vacibdir. Bu dəyişikliyi sürətləndirən əsas qrup məhz dini və ictimai liderlərdir[266].

3. **Mədəni spektrin istifadəsi**: Azərbaycan reallığında dini liderlərin "ailədə mərhəmət və hörmət" mövqeyi, ictimai liderlərin isə "ləyaqətli" və "hörmətli kişi zorakılıq edən deyil" mesajları kulturoloji uyğunlaşdırma üçün güclü vasitədir.

---

[264] Ellison, C. G., & Anderson, K. L. (2001). Religious involvement and domestic violence among U.S. couples. *Journal for the Scientific Study of Religion, 40*(2), 269–286.

[265] Putnam, R. D. (2000). *Bowling alone: The collapse and revival of American community*. Simon & Schuster.

[266] Heise, L. (2011). What works to prevent partner violence? An evidence overview. *STRIVE Research Consortium.*

**Nümunələr.**

**Dini liderlərin iştirakı:**

- İslamda qadına hörmət və mərhəməti önə çəkən ayələrin və hədislərin maarifləndirici tədbirlərdə istifadə edilməsi.
- Azərbaycanda məscid imamlarının "zorakılıq ailəni dağıdır, günahdır" mesajı ilə çıxışları. Azərbaycan üçün, Türkiyədə Diyanət İşləri Başkanlığının zorakılığa qarşı dini moizələri nümunə ola bilər[267].

**İctimai liderlərin iştirakı:**

- Qonşuluq və kənd icmalarında ağsaqqalların zorakılıq törədən kişilərlə söhbəti, qınaq mexanizmi kimi istifadə edilə bilər.
- Tanınmış yazıçı, şair, idmançı və ya televiziya simalarının zorakılığa qarşı maarifləndirici kampaniyalarda iştirakı mühüm təsirə malikdir. Məsələn, Gürcüstanda ictimai liderlərin iştirakı ilə "HeForShe" kampaniyaları öz müsbət təsirini göstərmişdir[268].

**Cəlb etmə yolları**

1. **Maarifləndirmə sessiyaları:** Dini və ictimai liderlər üçün xüsusi təlimlər keçirilməli, zorakılıq mövzusunda məlumatlandırılmalıdırlar.
2. **İnstitusional əməkdaşlıq:** QHT-lər, dövlət qurumları və dini idarələr arasında əməkdaşlıq protokolları hazırlanmalıdır.
3. **Mədəni dəyərlərlə bağlılaşdırma:** Liderlərə zorakılığa qarşı mesajların "milli-mənəvi dəyərlərə uyğun" şəkildə çatdırılması üçün materiallar hazırlanmalıdır.
4. **Nüfuzdan istifadə:** Tanınmış ictimai simaların sosial mediada zorakılığa qarşı açıq bəyanatları geniş kütlələrə təsiri əvəvedilməzdir.
5. **Pilot layihələr:** Seçilmiş icmalarda dini və ictimai liderlərin iştirakı ilə zorakılığın qarşısının alınması layihələri sınaqdan keçirilə və nəticələr geniş yayıla bilər.

Azərbaycan cəmiyyətində dini və ictimai liderlərin rolu çox güclü sosial təsir vasitəsidir. Onların zorakılığa qarşı səsləndirdiyi mesajlar hüquqi mexanizmlərlə yanaşı, mədəni və mənəvi qınaq mexanizmlərini də gücləndirir. Bu səbəbdən, reabilitasiya və profilaktika proqramlarının effektivliyi üçün dini və ictimai liderlərin iştirakı inteqrativ yanaşmanın əsas sütunlarından biri hesab edilməlidir.

Genderəsaslı zorakılığın qarşısının alınması və zorakı kişilərin reabilitasiyası üzrə beynəlxalq təcrübə göstərir ki, hər hansı bir modelin "təmtəraqlı idxalı" deyil, lokal mədəniyyət, psixoloji reallıqlar və sosial

---

[267] UNFPA. (2017). *Faith-based responses to gender-based violence in Turkey*. Ankara.

[268] UN Women. (2019). *Engaging men and boys in gender equality and violence prevention*. New York.

təsir mexanizmləri ilə inteqrasiya olunmuş hibrid yanaşma ən dayanıqlı nəticələri verir. Azərbaycan kontekstində belə bir hibrid reabilitasiya modeli dörd əsas sütuna söykənir: Duluth modelinin saxlanılan elementləri, mədəni spektr uyğunlaşdırmaları, psixoloji komponentlərin gücləndirilməsi, dini və ictimai liderlərin iştirakı.

Azərbaycan üçün hibrid reabilitasiya modeli beynəlxalq standartların güclü tərəflərini (Duluth, CBT, travma yönümlü yanaşmalar) yerli mədəni kodlarla, psixoloji komponentlərlə və sosial-nüfuz liderlərinin iştirakı ilə birləşdirən kompleks sistem olmalıdır.

- Normativ zorakı tip, mədəni spektr uyğunlaşdırmaları və ictimai nəzarət vasitəsilə dəyişdirilə bilər.
- İdeoloji–mizogin zorakı tip, psixoloji-hüquqi kombinə olunmuş sərt müdaxilələrə ehtiyac duyur.

Belə paralel strategiyalar zorakılığın qarşısının alınması və zorakı şəxslərin reabilitasiyasında daha dayanıqlı və mədəniyyətə uyğun nəticələr təmin edə bilər.

**Tətbiq mexanizmləri və monitorinq**

Genderəsaslı zorakılıqla mübarizə və zorakı şəxslərin reabilitasiyası üzrə proqramların yalnız nəzəri hazırlanması kifayət etmir; onların praktik tətbiq mexanizmləri və monitorinq sistemi dəqiq işlənmədikdə uzunmüddətli nəticələr əldə etmək mümkün olmur. Tədqiqatlar göstərir ki, effektiv proqramların əsas xüsusiyyətləri sistemli tətbiq, intersektoral əməkdaşlıq və davamlı monitorinq mexanizmlərinin qurulmasıdır.

**Tətbiq mexanizmlərinin əsas prinsipləri**

1. **İnstitusional inteqrasiya** -hüquq-mühafizə, sosial xidmət, psixoloji yardım və icma strukturlarının koordinasiyası
2. **Mədəni uyğunlaşdırma** -tətbiq edilən alətlərin və mesajların yerli sosial-mədəni kontekstə uyğunlaşdırılması
3. **Fərdiləşdirilmiş yanaşma** -zorakı şəxslərin psixoloji tipologiyasına əsaslanan fərqli reabilitasiya yollarının tətbiqi .
4. **Resursların davamlılığı** -proqramların yalnız donor dəstəyi ilə deyil, dövlət və icma resursları hesabına dayanıqlı saxlanılması

**Monitorinqin əsas prinsipləri**

Monitorinq zorakılığın azaldılmasına yönəlmiş proqramların real təsirini ölçmək üçün vacibdir. Beynəlxalq təcrübə göstərir ki, monitorinq yalnız statistik məlumat toplama deyil, həm də davranış dəyişikliklərini və

normativ transformasiyanı izləməkdir[269].

- **İlkin skrininq və qiymətləndirmə** -zorakı şəxsin davranış meyllərinin sorğu və psixoloji testlərlə ölçülməsi.
- **Proses monitorinqi** -proqramın icrası zamanı iştirakçıların davamlılıq göstəricilərinin izlənməsi.
- **Nəticə monitorinqi** -zorakılıq hallarının azalması, münasibət və davranış dəyişikliklərinin ölçülməsi.
- **İcma və qurban mərkəzli monitorinq** -yalnız zorakı şəxsi deyil, həm də qurbanın təhlükəsizliyi və sosial inteqrasiyasını izləmək olduqca əhəmiyyətlidir.

**Monitorinq mexanizmləri**

| **Mərhələ** | **Məzmun** | **İstifadə olunan alətlər** | **Azərbaycan konteksti üçün xüsusiyyətlər** |
|---|---|---|---|
| İlkin qiymətləndirmə | Zorakı şəxsin davranış meylləri və risk səviyyəsinin müəyyən edilməsi | Skrininq sorğuları (CTS, DVI, Gender Rolları Anketi), psixoloji müsahibə | "Üz qarası", "ayıb" kimi mədəni kodların nəzərə alınması |
| Məqsəd və göstəricilərin müəyyənləşdirilməsi | Proqramın məqsədləri və uğur göstəricilərinin aydınlaşdırılması | SMART indikatorları (məs., iştirak davamlılığı, davranış dəyişikliyi faizi) | Dövlət və QHT hesabatları ilə uyğunlaşdırma |
| Proses monitorinqi | Proqram icrası zamanı iştirakçıların iştirakını, motivasiyasını izləmək | Davamiyyət jurnalları, sessiya hesabatları, fasilitator müşahidələri | Sosial xidmət mərkəzlərində standart formaların tətbiqi |
| Davranış dəyişikliklərinin izlənməsi | Zorakı davranışların azalması və empati bacarıqlarının artması | Likert tipli sorğular, psixoloji testlər, qrup müzakirələri | Ailə üzvlərinin və icma liderlərinin müşahidə rəyləri |
| Qurban mərkəzli | Qurbanın | Müsahibələr, | Qadın və |

[269] World Health Organization. (2021). *Measuring violence against women: A technical brief*. Geneva.

| | | | |
|---|---|---|---|
| monitorinq | təhlükəsizliyi, rifahı və sosial inteqrasiyasını izləmək | sığınacaq hesabatları, sosial işçi qeydləri | uşaqların təhlükəsizliyini prioritetləşdirmək |
| Nəticə monitorinqi | Proqramın ümumi təsirini və uzunmüddətli nəticələri qiymətləndirmək | Statistik təhlil, müqayisəli sorğular, keyfiyyətli müsahibələr | Milli statistika və icma səviyyəsində məlumatların birləşdirilməsi |
| Geri bildirim və təkmilləşdirmə | Proqram nəticələrinin təhlili və yeni müdaxilə strategiyalarının hazırlanması | Hesabatlar, dəyirmi masa müzakirələri, qiymətləndirmə icmalları | Dövlət qurumları və QHT koalisiyasının birgə rəy mexanizmi |

Bu cədvəl göstərir ki, monitorinq davamlı proses kimi qurulmalı, yalnız rəqəmsal statistika deyil, həm də davranış və sosial dəyişikliklər izlənməlidir.

**Məcburi və könüllü proqramlar. Təsirlər və üstünlüklər**

Zorakılıq törədən şəxslərin reabilitasiyası üzrə proqramlar əsasən iki tipdə həyata keçirilir: məcburi (mandatory) və könüllü (voluntary). Bu fərqlilik onların tətbiq mexanizmlərinə, iştirakçıların motivasiyasına və nəticələrin dayanıqlığına ciddi təsir göstərir.

**Məcburi proqramlar**

**Məzmun:**

Məhkəmə qərarı, polis nəzarəti və ya sosial xidmət orqanlarının yönləndirməsi əsasında zorakı şəxslərin proqramlara məcburi şəkildə cəlb olunmasıdır.

**Təsirləri:** Qısa müddətdə zorakı davranışların azalmasına səbəb ola bilər. Hesabatlılıq və məsuliyyət hissini artırır. Təkrar zorakılığın hüquqi nəzarət altında azalmasına kömək edir.

**Üstünlükləri:** Yüksək riskli və təhlükəli zorakı şəxslərin mütləq nəzarətdə saxlanmasını təmin edir. Qurbanların təhlükəsizliyini gücləndirir. Hüquqi sistemdə zorakılığın “ciddi cinayət” kimi qəbul olunmasına xidmət edir.

**Boşluqlar:** İştirakçının daxili motivasiyası zəif ola bilər. Davranış dəyişikliyi çox vaxt yalnız “cəzadan yayınmaq” məqsədilə qəbul edilir.

**Könüllü proqramlar**

**Məzmun:** Şəxsin öz müraciəti və ya ailə, icma, QHT təşviqi ilə

proqramlara qoşulmasıdır[270] .

**Təsirləri:** Daxili motivasiyaya söykəndiyi üçün daha dayanıqlı davranış dəyişikliyi yarada bilər. Zorakı şəxslərin öz məsuliyyətini dərk etməsinə imkan verir.

**Üstünlükləri:** Emosional açılma və psixoloji dəstək daha səmərəli olur. Davranış dəyişikliyi daha səmimi və uzunmüddətli ola bilər. İştirakçı cəmiyyətə öz istəyilə reinteqrasiya olunur.

**Boşluqlar:** Yüksək riskli zorakı şəxslər çox vaxt könüllü şəkildə müraciət etmirlər. Manipulyativ davranış tipli şəxslər proqrama könüllü qoşulduqlarını bəyan edib, təhlükəli halda olan qurbanların təhlükəsizliyini zəiflədə bilər. Bu baxımdan könüllü qoşulanlar arasında sikrininqin düzgün aparılması, hətta yeri gəlsə müxtəlif testlərdən sonra qaəbuluna qərar verilməsi olduqca vacibdir.

| **Xüsusiyyət** | **Məcburi proqramlar** | **Könüllü proqramlar** |
|---|---|---|
| Başlanğıc mexanizmi | Məhkəmə qərarı, polis yönləndirməsi | Şəxsin öz müraciəti, QHT təşviqi |
| Motivasiya | Xarici (cəzadan yayınmaq) | Daxili (dəyişmək istəyi) |
| Təsir | Qısa müddətli davranış dəyişikliyi | Uzunmüddətli psixoloji dəyişiklik |
| Qurban təhlükəsizliyi | Yüksək təminat (hüquqi nəzarət) | Daha zəif təminat |
| Üstünlüklər | Nəzarət, hesabatlılıq, təhlükəsizlik | Səmimi dəyişiklik, dayanıqlılıq |
| Məhdudiyyətlər | Formal iştirak, motivasiya azlığı | Yüksək risklilər cəlb olunmur |

- **Məcburi proqramlar** yüksək riskli və təhlükəli zorakı şəxslər üçün vacibdir, onların hüquqi nəzarət altında saxlanması və qurbanın təhlükəsizliyi üçün əvəzsiz mexanizmdir.
- **Könüllü proqramlar** isə daha çox daxili motivasiya və uzunmüddətli davranış dəyişikliyi yaratmaq potensialına malikdir.

Azərbaycan üçün hibrid yanaşma məqsədəuyğundur: məcburi proqramlar hüquqi nəzarət üçün, könüllü proqramlar isə psixoloji reabilitasiya və dayanıqlı reinteqrasiya üçün tətbiq edilməlidir.

---

[270] Eckhardt, C. I., Murphy, C. M., Black, D. W., & Suhr, L. (2013). Intervention programs for perpetrators of intimate partner violence: Conclusions from a clinical research perspective. *Public Health Reports, 118*(2), 223–238.

**Qrup + fərdi seans kombinasiyası**

Zorakılıq törədən şəxslərlə işləməkdə ənənəvi yanaşmalardan biri qrup seanslarıdır (məsələn, Duluth modeli), digəri isə fərdi psixoterapiyadır. Lakin son onilliklərdə aparılan araşdırmalar göstərir ki, hibrid kombinasiyalar (qrup + fərdi seanslar) həm davranış dəyişiklikləri, həm də psixoloji dərinlik baxımından daha yüksək nəticə verir .

**Qrup seanslarının təsiri**

- Normativ transformasiya: Qrup müzakirələri iştirakçılara zorakılığın normal davranış olmadığını dərk etməyə kömək edir.
- Kollektiv məsuliyyət: Digər iştirakçıların təcrübəsi və ictimai qınaq mexanizmi gücləndirilir.
- Duluth nümunəsi: ABŞ-da Duluth modelində qrup müzakirələri zorakılığın "güc və nəzarət" dinamikasının aşkarlanması üçün əsas vasitədir.

Boşluq: Qrup seanslarında bəzən müdafiə mövqeyi güclənir, dərin psixoloji travmalar üzə çıxarılmır.

**Fərdi seansların təsiri**

- Psixoloji dərinlik: Fərdi psixoterapiya şəxsin uşaqlıq travmaları, şəxsiyyət pozuntuları və emosional problemlərini hədəfləyir.
- Güvənli mühit: Şəxs qrup təzyiqi olmadan öz problemlərini açıq ifadə edə bilir.
- Məhsuldarlıq: CBT, travma yönümlü terapiya və empati təlimləri fərdi yanaşmada daha səmərəli olur

Boşluq: Fərdi terapiya bahalıdır və sosial məsuliyyət elementini zəiflədir.

**Fərdi seans mümunəsi (Psixoloji dərinlik)**

**Mövzu:** "Şəxsi travmalar və inanclar üzərində işləmək".

**Müddət:** 60 dəqiqə.

**İştirakçı:** 1 nəfər zorakı kişi

**Strukturu:**

1. **Giriş (5 dəq.)**

Psixoloq: *"Burada məqsəd sizi ittiham etmək deyil, sizin özünüzü və davranışınızı daha yaxşı anlamağınıza kömək etməkdir."*

2. **Uşaqlıq və travmaların araşdırılması (15 dəq.)**

- Sual: "Siz uşaqlıqda ailədə hansı münasibətləri gördünüz?"
- Məqsəd: zorakılıq davranışının köklərini anlamaq.

3. **İnancların yoxlanması (20 dəq.)**

Psixoloq soruşur: “Qadın həmişə ərinə itaət etməlidirmi?” “Zorakılıq ailəni qoruyurmu?” CBT texnikası ilə yanlış inanclar aradan qaldırılır.

4. **Alternativ davranışların işlənməsi (15 dəq.)**

- Qəzəb anında alternativ üsullar: nəfəs texnikası, mübahisədən çıxmaq, dostla danışmaq.
- Rol oynama: *“Təhqir etmək əvəzinə, nə deyə bilərsiniz?”*

5. **Yekun və tapşırıq (5 dəq.)**

Psixoloq: *“Gələn həftəyə qədər bir dəfə qəzəbinizi zorakılıqsız idarə edin və nəticəni yazın.”*

**Qrup + fərdi seans kombinasiyası** hər iki yanaşmanın güclü tərəflərini birləşdirir:

1. İlk mərhələ (fərdi qiymətləndirmə): Psixoloq zorakı şəxsin tipologiyasını müəyyən edir.
2. Qrup seansları: İştirakçılar zorakılığın ictimai təsirlərini öyrənir və məsuliyyət daşımağa başlayır.
3. Fərdi seanslar: Qrupdan öyrənilənlər şəxsi travmalar və inanclar üzərində işləməklə dərinləşdirilir.
4. Yekun mərhələ: Qrup və fərdi seanslardan əldə olunan nəticələr inteqrasiya olunur.

**Qrup seansı nümunəsi (Duluth + Azərbaycan konteksti)**

**Mövzu:** “Zorakılığın ictimai və ailəvi təsirləri”

**Müddət:** 90 dəqiqə

**İştirakçılar:** 8–12 nəfərə zorakı davranışa görə istiqamətləndirilmiş kişi

**Strukturu:**

1. **Giriş (10 dəq.)**

Təlimçi mövzunu təqdim edir: *“Zorakılıq yalnız partnyora təsir etmir, ailəyə, uşaqlara, hətta sizin hörmət və nüfuzunuza da zərər vurur.”*

2. **Müzakirə (30 dəq.)**

Suallar: “Zorakılıq göstərdiyiniz zaman uşaqlar nə görür və nə hiss edir?” “Cəmiyyət zorakılıq edən kişiyə necə baxır?”

İştirakçılar şəxsi hekayələrini paylaşır.

Təlimçi zorakılığın ictimai nəticələrini vurğulayır: “ləyaqət itirmək”, iş yerində hörməti itirmək, icmadan təcrid olunmaq.

3. **Qrup fəaliyyəti (30 dəq.)**

- “Güc və nəzarət dairəsi” diaqramı üzərində işləyirlər.
- Hər kəs öz davranışından birini dairədə yerləşdirir.

4. Yekun (20 dəq.) “Zorakılıq etməsəydiniz, ailəniz və nüfuzunuz necə dəyişərdi?” sualı ilə refleksiya müəyyən edilir. İştirakçılar “bir dəyişiklik addımı” öhdəliyi yazır.

Qrup seansları sosial məsuliyyəti və ictimai qınağı gücləndirir. Fərdi seanslar isə şəxsi travmalar və yanlış inanclar üzərində işləyərək davranış dəyişikliyini dərinləşdirir. Kombinasiya, həm sosial, həm də psixoloji dəyişiklik yaradır.

Beynəlxlaq nümunələr

- Gondolf tərəfindən ABŞ-da aparılan genişmiqyaslı araşdırmalar göstərir ki, qrup + fərdi kombinasiyası yalnız qrup və ya yalnız fərdi proqramlara nisbətən təkrar zorakılıq riskini 20–25% daha çox azaldır[271].
- Eckhardt və həmkarları tədiqiqtalardında göstərmişdir ki, koqnitiv-davranış terapiyası əsaslı fərdi seansların qrup seansları ilə birləşdirilməsi zorakı kişilərdə empati və emosional idarəetmə bacarıqlarını gücləndirmişdir[272].
- Azərbaycan kontekstində icma liderlərinin iştirakı ilə qrup seansları + psixoloqla fərdi sessiyalar mədəni spektr uyğunlaşdırmalarını daha səmərəli edə bilər.

**Effektivliyi ölçmə indikatorları**

Zorakılıqla mübarizə və reabilitasiya proqramlarının effektivliyini ölçmək yalnız iştirakçıların davamiyyətini yoxlamaqla bitmir. Effektivlik həm davranış dəyişiklikləri, həm də normativ-mədəni transformasiya üzərindən qiymətləndirilməlidir. İndikatorların müəyyənləşdirilməsi proqramların hesabatlılıq, təkmilləşmə və qurban təhlükəsizliyi üçün əsasdır.

**Davranış dəyişiklikləri ilə bağlı indikatorlar**

- **Zorakı hadisələrin azalması** -təkrar zorakılıq faktlarının (polis müraciətləri, qurban hesabatları) azalması.
- **İntim münasibətlərdə zorakılıq formalarının dəyişməsi** -CTS2 (Conflict Tactics Scale) əsasında qiymətləndirmə.

**Conflict Tactics Scale (CTS)** -Murray A. Straus tərəfindən hazırlanmış psixometrik alətdir (ilk versiyası 1979, daha geniş işlənmiş forması CTS2 -1996). Məqsəd ailə və partnyor münasibətlərində münaqişələrin həllində istifadə olunan taktikaları ölçməkdir.

---

[271] Gondolf, E. W. (2002). *Batterer intervention systems: Issues, outcomes, and recommendations*. Sage Publications.

[272] Eckhardt, C. I., Murphy, C. M., Black, D. W., & Suhr, L. (2013). Intervention programs for perpetrators of intimate partner violence: Conclusions from a clinical research perspective. *Public Health Reports, 118*(2), 223–238.

Bu alət həm zorakı davranış formalarını, həm də müsbət münaqişə həll üsullarını müəyyənləşdirir. CTS dünyanın ən geniş istifadə edilən zorakılıq ölçmə alətlərindən biridir.

**Əsas ölçmə sahələri**

CTS iki əsas versiyada işlənib:

CTS (1979) -əsasən üç blokdan ibarət idi:

- Müzakirə (problemi sakit yolla həll etmə)
- Aqressiya (psixoloji və fiziki zorakılıq)
- Şiddətli zorakılıq (ağır fiziki zərbələr)

CTS2 (1996) -daha genişləndirilmiş versiya, beş əsas blokla:

- Negosiasiya (müzakirə) -kompromis, sakit danışıq
- Psixoloji zorakılıq -təhqir, qışqırmaq, qorxutmaq
- Fiziki zorakılıq (yüngül və ağır) -itələmək, yumruqlamaq, boğmaq
- Cinsi məcburiyyət -razılıqsız cinsi davranış
- İqtisadi və digər məhdudiyyətlər (sonrakı modifikasiyalarda əlavə olunub)

**Sorğu nümunəsi (CTS2 əsasında)**

Respondentlərdən son 12 ayda baş verən davranışların tezliyini göstərməsi xahiş olunur:
0 -heç vaxt, 1 -bir dəfə, 2 -bir neçə dəfə, 3 -tez-tez, 4 -çox tez-tez.

**Nümunə suallar:**

- Mən mübahisəni sakit şəkildə müzakirə etməyə çalışdım. *(pozitiv münaqişə həlli)*
- Mən partnyoruma qışqırdım və ya təhqir etdim. *(psixoloji zorakılıq)*
- Mən partnyorumu itələdim və ya sərt şəkildə tutdum. *(yüngül fiziki zorakılıq)*
- Mən partnyorumu yumruqladım, təpik vurdum və ya boğmağa çalışdım. *(ağır fiziki zorakılıq)*
- Mən partnyorumu istəksiz halda cinsi münasibətə məcbur etdim. *(cinsi məcburiyyət)*

**Tətbiq sahələri**

Elmi tədqiqatlar vasitəsilə məişət zorakılığının yayılma dərəcəsinin ölçülməsi nəzərdə tutulur. Sosial xidmətlərdə zorakı və qurban tərəfin davranış nümunələrinin öyrənilməsi tətbiq olunur. Reabilitasiya proqramlarında müdaxilədən əvvəl və sonra dəyişikliklərin qiymətləndirilməsi aparılır. Beynəlxalq müqayisələrdə əsasən zorakılığın fərqli ölkələrdə yayılma formalarının araşdırılması həyata keçirilir

**Güclü tərəflər,** Qlobal səviyyədə geniş istifadə olunuraq, müqayisə

imkanı verir. Zorakılığın müxtəlif formalarını (emosional, fiziki, cinsi) əhatə edir. Həm zorakı, həm də qurban perspektivindən tətbiq edilə bilir.

**Boşluqlar,** Özünüqiymətləndirmə metodu olduğuna görə bəzi cavablar gizlədilə bilər. Mədəniyyətlərarası adaptasiya tələb edir (məsələn, "ayıb" və "ləyaqət" anlayışları kimi yerli kodlar əlavə olunmalıdır). Zorakılığın səbəblərini deyil, yalnız davranış tezliyini ölçür.

**Qəzəb idarəetmə bacarıqları** -seanslardan əvvəl və sonra psixoloji testlərlə ölçülməsi.

**1. Beynəlxalq test nümunələri**

Qəzəbin hal və xüsusiyyət ifadəsi anketi -2 (STAXI-2) -qəzəbin intensivliyini (state anger), daimi xüsusiyyətini (trait anger), ifadə formalarını (anger-in, anger-out, anger-control) ölçür[273]. Novaco Anger Scale (NAS)- qəzəbin koqnitiv, emosional və davranış komponentlərini qiymətləndirir[274]. Anger Control Scale (ACS) –qəzəb anında davranış və emosiyaları idarəetmə qabiliyyətini ölçür[275].

**Azərbaycan üçün uyğunlaşdırılmış qısa nümunə sorğusu (10 sual)**

**Təlimat:** Aşağıdakı ifadələrlə nə dərəcədə razı olduğunuzu göstərin. *Cavab variantları:* 1 -Heç vaxt, 2 -Nadirdir, 3 -Bəzən, 4 -Tez-tez, 5 -Həmişə.

**Suallar**

1. Mübahisə zamanı tez-tez qışqırıram.
2. Əsəbiləşəndə əşyaları sındırmaq və ya qapını çırpmaq istəyirəm.
3. Qəzəbimi sakit şəkildə ifadə edə bilirəm. *(tərs skor)*
4. Kimsə məni təhqir edəndə dərhal qarşılıq verməyə ehtiyac hiss edirəm.
5. Əsəbiləşdiyimdə sakitləşmək üçün dərin nəfəs və ya başqa üsullardan istifadə edirəm. *(tərs skor)*
6. Kiçik anlaşılmazlıqlar tez məni qəzəbləndirir.
7. Mübahisə zamanı qarşımdakını incitmək barədə düşünürəm.
8. Qəzəbimi idarə edə bilirəm və vəziyyəti daha da gərginləşdirmirəm. *(tərs skor)*

---

[273] Spielberger, C. D. (1999). *State-Trait Anger Expression Inventory-2 (STAXI-2)*. Psychological Assessment Resources.

[274] Novaco, R. W. (1994). Anger as a risk factor for violence among the mentally disordered. In J. Monahan & H. Steadman (Eds.), *Violence and mental disorder* (pp. 21–59). University of Chicago Press.

[275] Peterson, C., & Seligman, M. E. P. (2004). *Character strengths and virtues: A handbook and classification*. Oxford University Press.

9. Əsəbiləşdikdən sonra uzun müddət sakitləşə bilmirəm.
10. Qəzəbimi nəzarətdə saxlamağı bacarıram. *(tərs skor)*

**Qiymətləndirmə prinsipi**

**Tərs skorlanan suallar:** 3, 5, 8, 10 (yüksək bal = yaxşı idarəetmə).

**Ümumi bal 10–50 arasında dəyişir.**

- 10–20 bal- yüksək qəzəb riski, idarəetmə çox zəif.
- 21–35 bal- orta risk, qismən idarəetmə var.
- 36–50 bal- yaxşı qəzəb idarəetmə bacarıqları.

**Seanslardan əvvəl və sonra tətbiq**

Əvvəl: Zorakı şəxslərin emosional idarəetmə qabiliyyəti ölçülür.

Sonra (məsələn, 12 həftəlik proqramdan sonra): Qəzəb idarəetmə bacarıqlarında irəliləyiş olub-olmaması müqayisə edilir.

Monitorinq: İştirakçının davranış dəyişikliyi həm öz-özünüqiymətləndirmə, həm də sosial işçi/psixoloq müşahidələri ilə təsdiqlənir.

**Empati səviyyəsinin artması** -Empathy Quotient sorğusu vasitəsi ilə qiymətləndirmənin aparılması.

**Empathy Quotient (EQ)** Simon Baron-Cohen və həmkarları tərəfindən) hazırlanmış psixometrik alətdir. Məqsəd, insanın emosional və koqnitiv, empati bacarıqlarını ölçməkdir. İlk olaraq autizm spektr pozuntusu olan fərdlərin empati səviyyəsini qiymətləndirmək üçün yaradılmışdır, lakin sonradan psixoloji tədqiqatlarda və sosial işdə geniş tətbiq edilmişdir.

**EQ-nun ölçmə mənbələri**

EQ testində ümumilikdə 60 ifadə var. 40 empati ilə bağlı sual, 20 nəzarət suallarını təşkil edir.

İştirakçı hər ifadəyə cavab verir: tam razıyam, razıyam, razı deyiləm, tam razı deyiləm.

Əldə olunan ballar 0–80 aralığında dəyişir:

- 0–30 bal- aşağı empati səviyyəsi
- 31–50 bal- orta empati səviyyəsi
- 51–80 bal- yüksək empati səviyyəsi

**Nümunə suallar[276] (Baron-Cohen və həmkarlarının sorğuları əsasında)**

1. Mən başqasının üz ifadəsinə baxaraq onun necə hiss etdiyini

[276] Baron-Cohen, S., & Wheelwright, S. (2004). The Empathy Quotient: An investigation of adults with Asperger syndrome or high functioning autism, and normal sex differences. *Journal of Autism and Developmental Disorders, 34*(2), 163–175.

anlaya bilirəm.

2. İnsanların qəlbini qıran sözlər dediyimdə, uzun müddət özümü narahat hiss edirəm.

3. Məncə, insanların çətinlikləri haqqında çox da düşünmək lazım deyil. *(tərs sual)*

4. Başqasının uğuruna sevinmək mənim üçün asandır.

5. Mən mübahisə zamanı qarşı tərəfin baxış bucağını anlamaqda çətinlik çəkirəm. *(tərs sual)*

**Reabilitasiya proqramlarında istifadəsi**

Seanslardan əvvəl və sonra tətbiq -zorakı şəxslərin empati səviyyəsində dəyişiklik olub-olmadığını göstərir. Normativ zorakı tiplərdə, qrup seanslarından sonra empati artımı müşahidə olunur. Mizogin-ideoloji zorakı tiplərdə isə, empati artımı zəif olur, daha dərin psixoloji müdaxilə tələb edir

**Empati sorğusu (Azərbaycan üçün uyğunlaşdırılmış qısa forma -10 sual)**

Təlimat: Aşağıdakı ifadələrlə nə dərəcədə razı olduğunuzu qeyd edin.

*Cavab variantları:*

1 -Tam razı deyiləm
2 -Razı deyiləm
3 -Neytral
4 -Razıyam
5 -Tam razıyam

**Suallar:**

1. İnsanların üz ifadəsinə baxaraq onların necə hiss etdiyini asanlıqla anlayıram.
2. Başqasının kədərini gördükdə özümü narahat hiss edirəm.
3. Məncə, insanların hissləri çox vaxt şişirdilmişdir. *(tərs sual)*
4. Kiminsə uğuruna sevinmək mənim üçün təbiidir.
5. Çətin vəziyyətdə olan insana kömək etməyi vacib hesab edirəm.
6. Mən mübahisə zamanı qarşı tərəfin necə hiss etdiyini başa düşməkdə çətinlik çəkirəm. *(tərs sual)*
7. Uşaqların qorxduğunu və ya kədərləndiyini tez başa düşürəm.
8. Əgər bir insan tək və təcrid olunmuş görünürsə, ona yaxınlaşmaq istəyirəm.
9. Mən çox vaxt yalnız öz hisslərimə fokuslanıram, başqalarının hisslərini nəzərə almıram. *(tərs sual)*
10. Ətrafımdakı insanların emosiyalarını hiss etmək mənim üçün

asandır.

**Qiymətləndirmə prinsipi:**

Tərs suallar: 3, 6, 9 (burada yüksək bal empatiyanın aşağı səviyyəsini göstərir, skor çevrilməlidir).

Ümumi bal aralığı: 10–50

- 10–20- aşağı empati səviyyəsi
- 21–35-orta empati səviyyəsi
- 36–50- yüksək empati səviyyəsi

Bu sorğu seanslardan əvvəl və sonra tətbiq oluna bilər. Məsələn, zorakı kişilərdə empati səviyyəsinin yüksəlməsi proqramın effektivlik indikatorlarından biridir.

**Attitüd(düşüncə) və inanclarla bağlı indikatorlar**

Zorakılığın qarşısının alınması və zorakı şəxslərin reabilitasiyası təkcə davranış səviyyəsində dəyişikliklərlə məhdudlaşmır. Ən mühüm göstəricilərdən biri onların düşüncə tərzində (attitüd) və inanclarında (beliefs) dəyişikliklərin baş verməsidir. Tədqiqatlar göstərir ki, zorakılıq çox vaxt patriarxal inanclardan, mizoginiyadan və gender stereotiplərindən qaynaqlanır [277]. Bu səbəbdən attitüd və inanclarla bağlı indikatorlar proqramların effektivliyini ölçmək üçün vacibdir.

**1. Davranış dəyişiklikləri ilə bağlı indikatorlar**

Zorakı hadisələrin azalması, təkrar zorakılıq faktlarının (polis müraciətləri, qurban hesabatları) azalması. İntim münasibətlərdə zorakılıq formalarının dəyişməsi, CTS2 (Conflict Tactics Scale) əsasında qiymətləndirmə. Qəzəb idarəetmə bacarıqları, seanslardan əvvəl və sonra psixoloji testlərlə ölçülməsi. Empati səviyyəsinin artması -Empathy Quotient ilə qiymətləndirmənin aparılması ilə müəyyən etmək olar.

**Attitüd və inanclarla bağlı indikatorlar**

Aparılan reabilitasiya və dəstək proqramalarının nəticəsi olaraq patriarxal inancların zəifləməsini aşakarlamaq üçün -cinsiyyət roluna dair münasibət sorğusu ilə ölçülməsi. Bu ölçü sistemi, uşaq və qadın rollarına dair ənənəvi münasibətləri ölçür.

Mizoginiya və seksizm səviyyəsinin azalması, Ambivalent seksizm ölçüsü vasitəsilə aparılır. Bu test Peter Glick və Susan Fiske tərəfindən hazırlanıb. İki əsas ölçü aparır:

1. Düşmənçi seksizm -qadınlara açıq-aşkar mənfi, təhqiredici,

[277] Flood, M., & Pease, B. (2009). Factors influencing attitudes to violence against women. *Trauma, Violence, & Abuse, 10*(2), 125–142.

aşağılama münasibətləri.

2. Xeyirxah seksizm-qadınlara “zərif”, “qorunmalı”, “asılı” obrazı ilə müsbət görünsə də, əslində gender bərabərsizliyini möhkəmləndirən münasibətlər.

Zorakılığın legitimləşdirilməsinə münasibətin dəyişməsi, “Zorakılıq ailəni qoruyur” tipli ifadələrə cavabların müqayisəsi. Məsuliyyət qəbulunun artması, *Məsuliyyət və dəstək* prinsipi üzrə qiymətləndirmənin aparılması ilə müəyyən edilir.

**3. Sosial və institusional indikatorlar**

- Proqram davamiyyət göstəriciləri -iştirakçıların neçə faizi bütün seansları tamamlayır.
- İştirakçıların sosial reinteqrasiyası -iş yerinə qayıtma, icma ilə münasibətlərin yaxşılaşması.
- Qurbanların təhlükəsizlik səviyyəsi -sığınacaq və sosial xidmət hesabatlarına əsaslanan izləmə.
- Hüquqi uyğunluq -məhkəmə qərarlarının icrası və cəza tədbirlərinə riayət dərəcəsi.

**Monitorinq və qiymətləndirmə üsulları**

Kəmiyyət üsulları: sorğular (Likert miqyası), statistik məlumatlar (polis qeydləri, məhkəmə hesabatları). Likert miqyası -sosial elmlərdə, psixologiyada və sorğularda geniş istifadə edilən ölçmə üsuludur. Onun vasitəsilə insanların hər hansı bir fikir, münasibət və ya hissə razılıq dərəcəsi ölçülür.

Keyfiyyət üsulları: dərin müsahibələr, fokus qruplar, müşahidələr.

Müqayisəli metod: proqram iştirakçıları ilə iştirak etməyənlərin nəticələrinin müqayisəsi.

Uzunmüddətli izləmə: proqramdan 6 ay, 12 ay, 24 ay sonra təkrar qiymətləndirmə (recidiv göstəriciləri).

**Azərbaycan konteksti üçün əlavə indikatorlar**

İctimai qınaq mexanizmi, zorakılığın “ləyaqətsiz” və “ayıb” kimi dərk edilməsinin güclənməsinə təsiri. İcma liderlərinin rəyləri vasitəsilə, ağsaqqal və dini liderlərin müşahidələrinə əsaslanan hesabatların hazırlanması. Mədəni kodların dəyişməsi vasitəsilə, zorakılığın “tərbiyə üsulu” kimi qəbul olunma faizinin azalmasına nail olmaq mümkündür.

**NÜMUNAƏLƏR:**

**Patriarxal inancların zəifləməsi**

İzah: “Kişi ailənin başçısıdır”, “qadın itaət etməlidir” kimi inanclar zorakılığı legitimləşdirir.

İndikator: Proqramdan əvvəl və sonra patriarxal ifadələrlə razılaşma səviyyəsinin azalması.

Nümunə sual: "Uşaqların tərbiyəsində son söz kişiyə məxsusdur." (Likert şkalasında ölçülür).

Alət: *"Cinsiyyət rollarına münasibət anketi"*[278] vasitəsilə müəyyən edilir.

**Zorakılığın legitimləşdirilməsinə münasibətin dəyişməsi**

• İzah: Zorakı şəxslər çox vaxt zorakılığı "tərbiyə vasitəsi" və ya "ailəni qoruma üsulu" kimi görürlər.

• İndikator: "Zorakılıq bəzən ailədə nizam-intizamı qorumaq üçün vacibdir" tipli ifadələrlə razılaşmanın azalması.

• Nümunə: Proqramdan əvvəl 60% razı → proqramdan sonra 20% razı.

• Alət: Münaqişə davranışları sorğusu (CTS2) -zorakılığın hansı taktika kimi istifadə olunduğunu ölçür.

**Mizoginiya və qadın düşmənçiliyinin azalması**

• İzah: Mizogin inanclar zorakılığın ideoloji bazasını təşkil edir.

• İndikator: Qadınların bacarıqlarına, liderliyinə və hüquqlarına qarşı mənfi münasibətin azalması.

• Nümunə sual: "Qadın rəhbər ola bilməz, çünki o, emosional qərarlar verir."

• Alət: *Ambivalent (ikiyönlü) seksizm sorğusu (ASI)*[279] vasitəsilə aparılır.

**Gender bərabərliyi dəyərlərinə açıq münasibətin artması**

• İzah: Müsbət indikatorlar yalnız zorakılığın azalması deyil, həm də gender bərabərliyinə meylli inancların güclənməsidir.

• İndikator: "Qadın və kişi eyni dərəcədə ailənin rifahına cavabdehdir" ifadəsinə razılığın artması.

• Nümunə: Proqramdan əvvəl 30% razı, proqramdan sonra 70% razı.

• Alət: *Gender bərabərliyinə münasibət ölçüləri sorğusu vasitəsilə müəyyən edilir.*

---

[278] Spence, J. T., & Helmreich, R. L. (1978). *Masculinity and femininity: Their psychological dimensions, correlates, and antecedents*. University of Texas Press.

[279] Glick, P., & Fiske, S. T. (1996). The Ambivalent Sexism Inventory: Differentiating hostile and benevolent sexism. *Journal of Personality and Social Psychology, 70*(3), 491–512.

**Məsuliyyət və hesabatlılıq qəbulunun artması**

• **İzah:** Zorakı şəxslər çox vaxt davranışlarına görə məsuliyyəti inkar edirlər (“O məni əsəbiləşdirdi”, “Ona görə etdim”).

• **İndikator:** Öz davranışına görə məsuliyyət qəbul edənlərin faizi artır.

• **Nümunə sual:** “Mənim zorakı davranışım yalnız mənim məsuliyyətimdir, başqasının deyil.”

• **Alət:** Duluth modelinin *məsuliyyət və dəstək* yanaşması tətbiq edilir

**Azərbaycan konteksti üçün nümunə indikatorlar**

“Ləyaqət” və “ayıb” kodlarının güclənməsi vasitəsilə, zorakılığın sosial qınaq obyekti kimi dərk edilməsi. Dini-əxlaqi inanclarda transformasiyadan istifadə edərək zorakılığın “günah” kimi qəbul olunmasının artmasına nail olmaq. Ədəbiyyat və folklorla müqayisə edərək, zorakılığın qəhrəmanlıq deyil, zəiflik kimi təqdim olunmasını təşviq etmək.

**Patriarxal inancların zəifləməsi** -Gender Role Attitudes Questionnaire ilə ölçülməsi.

Gender bərabərliyinə münasibət ölçülərinin(GRAQ) müəllifləri, Spence və Helmreichdır. Sorğunun məqsədi, İinsanların gender rolları ilə bağlı mövqelərini ölçmək -yəni kişiyə və qadına dair sosial gözləntilərlə razılaşıb-razılaşmadıqlarını müəyyən etmək.

• Strukturu, təxminən 20–30 ifadədən ibarətdir. Likert tipli cavab şkalası istifadə olunur: (1 -tam razı deyiləm,  5 -tam razıyam).

• Mövzular:

– Kişi ailənin başçısıdır.

– Qadının əsas rolu ev işləri və uşaqlara baxmaqdır.

– Kişi liderlikdə qadından daha bacarıqlıdır.

– Qadının işləməsi ailədə problemlərə səbəb ola bilər.

Bu suallar vasitəsilə ənənəvi patriarxal baxış ilə müasir bərabərlik baxış müqayisə olunur.

Qadınlara münasibət anketinin AWS müəllifləri  Spence, Helmreich və Stappdır. Sorğunun məqsədi, qadınların hüquqlarına və gender bərabərliyinə münasibəti ölçməkdir. Əsas əhatə edilən mövzular, qadınların ali təhsil alması, iş bazarında iştirakı, siyasi liderlikdə rolunu müəyyən etməkdir

Gender rollarının ideoloji ölçüsünün (GRI), məqsədi, gender rollarının ideoloji əsaslarının ölçülməsi vasitəsilə patriarxal stereotiplərin gücünü aşakarlmaqdır. İstifadə sahəsi, ailədaxili rollar, valideynlik, əmək

bölgüsü, liderlik rollarıdır.

Azərbaycan konteksti üçün uyğunlaşdırma. Bu alətlərin orijinal versiyaları daha çox Qərb cəmiyyətləri üçün hazırlanıb. Azərbaycan reallığında yerli kodlarla zənginləşdirilmiş suallar əlavə edilməlidir. Məsələn:

- “Qadının evdən kənarda işləməsi ailənin nüfuzuna xələl gətirir.”
- “Kişi ailədə son sözü deməsə, bu, ‘ayıb’ hesab olunur.”
- “Qadının əsas rolu ərinə itaət və səbirli olmaqdır.”

Belə suallar patriarxal inancların spesifik Azərbaycan versiyasını aşkarlamağa imkan verir.

**Nəticələrin təhlili**

- Yüksək skor: Patriarxal və ənənəvi gender rollarına bağlılıq.
- Orta skor: Qarışıq mövqe (bəzən ənənəvi, bəzən bərabərlikçi baxış).
- Aşağı skor: Gender bərabərliyinə yüksək meyl, patriarxal kodların zəifliyi.

**Mizoginiya və seksizm səviyyəsinin azalması** -Ambivalent seksizm sorğusu [280] müəyyən edilir.

Zorakılıqla mübarizə və reabilitasiya proqramlarında yalnız davranış dəyişiklikləri yox, həm də seksist və mizogin inancların zəifləməsi mühüm göstəricidir. Araşdırmalar göstərir ki, gender əsaslı zorakılığın ideoloji kökü çox vaxt qadınlara qarşı düşmənçilik (hostile sexism) və ya “xeyirxah görünən” amma patriarxal məzmun daşıyan himayədar seksizm (benevol**ent sexism)** üzərində qurulur[281]. Məqsəd, **s**eksizmin iki üzünü ölçmək -həm açıq mizoginiyanı (düşmənçilik), həm də maskalanmış, himayədar münasibətləri. Struktur, 22 ifadədən ibarət sorğu, iki alt-ölçü ilə:

- Hostile sexism (Düşmənçi seksizm): qadınların kişilərə qarşı “təhlükə” yaratdığına, manipulyativ olduğuna, kişilərin mövqeyini zəiflətməsinə dair inanclar.
- Benevolent sexism (Himayədar seksizm): qadınların “qorunmağa ehtiyacı olduğu”, kişilərin qadınlara “xüsusi qayğı” göstərməsinin vacibliyi barədə inanclar.

---

[280] Glick, P., & Fiske, S. T. (1996). The Ambivalent Sexism Inventory: Differentiating hostile and benevolent sexism. *Journal of Personality and Social Psychology, 70*(3), 491–512.

[281] Glick, P., & Fiske, S. T. (1996). The Ambivalent Sexism Inventory: Differentiating hostile and benevolent sexism. *Journal of Personality and Social Psychology, 70*(3), 491–512.

Ambivalent Sexism Inventory (ASI) haqqında

Düşmənçi seksizm (mizoginiya yönümlü):

- “Qadınlar kişiləri çox vaxt manipulyasiya edirlər.”
- “Feminist qadınlar cəmiyyətdəki kişilərin mövqeyini zəiflədir.”
- “Kişilər təbii olaraq qadınlardan daha yaxşı liderdir.”

Himayədar seksizm (patriarxal himayə):

- “Qadınlara həmişə xüsusi hörmət və qoruma göstərilməlidir.”
- “Kişi ailəni qoruyan və təmin edən əsas şəxsdir.”
- “Qadın kişi olmadan yarımçıqdır. Hər ifadəyə Likert şkalası üzrə cavab verilir: (1 -Tam razı deyiləm → 5 -Tam razıyam).

**Ölçü və nəticələrin təhlili**

- **Yüksək düşmənçi seksizm balı** → qadınlara qarşı açıq nifrət, qəzəb, qadınların kişi statusuna “təhlükə” kimi görülməsi.
- **Yüksək himayədar seksizm balı** → qadınların zəif, qorunmağa ehtiyacı olan və ikinci dərəcəli mövqedə olduğu inancı.
- **Ümumi yüksək ASI balı** → zorakı davranış riskinin yüksəkliyi, gender bərabərliyinə qarşı ideoloji müqavimət.

**Reabilitasiya proqramlarında istifadəsi**

- **Seanslardan əvvəl və sonra tətbiq:** Seksist inancların zəifləyib-zəifləmədiyi ölçülür.
- **Normativ zorakı tip:** Himayədar seksizm daha çox müşahidə olunur (məsələn, “Qadın kişiyə itaət etməlidir, amma qorunmalıdır”).
- **İdeoloji–mizogin tip:** Düşmənçi seksizm üstünlük təşkil edir (məsələn, “Qadınların azadlığı kişilərə qarşı təhlükədir”).
- **Azərbaycan konteksti:** “Qadının əsas rolu ailə və ev işləridir”, “qadınsız ailə üz qarasıdır” kimi yerli ifadələrlə anket adaptasiya edilə bilər.

**Nümunə: Azərbaycan üçün adaptasiya olunmuş 6 Sual**

1. Qadınlar çox vaxt kişiləri istədikləri şeylər üçün istifadə edirlər. *(düşmənçi)*
2. Qadınların iş bazarında çox olması kişilərin mövqeyini zəiflədir. *(düşmənçi)*
3. Qadın kişisiz yarımçıqdır və ona dayaq lazımdır. *(himayədar)*
4. Qadınlara hər zaman xüsusi hörmət və qayğı göstərilməlidir. *(himayədar)*
5. Feminist qadınlar Azərbaycan ailə dəyərlərinə təhlükə yaradır. *(düşmənçi)*
6. Ən yaxşı ailə o vaxtdır ki, kişi qoruyucu, qadın isə itaətkardır. *(himayədar)*

Zorakılığın legitimləşdirilməsinə münasibətin dəyişməsini müəyyən etmək üçün, “Zorakılıq ailəni qoruyur” tipli ifadələrə cavabların müqayisəsi. Məsuliyyət qəbulunun artması -*məsuliyyət və dəstək* prinsipi üzrə qiymətləndirmənin aparılması.

**Sosial və institusional indikatorlar**

Davranış və psixoloji dəyişikliklərdən əlavə, reabilitasiya proqramlarının uğurunu sosial və institusional indikatorlar da əks etdirir. Yəni proqram yalnız fərdin dəyişməsi ilə deyil, həm də onun ictimai reinteqrasiyası və dövlət–QHT mexanizmlərinin güclənməsi ilə ölçülməlidir .

**Sosial və insitusional indikatorlara uyğun nümunələr**

**Proqram davamiyyəti**

İştirakçıların neçə faizi bütün seansları tamamlayır? Nümunə: 100 nəfərdən 75 nəfəri proqramı sona çatdırır, bu isə 75% davamiyyət deməkdir.

Sosial reinteqrasiya, iştirakçıların proqramdan sonra ailə və icma münasibətlərinin bərpasının dəqiqləşdirilməsi. Nümunə: işə qayıdan və ya ailə münasibətlərini yaxşılaşdıranların faizinin müəyyən edilməsi ölçülür**.**

Qurban təhlükəsizliyi. Qurbanların zorakılıqdan sonra daha güvənli hiss edib-etməməsi əsas amil kimi götürülür. Nümunə, sığınacaq müraciətlərinin azalması, təkrar zorakılıq hadisələrinin qeydə alınmaması yaxşı göstəricilərdəndir.

İctimai münasibətlərin dəyişməsi, əsasən zorakılığa qarşı sosial qınağın artması ilə müəyyən edilir. Məsələn, “Zorakılıq ailənin daxili işidir” ifadəsi ilə razılaşma faizinin azalması.

İnstitusional əməkdaşlığın əhəmiyyəti, əsasən dövlət qurumları, QHT-lər və dini/ictimai liderlərin birgə fəaliyyəti ilə ölçülür. Nümunə, koordinasiya edilmiş tədbirlərin sayı, imzalanmış protokolların olmasıdır

Hüquqi uyğunluq və nəzarət, əsasən, məhkəmə qərarlarının icrası, məcburi proqramlarda iştirak göstəricisi ilə ölçülür. Nümunə, 80% zorakı şəxsin məhkəmə qərarına uyğun proqramı bitirməsi yaxşı nəticə kimi qeydə alınır.

| **İndikator** | **Nümunə Ölçü** | **Alət / Mənbə** | **Azərbaycan Konteksti** |
|---|---|---|---|
| Proqram davamiyyəti | İştirakçıların % neçə nəfəri kursu bitirir | Davamiyyət jurnalı, hesabatlar | QHT və dövlət mərkəzlərinin statistikası |
| Sosial reinteqrasiya | İşə qayıdanların və ailə münasibətlərini bərpa edənlərin | Sorğu, sosial işçi müşahidələri | İcma liderlərinin rəyləri ilə tamamlanır |

| | | | |
|---|---|---|---|
| | faizi | | |
| Qurban təhlükəsizliyi | Təkrar zorakılıq hadisələrinin azalması | Polis və sığınacaq hesabatları | Qurbanların təhlükəsizlik hissi sorğusu |
| İctimai münasibətlərin dəyişməsi | Zorakılığa bəraət verən ifadələrlə razılaşma faizinin azalması | İctimai rəy sorğuları | “Üz qarası”, “ayıb” kodlarının güclənməsi |
| İnstitusional əməkdaşlıq | Birgə tədbir və protokolların sayı | Rəsmi protokollar, layihə hesabatları | QHT–dövlət–dini idarə əməkdaşlıqları |
| Hüquqi uyğunluq | Məhkəmə qərarına uyğun proqramı bitirənlərin % | Məhkəmə və sosial xidmət qeydləri | Məcburi proqramların icra mexanizmləri |

Proqram davamiyyət göstəriciləri -iştirakçıların neçə faizi bütün seansları tamamlayır.

Reabilitasiya proqramlarının effektivliyini ölçmək üçün ən mühüm indikatorlardan biri davamiyyət göstəriciləridir. İştirakçıların neçə faizinin bütün seansları tamamlaya bilməsi proqramın cazibədarlığını, uyğunlaşdırma dərəcəsini və real təsir gücünü göstərir. Araşdırmalar göstərir ki, yüksək davamiyyət uzunmüddətli davranış dəyişikliyi ilə birbaşa əlaqəlidir. Azərbaycan kontekstində isə davamiyyət göstəriciləri yalnız fərdi motivasiyadan deyil, həm də mədəni kodlar, ailə təzyiqi və hüquqi mexanizmlərdən asılıdır.

| **Həftə / Seans** | **İştirakçıların ümumi sayı** | **Davam edənlər** | **Tərk edənlər** | **Faiz göstəricisi** |
|---|---|---|---|---|
| Başlanğıc (Seans 1) | 40 nəfər | 40 | 0 | 100% |
| Həftə 2 (Seans 2) | 40 nəfər | 37 | 3 | 92,5% |
| Həftə 3 (Seans 3) | 37 nəfər | 35 | 2 | 87,5% |
| Həftə 4 (Seans 4) | 35 nəfər | 33 | 2 | 82,5% |
| Həftə 5 (Seans 5) | 33 nəfər | 30 | 3 | 75% |
| Həftə 6 (Seans 6) | 30 nəfər | 28 | 2 | 70% |
| Yekun (Seans 12) | 40 nəfər | 27 | 13 | **67,5%** |

**Təhlil nümunəsi:** Başlanğıcda 40 nəfər iştirak edir, 12 həftəlik proqramın sonunda 27 nəfər proqramı tamamlaya bilir. Yekun davamiyyət göstəricisi, 67,5% təşkil edir

İştirakçıların sosial reinteqrasiyası -iş yerinə qayıtma, icma ilə münasibətlərin yaxşılaşması.

Reabilitasiya proqramlarının uğuru yalnız zorakı davranışın azalması ilə deyil, həm də iştirakçıların cəmiyyətə yenidən inteqrasiyası ilə ölçülür. Sosial reinteqrasiya -zorakı şəxsin reabilitasiyadan sonra iş həyatına qayıtması, ailə və icma ilə münasibətlərini normallaşdırması, sosial nüfuzunu bərpa etməsi deməkdir. Bu, həm fərdi dəyişimin, həm də proqramın dayanıqlı nəticəsinin göstəricisidir.

**İş yerinə qayıtma prosesinin izahı.** İş həyatına qayıdan zorakı şəxslər yalnız maddi dayanıqlıq qazanmır, həm də **özünü faydalı və məsuliyyətli hiss etməyə başlayır**. İşsizlik əksər vaxt zorakılığın risk faktoru kimi qiymətləndirilir.

**Təhlil:** Reabilitasiya sonrası iştirakçıların işlə təmin olunması onların ailə üzərində iqtisadi nəzarət və zorakılıq riskini azaldır. Sosial xidmətlər və məşğulluq proqramları bu mərhələdə kritik rol oynayır. Misal, Türkiyə və Gürcüstanda zorakı kişilərin məşğulluq dəstəyi ilə təkrar zorakılıq halları 15–20% azaldıb.

**İcma ilə münasibətlərin yaxşılaşmasının təsirinin izahı**, Azərbaycan kontekstində icma (qohumlar, qonşular, dost çevrəsi) sosial nəzarətin mühüm daşıyıcısıdır. Zorakı şəxslərin icma tərəfindən qəbul olunması və "üz qarası" damğasının azalması onların yenidən cəmiyyətə inteqrasiyasını asanlaşdırır.

Təhlil**:** İcma dəstəyi olmadan reabilitasiya qısa müddətli olur. Ağsaqqal və dini liderlərin dəstəyi ilə zorakı şəxslərin sosial nüfuzu bərpa edilə bilər. İcma münasibətlərində dəyişiklik həm də qurbanın təhlükəsizliyinə müsbət təsir göstərir, çünki zorakı şəxs ictimai qınaq altında özünü nəzarətdə saxlamağa çalışır.

**Azərbaycan konteksti üçün əlavə amillər**

- Mədəni kodlar: "Ailə hörməti", "ləyaqət", "ayıb" kimi anlayışlar sosial reinteqrasiyanın müsbət istiqamətə yönləndirilməsində güclü alət ola bilər.
- Sosial statusun bərpası: İşə qayıdan və icma tərəfindən qəbul olunan şəxs zorakılığı nüfuz itkisinin səbəbi kimi dərk edir.
- Dövlət–QHT dəstəyi: Sosial reinteqrasiya proqramlarının institusional səviyyədə (məsələn, məşğulluq mərkəzləri, bələdiyyələr, dini idarələr) gücləndirilməsi zəruridir.

İştirakçıların iş yerinə qayıtması və icma ilə münasibətlərinin yaxşılaşması reabilitasiya proqramlarının uzunmüddətli uğurunu göstərən əsas sosial indikatorlardandır. Bu indikatorlar yalnız fərdin deyil, həm də cəmiyyətin zorakılığa münasibətində dəyişiklik baş verdiyini sübut edir.

**Monitorinq və qiymətləndirmə üsulları**

**Kəmiyyət üsulları** əsasən, sorğular (Likert miqyası), statistik məlumatlar (polis qeydləri, məhkəmə hesabatları). Reabilitasiya proqramlarının effektivliyini qiymətləndirməkdə kəmiyyət üsulları ən çox istifadə olunan yanaşmalardandır. Bu üsullar proqram nəticələrini ölçülə bilən rəqəmlərlə ifadə etməyə imkan verir. Kəmiyyət yanaşma nəticələrin obyektiv müqayisəsini, trendlərin izlənməsini və statistik etibarlılığın təmin olunmasını asanlaşdırır. Zorakı şəxslərlə işləmə proqramlarında kəmiyyət üsulları əsasən iki istiqamətdə tətbiq olunur:

1. Sorğular və Likert miqyası -iştirakçıların attitüd, inanc və davranış dəyişikliklərini ölçmək.
2. Rəsmi statistik məlumatlar -hüquqi və institusional mənbələr əsasında nəticələrin qiymətləndirilməsi.

Sorğular və Likert Miqyası. İzah: Likert miqyası (1–5 və ya 1–7 arası şkala) respondentlərin hər hansı ifadə ilə razılaşma səviyyəsini ölçmək üçün istifadə olunur.

Üstünlük: İştirakçıların patriarxal inanclarında, empati səviyyəsində və zorakılığa münasibətində dəyişiklikləri əvvəl və sonra müqayisə etməyə imkan verir.

**Nümunə ifadələr:**

- “Qadın ailədə son sözü deməlidir.” (1 -tam razı deyiləm, 5 -tam razıyam)
- “Zorakılıq ailəni qorumaq üçün qəbul edilə bilər.” (1 -tam razı deyiləm, 5 -tam razıyam)
- “Mübahisə zamanı qarşı tərəfin hisslərini anlaya bilirəm.” (1 -tam razı deyiləm, 5 -tam razıyam)

**İstifadə olunan alətlər:**

- *Conflict Tactics Scale (CTS2)*
- *Gender Role Attitudes Questionnaire*
- *Ambivalent Sexism Inventory*
- *Empathy Quotient (EQ)*

Statistik məlumatlar əsasında(Rəsmi qeydlər əsasında) işin aparılmasının izahı, Hüquq-mühafizə və məhkəmə sistemindən alınan məlumatlar proqramların real təsirini göstərən ən obyektiv mənbələrdən biridir. Nümunələr:

• Polis qeydləri: Proqram iştirakçılarının təkrar zorakılıq faktı ilə polisə müraciət halları → təkrar zorakılıq dərəcəsi.

• Məhkəmə hesabatları: Proqramı məcburi şəkildə keçənlərin neçə faizinin hökm şərtlərinə əməl etməsi.

• Sığınacaq və sosial xidmət statistikası: Qurban müraciətlərinin azalması.

• İştirakçı davamiyyəti: 12 həftəlik proqramı tamamlama faizi (məsələn, başlanğıc 40 nəfər → sonunda 27 nəfər → 67,5%).

Kəmiyyət üsulları zorakılıqla mübarizə proqramlarında dəyişikliklərin obyektiv ölçülməsinə şərait yaradır. Sorğular vasitəsilə attitüd və inanc dəyişikliyi, statistik məlumatlarla isə real davranış və təkrar zorakılıq göstəriciləri izlənilir. Bu yanaşma proqramların hesabatlılığını **və** dayanıqlılıq potensialını gücləndirir.

**Keyfiyyət üsullarına**, dərin müsahibələr, fokus qruplar, müşahidələr aid edilir. Reabilitasiya proqramlarının təsirini qiymətləndirməkdə keyfiyyət üsulları kəmiyyət yanaşmaları tamamlayaraq daha dərin nəticələr təqdim edir. Bu üsullar insanların subyektiv təcrübələrini, emosiyalarını, sosial münasibətlərini anlamağa imkan yaradır. Dərin müsahibələr, fokus qruplar və müşahidələr sayəsində zorakı şəxslərin dəyişimi yalnız statistika ilə deyil, həm də davranışın, münasibətin və inancın mahiyyəti ilə ölçülə bilir.

Dərin müsahibələrin keçirilməsinin izahı. Fərdi müsahibələr iştirakçının şəxsi təcrübəsini, motivasiyasını və dəyişiklik prosesini öyrənmək üçün istifadə olunur.

**Forma (nümunə suallar):**

• "Proqrama başlamazdan əvvəl zorakılığa necə yanaşırdınız, indi baxışınız dəyişibmi?"

• "Seanslarda öyrəndiyiniz ən mühüm dərs nə oldu?"

• "Qəzəb anında davranışınızı dəyişmək üçün indi hansı üsullardan istifadə edirsiniz?"

Fokus qrupları işin izahı, 6–10 nəfərlik qrup müzakirələri vasitəsilə iştirakçıların ortaq təcrübələri və normativ dəyişiklikləri öyrənilir. Forma (nümunə mövzular):

• "Zorakılığın ailə və icma üçün nəticələri nələrdir?"

• "Proqram sizə hansı vərdişləri öyrətdi?"

• "Qrup daxilində məsuliyyət hissiniz necə dəyişdi?"

Fokus qruplar həm də sosial öyrənmə və ictimai qınaq mexanizmlərinin güclənməsini göstərir.

**Müşahidələr**

Müşzahidələrin izahı. Psixoloq və ya sosial işçi seanslarda iştirakçıların davranışlarını, reaksiyalarını və ünsiyyət tərzlərini izləyir və qeydlər aparır.

Forma (nümunə müşahidə meyarları):

- İştirakçının qrup müzakirəsinə aktivliyi (aktiv / passiv).
- Emosional reaksiyalar (qəzəb, müqavimət, empatiya göstəriciləri).
- Davranış dəyişikliyi əlamətləri (təhlükəli ifadələrin azalması, empatiyanın artması).
- Proqramdan əvvəl və sonra müqayisə.

Keyfiyyət üsulları -dərin müsahibələr, fokus qruplar və müşahidələr -zorakı şəxslərin daxili transformasiyasını, inanc və münasibət dəyişikliyini, həmçinin proqramın mədəni uyğunlaşdırma təsirini anlamağa imkan verir.

Müqayisəli metod: proqram iştirakçıları ilə iştirak etməyənlərin nəticələrinin müqayisəsi. Reabilitasiya proqramlarının real təsirini qiymətləndirmək üçün ən çox istifadə olunan yanaşmalardan biri müqayisəli metoddur. Bu metodun əsas məqsədi -proqramda iştirak edən zorakı şəxslərin davranış və münasibətlərində baş verən dəyişiklikləri eyni kontekstdə iştirak etməyənlərlə müqayisə etməkdir. Beləliklə, əldə olunan nəticələr proqramın təsirini daha obyektiv şəkildə ölçməyə imkan verir.

**Necə qaparılmalı?**

**Nümunə seçimi:** İki qrup müəyyən edilir:

Eksperimental qrup: proqram iştirakçıları (məsələn, 12 həftəlik reabilitasiya proqramına qoşulanlar).

Nəzarət qrupu: proqramda iştirak etməyən, amma oxşar sosial və demoqrafik xüsusiyyətlərə malik zorakı şəxslər.

Ölçmə vasitələri: Hər iki qrupda eyni psixometrik testlər və sorğular istifadə edilir (məsələn, CTS2, Gender Role Attitudes, Empathy Quotient, ASI). Davranış göstəriciləri: polis müraciətləri, məhkəmə qeydləri, qurbanların şikayətləri. Zaman kəsiyi:

- Proqramdan əvvəl (baseline ölçmə).
- Proqramdan sonra (immediate outcome).
- Uzunmüddətli izləmə (6 ay, 12 ay, 24 ay).

**Müqayisə:** Eksperimental və kontrol qrup arasındakı **dəyişiklik fərqləri** statistik metodlarla təhlil edilir (məsələn, təkrar zorakılıq dərəcəsi, empati səviyyəsi, patriarxal inancların zəifləməsi).

Nümunə təhlil ssenarisi, eksperimental qrup: 50 kişi, proqramda iştirak edib, nəzarət qrupunda 50 kişi, proqramda iştirak etməyib.

Nəticələr**:** Təkrar zorakılıq halları:

- Eksperimental qrup -20%
- Kontrol qrup -45%

Empati skorunun orta göstəricisi:

- Eksperimental qrup -35 → 46 (artım)
- Nəzarət qrupu -34 - 33 (azalma və ya sabitlik)

Patriarxal inanclarla razılaşma:

- Eksperimental qrup -70% → 40%
- Kontrol qrup -68% → 65% Bu müqayisə göstərir ki, dəyişiklik proqramın təsiri nəticəsində baş verib.

**Azərbaycan konteksti**

Nəzarət qrupu çox vaxt hüquqi və mədəni səbəblərlə çətinlik yaradır. Ona görə icma səviyyəsində müşahidə və qurbanların ifadələri də müqayisə prosesinə daxil edilməlidir. "Ləyaqət" və "ayıb" mexanizmlərinin güclənməsi proqram iştirakçıları üçün fərqli göstərici ola bilər.

| **Göstərici** | **Eksperimental qrup (iştirak edənlər)** | **Kontrol qrup (iştirak etməyənlər)** | **Nəticə** | **Göstərici** |
|---|---|---|---|---|
| Təkrar zorakılıq halları | 20% | 45% | Proqram iştirakçılarında təkrar zorakılıq yarıbayarı azalıb | Təkrar zorakılıq halları |
| Empati səviyyəsinin orta skoru | 35 → 46 (artım) | 34 → 33 (sabit / azalma) | Empati yalnız proqram iştirakçıları arasında yüksəlib | Empati səviyyəsinin orta skoru |
| Patriarxal inanclara razılıq | 70% → 40% (azalma) | 68% → 65% (sabitlik) | Patriarxal inanclarda zəifləmə yalnız eksperimental qrupda müşahidə olunub | Patriarxal inanclara razılıq |
| Qurban şikayətləri | 15% | 38% | Qurban şikayətləri proqram iştirakçıları arasında əhəmiyyətli dərəcədə azalıb | Qurban şikayətləri |
| Davamiyyət göstəricisi (12 həftə) | 67,5% tamamlama | - | Əksər iştirakçılar proqramı uğurla başa vurub | Davamiyyət göstəricisi (12 həftə) |

Təhlil, eksperimental qrupda zorakılıq halları, patriarxal inanclar və qurban şikayətləri baxımından xeyli azalıb. Nəzarət qrupunda isə ciddi dəyişiklik müşahidə olunmayıb. Bu müqayisə göstərir ki, dəyişikliklərin

əsas səbəbi proqramın özüdür, yoxsa sosial təsadüfi faktorlar deyil.

**Uzunmüddətli izləmə**: proqramdan 6 ay, 12 ay, 24 ay sonra təkrar qiymətləndirmə (recidiv göstəriciləri). Reabilitasiya proqramlarının təsirini qiymətləndirmək yalnız proqramın sonunda aparılan ölçmələrlə kifayətlənmir. Ən mühüm indikatorlardan biri uzunmüddətli izləmədir. Bu, proqram iştirakçılarının 6 ay, 12 ay və 24 ay sonra davranışlarını təkrar qiymətləndirməklə aparılır. Xüsusilə recidiv göstəriciləri -yəni zorakılığın təkrar baş verməsi -proqramların dayanıqlığını göstərən əsas faktordur.

**İzləmə mərhələləri və izah**

**6 ay sonra izləmə (qısa müddətli təsir):**

– Əsasən ilkin davranış dəyişikliyinin qorunub-qorunmadığını göstərir.

– Tipik nəticə: təkrar zorakılıq halları azalır, lakin tam aradan qalxmır.

– Məsələn: iştirakçıların 80%-i zorakı davranışı azaltmış, 20%-də isə hələ də epizodik zorakılıq müşahidə olunmuşdur.

**12 ay sonra izləmə (orta müddətli təsir):**

– Proqramdan əldə edilən bacarıqların gündəlik həyat vərdişinə çevrilib-çevrilmədiyi qiymətləndirilir.

– Əlavə risk: bəzi iştirakçılarda "köhnə davranış modellərinə qayıdış".

– Məsələn: iştirakçıların 65%-i stabil davranış dəyişikliyi saxlamış, 35%-də isə qismən geriləmə olmuşdur.

**24 ay sonra izləmə (uzunmüddətli təsir):**

– Ən obyektiv mərhələ, çünki yalnız uzunmüddətli müşahidə dayanıqlı nəticəni göstərir.

– Əgər proqram effektivdirsə, təkrar zorakılıq halları ciddi şəkildə azalır və sosial reinteqrasiya güclənir.

– Məsələn: iştirakçıların 50%-i tamamilə zorakı davranışdan uzaq qalıb, 30%-i yalnız yüngül epizodlarla qarşılaşıb, 20%-i isə əvvəlki vərdişlərinə qayıdıb.

**Recidiv göstəricilərinin təhlili**

Eksperimental nəticələr: Tədqiqatlar göstərir ki, reabilitasiya proqramlarında iştirak etməyən zorakı şəxslərdə təkrar zorakılıq 50–60% civarında qalır. **Proqram iştirakçıları arasında,** uzunmüddətli izləmə nəticələrinə görə recidiv halları **20–35%** arasında dəyişir.

Azərbaycan üçün: Mədəni kodların (ləyaqət, ayıb, ictimai qınaq) və dini liderlərin iştirakı ilə bu faizlərin daha da azaldılması mümkündür. Qısa müddətli dəyişiklikl**ər** (ilk 6 ay) əksər hallarda pozitiv olsa da,

dayanıqlı olmur. Orta müddətli izləmə (12 ay) real davranış dəyişikliyinin köklənib-köklənmədiyini göstərir. Uzunmüddətli izləmə (24 ay) proqramın həqiqi səmərəliliyini və recidiv riskinin nə dərəcədə azaldığını ortaya qoyur.

**Uzunmüddətli izləmə göstəriciləri**

| Zaman kəsiyi | Nəticə (ümumi təsir) | Recidiv faizi (təkrar zorakılıq) | Azərbaycan üçün təhlil |
|---|---|---|---|
| 6 ay | İlkin davranış dəyişikliyi müşahidə olunur; iştirak-çıların çoxu qəzəb idarə-etmə texnikalarını tətbiq edir | ~20% | İctimai qınaq (“üz qarası”) və polis nəzarəti qısa müddətdə təsirli olur, lakin motivasiya hələ tam sabit deyil |
| 12 ay | Orta müddətli təsir: bəzi iştirakçılar köhnə davranış modellərinə qayıdır, amma əksəriyyət stabil dəyişiklik saxlayır | ~30–35% | Ailə və icma dəstəyi olduqda dayanıqlı nəticələr güclənir; məşğulluq dəstəyi mühüm rol oynayır |
| 24 ay | Uzunmüddətli təsir: dayanıqlı dəyişikliklər sabitləşir; zorakılıq hal-ları əvvəlki səviyyədən xeyli azdır | ~40–50% hələ də müəyyən dərəcədə recidiv müşahidə olunur; 50–60% tam dəyişiklik saxlayır | Dini-əxlaqi mexanizmlər və kollektivizm faktoru uzunmüddətli nəzarətdə pozitiv resurs kimi işlədilə bilər |

Bu səbəbdən, hər bir reabilitasiya proqramında 6, 12 və 24 aylıq monitorinq planı hazırlanmalı və nəticələr həm statistik, həm də keyfiyyət üsulları ilə ölçülməlidir.

Uzunmüddətli dəstək sistemləri. Zorakı şəxslərlə işləyən reabilitasiya proqramlarının uğuru yalnız qısa müddətli davranış dəyişikliyi ilə deyil, uzunmüddətli dəstək sistemlərinin mövcudluğu ilə ölçülür. Tədqiqatlar göstərir ki, yalnız 8–12 həftəlik qrup və ya fərdi seanslarla məhdudlaşan proqramlar çox vaxt dayanıqlı nəticə vermir. Uzunmüddətli dəstək mexanizmləri zorakı şəxslərin davranış modellərini dəyişməsini, sosial reinteqrasiyasını və qurbanların təhlükəsizliyini təmin

edir [282].

**Uzunmüddətli dəstək sistemlərinin əsas istiqamətləri**

**1. Post-proqram müşayiəti və nəzarət**

- İştirakçı proqramı bitirdikdən sonra müəyyən müddət (6–24 ay) sosial işçilər tərəfindən müşayiət olunur.
- Polis və probasiya xidmətləri də monitorinqdə iştirak edə bilər.
- **İstinad:** Gondolf uzunmüddətli müşayiətin recidiv riskini 20–30% azaltdığını göstərmişdir[283].

**Psixoloji və psixoterapevtik dəstək**

- Travma yönümlü terapiya və qəzəb idarəetmə üzrə fərdi seanslar proqramdan sonra da davam etdirilir.
- Bu seanslar daxili motivasiyanı sabitləşdirir və ideoloji zorakılıq daşıyıcılarında daha təsirli olur.
- **İstinad:** Eckhardt et al.-uzunmüddətli psixoterapevtik dəstək almayan zorakı şəxslərdə təkrar zorakılıq halları daha çox müşahidə edilir[284].

**İcma və ailə dəstəyi**

- İcma liderlərinin, dini liderlərin və ailə üzvlərinin prosesə cəlb olunması.
- Azərbaycan kontekstində **“ləyaqət”, “ayıb” və “hörmət”** mexanizmləri davranışın nəzarət altında saxlanmasına kömək edir.
- **İstinad:** Flood və Pease göstərir ki, zorakılığa qarşı icma dəstəyi olmayan hallarda reabilitasiya dayanıqlı olmur[285].

**Məşğulluq və sosial-iqtisadi dəstək**

- İş yerlərinə yönləndirmə və məşğulluq proqramları recidiv riskini əhəmiyyətli dərəcədə azaldır.
- Maddi sabitlik zorakılığın əsas risk faktorlarından biri olan stressi azaldır.
- **İstinad:** UN Women -məşğulluq dəstəyi ilə birləşdirilmiş proqramlarda zorakılıq riski 15–20% daha az olur[286].

---

[282] World Health Organization (WHO). (2021). *Measuring violence against women: A technical brief*. Geneva.

[283] Gondolf, E. W. (2002). *Batterer intervention systems: Issues, outcomes, and recommendations*. Sage Publications.

[284] Eckhardt, C. I., Murphy, C. M., Black, D. W., & Suhr, L. (2013). Intervention programs for perpetrators of intimate partner violence. *Public Health Reports, 118*(2), 223–238.

[285] Flood, M., & Pease, B. (2009). Factors influencing attitudes to violence against women. *Trauma, Violence, & Abuse, 10*(2), 125–142.

[286] UN Women. (2019). *Engaging men and boys in gender equality and violence prevention*. New York.

**Qurban mərkəzli dəstək sistemləri ilə əlaqələndirmə**

- Qurbanların təhlükəsizliyi və dəstəyi uzunmüddətli sistemlərdə əsas prioritetdir.
- Qadın sığınacaqları, sosial xidmətlər və hüquqi yardım mərkəzləri ilə koordinasiya vacibdir.
- **İstinad:** ÜST -yalnız zorakı şəxslərə deyil, eyni zamanda qurbanlara yönəlmiş inteqrativ dəstək sistemi ən effektiv nəticələri verir.

**Azərbaycan konteksti üçün tətbiq**

- Dini liderlərin iştirakı -zorakılığın "günah" kimi təbliği.
- İcma nəzarəti -kənd və məhəllə ağsaqqallarının müşahidəsi.
- Sosial dəstək proqramları -məşğulluq mərkəzləri, psixoloji xidmətlər və QHT-lərin koalisiyası.
- Probasiya xidmətinin rolu -məhkəmə qərarı ilə proqramı bitirmiş şəxslərin uzunmüddətli izlənməsi.

Uzunmüddətli dəstək sistemləri olmadan reabilitasiya proqramları çox vaxt qısa müddətli effektlərlə məhdudlaşır. Ən dayanıqlı nəticələr isə institusional nəzarət, psixoloji dəstək, sosial-iqtisadi reinteqrasiya və icma nəzarəti kombinasiyası ilə əldə edilir.

Məişət zorakılığının azaldılması və zorakı kişilərin reabilitasiyası üzrə proqramların uğuru yalnız müvəqqəti davranış dəyişiklikləri ilə deyil, həm də dayanıqlı və sistemli tətbiq mexanizmləri ilə ölçülür. Effektiv proqramlarda məcburi və könüllü iştirak formalarının balanslaşdırılması, qrup və fərdi seansların inteqrasiyası, dəqiq ölçmə indikatorlarının istifadəsi və uzunmüddətli dəstək sistemlərinin qurulması əsas strateji prinsiplərdir.

Tətbiq mexanizmləri və monitorinqin əsas məqsədi yalnız qısamüddətli davranış dəyişikliklərinə nail olmaq deyil, həm də zorakı şəxslərin uzunmüddətli transformasiyasını təmin etməkdir. Bunun üçün:

1. Məcburi və könüllü proqramların balanslaşdırılması,
2. Qrup + fərdi seansların kombinasiyası,
3. Effektivlik indikatorlarının çoxsahəli ölçülməsi,
4. Uzunmüddətli dəstək sistemlərinin yaradılması vacibdir.

Azərbaycan kontekstində bu mexanizmlərin tətbiqi mədəni kodlara (hörmət, ayıb), icma dəstəyinə və dini-əxlaqi resurslara uyğunlaşdırıldıqda daha təsirli nəticələr əldə oluna bilər.

III hissədə təqdim edilən "Kodların dəyişdirilməsi: reabilitasiya yolları və Duluth + mədəni spektr hibrid modeli" göstərdi ki, zorakılığın azaldılması yalnız fərdi psixoloji müdaxilə ilə məhdudlaşa bilməz. Davranış kodlarının dəyişdirilməsi üçün mədəniyyət, din, sosial normalar

və icma resurslarının inteqrasiyası zəruridir. Lakin bu yanaşmaların dayanıqlı institusional çərçivəyə çevrilməsi yalnız dövlət siyasəti və beynəlxalq öhdəliklərlə mümkündür.

Azərbaycan artıq CEDAW üzrə monitorinq öhdəlikləri, həmçinin Dayanıqlı İnkişaf Məqsədləri (xüsusilə 5-ci məqsəd -gender bərabərliyi və zorakılığın aradan qaldırılması) kimi beynəlxalq sənədlərə uyğun olaraq zorakılıqla mübarizə sahəsində hüquqi və siyasi tədbirlər həyata keçirir. Bununla yanaşı, “ “Məişət zorakılığının qarşısının alınması haqqında Qanun” mövcud hüquqi baza kimi çıxış edir.

Lakin reabilitasiya proqramlarının real təsirliliyinin artırılması üçün bu çərçivələrdə zorakı şəxslərlə iş üzrə xüsusi dövlət strategiyası, milli monitorinq sistemi və elmi əsaslı tədqiqat mexanizmləri formalaşdırılmalıdır. Çünki hazırda dövlət siyasətində daha çox qurbanların müdafiəsi ön plandadır, halbuki zorakı şəxslərin davranış dəyişikliyi üzərində işləmək uzunmüddətli effektiv nəticə üçün həlledici amildir.

Buna görə növbəti hissədə diqqət Azərbaycan üçün siyasət tövsiyələri və gələcək tədqiqat istiqamətlərinə yönəldiləcək. Burada məqsəd reabilitasiya modellərinin dövlət proqramlarına inteqrasiyası, QHT–dövlət əməkdaşlığının gücləndirilməsi, icma və dini liderlərin cəlb edilməsi, həmçinin beynəlxalq öhdəliklərlə uyğun milli fəaliyyət planlarının hazırlanması zərurətini vurğulamaqdır.

III hissədə təqdim olunan Duluth + mədəni spektr hibrid modeli zorakı davranışların dəyişdirilməsində mühüm nəticələr ortaya qoyur. Lakin bu mexanizmlərin dayanıqlı milli siyasətə çevrilməsi üçün artıq 2025–2030-cu illər dövründə konkret addımların atılması vacibdir.

Azərbaycanın beynəlxalq öhdəlikləri (CEDAW, BMT-nin *Dayanıqlı İnkişaf Məqsədləri*, Avropa Şurası mexanizmləri) və mövcud hüquqi baza (Məişət Zorakılığının Qarşısının Alınması haqqında Qanun, Gender Bərabərliyi haqqında Qanun) nəzərə alınaraq aşağıdakı istiqamətlərdə siyasət tədbirləri tələb olunur:

1. Milli fəaliyyət planı -zorakı şəxslərlə iş üzrə ayrıca bölmənin 2025–2030-cu illər üçün dövlət proqramlarına salınması.
2. İnstitusional mexanizm -Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında xüsusi “Reabilitasiya Mərkəzləri”nin yaradılması.
3. Məcburi və könüllü proqramların paralel tətbiqi -məhkəmə qərarı ilə yönləndirilənlər və könüllü müraciət edənlər üçün hibrid model.
4. QHT–dövlət əməkdaşlığı -vətəndaş cəmiyyətinin resurslarının dövlət siyasətinə inteqrasiyası.
5. İcma və dini liderlərin iştirakı -zorakılığın “ayıb”, “üz qarası”,

“günah” kimi təqdim olunması üçün maarifləndirmə mexanizmləri.

6. Uzunmüddətli monitorinq sistemi -6, 12 və 24 aylıq izləmə mexanizmləri ilə təkrar zorakılığın ölçülməsi.

7. Elmi-tədqiqat bazası -universitetlər və elmi institutlarla əməkdaşlıqda zorakı davranış tipologiyalarının lokal araşdırılması nəzərdə tutulmalıdır.

## IV hissə -Azərbaycan üçün siyasət tövsiyələri və gələcək tədqiqat istiqamətləri

Son onilliklərdə gender əsaslı zorakılıq, məişət zorakılığı və insan alveri kimi sosial problemlər beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olmuşdur[287]. Birləşmiş Millətlər Təşkilatının Qadınlara Qarşı Ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyası (CEDAW, 1979), Avropa Şurasının İstanbul Konvensiyası (2011) və Dayanıqlı İnkişaf Məqsədləri (BMT, 2015) bu sahədə dövlətlərin öhdəliklərini müəyyənləşdirən əsas sənədlərdir. Bu sənədlərdə dövlətlərdən tələb olunur ki, qadınların hüquqlarını qorumaq, zorakılığın qarşısını almaq və gender bərabərliyini təmin etmək üçün sistemli siyasət və mexanizmlər formalaşdırsınlar[288].

Azərbaycan da 1995-ci ildən etibarən CEDAW-ın tərəfdaş dövləti olaraq, qadınların hüquqlarının müdafiəsi və zorakılıqla mübarizə istiqamətində bir sıra addımlar atmışdır. “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanun (2006) və “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanun (2010) bu sahədə mühüm hüquqi çərçivə yaradır. Bununla yanaşı, İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planları (2004–2024) ardıcıl olaraq dövlət, vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatlar arasında əməkdaşlığı gücləndirmişdir[289].

Lakin mövcud siyasətlərin tətbiqində bir sıra boşluqlar qalmaqdadır. İlk növbədə, mədəni kontekstə uyğunlaşdırılmış reabilitasiya modellərinin olmaması, zorakılıq törədən kişilər üçün məsuliyyət və dəstək əsaslı

[287] True, J. (2020). Gender violence in politics and policy. *Annual Review of Political Science, 23*(1), 395–412.

[288] Htun, M., & Weldon, S. L. (2012). The civic origins of progressive policy change: Combating violence against women in global perspective, 1975–2005. *American Political Science Review, 106*(3), 548–569.

[289] Azərbaycan Respublikası DİN (2022). *İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı 2020–2024.*

müdaxilə proqramlarının məhdudluğu, həmçinin empirik tədqiqatların çatışmazlığı ciddi maneə kimi görünür[290]. Azərbaycanda qadınların və həssas qrupların yaşadığı real təcrübələrə dair yerli empirik məlumatların azlığı, siyasət formalaşdırılmasında daha çox beynəlxalq modellərin mexaniki tətbiqinə gətirib çıxarır.

Gələcək tədqiqat istiqamətləri məhz bu boşluqların doldurulmasına yönəlməlidir. Buraya aşağıdakılar daxildir:

- Zorakılıq törədən şəxslərin tipologiyasının Azərbaycan reallığında empirik öyrənilməsi;
- Mədəniyyətə uyğunlaşdırılmış hibrid reabilitasiya modellərinin işlənməsi (məsələn, Duluth modeli ilə milli ənənələrin birləşdirilməsi);
- Uzunmüddətli izləmə tədqiqatları vasitəsilə mövcud proqramların effektivliyinin qiymətləndirilməsi;
- Rəqəmsal texnologiyaların təsiri (onlayn zorakılıq, kiberbullinq, rəqəmsal insan alveri) ilə bağlı yeni araşdırmaların aparılması;
- Regional xüsusiyyətlərin nəzərə alınması, xüsusən kənd yerlərində erkən nikahlar və məişət zorakılığının araşdırılması.

**Təhsil sahəsində siyasət tövsiyələri.**

Təhsil sistemi gender bərabərliyinin təmin olunmasında əsas determinatordan biridir. UNICEF-in (2019) hesabatına görə, gender stereotiplərinin təməli erkən yaşlarda formalaşır və məktəb mühitində möhkəmlənir. Bu səbəbdən, təhsil siyasətində gender bərabərliyi yalnız hüquqi öhdəlik kimi deyil, həm də gələcəkdə zorakılığın qarşısını alan preventiv vasitə kimi nəzərdən keçirilməlidir.

Əsas istiqamətlər:

- Kurikulum islahatı: Dərsliklərin məzmununda gender rollarına dair ənənəvi stereotiplərin azaldılması, qadın və kişilərin bərabər imkanlarda təqdim olunması. UNESCO (2021) qeyd edir ki, gender neytral tədris materialları şagirdlərin bərabərlikçi dəyərlərini gücləndirir.
- Müəllim hazırlığı: Tədris prosesində müəllimlərin gender stereotiplərindən azad olması üçün pedaqoji fakültələrdə gender təhsili üzrə xüsusi modul dərslərin tətbiqi. Azərbaycan kontekstində isə müəllimlərin böyük qismi gender məsələlərində formal yanaşma sərgiləyir[291].
- Maarifləndirici proqramlar: Kənd yerlərində erkən nikahların

[290] Kelly, L. (2019). The continuum of sexual violence. In *Women, Violence and Social Control*. Routledge.
[291] Əliyeva, S. (2020). Gender bərabərliyi və təhsil siyasəti: Azərbaycan konteksti. *Azərbaycan Təhsil Jurnalı, 3*(2), 45–57.

qarşısını almaq məqsədilə məktəb və icma əsaslı maarifləndirmə tədbirləri. Empirik araşdırmalar göstərir ki, erkən nikah hallarının əksəriyyəti məhz maarifləndirmənin zəif olduğu regionlarda müşahidə olunur[292].

Nəticə: Təhsil siyasətində gender bərabərliyi yalnız qızların məktəbə cəlb olunması ilə məhdudlaşmamalı, həm də onların sosial və psixoloji güclənməsinə yönəlməlidir. Bu istiqamətdə "gender bərabərliyi təhsildə əsas strateji prioritet" kimi müəyyən edilməlidir.

**Hüquqi islahatlar.**

Hüquqi islahatlar gender əsaslı zorakılığın qarşısını almaqda ən güclü mexanizmlərdən biridir. Avropa Şurasının İstanbul Konvensiyası (2011) göstərir ki, qadınlara qarşı zorakılığın qarşısını almaq üçün preventiv, qoruyucu və cəza tədbirlərinin sinxron şəkildə tətbiqi vacibdir.

**Əsas istiqamətlər:**

- **Məişət zorakılığı haqqında qanunun təkmilləşdirilməsi:** Hazırkı qanun qurbanın müdafiəsinə yönəlsə də, zorakılıq törədənlərin reabilitasiyası barədə ayrıca müddəa yoxdur. Halbuki, Duluth modeli kimi yanaşmalar göstərir ki, yalnız cəza tədbirləri zorakılığı azaltmaq üçün kifayət deyil[293].
- **Məhkəmə islahatları:** Hakimlərin və hüquq-mühafizə orqanlarının gender məsələlərinə dair ixtisaslaşdırılmış təlimi. Məsələn, Skandinaviya ölkələrində xüsusi "qadın və uşaq dostu məhkəmə prosedurları" tətbiq olunur[294].

**Nəticə:** Hüquqi islahatların mahiyyəti yalnız qanunların mövcudluğu deyil, onların **effektiv tətbiqi** ilə ölçülür. Azərbaycan üçün əsas addım mövcud qanunvericiliyi beynəlxalq standartlarla uzlaşdırmaqdır.

**Reabilitasiya proqramları**

Zorakılıq qurbanları və zorakılıq törədənlər üçün reabilitasiya proqramlarının tətbiqi gender əsaslı zorakılığın davamlı azalmasının əsas şərtidir. UNODC (2020) qeyd edir ki, yalnız qurbanların müdafiəsi deyil, zorakılıq törədənlərin də davranış dəyişikliyi proqramlarına cəlb edilməsi uzunmüddətli nəticə verir[295].

---

[292] UNFPA (2022). *Child marriage and adolescent girls in South Caucasus.*

[293] Pence, E., & Paymar, M. (1993). *Education groups for men who batter: The Duluth model.* Springer.

[294] European Commission, 2018

[295] UNODC (2020). *Handbook on effective prosecution responses to violence against women and girls.*

**Əsas istiqamətlər:**

- **Qurban yönümlü xidmətlər:** Psixoloji, tibbi, hüquqi və sosial xidmətləri birləşdirən "vahid pəncərə" prinsipi. Azərbaycanda mövcud sığınacaqlar bu modelin elementlərini tətbiq etsə də, onların institusional dəstəyi məhduddur[296].
- **Zorakılıq törədənlər üçün proqramlar:** "Məsuliyyət + dəstək" yanaşması. Duluth modeli və CBT əsaslı proqramların mədəni kontekstə uyğunlaşdırılması. Məsələn, dini və mədəni dəyərlərin müsbət tərəflərindən istifadə edərək zorakılığı "qeyri-mədəni" davranış kimi təqdim etmək.
- **Uzunmüddətli izləmə:** Qurbanların sosial reinteqrasiyasını təmin etmək üçün 1–3 illik monitorinq mexanizmləri (işlə təminat, psixososial dəstək, təhsil imkanları).

**Nəticə:** Reabilitasiya siyasətləri yalnız "təhlükəsizlik" yox, həm də **psixoloji sağalma və sosial reinteqrasiya** məqsədini güdməlidir.

**Tədqiqat prioritetləri**

Siyasətlərin effektivliyini təmin etmək üçün empirik araşdırmaların mövcudluğu vacibdir. Hazırda Azərbaycanda zorakılıqla bağlı genişmiqyaslı akademik tədqiqatlar məhduddur.

**Əsas istiqamətlər:**

- **Tipologiya araşdırmaları:** Holtzworth-Munroe və Stuart tipologiyası əsasında Azərbaycan kişilərinin zorakılıq davranışlarının empirik öyrənilməsi.
- **Uzununa tədqiqatlar:** Zorakılıq qurbanlarının həyat yollarını və sosial reinteqrasiyasını izləyən tədqiqatlar.
- **Rəqəmsal zorakılıq:** Son illərdə artan onlayn zorakılıq, kiberbullinq, "deepfake" və rəqəmsal insan alveri halları ayrıca araşdırma mövzusu olmalıdır[297].
- **Regional araşdırmalar:** Şəhər və kənd yerlərində gender rollarına münasibətlərin müqayisəsi.
- **Hibrid modellərin sınağı:** Qlobal modellərin milli kontekstə uyğunlaşdırılması üçün pilot layihələr və qiymətləndirmələr.

---

[296] Zeynalova, M. (2023). Social rehabilitation practices in women's shelters in Azerbaijan. *Journal of Social Policy Studies, 21*(1), 55–72.

[297] Citron, D. K. (2019). Sexual privacy and digital age. *Yale Law Journal, 128*(7), 1870–1960.

**Nəticə:** Tədqiqat siyasətin ayrılmaz hissəsi kimi qəbul olunmalı, nəticələr isə siyasət sənədlərinə birbaşa inteqrasiya edilməlidir.

Beləliklə, Azərbaycan üçün siyasət tövsiyələri yalnız beynəlxalq öhdəliklərə uyğunlaşdırılmalı deyil, həm də yerli sosial-mədəni reallıqlara inteqrasiya olunmalıdır. Bu yanaşma həm dövlət qurumlarının, həm vətəndaş cəmiyyəti institutlarının, həm də akademik dairələrin birgə fəaliyyətini tələb edir.

**Patriarxal mədəniyyətin təsiri**

Patriarxal mədəniyyət insan cəmiyyətlərinin çoxunda uzun əsrlərdir mövcud olan sosial-iqtisadi və mədəni sistemdir. Bu sistemin əsasında kişilərin üstün mövqeyi və qadınların ikinci dərəcəli sosial rol daşıması dayanır. Patriarxal strukturlar həm ailə münasibətlərində, həm də ictimai-siyasi institutlarda qadınların qərarvermə proseslərindən kənarda qalmasına səbəb olur[298]. Azərbaycan da daxil olmaqla bir çox Şərq ölkələrində patriarxal münasibətlər gender rollarının sərt bölgüsü və qadınların əsasən ailə və ev işləri ilə assosiasiya olunması ilə özünü göstərir.

Patriarxal mədəniyyətin əsas xüsusiyyətləri

1. Gender rollarının sərt bölgüsü -kişilər ailənin iqtisadi təminatçısı, qadınlar isə qayğı göstərən və ev işlərində məsuliyyət daşıyan kimi qəbul olunur[299].
2. Qadınların sosial məhdudiyyətləri -təhsil, əmək bazarı və siyasətdə iştirak imkanlarının məhdudlaşdırılması.
3. Normativ nəzarət -qadın davranışlarına dair sosial gözləntilərin güclü olması, məsələn, "qadın namusunun ailənin şərəfi ilə eyniləşdirilməsi"[300].
4. Məişət zorakılığının legitimləşdirilməsi -patriarxal mədəniyyət bir çox hallarda zorakılığı "ailədaxili məsələ" kimi normallaşdırır.

Sosial və psixoloji təsirlər

- Qadınların özünüdərki -patriarxal mühitdə böyüyən qadınlar çox vaxt öz potensiallarını məhdud görür, "ailə vəzifəsi"ni həyatlarının əsas rolu kimi qəbul edirlər[301].
- Zorakılığın davamlılığı -patriarxal mədəniyyət zorakılığın

[298] Walby, S. (1990). *Theorizing patriarchy.* Basil Blackwell.
[299] Connell, R. W. (2009). *Gender: In world perspective.* Polity Press.
[300] Kandiyoti, D. (1988). Bargaining with patriarchy. *Gender & Society, 2*(3), 274–290.
[301] Gilligan, C. (1982). *In a different voice: Psychological theory and women's development.* Harvard University Press.

qarşısını almaqdansa, onu nəsildən-nəslə ötürür[302].

• Psixoloji nəticələr -qadınlarda özgüvən itkisi, öyrənilmiş acizlik (learned helplessness) və travma sonrası stress pozuntusu kimi sindromların yaranmasına səbəb olur.

• Kişilərin davranış kodları -kişilərin emosional ifadələrinin məhdudlaşdırılması, aqressiyanın "kişi davranışı" kimi təşviq edilməsi də patriarxal kodların nəticəsidir.

Azərbaycan cəmiyyətində patriarxal dəyərlər hələ də güclüdür. Erkən nikah, qadınların ictimai-siyasi həyatda az təmsil olunması və məişət zorakılığı halları bu sistemin nəticəsi kimi dəyərləndirilir. Dövlət Statistika Komitəsinin (2021) məlumatına görə, qadınların əmək bazarında iştirak faizi kişilərə nisbətən xeyli aşağıdır, siyasi qərarvermədə isə qadın təmsilçiliyi 20%-dən azdır. Yerli tədqiqatçılar[303] qeyd edirlər ki, patriarxal mədəniyyət yalnız ailədaxili münasibətləri deyil, həm də dövlət siyasətinin formalaşdırılmasını dolayı yolla təsirləndirir.

Gələcək tədqiqat istiqamətləri

• Patriarxallığın regionlar üzrə fərqləri -şəhər və kənd mühitlərində qadınlara münasibətin müqayisəli araşdırılması.

• Rəqəmsal mühitdə patriarxallıq -sosial şəbəkələrdə gender stereotiplərinin necə yenidən istehsal olunması.

• Nəsillərarası ötürülmə -patriarxal dəyərlərin ailədən gənc nəsillərə necə ötürüldüyünün empirik öyrənilməsi.

Patriarxal mədəniyyətin təsiri çoxşaxəlidir: o, həm fərdi psixologiyaya, həm də sosial institutlara təsir edir. Bu təsirin azaldılması üçün təhsil, hüquqi islahatlar və ictimai şüurun dəyişdirilməsi vacibdir. Patriarxallığın möhkəm strukturları dəyişmədikcə, gender əsaslı zorakılıq və bərabərsizlik davam edəcəkdir.

## Patriarxal mədəniyyətin təsirini azaltmaq üçün siyasət tövsiyələri

1 **Dövlət siyasəti üçün tövsiyyələr**

a) Təhsil və maarifləndirmə

• Məktəb dərsliklərində qadın və kişilərin rollarının balanslı təqdim olunması; gender stereotiplərinin azaldılması.

[302] Dobash, R. E., & Dobash, R. (1979). *Violence against wives: A case against the patriarchy.* Free Press.

[303] Zeynalova, M. (2023). Gender norms and women's social participation in Azerbaijan. *Journal of Social Policy Studies, 21*(1), 55–72.

- Pedaqoji fakültələrdə müəllimlər üçün gender bərabərliyi üzrə xüsusi fənlər.
- Dövlət televiziyası və ictimai media vasitəsilə gender bərabərliyini təşviq edən maarifləndirici kampaniyalar.

b) Hüquqi islahatlar

- Məişət zorakılığı haqqında qanuna patriarxal stereotiplərin qarşısının alınması ilə bağlı ayrıca müddəaların əlavə olunması.
- İstanbul Konvensiyasının ratifikasiyası → dövlətin qadınların müdafiəsində beynəlxalq öhdəliklərini gücləndirəcək.
- Hüquq-mühafizə orqanlarının əməkdaşları üçün patriarxal yanaşmaların qadın qurbanlara münasibətdə yaratdığı maneələr barədə ixtisaslaşmış təlimlər.

c) Sosial siyasət

- Kənd yerlərində qadınların iqtisadi müstəqilliyini artırmaq üçün mikro-kredit proqramları və qadın sahibkarlığının dəstəklənməsi.
- Qadınların dövlət idarəçiliyində iştirakını artırmaq üçün kvota sistemi (parlament və bələdiyyələrdə ən azı 30% qadın təmsilçiliyi).

**QHT-lər üçün tövsiyyələr**

a) Maarifləndirmə işləri

- Kənd icmalarında "Patriarxallıq və onun zərərləri" mövzusunda müzakirələr, seminarlar.
- Erkən nikah və məişət zorakılığı ilə bağlı real həyat hekayələri əsasında hazırlanmış video və təlim materialları.

b) Psixososial dəstək

- Patriarxal təzyiq səbəbilə hüquq və təhsil imkanlarından məhrum olan qadın və qızlar üçün psixoloji və hüquqi məsləhət mərkəzləri.
- Qurbanların ailələri ilə işləyən ailə terapiyası proqramları - patriarxal dəyərlərin ailədaxili münasibətləri necə zədələdiyini göstərmək.

c) İctimai diskursun dəyişdirilməsi

- Din xadimləri və yerli icma liderləri ilə əməkdaşlıq -"patriar-xallığın zorakılığı bəraətləndirmədiyini" dini və mədəni arqumentlərlə izah etmək.
- Medianın qadın obrazlarını daha çox liderlik, sahibkarlıq, elm və siyasətdə uğurlu nümunələr kimi təqdim etməsinə yönəlik kampaniyalar

Tədqiqat və akademik istiqamətlər

- Azərbaycan regionlarında patriarxal münasibətlərin müqayisəli araşdırılması (şəhər vs kənd).
- Patriarxallığın nəsillərarası ötürülmə mexanizmləri barədə sosioloji və psixoloji tədqiqatlar.

• Rəqəmsal mühitdə (sosial şəbəkələrdə) patriarxal dəyərlərin necə yenidən istehsal olunduğuna dair media tədqiqatları

Patriarxal mədəniyyətin təsirini azaltmaq üçün siyasət yalnız qanunvericilik səviyyəsində deyil, təhsil, mədəniyyət, iqtisadiyyat və ictimai diskursun dəyişdirilməsi istiqamətində kompleks şəkildə həyata keçirilməlidir. Dövlət strukturları, QHT-lər və akademik institutların əməkdaşlığı ilə patriarxallığın mənfi təsirləri azaldıla və gender bərabərliyi üçün dayanıqlı zəmin yaradıla bilər.

**Gender stereotipləri**

Gender stereotipləri cəmiyyətdə qadın və kişilərə aid edilən sabit, sadələşdirilmiş və ümumiləşdirilmiş inanclar toplusudur. Bu stereotiplər sosial öyrənmə, mədəniyyət və patriarxal strukturlar vasitəsilə nəsildən-nəslə ötürülür və insanların davranışlarını, qərarlarını, həmçinin ictimai münasibətləri formalaşdırır[304]. Onlar qadın və kişilərə dair gözləntiləri məhdudlaşdırmaqla yanaşı, gender bərabərsizliyinin davamlılığını təmin edən əsas mexanizmlərdən biri kimi çıxış edir.

**Gender stereotiplərinin əsas növləri**

1. Qadınlara dair stereotiplər:

– Qadınların əsas vəzifəsinin "ailə və uşaqlara qulluq" olması;

– Qadınların emosional, emosiyalara bağlı, zəif iradəli olması;

– Liderlik, qərarvermə və ictimai-siyasi sahələrin "kişilərə məxsus" hesab edilməsi[305].

2. Kişilərə dair stereotiplər:

– Kişilərin ailənin "əsas təminatçısı" olması;

– Aqressivlik, güc və dominantlıq kimi xüsusiyyətlərin "kişi davranışı" sayılması;

– Emosional ifadələrin zəiflik əlaməti kimi dəyərləndirilməsi [306].

3. Rol stereotipləri:

– Qadınların iş yerlərində aşağı maaşlı və qayğı yönümlü peşələrdə (müəllimlik, tibb bacılığı) daha çox təmsil olunması;

– Kişilərin yüksək maaşlı texniki və rəhbərlik mövqelərinə yönləndirilməsi.

**Sosial və psixoloji təsirlər**

• Qadınların imkanlarının məhdudlaşdırılması: Gender stereotipləri

---

[304] Eagly, A. H., & Wood, W. (2012). Social role theory. In *Handbook of Theories of Social Psychology*. Sage.

[305] Ridgeway, C. L. (2011). *Framed by gender: How gender inequality persists in the modern world.* Oxford University Press.

[306] Connell, R. W. (2009). *Gender: In world perspective.* Polity Press.

qadınların təhsildə, karyerada və siyasətdə iştirakını azaldır[307].

- Özünü reallaşdırma baryerləri: Stereotiplərin təsiri altında böyüyən qız uşaqları çox vaxt öz potensiallarını aşağı qiymətləndirirlər[308].
- Zorakılığın legitimləşməsi: Patriarxal stereotiplər məişət zorakılığını "ailədaxili məsələ" kimi qəbul etdirərək onun davamlılığına xidmət edir .
- Psixoloji nəticələr: Stereotip təzyiqi qadınlarda özünəinam itkisinə, kişilərdə isə emosiyaların repressiyasına gətirib çıxarır.

Azərbaycan cəmiyyətində gender stereotipləri hələ də güclü təsirə malikdir. Erkən nikah, qadınların siyasi təmsilçiliyinin aşağı olması, əmək bazarında qadınların daha çox qeyri-rəsmi sektorda cəmlənməsi bu stereotiplərin nəticəsidir. Dövlət Statistika Komitəsinin (2021) məlumatına görə, qadınların rəhbər vəzifələrdə iştirakı 20%-dən azdır. Yerli tədqiqatlarda vurğulanır ki, "namus" və "şərəf" anlayışlarının qadın davranışları ilə eyniləşdirilməsi gender stereotiplərinin ən güclü formalarından biridir.

**Gələcək tədqiqat istiqamətləri**

- Təhsil sistemində gender stereotiplərinin şagirdlərin peşə seçimlərinə təsirinin empirik araşdırılması.
- Media və sosial şəbəkələrdə gender stereotiplərinin necə reproduksiya olunduğunun tədqiqi.
- Regional fərqlərin müqayisəsi: kənd və şəhər mühitində stereotiplərin intensivliyi.

Gender stereotipləri yalnız fərdi seçimləri məhdudlaşdırmır, həm də cəmiyyətin sosial inkişafına mənfi təsir göstərir. Onların azaldılması üçün təhsil siyasəti, media islahatları və hüquqi çərçivələrin gücləndirilməsi vacibdir. Qadın və kişilərin bərabər imkanlara sahib olduğu cəmiyyət stereotiplərin deyil, real bacarıqların və potensialın əsas götürüldüyü bir mühitdə formalaşır.

**"Ailə daxili iş" anlayışı**

"Ailə daxili iş" anlayışı ailə üzvlərinin gündəlik həyatını təmin edən, lakin əksər hallarda iqtisadi baxımdan görünməyən və rəsmi statistikaya daxil edilməyən fəaliyyətlərə işarə edir. Buraya ev işləri (yemək bişirmə, təmizlik, uşaq və yaşlılara qulluq, ev təsərrüfatının idarə olunması) daxildir. Feminist iqtisadçılar bu işlərin "görünməz əməyin" ən

---

[307] Cuddy, A. J., Fiske, S. T., & Glick, P. (2004). When professionals become mothers, warmth doesn't cut the ice. *Journal of Social Issues, 60*(4), 701–718.
[308] Steele, C. M. (1997). A threat in the air: How stereotypes shape intellectual identity and performance. *American Psychologist, 52*(6), 613–629.

tipik forması olduğunu vurğulayırlar[309].

**Nəzəri yanaşmalar**

• Feminist nəzəriyyəsinə görə, ailə daxili iş qadınların üzərinə həddindən artıq düşür və bu, gender bərabərsizliyinin struktur elementidir. Sylvia Walby bunu patriarxal sistemin əsas sütunlarından biri hesab edir.

• Sosial rol nəzəriyyəsi[310], cəmiyyət qadın və kişilər üçün fərqli rollar müəyyənləşdirir -qadınlar qayğı və ev işləri ilə, kişilər isə ictimai istehsal fəaliyyəti ilə assosiasiya olunur.

• İqtisadi yanaşma: Gary Beckerin "ailədaxili əmək bölgüsü" nəzəriyyəsinə görə, ailə üzvləri iqtisadi baxımdan "effektivlik" prinsipi ilə rolları paylaşırlar. Lakin bu yanaşma çox tənqid olunub, çünki qadın əməyinin dəyərsizləşdirilməsinə gətirib çıxarır.

**Sosial təsirlər**

• **Gender bərabərsizliyi:** Ailə daxili işin qadınların üzərinə həddən artıq yüklənməsi onların əmək bazarında iştirakını azaldır[311].

• **İqtisadi görünməzlik:** Bu işlər adətən milli hesablamalarda "istehsal" kateqoriyasına daxil edilmir. Halbuki BMT-nin[312] hesabatına görə, ailədaxili ödənişsiz əmək ümumi iqtisadi fəaliyyətin böyük hissəsini təşkil edir.

• **Psixoloji nəticələr:** Qadınların ikiqat yükü ("double burden") - həm ödənişli işdə, həm də evdə əsas məsuliyyət daşıması onların stress və depressiya riskini artırır[313] .

Azərbaycan ailə modelində ənənəvi bölgü hələ də güclüdür: qadınlar daha çox ev işləri və uşaqlara baxımla məşğul olur, kişilər isə ailənin maddi təminatçısı kimi qəbul edilir. Dövlət Statistika Komitəsinin (2021) məlumatına görə, qadınların orta iş günü kişilərlə müqayisədə daha uzun olur, çünki işdən sonra evdəki "ikinci növbə"ni də yerinə yetirirlər. Erkən nikah və kənd yerlərində qadınların əmək bazarından uzaq qalması bu bərabərsizliyi daha da möhkəmləndirir .

**Gələcək tədqiqat və siyasət istiqamətləri**

• Empirik tədqiqatlar: Azərbaycanda ailədaxili əməyin statistik

---

309 Folbre, N. (2001). *The invisible heart: Economics and family values.* New Press.

310 Eagly, A. H. (1987). *Sex differences in social behavior: A social-role interpretation.* Erlbaum.

311 Bianchi, S. M., Milkie, M. A., Sayer, L. C., & Robinson, J. P. (2000). Is anyone doing the housework? *Social Forces, 79*(1), 191–228.

312 UNDP (2015). *Human Development Report: Work for Human Development.*

313 Hochschild, A., & Machung, A. (2012). *The second shift: Working families and the revolution at home.* Penguin.

ölçülməsi və milli hesablara daxil edilməsi.

- Qanunvericilik: Sosial siyasətdə ailədaxili işlərin dəyərinin tanınması, məsələn, uşaq baxımı ilə məşğul olan analar üçün sosial təminat mexanizmləri.
- Mədəni transformasiya: Gender rollarına dair stereotiplərin azaldılması və kişilərin ev işlərinə daha çox cəlb olunması.

"Ailə daxili iş" anlayışı yalnız məişət fəaliyyətləri deyil, həm də gender bərabərsizliyinin iqtisadi, sosial və psixoloji əsaslarından biridir. Onun görünməz qalması qadınların ictimai həyatda tam iştirakını məhdudlaşdırır. Bu səbəbdən, dövlət siyasəti və QHT-lərin fəaliyyəti ailədaxili işlərin dəyərinin tanınmasına və ədalətli bölgüsünə yönəlməlidir.

**Qanunvericilikdə boşluqlar**

Gender bərabərliyi və zorakılıqla mübarizə sahəsində mövcud qanunvericilik mühüm hüquqi baza yaratsa da, **qanunların tətbiqində, icrasında və normativ tənzimləmələrdə ciddi boşluqlar** mövcuddur. Bu boşluqlar həm qurbanların müdafiəsini zəiflədir, həm də zorakılıq törədənlərin məsuliyyətə cəlb olunmasını çətinləşdirir.

**Azərbaycan qanunvericiliyində mövcud boşluqlar**

1. İstanbul Konvensiyasının ratifikasiyasının olmaması
    - Azərbaycan Avropa Şurasının *"Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması haqqında" İstanbul Konvensiyasını* (2011) hələ də imzalanmayıb Bu isə qadınların müdafiəsi sahəsində beynəlxalq standartların tam tətbiqini məhdudlaşdırır[314].
2. Məişət zorakılığının qarşısının alınması haqqında Qanunun (2010) tətbiqi boşluqları
    - Qanun preventiv və müdafiə tədbirlərini nəzərdə tutsa da, icra mexanizmləri zəifdir.
    - Məsələn, "müdafiə orderi"nin tətbiqi praktikada çox nadir hallarda baş verir. Avropa Şurası GREVIO ekspertləri qeyd edir ki, Azərbaycanda müdafiə orderlərinin tətbiqi statistikası çox aşağıdır[315] .
    - Qanunda zorakılıq törədənlərin reabilitasiyası və davranış dəyişikliyi proqramları nəzərdə tutulmur.
3. Cinsə görə ayrı-seçkiliyin qadağan olunmasına dair mexanizmlərin zəifliyi
    - *"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında"*

---

[314] Council of Europe (2022). *Chart of signatures and ratifications of Treaty 210 -Istanbul Convention.*

[315] Council of Europe/GREVIO (2021). *Baseline Evaluation Report: Azerbaijan.* Strasbourg.

*Qanun* (2006) diskriminasiyanın qadağan olunmasını nəzərdə tutur. Lakin qanunda məhkəməyə müraciət və kompensasiya mexanizmləri aydın göstərilməyib[316].

○ Qanunvericilikdə gender əsaslı zorakılıq "diskriminasiya" kimi ayrıca kateqoriyada tanınmır.

4. Cinayət Məcəlləsində boşluqlar

○ Azərbaycan Cinayət Məcəlləsində (1999) məişət zorakılığı ayrıca cinayət tərkibi kimi göstərilmir. Fiziki zorakılıq yalnız "bədən xəsarəti" və ya "döymə" maddələri əsasında cəzalandırılır, lakin ailədaxili münasibətlərdə zorakılığın spesifikliyi nəzərə alınmır.

○ Cinsi zorakılıq və təcavüzlə bağlı müddəalarda evlilik daxilində zorakılıq (marital rape) ayrıca cinayət kimi tanınmır [317].

5. Məlumat bazası və hesabatlılıq boşluqları

○ Dövlət Statistika Komitəsi zorakılıqla bağlı bəzi göstəricilər toplasa da, cinsə görə ayrılmış müfəssəl statistika (məişət zorakılığı, erkən nikah, gender əsaslı cinayətlər) məhduddur.

○ Qanunvericilikdə davamlı monitorinq və hesabat mexanizmləri nəzərdə tutulmayıb

Beynəlxalq müqayisə və tövsiyələr

- BMT-nin CEDAW Komitəsi 2015-ci ildə Azərbaycana ünvanladığı yekun müşahidələrdə vurğulayıb ki, qanunvericilik qadınların hüquqlarını qorusa da, icra və tətbiq mexanizmləri zəifdir, məhkəmə sistemində gender həssaslığı kifayət etmir.
- Avropa Şurası GREVIO ekspertlərinin 2021-ci il hesabatında qeyd olunur ki, Azərbaycanda zorakılıq qurbanları üçün sığınacaq sayı beynəlxalq standartlardan çox aşağıdır (1 milyon nəfərə ən azı 1 sığınacaq yer olmalıdır).

Azərbaycan qanunvericiliyi formal olaraq gender bərabərliyi və məişət zorakılığının qarşısının alınması üzrə çərçivə yaradır, lakin:

- Ratifikasiya olunmamış beynəlxalq sənədlər;
- Qanunlarda icra və reabilitasiya boşluqları;
- Məhkəmə mexanizmlərinin qeyri-effektivliyi;
- Statistik və hesabatlılıq çatışmazlıqları

qadınların hüquqlarının tam təmin edilməsinə mane olur. Bu

---

[316] CEDAW Committee (2015). *Concluding observations on the fifth periodic report of Azerbaijan (CEDAW/C/AZE/CO/5).* United Nations.

[317] GRETA (2021). *Report concerning the implementation of the Council of Europe Convention on Action against Trafficking in Human Beings by Azerbaijan.*

səbəbdən hüquqi islahatların praktiki mexanizmlər, icraetmə və monitorinq sistemləri ilə gücləndirilməsi vacibdir.

Patriarxal mədəniyyət əsrlər boyu dünyanın əksər cəmiyyətlərində mövcud olmuş sosial-iqtisadi və mədəni sistemdir. Onun əsasında kişilərin üstün mövqeyi və qadınların sosial, siyasi, iqtisadi həyatın kənarında saxlanılması dayanır. Bu sistem müxtəlif formalarda təzahür edir: gender stereotipləri, ailədaxili əməyin dəyərsizləşdirilməsi, qanunvericilikdə boşluqlar və məişət zorakılığının normallaşdırılması. Azərbaycanın sosial və hüquqi mühitində də patriarxal münasibətlər hələ də güclü təsirə malikdir və qadınların bərabər imkanlarını məhdudlaşdırır.

Patriarxal mədəniyyətin təsiri, gender stereotipləri, ailədaxili işin görünməzliyi və qanunvericilikdəki boşluqlar bir-birini gücləndirən faktorlar kimi çıxış edir. Nəticədə:

- qadınların ictimai və iqtisadi həyatda imkanları məhdudlaşır,
- zorakılıq normal davranış kimi qəbul olunur,
- gender bərabərsizliyi struktur olaraq davam edir.

Bu problemlərin həlli üçün:

- təhsil siyasətində gender bərabərliyinin təşviqi,
- qadınların iqtisadi iştirakının artırılması,
- patriarxal stereotipləri zəiflədən ictimai kampaniyalar,
- qanunvericiliyin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi əsas prioritetlər olmalıdır.

**Praktiki yanaşmalar və siyasət tövsiyyələri**

Gender bərabərsizliyi, patriarxal mədəniyyət və zorakılıq formaları Azərbaycan cəmiyyətində sosial, hüquqi və psixoloji müstəvilərdə ciddi çağırışlar yaradır. Qlobal miqyasda qəbul edilmiş sənədlər -BMT-nin CEDAW Konvensiyası (1979), İstanbul Konvensiyası (2011) və Dayanıqlı İnkişaf Məqsədləri (2015) dövlətlərin gender əsaslı zorakılığın qarşısının alınması və bərabərliyin təmin edilməsinə dair öhdəliklərini müəyyənləşdirir. Azərbaycan bu sənədlərin bir hissəsinə qoşulsa da, qanunvericilik və tətbiqdə boşluqlar qalmaqdadır . Bu siyasət sənədinin məqsədi -praktiki yanaşmalar və siyasət tövsiyələri təqdim etməklə Azərbaycan üçün daha effektiv gender siyasəti modelinin qurulmasına töhfə verməkdir.

**Təhsil və maarifləndirmə**

**Məsələ:** Gender stereotipləri məktəb yaşından formalaşır və qadınların ictimai imkanlarını məhdudlaşdırır[318].

[318] Eagly, A. H., & Wood, W. (2012). Social role theory. In *Handbook of Theories of Social Psychology.* Sage.

**Praktiki yanaşmalar:**

- Tədris proqramlarına gender bərabərliyi mövzularının daxil edilməsi.
- Müəllimlər üçün gender-həssas pedaqogika üzrə ixtisasartırma kursları.
- Kənd icmalarında erkən nikah və patriarxal stereotiplərin fəsadlarını izah edən maarifləndirici kampaniyalar.

**Siyasət tövsiyyələri:**

- Təhsil Nazirliyi dərsliklərin gender təhlilini həyata keçirsin.
- Dövlət universitetlərində Gender Araşdırmaları Mərkəzləri yaradılsın.
- Dövlət və QHT-lərin birgə əməkdaşlığı ilə ictimai medianın gender bərabərliyi təşviqinə yönləndirilməsi təmin edilsin.

**Hüquqi islahatlar**

**Məsələ:** Azərbaycan qanunvericiliyi gender bərabərliyi üzrə hüquqi baza yaratsa da, tətbiqdə boşluqlar mövcuddur. Cinayət Məcəlləsi məişət zorakılığını ayrıca cinayət kimi tanımır, evlilik daxilində zorakılıq isə hüquqi kateqoriya deyil [319].

**Praktiki yanaşmalar:**

- Hüquq-mühafizə orqanlarının əməkdaşları üçün gender həssaslığı üzrə təlimlər.
- Müdafiə orderlərinin tətbiqi prosedurlarının sadələşdirilməsi.
- Məhkəmələrdə “qadın və uşaq dostu” prosedurlar (Barnahus modeli əsasında).

**Siyasət tövsiyyələri:**

- İstanbul Konvensiyası ratifikasiya edilsin.
- Məişət zorakılığı haqqında Qanuna zorakılıq törədənlər üçün məcburi reabilitasiya proqramları əlavə olunsun.
- Cinayət Məcəlləsində evlilik daxilində təcavüz ayrıca cinayət tərkibi kimi tanınsın.
- Dövlət Statistika Komitəsi zorakılıqla bağlı cinsə görə ayrılmış müfəssəl məlumat bazası yaratsın.

**Reabilitasiya və sosial dəstək**

**Məsələ:** Qurbanlara yönəlmiş xidmətlər parçalanmış xarakter daşıyır, zorakılıq törədənlər üçün isə reabilitasiya proqramları yoxdur.

---

[319] Council of Europe (2022). *Chart of signatures and ratifications of Treaty 210 -Istanbul Convention.*

**Praktiki yanaşmalar:**

- "Vahid pəncərə" prinsipi ilə psixoloji, tibbi, hüquqi və sosial dəstək xidmətlərinin inteqrasiyası.
- Zorakılıq törədənlər üçün "Məsuliyyət + Dəstək" proqramları (Duluth modeli əsasında, milli mədəniyyətə uyğunlaşdırılmış).
- Qurbanların sosial reinteqrasiyası üçün uzunmüddətli izləmə mexanizmləri (1–3 il).

**Siyasət tövsiyələri:**

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Reabilitasiya və Dəstək Mərkəzləri qurulsun.
- Sığınacaq sayı beynəlxalq standartlara (1 milyon nəfərə ən azı 1 mərkəz) uyğunlaşdırılsın.
- QHT-lərin dövlət sifarişi əsasında sosial xidmətlər göstərməsi üçün qrant və müqavilə mexanizmləri genişləndirilsin.

**Tədqiqat və monitorinq**

Məsələ: Yerli empirik araşdırmalar məhduddur; siyasətlər çox vaxt beynəlxalq modellərin mexaniki tətbiqi üzərində qurulur.

Praktiki yanaşmalar:

- Yerli tədqiqat mərkəzlərində gender rolları, zorakılıq tipologiyaları və sosial təsirlər üzrə araşdırmalar.
- Universitetlərdə gender bərabərliyi üzrə magistr və doktorantura proqramları.
- Rəqəmsal zorakılıq və "onlayn insan alveri" kimi yeni çağırışların öyrənilməsi.

**Siyasət tövsiyyələri:**

- Dövlət büdcəsində gender araşdırmalarına dəstək fondu təsis olunsun.
- Qanunvericilikdə zorakılıqla bağlı müstəqil monitorinq mexanizmi (Ombudsman + QHT koalisiyaları) yaradılaraq hesabatlılıq gücləndirilsin.
- Rəqəmsal transformasiya strategiyalarına onlayn gender təhlükəsizliyi komponenti daxil edilsin.

Patriarxal mədəniyyət, gender stereotipləri, ailədaxili işlərin görünməzliyi və qanunvericilikdəki boşluqlar bir-birini gücləndirərək gender əsaslı zorakılığın davamlılığını təmin edir. Təhsil, hüquq, sosial dəstək və tədqiqat istiqamətlərində praktiki addımların atılması Azərbaycan üçün gender bərabərliyini təmin edən, zorakılığın qarşısını alan və beynəlxalq öhdəliklərə cavab verən sistem qurmağa imkan verəcəkdir.

**Sosial reabilitasiya planları**

Sosial reabilitasiya planları həssas qrupların (məişət zorakılığı qurbanları, insan alveri qurbanları, erkən nikahdan zərər çəkmişlər, miqrant qadınlar və uşaqlar) yenidən cəmiyyətə inteqrasiyasını təmin edən fərdi və sistemli proqramlardır. Bu planların əsas məqsədi qurbanların yalnız fiziki təhlükəsizliyini deyil, həm də psixoloji sağlamlığını, sosial bacarıqlarını və iqtisadi müstəqilliyini bərpa etməkdir.

**Nəzəri əsaslar**

- Ekoloji yanaşmabl tətbiq etməklə[320] reabilitasiya fərdin ailə, icma və cəmiyyətlə qarşılıqlı əlaqəsini nəzərə almalıdır.
- Travma yönümlü yanaşmada[321] qurbanların travma sonrası bərpası üçün təhlükəsiz mühit, dəstək və gücləndirmə zəruridir.
- **Sosial iş modeli:** Fərdi sosial plan (FSP) hazırlanır və orada qurbanın ehtiyacları (təhsil, iş, tibbi xidmət, psixoloji dəstək) sistemli şəkildə müəyyən edilir[322].

**Sosial reabilitasiya planının əsas komponentləri**

**Təhlükəsizlik və müdafiə**

- Qurbanların ilkin olaraq sığınacaq və mühafizə ilə təmin edilməsi.
- Hüquq-mühafizə orqanlarının qoruma orderi tətbiqi.

*Nümunə:* Azərbaycan "Məişət zorakılığının qarşısının alınması haqqında Qanun" (2010) müdafiə orderini nəzərdə tutsa da, tətbiq zəifdir .

**Psixoloji dəstək**

Travma sonrası stress pozuntusu, depressiya və özgüvən itkisi ilə mübarizə üçün fərdi və qrup terapiyası. "Travma-yönümlü qayğı" yanaşması -qurbanı yenidən gücləndirmək[323] .*Nümunə:* ABŞ-da "Sığınacaq modeli" sığınacaqlarda istifadə olunur və qadınların özünü gücləndirməsini prioritetləşdirir[324].

**Hüquqi yardım**. Qurbanların hüquqi maarifləndirilməsi, məhkəmə işlərində vəkillik dəstəyinin gücləndirilməsi vacib amildir.

**Təhsil və məşğulluq**. Qadın və uşaqlar üçün təhsilə yenidən cəlb olunma proqramlarının gücləndirilməsi. İş bacarıqları təlimləri və işə yönləndirmə.

---

[320] Bronfenbrenner, U. (1979). *The ecology of human development.* Harvard University Press.

[321] Herman, J. (1992). *Trauma and recovery.* Basic Books.

[322] Payne, M. (2014). *Modern social work theory.* Oxford University Press.

[323] SAMHSA (2014). *Trauma-Informed Care in Behavioral Health Services.*

[324] Bloom, S. L. (2017). *Creating Sanctuary: Toward the Evolution of Sane Societies.* Routledge.

*Nümunə:* İOM-un reinteqrasiya modellərində insan alveri qurbanları üçün "vocational training + micro-credit" mexanizmləri geniş tətbiq olunur .

**İctimai və ailə reinteqrasiyası** Qurbanların sosial bərpası, ailə və icma ilə münasibətlərinin yenidən qurulmasını nəzərdə tutur. Stiqmatizasiyanın qarşısını almaq üçün maarifləndirmə kampaniyaları bu səpgidən olan addımlardır. *Nümunə:* Skandinaviya ölkələrində "İcma əsaslı reabilitasiya" modeli tətbiq olunur -icma üzvləri reabilitasiyada aktiv iştirak edir [325]

Azərbaycanda sığınacaqların fəaliyyəti əsasən QHT-lər tərəfindən həyata keçirilir. Məsələn, bir neçə QHT-nin nəzdində insan alveri və məişət zorakılığı qurbanları üçün hüquqi, tibbi və psixoloji dəstək verilir. Dövlət tərəfindən maliyyələşən xidmətlər olsa da, uzunmüddətli sosial reinteqrasiya mexanizmləri məhduddur. Qurbanlar çox vaxt sığınacaqdan çıxdıqdan sonra iqtisadi müstəqillik qazana bilmirlər. Regional fərqlər mövcuddur: kənd yerlərində qadınların sosial reabilitasiyası daha çətin olur, çünki patriarxal mədəniyyətin təsiri güclüdür.

| **Komponent** | **Məqsəd** | **Nümunə fəaliyyətlər** |
|---|---|---|
| Təhlükəsizlik | Qurbanın həyatını qorumaq | Sığınacağa yerləşdirmə, müdafiə orderi |
| Psixoloji dəstək | Travmanın təsirlərini azaltmaq | Fərdi terapiya, dəstək qrupları |
| Hüquqi yardım | Hüquqların bərpası | Pulsuz hüquqi məsləhət, məhkəmə müşayiəti |
| Təhsil | İtirilmiş imkanları bərpa etmək | Qızların məktəbə qaytarılması, savad kursları |
| Məşğulluq | İqtisadi müstəqilliyi təmin etmək | Peşə kursları, işlə təminat proqramları |
| Sosial reinteqrasiya | Stiqmanı azaltmaq | İcma görüşləri, ictimai kampaniyalar |

**Siyasət tövsiyyələri**

- Dövlət səviyyəsində: Reabilitasiya planlarının hüquqi çərçivədə təsbit olunması və bütün qurbanlar üçün standart operativ prosedurlar (SOP) hazırlanması.
- QHT-lər üçün: Fərdi sosial planların hazırlanmasında travma yönümlü yanaşma və gender həssas metodologiya tətbiq edilməli.
- Akademik dairələr üçün: Uzununa tədqiqatlarla (longitudinal studies) reabilitasiya proqramlarının effektivliyi ölçülməli.

---

[325] OECD, 2016

Sosial reabilitasiya planları yalnız qısa müddətli müdafiə deyil, həm də qurbanların dayanıqlı sosial inteqrasiyası üçün əsas mexanizmdir. Onlar təhsil, məşğulluq, psixoloji və hüquqi dəstəyi birləşdirən kompleks yanaşmaya əsaslanmalıdır. Azərbaycan üçün ən mühüm addım bu planların milli qanunvericiliyə inteqrasiyası və icra mexanizmlərinin gücləndirilməsi olacaq.

**Hüquqi islahat təklifləri**

Azərbaycan gender bərabərliyi və zorakılıqla mübarizə sahəsində mühüm qanunvericilik addımları atmışdır:

- *"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanun* (2006)
- *"Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun* (2010)
- *İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planları* (2004–2024)

Lakin beynəlxalq hesabatlar göstərir ki, mövcud qanunvericilik qadınların müdafiəsini və zorakılığın qarşısının alınmasını tam təmin etmir.

**Sosial reabilitasiya nümunələri**

Sosial reabilitasiya zorakılıq qurbanlarının və ya zorakılıq törədən şəxslərin cəmiyyətə yenidən inteqrasiyası və funksional həyat bacarıqlarının bərpası üçün çoxsahəli müdaxilə prosesidir. Onun məqsədi yalnız tibbi və psixoloji dəstəyi deyil, həm də sosial, hüquqi və iqtisadi dəstəyi əhatə etməkdir.

**Beynəlxalq nümunələr**

**a**) Barnahus modeli (İslandiya, Skandinaviya ölkələri).Uşaqlar və gənclər üçün yaradılmış "Children's House" konsepsiyasıdır. Bir məkanda hüquqi, tibbi, psixoloji və sosial xidmətlər göstərilir. Qurbanın travmasını artırmamaq üçün bütün proseslər (polis, məhkəmə, psixoloq) koordinasiyalı aparılır.

b) Duluth Modeli (ABŞ). Zorakılıq törədən kişilərin davranışlarının dəyişdirilməsinə yönəlmiş sosial reabilitasiya proqramıdır. Gender bərabərliyi, güc və nəzarət anlayışlarının sorğulanması əsas metod kimi tətbiq olunur.

c) Community-Based Rehabilitation (CBR, WHO modeli). Əlilliyi və ya zorakılıq təcrübəsi olan şəxslərin icma səviyyəsində dəstəklənməsi. Ailə, icma liderləri, sosial işçilər və dövlət qurumları birlikdə fəaliyyət göstərirlər.

d) Trauma-Informed Care (ABŞ və Avropa) Qurbanların keçmiş

travmalarını nəzərə alaraq xidmət göstərilməsi. Təhlükəsizlik, etibar, şəffaflıq və empati prinsiplərinə əsaslanır.

**Təcrübədən çıxarılan əsas dərslər**

- İnteqrasiya vacibdir: Sosial reabilitasiya yalnız psixoloji yardım deyil, hüquqi və iqtisadi dəstəklə birgə aparılmalıdır.
- İcma dəstəyi zəruridir: Qurbanın təcrid olunmuş vəziyyətdə qalması onun reinteqrasiyasını çətinləşdirir.
- Mədəni uyğunlaşma: Beynəlxalq modellər Azərbaycan reallığına uyğunlaşdırılmalı, yerli dəyərlər və icma resursları nəzərə alınmalıdır.

Sosial reabilitasiya zorakılığın nəticələrini aradan qaldırmaq və qurbanların normal həyata dönüşünü təmin etmək üçün çoxsahəli və mərhələli yanaşma tələb edir. Beynəlxalq modellər (Barnahus, Duluth, CBR, Trauma-Informed Care) bu istiqamətdə nümunəvi təcrübə yaradır. Azərbaycan üçün isə ən vacib məsələ -bu modellərin yerli mədəniyyətə və sosial şəraitə uyğunlaşdırılması və dayanıqlı institusional dəstək mexanizmlərinin qurulmasıdır.

**Azərbaycan mühitinə uyğunlaşdırılmış reabilitasiya planı**

Qadın və uşaq qurbanlar üçün plan

| **Mərhələ** | **Məzmun** | **Azərbaycan kontekstinə uyğunlaşdırma** |
|---|---|---|
| Fövqəladə müdaxilə | Təhlükəsiz sığınacaq, tibbi yardım, hüquqi dəstək | Mövcud QHT sığınacaqlarının (məs. *Təmiz Dünya*) dövlət dəstəyi ilə gücləndirilməsi |
| Psixoloji dəstək | Travma yönümlü terapiya, fərdi və qrup seansları | Azərbaycan dilində, qadın psixoloqların iştirakı ilə, dini və mədəni həssaslıqlar nəzərə alınaraq |
| Sosial dəstək | Təhsil və məşğulluğa qaytarılma, peşə təlimləri | Qadınlara tikiş, kulinariya, İT sahəsi üzrə kurslar; kənd yerlərində kənd təsərrüfatı yönümlü proqramlar |
| Hüquqi müdafiə | Müdafiə orderləri, hüquqi müşayiət | Hüquqi yardım xidmətlərinin pulsuz və daha əlçatan edilməsi |
| İnteqrasiya | İcma əsaslı dəstək, sosial şəbəkələrin bərpası | İcma liderləri, qadın komitələri və din xadimlərinin maarifləndirici rolu |

Zorakılıq törədənlər üçün plan

| Mərhələ | Məzmun | Azərbaycan kontekstinə uyğunlaşdırma |
|---|---|---|
| Məcburi cəlb olunma | Məhkəmə qərarı ilə reabilitasiya proqramlarına qatılma | Probasiya xidməti çərçivəsində tətbiq oluna bilər |
| Maarifləndirici modullar | Gender bərabərliyi, zorakılığın nəticələri, empati bacarıqları | İctimai nüfuzlu şəxslərin (alimlər, din xadimləri) maarifləndirmə sessiyalarına cəlbi |
| Psixoloji müdaxilə | Koqnitiv Davranış Terapiyası (CBT), emosiyaların idarə olunması | Psixoloqlar üçün yerli təlimlər, Azərbaycan dəyərlərinə uyğunlaşdırılmış metodika |
| Duluth + Mədəni spektr hibrid modeli | "Güc və nəzarət" dairəsi ilə patriarxal kodların ifşası | Azərbaycan reallığında "ailənin qorunması" konsepti ilə əlaqələndirilmiş izahlar |
| İcma əsaslı izləmə | Proqram sonrası monitorinq və dəstək | QHT-lər və yerli icma şuraları vasitəsilə nəzarət |

**Azərbaycan kişisinin psixoloji portreti**

Azərbaycan ailəsi tarixən uşaq yönümlü quruluşu ilə fərqlənir. Ənənəvi ailə modelində uşaqlar ailənin gələcəyinin, nəsil davamlılığının və sosial statusun təminatçısı kimi dəyərləndirilir[326]. Xüsusilə oğlan uşaqları, sosial-mədəni kontekstdə ailənin şərəfinin, nəsil şəcərəsinin və iqtisadi-sosial dayaqlarının simvolu olaraq qəbul edilir[327]. Bu, həm sosial antropologiyada, həm də gender tədqiqatlarında patriarxal sistemlərin tipik xüsusiyyəti kimi izah edilir. Oğlan uşaqları ailənin soyadını və nəsil xəttini davam etdirdiyi üçün xüsusi dəyər qazanır. Araşdırmalara görə, kənd yerlərində oğlan övladına sahib olmaq ailənin sosial statusunu yüksəldən

326 Mammadov, A. (2019). *Azərbaycan ailəsinin sosial institut kimi xüsusiyyətləri*. Bakı Universiteti Nəşriyyatı.

327 Altun, F. (2016). *Family and Gender Roles in Azerbaijani Society*. Journal of Social Studies

amil hesab olunur[328]. Tarixi ənənədə oğlan uşaqları ailənin gələcəkdə iqtisadi yükünü daşıyacaq, valideynlərə yaşlılıqda maddi və sosial dəstək göstərəcək "təminatçı" kimi görülüb[329]. Oğlan uşaqlarının böyüdülməsi prosesi çox vaxt "ailənin başı olmaq", "kişilik şərəfi", "qoruyuculuq" kimi dəyərlərlə müşayiət olunur. Bu isə erkən yaşdan oğlanlara patriarxal rolların ötürülməsi ilə nəticələnir. Azərbaycan kişisinin psixoloji portreti göründüyü kimi, tarixi-mədəni faktorlarla, həm də sosial-psixoloji şərtlərlə formalaşır. Azərbaycan ailə modelində oğlan uşaqları adətən sevgi və qayğı ilə böyüyür; anaların övladlara bağlılığı, ailə içində uşağa xüsusi diqqət və qayğı göstərilməsi bu prosesin əsas sütunlarındandır[330]. Bu sevgi mühiti kişilərdə həm emosional həssaslıq, həm də ailə və qadına qarşı qoruyucu münasibətin əsasını təşkil edir. Araşdırmalara görə, Azərbaycan kişiləri ənənəvi olaraq "qoruyucu", "himayəçi" və "ailənin dayağı" obrazında yetişdirilir[331]. Ailə mərkəzli dəyərlər, uşaqlıqdan ailə bağları ön plana çəkildiyi üçün, ata və qardaş rolu çox zaman fədakarlıqla assosiasiya olunur. İslam və mədəni ənənələr -mərhəmət və şəfqət dəyərləri dini-mənəvi mühitdə gücləndirilir[332]. Ədəbiyyat və folklorda kişi obrazı - Nizami, Füzuli və digər klassiklərdə kişi qəhrəmanlarının sevgi, sədaqət və fədakarlıq xüsusiyyətləri bu psixoloji portreti gücləndirən mədəni kodlardır.

**Zorakılıq meyllərinin mənbələri**

Sevgi və qayğı mühitində böyümələrinə baxmayaraq, bəzi Azərbaycan kişilərində zorakılıq davranışlarının yaranmasının sosial-psixoloji səbəbləri var. Belə ki, patriarxal sosial struktur -kişi üstünlüyünə əsaslanan dəyərlər bəzən zorakılığı "nəzarət mexanizmi" kimi legitimləşdirir[333]. Maskulin gözləntiləri -"kişi ağlamaz", "kişi sərt olar" tipli normativ yanaşmalar emosional repressiyaya və aqressiyanın yeganə çıxış yolu kimi zorakılığa yönəlməsinə səbəb ola bilər[334]. Sosial-iqtisadi təzyiqlər -işsizlik, yoxsulluq və sosial gərginlik zorakılıq riskini artıran

---

[328] Ismayilov, E. (2017). *Sociological Aspects of Family and Gender in Rural Azerbaijan*. Baku State University Press.
[329] Cavadova, L. (2021). *Patriarchy and Family in Azerbaijan: A Sociological Perspective*. Caucasus Social Review.
[330] Hüseynova, S. (2019). *Azərbaycan ailə modelində psixoloji dinamika*. Bakı: Qanun.
[331] Aliyev, R. (2021). *Gender münasibətləri və ailə institutunda kişi rolu*. Bakı: Elm.
[332] Quliyev, A. (2017). *İslam mədəniyyətində mərhəmət konsepti*. Bakı: Təhsil.
[333] Connell, R. W. (2005). *Masculinities*. Berkeley: University of California Press.
[334] Kimmel, M. (2017). *Angry White Men: Masculinity at the End of an Era*. New York: Nation Books.

amillərdir[335]. Mədəni travmalar və tarixi faktorlar, müharibələr, qaçqınlıq, zorakı münaqişə təcrübəsi bəzi nəsillərdə zorakılığa tolerant yanaşmanı gücləndirə bilir[336].

**İkili psixoloji portret**

Beləliklə, Azərbaycan kişisinin psixoloji portreti ikili xüsusiyyətlərlə xarakterizə olunur:

- Mərhəmət və himayədarlıq -sevgi, qayğı, ailəyə bağlılıq, fədakarlıq.
- Zorakılıq riski -sosial rollar, patriarxal təzyiqlər, iqtisadi və mədəni travmaların təsiri ilə ortaya çıxan dominantlıq və aqressiya halları.

Azərbaycan ailəsi ümumilikdə uşağa yönümlü olsa da, oğlan uşaqları ilə bağlı xüsusi həssaslıq patriarxal dəyərlərin, nəsil davamlılığına önəmin və sosial-iqtisadi gözləntilərin məhsuludur. Bu yanaşma ailəni uşaqlar ətrafında birləşdirən güc olsa da, gender bərabərsizliyini də gücləndirə bilir. Müasir sosial siyasət və gender həssas sosial işin vəzifəsi ailənin uşaq yönümlü mədəniyyətini qorumaq, eyni zamanda qız–oğlan balansını təmin etməkdir.Azərbaycan kişisinin psixoloji portretini bir tərəfdən şəfqət, qayğı və fədakarlıq, digər tərəfdən zorakılıq riskini artıran sosial-mədəni faktorlar müəyyən edir. Deməli, zorakılıq onların mahiyyətindən deyil, daha çox sosial-mədəni konstruksiyalardan qaynaqlanır. Bu səbəbdən də maarifləndirmə, gender bərabərliyi və psixoloji dəstək mexanizmləri kişi psixologiyasında zorakılıq meyllərinin azaldılmasında mühüm rol oynayır.

**Azərbaycan qadının psixoloji portreti**

Azərbaycan ailəsi tarixən həm patriarxal, həm də uşaqyönümlü xüsusiyyətlərə malik olub. Bu sistemdə qadının yeri bir tərəfdən ailənin qoruyucusu və dəyərlərin ötürücüsü, digər tərəfdən isə gender əsaslı sosial bölgünün subyekti kimi formalaşıb . Qadının ailədəki mövqeyi zamanla sosial-iqtisadi dəyişikliklər, dövlət siyasətləri və gender bərabərliyi hərəkatlarının təsiri altında yenidən formalaşır.Azərbaycan qadınının obrazı tarixən həm fədakar ana, həm də əxlaq və ailə dəyərlərinin qoruyucusu kimi formalaşdırılıb. Bu obraz qadına həm güc, həm də yük gətirir: o, ailənin əsas dayağı kimi görülür, lakin çox zaman bu statusun arxasında itaət, dözümlülük və fədakarlıq gözləntisi dayanır

[335] UN Women (2020). *Gender-based violence in Eastern Europe and Central Asia: Regional review*.

[336] Ismayilova, L., & El-Bassel, N. (2014). Intimate partner violence among low-income women in Azerbaijan: Risk and protective factors. *Journal of Interpersonal Violence,* 29(14), 2713–2740

Azərbaycan qadınının əsas psixoloji xüsusiyyətləri mərhəmət və fədakarlıq ön plana çəkilir. Qadın ailə üçün özünü qurban verməyi normativ davranış hesab edir. Qadınlıqla bağlı mədəni kodlar -"ana müqəddəsdir", "evin bərəkəti qadındır" kimi ifadələr bu keyfiyyəti möhkəmləndirir. Bu isə, dözümlülük və itaətlə nəticələnir. Patriarxal mühitdə qadına "səbirli ol", "ağır danışma", "kişinin sözü qanundur" kimi mesajlar uşaqlıqdan aşılanır[337] Bu, qadının öz hüquqlarını müdafiə etməsini çətinləşdirir. Qadın ailədə ilk növbədə "ana" funksiyası ilə tanınır. Azərbaycan folklorunda və ədəbiyyatında qadın uşaqların tərbiyəçisi, ailənin mənəvi dayağı kimi təsvir olunur[338] . Ənənəvi kənd ailələrində qadın daha çox məişət işləri (uşaq tərbiyəsi, yemək, təsərrüfatdakı yardımçı işlər) ilə məşğul olurdu. Oğlan uşaqları ailənin gələcəyi üçün əsas "dəyər" sayıldığından qadın oğlan anası kimi daha yüksək sosial nüfuz qazanırdı.

İkiqat rol yükü, qadın həm ailə qayğısını, həm də əmək bazarında iştirakını daşımaq məsuliyyətini çiyninə qoyur. Bu baxıdman stress və psixoloji yüklənmə çox zaman görünməz qalır. Tarixi faktlar göstərir ki, Azərbaycan qadını həm də müqavimət göstərən, ailəni qoruyan, övladını müdafiə edən obrazdır (məs., Qarabağ müharibəsi dönəmlərində qadınların sosial rolu). Gizli güc və müqavimət qadına patriarxal cəmiyyət tərəfindən, ötürülmüş kodlardır ki, qadın bu kodları dəf etmək, yaxud inkar etmək iqtidarından olmur.

**Qadınlar da "kodların daşıyıcısıdırmı?"**

Qadın da zorakılıq mədəniyyətinin "daşıyıcısı" ola bilər. Sosial öyrənmə nəzəriyyəsinə görə, uşaqlıqdan qadın da zorakılıq və itaət normalarını müşahidə edərək öyrənir və bəzi hallarda həmin davranışları normallaşdırır[339]. "Kişi ailənin başıdır", "qadın dözməlidir" tipli ənənəvi deyimlər qadınların da düşüncəsinə hopur. Bəzən qadın zorakılığı qəbul edib "uşaqlar üçün dözürəm" və ya "kişidir, əsəbləşə bilər" kimi ifadələrlə özünü doğrultması davranışı legitimləşdirir. Qadın bu kodların təkcə obyekti deyil, həm də patriarxal dəyərlərin ötürücüsüdür (qız uşaqlarını "səbirli olmağa" öyrətməsi). Qadının maliyyə müstəqilliyi olmadıqda, zorakılığı qəbul etmək əcburiyyətinə düşməsi onun zorakılığı qəbul etməsinə mühüm təsir göstərir. Boşanmış qadına qarşı cəmiyyətin təzyiqi, sosial damğalanma onu dözümlülüyə sövq edir. Qadına itaət və səbiri

---

[337] UNFPA (2021). *Gender norms and women's empowerment in Azerbaijan*.

[338] Nəcəfov, A. (2008). *Azərbaycan folklorunda ailə və qadın obrazı*. Bakı: Elm.

[339] Bandura, A. (1977). *Social Learning Theory*. Englewood Cliffs: Prentice-Hall.

dini, mədəni interpretasiyalar çərçivəsində yanlış dəyərlər qismində təqdimatı qadının zorakılığı norma kimi qəbul etməsi ilə nəticələnir.

Kişilərdə olduğu kimi, qadınlarda da psixoloji portretin ikili xarakteri müəyyən olunur. Qayğıkeş, himayədar, emosional dayanıqlı, ailə dəyərlərinə bağlı müsbət tərəf, dözümlülük və susqunluq, zorakılığa tolerantlıq, özünü günahlandırma meyli ilə riskli tərəfləri aşkarlanır. Bu, Azərbaycan qadınının həm güclü, həm də zəif tərəflərinin bir-birinə bağlı olduğunu göstərir.

Azərbaycan qadının psixoloji portreti ziddiyyətli ikilik üzərində qurulub: bir tərəfdə mərhəmət, fədakarlıq və güc, digər tərəfdə zorakılığa dözmə, itaət və susqunluq. Qadın zorakılıq mədəniyyətinin passiv qurbanı deyil, bəzən də ənənələrin ötürücüsü rolunda çıxış edir. Bu səbəbdən zorakılıq törədən kişilərlə işin təşkili zamanı, gender bərabərliyi və psixoloji dəstək yalnız kişilərə deyil, qadınlara da yönəlməlidir. Qadının nəsillərarası ötürücü mənfi kodlardan azad edilməsi üçün.

Azərbaycan hökuməti hazırda qadınlara qarşı zorakılığın qarşısını almaq üçün müxtəlif qanunverici və maarifləndirici işlər aparsa da, lakin hələ də, zorakılıq məhz şəxsin səssiz razılığı əsasında bşaladığı da müşahidə edilir.

Tədqiqatçılar, “Sükut -razılıqdır” yanaşmasının köklərini, patriarxal cəmiyyətlərdə qadının susa-susa zorakılığa dözməsi, ailə namusu, ictimai təzyiq və ya adət-ənənələr səbəbindən “razılıq” kimi yozulub. Bu, klassik hüquqda da qismən mövcuddur: məsələn, bəzi ənənəvi hüquq sistemlərində qadının nikaha və ya cinsi əlaqəyə etiraz etməməsi avtomatik razılıq sayılıb. MakKinnon və Andrea Dvorkinin feminist hüquq nəzəriyyələrində göstərirlər ki, “sükutun razılıq sayılması” qadınların struktur zorakılığa məcburi tabe etdirilməsinin ideoloji mexanizmidir. Antropoloji ədəbiyyatda bu “kültürün verdiyi razılıq” fenomeni kollektivist cəmiyyətlərdə fərdin agentliyinin yoxa çıxması ilə izah olunur. 1974 cü ildə Sherry B. Ortner “Qadın kişiyə təbiətin mədəniyyətə olduğu kimi nisbətdədir?” məqaləsində, qadınların sükutunun mədəniyyət tərəfindən “təbiiləşdirildiyini” göstərir.

1993-cü ildə Lila Abu-Luxod “Qadın dünyalarının yazıya alınması: Bədəvi qadınların hekayələri” kitdabında isə ərəb cəmiyyətlərində qadınların zorakılığa qarşı sükutunu “sosial müqavimətin dilə gətirilməyən forması” kimi, amma patriarxiya tərəfindən razılıq kimi yozulduğunu yazır. Bu kitabda, antropoloq Lila Abu-Lughod Misir bədəvi icmalarında qadınların gündəlik həyatını, onların susqunluq və danışma formalarını, ailə içi münasibətlərini və patriarxal strukturlara qarşı gizli

müqavimətlərini araşdırır. Müəllif qadınların hekayələrini yazıya almaqla onların səssizləşdirilmiş təcrübələrini "mədəniyyətin səsi"nə çevirməyi qarşısına məqsəd qoyur.

Müasir hüquqi yanaşmalar bu anlayışı rədd edir. Çünki real razılıq yalnız "aydın ifadə edilmiş, könüllü və məlumatlı" şəkildə verilə bilər. 1997- ci ildə Judith Butler *"Gücün ruhani (psixoloji) həyatı: itaət və tabeçilik nəzəriyyələri"* əsərində isə susmağın çox vaxt zorakılıq qarşısında psixoloji qorunma mexanizmi olduğunu və bunun razılıq kimi qəbul edilməsini rədd edir. nsan öz "mən"ini çox vaxt güc münasibətləri içində -yəni hakimiyyətə tabe olmaqla formalaşdırır. Bu, paradoksal bir vəziyyətdir: fərd həm gücə müqavimət göstərir, həm də ondan qidalanaraq öz kimliyini qurur. Butler, Foucault və Althusser kimi nəzəriyyəçilərə istinad edərək göstərir ki, sükut, itaət, hətta razılaşma çox vaxt psixoloji müdafiə mexanizmləridir, lakin kişi (güc) bunları razılıq kimi yozur.

Qafqaz və Mərkəzi Asiyada aparılmış bir sıra tədqiqatlar göstərir ki, ənənəvi icmalarda qadınların zorakılığa "səbir etməsi" və "səsini çıxarmaması" ailənin şərəfini qorumaq aktı kimi yozulub. Amma müasir qadın hüquqları diskursunda bu məcburi "razılıq" hesab edilir və insan alveri, məişət zorakılığı, erkən nikah kimi hallarda qadının sükutu heç bir hüquqi gücə malik sayılmır. "Mədəniyyətin və ənənənin verdiyi razılıq" və ya qadının susmasının razılıq kimi yozulması barədə nəzəriyyələr var, amma bunlar əsasən patriarxal hüquq və antropoloji müşahidələrdə rast gəlinir. Ən müasir hüquqi və feminist nəzəriyyələr bu yanaşmanı kəskin tənqid edir və qadının sükutunu zorakılıq qarşısında məcburiyyət kimi şərh edir.

**Razılıq modelləri: Müqayisəli cədvəl**

| **Model** | **Tərif** | **Əsaslandığı prinsiplər** | **Müəlliflər və istinad əsərləri** | **Üstünlüklər** | **Məhdudiyyətlər və tənqidlər** |
|---|---|---|---|---|---|
| Sözlü (Verbal / Explicit Consent) | Şəxsin aydın və açıq şəkildə "bəli" deməsi və ya yazılı razılıq forması imzalaması | Liberal hüquq, bioetika, insan hüquqları | Beauchamp, T. & Childress, J. (2001). *Principles of Biomedical Ethics*; Wertheimer, A. (2003). *Consent to Sexual Relations* | Hüquqi aydınlıq yaradır, insanın avtonomiyasını qoruyur | Bəzi hallarda formalizmə çevrilir; sosial təzyiq altında "bəli" məcbur ola bilər |
| Sükutlu (Tacit / Implied Consent) | Şəxsin etiraz etməməsi və ya | Klassik hüquq normaları, bəzi adət | MacKinnon, C. (1989). *Toward a Feminist Theory of the State*; | Praktiki asanlıq (gündəlik sosial | Feminist və hüquqi tənqid: susmaq heç vaxt razılıq |

| | | | | | |
|---|---|---|---|---|---|
| | sükutu razılıq kimi qəbul edilir | qaydaları | ECtHR -*M.C. v. Bulgaria* (2003) | münasibət-lərdə) | sayıla bilməz; zorakılığı legitimləşdirir |
| Mədəniyyət əsaslı (Cultural / Traditional Consent) | Ənənə, kollektiv təzyiq və ictimai gözləntilərin qadının susmasını və ya itaətini “razılıq” kimi yozması | Patriarxal strukturlar, kollektivist mədəniyyət | Ortner, S. (1974). *Is Female to Male as Nature is to Culture?*; Bourdieu, P. (1998). *Masculine Domination*; Abu-Lughod, L. (1993). *Writing Women's Worlds* | Sosial normaları “təbiiləşdirir”; patriarxiyanı möhkəmləndirir | Müasir hüquq və qadın hüquqları nəzəriyyələri tərəfindən rədd edilir; qadının agentliyini yox sayır |

**Azərbaycan reallığında zorakılıq tördən kişilərlə sosial işin təşkili üçün nüumunələr**

1. Ailə və icma yönümlü yanaşma

• Ailə institutunun gücləndirilməsi -Azərbaycan cəmiyyətində ailə dəyərləri çox güclüdür. Sosial işçilər ailə məsləhət mərkəzlərində kişi və qadınların emosional savadlılıq və münaqişə idarəetməsi bacarıqlarını öyrətməlidir.

• İcma liderləri ilə əməkdaşlıq -məhəllə ağsaqqalları, din xadimləri və ziyalılarla birgə gender bərabərliyi mesajlarının verilməsi zorakılığa sosial dözümlülüyü azaldır.

1.2. Sosial-iqtisadi dəstək

• Karyera və məşğulluq proqramları -işsizlik və maddi çətinlik zorakılıq riskini artırır. Sosial xidmətlər kişilərin məşğulluq imkanlarını artıraraq təzyiqi azalda bilər.

• Stress idarəetmə təlimləri -iqtisadi və sosial gərginlikdən doğan aqressiyanın qarşısını almaq üçün praktik bacarıqlar öyrədilməlidir.

2. Psixoloji müdaxilə çərçivəsi

2.1. Mərhəmət və empatiyanın gücləndirilməsi

• Empatiya məşqləri -qrup terapiyalarında və fərdi sessiyalarda “rol dəyişikliyi” texnikaları (məsələn, kişinin qadının və ya uşağın mövqeyindən danışması) tətbiq oluna bilər.

• Pozitiv ata rolu proqramları -ataların uşaqlarla sevgi və qayğı üzərində münasibətlər qurmasına yönəlmiş psixoloji dəstək zorakılıq riskini azaldır (UNICEF, 2022).

2.2. Zorakılıq davranışının dəyişdirilməsi

• CBT əsaslı müdaxilələr (Koqnitiv Davranış Terapiyası) -aqressiv

düşüncə və inancların dəyişdirilməsi.

• Duluth modelinin adaptasiyası -güc və nəzarət dinamikasının ifşası, məsuliyyətin qəbul etdirilməsi, lakin Azərbaycan reallığında "mədəni spektr hibrid modeli" ilə birləşdirilərək daha yumşaq, maarifləndirici yanaşma ilə tətbiq olunmalıdır.

Qəzəb idarəetmə proqramları -kişilərə emosional partlayışların idarəsi üçün texnikalar öyrədilir (məsələn, nəfəs məşqləri, "time-out" metodlarının tətbiqi.

**Azərbaycan reallığına uyğun praktik alətlər**

| Alət | Məqsəd | Azərbaycan reallığına uyğun tətbiqi |
|---|---|---|
| "Fərdi Sosial Plan" | Risklərin qiymətləndirilməsi və fərdi reabilitasiya planı hazırlanması | Sosial işçilər zorakılıq meylli kişilərlə fərdi plan qurur: işsizlik, ailə münaqişəsi, alkoqol istifadəsi kimi risklərə uyğun hədəflər qoyulur |
| Empatiya və mərhəmət məşqləri | Emosional savadlılığı artırmaq | Qrup seanslarında ailə dəyərlərindən hekayələr, ədəbiyyat nümunələri (məs. Nizami, Füzuli) üzərində müzakirələr aparmaq |
| Ata klubları | Atalıq bacarıqlarının gücləndirilməsi | Kənd və şəhərlərdə icma əsaslı görüşlər -kişilər uşaqlarına sevgi ilə yanaşma və zorakılıqsız intizam metodlarını öyrənirlər |
| Kişilər üçün dəstək qrupları | Sosial təcridi azaltmaq, aqressiyanı azaltmaq | Psixoloq rəhbərliyində kişilərin öz problemlərini bölüşməsi və zorakılıqsız həll yolları tapması |
| Qanunvericiliklə bağlı maarifləndirmə | Məsuliyyət hissini artırmaq | CM 133, 144.1 və məişət zorakılığı haqqında qanunun izahı; kişi üçün hüquqi nəticələrin aydın göstərilməsi |

Azərbaycan kişisinin mərhəmətli və ailə yönümlü təbiəti sosial iş və psixoloji müdaxilə proqramlarında əsas güclü tərəf kimi istifadə edilməlidir. Zorakılıq isə şəxsi xarakterin deyil, patriarxal strukturların, iqtisadi təzyiqlərin və emosional repressiyanın məhsulu kimi dəyərləndirilməlidir.

Buna görə də, ailə və icma yönümlü proqramlarla sosial dayaqlar gücləndirilməklə sosial işin təşkili aparılmalı, empatiya, mərhəmət və

emosional savadlılığı artıran psixoloji dəstək texnikaları tətbiq olunmalıdır. O cümlədən, zorakılığın nəticələri barədə hüquqi və maarifləndirici yanaşmalarda açıq mesajlar verilməlidir.

**Azərbaycan kontekstində zorakılıq törədən kişilərlə sosial işin aparılması üzrə mərhələli protokol**

**Qiymətləndirmə mərhələsi**

Məqsəd: Risk faktorlarını, zorakılıq meyllərini və potensial resursları müəyyənləşdirmək.

İlkin müsahibə və anamnez toplanması

- Ailə mühitinin analizi (ailədaxili münasibətlər, patriarxal dəyərlərin təsiri).
- İqtisadi vəziyyətin öyrənilməsi (işsizlik, borc, sosial təzyiq).
- Uşaq və qadınlarla münasibətlərin qiymətləndirilməsi.

Risk qiymətləndirmə alətlərinin tətbiqi

- “Risk mərtəbəsi cədvəli”: aşağı -orta -yüksək risk.
- Aqressiya səviyyəsini ölçən psixoloji testlər (Buss-Perry Aggression Questionnaire).
- Alkoqol və narkotik istifadəsinin təsiri.

Psixoloji portretin qurulması

- Şəxsi tarixi (uşaqlıq travmaları, zorakılıq şahidliyi).
- Emosional savadlılıq və empatiya qabiliyyətinin yoxlanması.

Azərbaycan reallığına uyğun detal olaraq “Ağsaqqal müsahibəsi”, yaxud bəzi hallarda nüfuzlu icma liderlərinin və ya qohumların rəyini almaq əlavə sosial baxışı gücləndirir.

**Müdaxilə mərhələsi**

Məqsəd: Zorakılıq davranışının qarşısını almaq, alternativ sosial bacarıqlar öyrətmək.

Fərdi seanslar (psixoloji iş), Koqnitiv Davranış Terapiyası (CBT) ilə zorakı düşüncələrin transformasiyası. Qəzəb idarəetmə texnikaları (time-out, nəfəs məşqləri, rol dəyişimi).

Qrup seansları (sosial iş), “Ata klubları”: ailə və uşaqlara sevgi yönümlü atalıq bacarıqları. Empatiya və mərhəmət məşqləri (ədəbiyyat nümunələri, həyat hekayələri üzərində müzakirə). Gender bərabərliyi barədə maarifləndirmə.

Maarifləndirici tədbirlər, Hüquqi biliklərin verilməsi (Məişət zorakılığı haqqında Qanun, CM 133, 144.1). Sağlam ünsiyyət və münaqişə idarəetməsi bacarıqları.

Azərbaycan reallığına uyğun olaraq, mədəni spektr hibrid modeli - zorakılığın “güc və nəzarət” konseptinə qarşılıq olaraq, mərhəmət və ailə

birliyi dəyərlərinin önə çəkilməsi.

**Reabilitasiya mərhələsi**

Məqsəd: Davranış dəyişikliyini möhkəmləndirmək, zorakılıqsız həyat tərzini davamlı etmək.

Fərdi sosial plan, İş və məşğulluq dəstəyi (təlimlər, peşə kursları). Stress idarəetmə və psixoloji dayanıqlılıq proqramları.

Ailə ilə birlikdə işləmək, Ailə terapiyası seansları. Qadın və uşaqlar üçün təhlükəsizlik planı.

İctimai reinteqrasiya. Kişinin icma fəaliyyətlərinə cəlb edilməsi (könüllülük, idman, mədəni tədbirlər). İcma liderlərinin dəstəyi ilə "pozitiv kişi rolu"nun ictimailəşdirilməsi.

Azərbaycan reallığına uyğun olaraq, "müsbət ata obrazı" və "qayğıkeş kişi" modelinin ictimai kampaniyalarda gücləndirilməsi.

**İzləmə və monitorinq mərhələsi**

Məqsəd: Dəyişikliklərin davamlılığını təmin etmək və relapsın (zorakılığın təkrarı) qarşısını almaq.

Müntəzəm görüşlər

- İlk 3 ay -həftəlik görüşlər.
- Sonrakı 6 ay -ayda 1 dəfə izləmə.

Qiymətləndirmə indikatorları

- Zorakılıq hallarının təkrarlanmaması.
- Ailə münasibətlərində müsbət dəyişikliklər.
- İşsizlik və sosial təcridin aradan qaldırılması.

Dəstək sistemlərinin aktivləşdirilməsi

- Sosial xidmətlər → davamlı müşayiət.
- Psixoloji yardım → müntəzəm dəstək.
- İcma resursları → davamlı inteqrasiya.

Azərbaycan reallığına uyğun olaraq, "etimadlı nəzarətçi", " dost dəstəyi", bəzi hallarda sosial işçi və ya icma lideri kişi ilə müntəzəm əlaqədə olaraq, davranış dəyişikliyini izləyir.

**Qısa xülasə -4 mərhələli protokol**

1. Qiymətləndirmə -risklərin analizi, psixoloji portret.
2. Müdaxilə -fərdi + qrup seansları, maarifləndirmə.
3. Reabilitasiya -fərdi sosial plan, ailə və icma dəstəyi,
4. İzləmə -monitorinq göstəricilərin ölçülməsi, relapsın qarşısının alınması.

**Azərbaycan qadını ilə sosial iş üzrə mərhələli protokol**

Qiymətləndirmə mərhələsi

Məqsəd: Qadının psixoloji vəziyyətini, sosial resurslarını və

zorakılıq təcrübəsini öyrənmək.

İlkin müsahibə və anamnez

- Qadının ailədaxili rolu: “səbirli olmalıyam”, “uşaqlar üçün dözürəm” tipli ifadələrin analizi.
- Maddi vəziyyət: iqtisadi asılılıq dərəcəsi.
- Sosial şəbəkə: qadının ailədən və cəmiyyətdən aldığı dəstək.

Risk qiymətləndirməsi

- Məişət zorakılığı risk formaları: fiziki, psixoloji, iqtisadi, seksual.
- “Zorakılığa tolerantlıq göstəriciləri” -qadının davranış normalarına nə dərəcədə boyun əydiyini ölçmək.

Psixoloji testlər və müşahidə

- Travma simptomları (flashback, qorxu, təşviş).
- Özünə inam və hüquq bilgilərinin səviyyəsi.

Azərbaycan reallığına uyğun olaraq, ilkin görüşlərdə qadının “utanc” hissi güclü ola bilər. Ona görə də qadın sosial işçi və ya qadın psixoloq tərəfindən müsahibə daha effektivdir.

**Müdaxilə mərhələsi**

Məqsəd: Qadının zorakılığa tolerantlığını azaltmaq, hüquq və resurslarını tanıtmaq, özünəinamını gücləndirmək.

Fərdi psixoloji dəstək

- Travma yönümlü terapiya (Trauma-Informed Care).
- Özünə dəyər və empatiya məşqləri.
- Emosional güc bərpası: “Mənim də haqqım var” inancının gücləndirilməsi.

Maarifləndirmə və hüquqi biliklər

- Məişət zorakılığı haqqında Qanun, qadının hüquqları.
- Boşanma, aliment, dövlət dəstəyi mexanizmlərinin izahı.

Qrup seansları (qadın dəstək qrupları)

- Oxşar təcrübələri paylaşmaq, yalnız olmadığını görmək.
- Zorakılığa qarşı mübarizə hekayələrinin bölüşülməsi.
- Gender bərabərliyi və hüquqlar mövzusunda müzakirələr.

Azərbaycan reallığına uyğun olaraq, qadınların çoxu açıq danışmağa çəkinir. Ona görə də təhlükəsiz məkan (sığınacaq və ya dəstək qrupu) vacibdir.

**Reabilitasiya mərhələsi**

Məqsəd: Qadının sosial müstəqilliyini və güclənməsini təmin etmək.

İqtisadi müstəqillik proqramları

- Peşə kursları, mikrokredit və ya öz biznesini qurmaq dəstəyi.
- İş tapmaqda yardım (Sosial Xidmət Agentliyi ilə əməkdaşlıq).

Ailə və övladlarla münasibətlərin bərpası

- Qadın və uşaqlar arasında travma sonrası münasibətlərin yaxşılaşdırılması.
- Ana üçün "pozitiv valideynlik" təlimləri.

Sosial reinteqrasiya

- İcma fəaliyyətlərinə (qadın təşkilatları, mədəni tədbirlər) cəlb edilməsi.
- Media və kampaniyalarda "güclü qadın" obrazının dəstəklənməsi.

Azərbaycan reallığında, qadınların çoxu ailədən ayrılmaq istəmir. Ona görə reabilitasiya mərhələsində qadının "ailə içində güclənmə" modeli də nəzərə alınmalıdır.

**İzləmə və monitorinq mərhələsi**

Məqsəd: Qadının yenidən zorakılıq mühitinə düşməsinin qarşısını almaq və güclənməni davamlı etmək.

Müntəzəm psixoloji görüşlər

- İlk 3 ay -həftəlik.
- Sonrakı 6 ay -ayda bir dəfə.

Sosial dəstək ilə inteqrasiya

- Qadın təşkilatları ilə davamlı əlaqə.
- Sığınacaqdan çıxan qadınlar üçün izləmə proqramı.

Göstəricilərin izlənməsi

- Yenidən zorakılıq hallarının olub-olmaması.
- Qadının iqtisadi müstəqillik və özünəinam səviyyəsi.
- Hüquqi biliklərdən istifadəsi.

Azərbaycan reallığınada bəzi qadınlar sosial damğadan qorxaraq prosesdən uzaqlaşır. Ona görə məxfilik zəmanəti izləmə mərhələsinin əsas şərtidir.

**Qısa xülasə**

1. Qiymətləndirmə -qadının zorakılığa tolerantlığı, risklər və resursların analizi.
2. Müdaxilə -psixoloji dəstək, hüquqi maarifləndirmə, qadın qrupları.
3. Reabilitasiya -iqtisadi müstəqillik, ailə münasibətləri, sosial reinteqrasiya.
4. İzləmə -müntəzəm psixoloji dəstək, sosial şəbəkə inteqrasiyası, göstəricilərin izlənməsi.

Bu protokol qadının “kod daşıyıcısı” rolunu dəyişmək üçün iki istiqamətdə işləyir. Şəxsi transformasiya -qadının öz hüquqlarını tanıması, özünəinamının artması. Sosial transformasiya -qadının zorakılığı normallaşdıran kodlardan uzaqlaşıb, yeni qadınlıq modelini gələcək nəsillərə ötürməsi.

**Azərbaycan kişiləri və qadınları ilə sosial iş protokollarının müqayisəsi**

| Mərhələ | Kişilər üçün sosial iş protokolu | Qadınlar üçün sosial iş protokolu |
|---|---|---|
| 1. Qiymətləndirmə | - İlkin müsahibə: zorakılıq davranışları, iqtisadi vəziyyət, ailədaxili rol. - Risk mərtəbəsi (aşağı–orta–yüksək). - Aqressiya səviyyəsi testləri. - Uşaqlıq travmaları və emosional savadlılıq. | - İlkin müsahibə: zorakılığa məruz qalma, dözümlülük və “səbir kodları”. - Risk qiymətləndirməsi: fiziki, psixoloji, iqtisadi, seksual zorakılıq. - Travma simptomları (təlaş, qorxu, flashback). - Sosial dəstək və iqtisadi asılılıq səviyyəsi. |
| 2. Müdaxilə | - Fərdi psixoloji iş: CBT, qəzəb idarəetmə. - Qrup seansları: ata klubları, empatiya məşqləri. - Hüquqi biliklər: məsuliyyət və nəticələr. - “Mədəni spektr hibrid modeli” -mərhəmət və ailə dəyərləri önə çəkilir. | - Fərdi psixoloji iş: travma yönümlü terapiya, özünəinam məşqləri. - Qrup dəstək seansları: qadınların paylaşım və güclənmə məkanı. - Hüquqi maarifləndirmə: aliment, boşanma, dövlət dəstəyi. - Zorakılığa tolerantlığı azaldan gender bərabərliyi təlimləri. |
| 3. Reabilitasiya | - Fərdi sosial plan: iş və məşğulluq dəstəyi. - Stress idarəetmə proqramları. - Ailə ilə münaqişələrin müsbət həlli. - İcma fəaliyyətlərinə inteqrasiya (könüllülük, idman, mədəni tədbirlər). | - İqtisadi müstəqillik proqramları: peşə kursları, mikrokredit. - Pozitiv valideynlik təlimləri. - Uşaqlarla münasibətlərin bərpası. - İcma və qadın təşkilatlarına qoşulmaq, “güclü qadın” obrazının dəstəklənməsi. |
| 4. İzləmə və monitorinq | - İlk 3 ay: həftəlik görüşlər. - Sonrakı 6 ay: aylıq izləmə. - Göstəricilər: zorakılıq təkrarının olmaması, işlə təminat, ailə münasibətlərində dəyişikliklər. - “Etimadlı nəzarətçi” (sosial işçi və ya icma lideri ilə müntəzəm əlaqə). | - İlk 3 ay: həftəlik psixoloji görüşlər. - Sonrakı 6 ay: aylıq izləmə. - Göstəricilər: zorakılığa qayıdış olmaması, iqtisadi müstəqillik, özünəinam. - Məxfilik zəmanəti əsas şərt. |

**Oxşarlıqlar:** Hər iki protokol dörd mərhələli çərçivədə qurulub - qiymətləndirmə, müdaxilə, reabilitasiya, izləmə. Psixoloji dəstək, hüquqi maarifləndirmə və icma dəstəyi hər iki tərəf üçün vacibdir. Fərqli cəhətlər:

- Kişilərdə fokus zorakılıq davranışını azaltmaq, mərhəmət və empatiyanı gücləndirmək üzərindədir.
- Qadınlarda isə əsas istiqamət zorakılığa tolerantlığı aradan qaldırmaq, iqtisadi müstəqilliyi və özünəinamı artırmaqdır.

Beləliklə, Azərbaycan kişisinin, həm də qadınının psixoloji portretində eyni mədəni kodların izi görünür: "səbir", "ailəni qorumaq", "kişinin sözü qanundur", "uşaqlar üçün dözmək" və s. Bu kodlar bir tərəfdən mərhəmət və ailə bağlılığı yaradır, digər tərəfdən isə zorakılığa dözümlülük və ya zorakılığı legitimləşdirmə funksiyası daşıyır.

**Zorakılığın açarı nədir?**

Bu kodları dəyişmək zorakılığın açarıdır. Yəni problemin kökü fərdin psixologiyasında yox, mədəniyyətin verdiyi kodlardadır.

**Açar üç istiqamətdədir:**

1. Kodların aşkarlanması -zorakılığa aparan inancların açıq göstərilməsi ("kişidir, döyər" tipli normativlərin səhv olduğunu göstərmək).
2. Alternativ dəyərlərin gücləndirilməsi -mərhəmət, qarşılıqlı hörmət, zorakılıqsız ünsiyyət modellərinin mədəniyyətin özündən çıxarılması (Nizami, Füzuli, klassiklərdəki sevgi və fədakarlıq obrazları).
3. Yeni sosial öyrənmə -həm kişilər, həm qadınlar üçün maarifləndirici proqramlar, rol modelləri və praktiki bacarıqlar.

**Azərbaycan reallığında açarın ifadəsi**

- Kişilər üçün: zorakılığın güc deyil, zəiflik əlaməti olduğunu göstərmək.
- Qadınlar üçün: dözümlülüyün fəzilət deyil, travmanın davamı olduğunu izah etmək.
- İcma üçün: zorakılıqsız ailə modelini yeni norma kimi təqdim etmək.

Yəni, zorakılığın açarı -patriarxal kodların çevrilməsi və alternativ mədəni modellərin yaradılmasıdır.

Zorakılığın açarı model cədvəl.

| Kod (Mədəni inanc, ənənə) | Nəticə (Zorakılıq və davranış təsiri) | Alternativ açar (Yeni yanaşma, dəyişmə kodu) |
|---|---|---|
| "Kişi həmişə güclü olmalıdır" | Emosiyaların boğulması, aqressiya və zorakılıqla ifadə | "Kişi də hisslərini bölüşə bilər" → emosional savadlılıq və empatiya təlimləri |
| "Qadın dözməlidir, səbirli olmalıdır" | Zorakılığın qəbul edilməsi, qadının özünəinamının azalması | "Qadın hörmətə və bərabərliyə layiqdir" → hüquq bilikləri və qadın güclənməsi proqramları |
| "Ailə üçün hər şeyə göz yummaq lazımdır" | Zorakılığın gizlədilməsi, uşaqlara ötürülməsi | "Sağlam ailə zorakılıqsız ailədir" → ailə terapiyası və təhlükəsizlik planı |
| "Uşaqlar atasının sözünü dinləməlidir, ana dözməlidir" | Uşaq zorakılığı normallaşdırır, gələcəkdə təkrarlayır | "Uşaqlar sevgi və hörmətlə böyüməlidir" → pozitiv valideynlik və ata klubları |
| "Qadının yeri evdir, kişi çöldədir" | Qadının iqtisadi asılılığı, güc balansının kişidə cəmlənməsi | "Qadın və kişi bərabər imkanlara sahibdir" → qadınların peşə və təhsil dəstəyi |
| "Zorakılıq ailədaxili məsələdir" | Sosial təcrid, hüquqi müdaxilənin gecikməsi | "Zorakılıq cinayətdir, ictimai məsələdir" → hüquqi maarifləndirmə və dövlət müdaxiləsi |

Zorakılığın açarı -patriarxal kodların deşifrə olunması və onların yerinə hörmət, empatiya, bərabərlik və zorakılıqsız ünsiyyət dəyərlərinin yerləşdirilməsidir. Bu sxem göstərir ki, problem insanın mahiyyətində deyil, mədəniyyətin verdiyi davranış kodlarındadır. Kod dəyişdikdə zorakılığın kökü də dəyişir.

**Sevgi və qayğı ilə böyüyən kişinin zorakı tipə çevrilməsi**

Əvvəlcədən qeyd edək ki, psixologiyada zorakılıq genetik və dəyişməz taleyə bağlı bir xüsusiyyət deyil. Çox vaxt qazanılmış davranış və mədəni normaların təsiri ilə formalaşır. Yəni şəfqətli ailədə böyüyən bir kişi belə sonradan zorakı davranış göstərə bilər. **Sosial öyrənmə nəzəriyyəsinə görə,** uşaq ailədə zorakılıq görməsə də, məktəbdə, dost çevrəsində, televizorda, sosial şəbəkələrdə zorakılıq nümunələrini mənimsəyə bilər. Son zamanalr modelləşdirmə yolu ilə "kişilik = güc və nəzarət" anlayışı şüura yerləşdirilir.

Cəmiyyət kişidən sərtlik, güc, hakimlik gözləyir. Sevgi ilə böyüyən

kişi, sosial mühitdə "zəif" görünməmək üçün aqressiyanı müdafiə mexanizmi kimi seçə bilər.

İşsizlik, sosial təcrid, iqtisadi problemlər, frustrasiya gətirib çıxara bilir. Sevgi mühitindən gələn şəxs belə, problemlərin həlli yolunu öyrənməyibsə, aqressiya ilə kompensasiya edir. Sevgi ilə böyüyən, amma duyğularını ifadə etməyi öyrənməyən kişi "qəzəb"i yeganə emosional çıxış yolu kimi istifadə edə bilər.

**Müasir dünyada kişi zorakılığının artım səbəbləri**

Dünyada baş verən qlobal sosial dəyişikliklər, o cümlədən, gender rollarının dəyişməsi, qadınların iqtisadi müstəqilliyi artdıqca, bəzi kişilərdə "hakimiyyət itirmək qorxusu" yaranır və onlar bunu zorakılıqla kompensasiya edir. Kimmel hesab edir ki, qadın hüquqları gücləndikcə "köhnə kişilik modeli" böhran yaşayır.

Onlayn zorakılıq, kiberbullinq, rəqəmsal şantaj kişilərin zorakılığına yeni müstəvi açır. "Toksik maskulin" onlayn icmalarda (forumlar, sosial media) daha çox normallaşır.

Müasir dünyada işsizlik, müharibələr, miqrasiya böhranları kişilərin rolunu sarsıdır. Özünü "ailənin dayağı" kimi görə bilməyən kişi aqressiyaya yönəlir.

Cəmiyyət hələ də kişini patriarxal kodların gücü ilə"hakim", qadını "dözən" mövqedə təqdim edir. Hüquqi mexanizmlərin zəif tətbiqi zorakılığa qarşı cəzasızlıq mühiti yaradır. Sevgi içində böyümək zorakılığa qarşı tam zəmanət deyil. Əgər şəxs sosial mühitdə zorakılıq modelini görürsə, emosional savadlılığı zəifdirsə, iqtisadi-sosial təzyiqlərlə üzləşirsə, zorakılığa meyl göstərə bilər. Müasir dünyada zorakılığın artımı əsasən cinsiyyət rollarının dəyişməsi, sosial-iqtisadi təzyiqlər və rəqəmsal məkanda zorakılığın yeni formaları ilə bağlıdır.

**Zorakılıq dövrü və alternativ açarlar**

| Mərhələ | Zorakılığa aparan yol | Alternativ açar (müdaxilə aləti) |
|---|---|---|
| Sevgi və qayğı içində böyümə | Uşaq ailədə sevgi görsə də, emosiyaları ifadə etməyi öyrənmir. "Kişi ağlamaz" mesajı duyğusal savadlılığı məhdudlaşdırır. | Uşaq və yeniyetmələr üçün emosional savadlılıq təlimləri - duyğuları tanımaq, ifadə etmək və idarə etmə bacarığı. Pozitiv valideynlik proqramları. |
| Sosial kodların təsiri | Patriarxal gözləntilər: "kişi hökm etməlidir", "qadın dözməlidir". Kişi gücünü zorakılıqla sübut etməyi normativ davranış kimi görür. | Maarifləndirmə kampaniyaları - gender bərabərliyi, zorakılıqsız ünsiyyət. Mədəni spektr hibrid modeli -Nizami, Füzuli, dini və ədəbi dəyərlər üzərindən mərhəmət və sevgi obrazlarının |

| | | |
|---|---|---|
| | | gücləndirilməsi. |
| Təzyiq və böhran | İşsizlik, sosial-iqtisadi çətinlik, rol itirmək qorxusu. Kişi ailənin dayağı ola bilmədiyini hiss edir. | Sosial dəstək və iqtisadi gücləndirmə -peşə kursları, məşğulluq proqramları, icma dəstəyi. Psixoloji konsultasiya - stress idarəetmə bacarıqları. |
| Aqressiya | Emosiyaları sağlam ifadə edə bilməmək → qəzəb yeganə çıxış yolu olur. | Qəzəb idarəetmə proqramları - nəfəs texnikaları, “time-out” metodu. Koqnitiv davranış terapiyası (CBT) -zorakı düşüncələrin dəyişdirilməsi. |
| Zorakılıq | Aqressiya zorakılıq davranışına çevrilir: fiziki, psixoloji, iqtisadi və ya rəqəmsal zorakılıq. | Hüquqi müdaxilə -məsuliyyətin aydın göstərilməsi (qanunların tətbiqi). Duluth modeli + Azərbaycan adaptasiyası - məsuliyyət + mərhəmət. Qrup proqramları -zorakılıqsız ünsiyyət və empatiya öyrədilməsi. |
| Dövrün ötürülməsi | Uşaq zorakılığın şahidi olur, yeni nəsil eyni davranış kodlarını mənimsəyir. | Uşaqlar və gənclər üçün preventiv proqramlar - məktəblərdə gender bərabərliyi və zorakılıqsız ünsiyyət tədrisi. Pozitiv rol modelləri - “zorakılıqsız kişi” obrazının ictimailəşdirilməsi. |

Zorakılıq dövrünün açarı hər mərhələdə kiçik müdaxilə alətləri ilə dövrü qapamaqdır.

- Uşaq yaşında, emosional savadlılıq.
- Sosial kod mərhələsində, maarifləndirmə və alternativ mədəni nümunələr.
- Böhran mərhələsində, sosial-iqtisadi dəstək və psixoloji xidmətlər.
- Aqressiya mərhələsində, terapiya və qəzəb idarəetmə.
- Zorakılıq mərhələsində, hüquqi və sosial məsuliyyət.
- Nəsillərarası ötürülmədə, təhsil və rol modellərinin dəyişdirilməsi.

**Tətbiq edilən alətlər nəticəsində milli xüsusiyyətlərin zəifləməsi qorxusu varmı?**

Əslində yox. Çünki məqsəd milli xüsusiyyətləri silmək deyil, onları müsbət istiqamətdə transformasiya etməkdir. Azərbaycan ailə modelində sevgi, qayğı, ailəyə bağlılıq çox güclüdür. Bunlar qorunmalıdır. Amma zorakılığı normallaşdıran “dözmək”, “hakimiyyət yalnız kişiyə məx-

susdur" kodları dəyişməlidir. Bu, milli xüsusiyyətləri zəiflətmir, əksinə zənginləşdirir və gələcək nəsilləri qoruyur.

**Zorakılığın kodlarını oxumaq**

İnsanın bioloji varlığını formalaşdıran DNT (dezoksiribonuklein turşusu) hüceyrələrdə kodlaşdırılmış məlumat daşıyır və nəsildən-nəslə ötürülür. Bu metafora sosial elmlərdə də istifadə edilə bilər: zorakılıq da təkcə təsadüfi hadisə deyil, müəyyən sosial və psixoloji kodlar vasitəsilə kodlaşdırılmış, öyrənilmiş və ötürülən davranış nümunəsidir[340]. "Zorakılığın kodlarını oxumaq" yanaşması bu davranışların bioloji deyil, mədəni, sosial və hüquqi strukturlarda necə təzahür etdiyini anlamağa imkan verir.

**Zorakılığın kodlarının nəzəri əsasları**

**Sosial öyrənmə nəzəriyyəsi**ndə, Albert Bandura göstərir ki, zorakılıq çox vaxt müşahidə və təkrar yolu ilə öyrənilir. Ailədə zorakılığa şahid olan uşaq həmin davranışı "normal" kod kimi mənimsəyə bilər. Bu, "zorakılıq kodlarının" nəsildən-nəslə ötürülməsini izah edir. Patriarxal struktur və gender kodları ilə bağlı, Sylvia Walby və Pierre Bourdieu zorakılığı patriarxal sistemin məhsulu kimi şərh edirlər. Burada qadınların itaətkar, kişilərin dominant rolunda təqdim olunması zorakılıq üçün "mədəni kod" yaradır[341]. Zorakılıq dövrü ilə bağlı isə, Lenore Walker göstərir ki, zorakılıq təsadüfi deyil, müəyyən dövr üzrə kodlaşır[342]:

- gərginliyin yığılması,
- zorakılıq partlayışı,
- "bal ayı" mərhələsi. Bu dövrün təkrarlanması kodların davamlılığını təmin edir.

Məcburedici nəzarət sisytemi ilə bağlı, Evan Stark zorakılığı yalnız akt kimi deyil, sistematik nəzarət və idarəetmə kodları kimi izah edir. Bu kodlar qadının davranışını məhdudlaşdırır və "zorakılığın görünməyən formaları"nı açır[343].

**Zorakılıq kodlarının sosial təzahürləri Starka görə, f**iziki kodlarda, ailə və cəmiyyətdə "tərbiyə məqsədilə" şiddətin normallaşdırılması. Psixoloji kodlarda, təhqir, deyinmə, qısqanclıq, izolasiya davranışlarının "ailə daxili iş" kimi qəbul edilməsi, iqtisadi kodlarda, qadının işləməsinə icazə verilməməsi, maliyyə asılılığının zorakılıq

---

340 Bourdieu, P. (2001). *Masculine Domination.* Stanford University Press.
341 Bourdieu, P. (2001). *Masculine Domination.* Stanford University Press.
342 Walker, L. (1979/2009). *The Battered Woman Syndrome.* Springer.
343 Stark, E. (2007). *Coercive Control: The Entrapment of Women in Personal Life.* Oxford University Press.

vasitəsi kimi istifadəsi[344]. Bütün qeyd edilənlərlə bərabər, mədəni kodlar vasitəsilə qadının "namus" və "şərəf" anlayışları ilə eyniləşdirilməsinin həyata keçirilməsi baş verir.

**Azərbaycan konteksti**

Azərbaycan cəmiyyətində zorakılıq kodları həm ənənəvi, həm də müasir formalarla mövcuddur.

Ənənəvi kodlarla, erkən nikah, qadının söz haqqının məhdudlaşdırılması, zorakılığın "ailədaxili məsələ" kimi qapalı qalması ilə müşahidə edilir.

Müasir kodlar isə, rəqəmsal zorakılıq, kiberbullinq, qadınların sosial şəbəkələrdə təqibi.

Dövlət Statistika Komitəsinin 2022-ci ilin məlumatına görə, bir ildə 3 mindən çox məişət zorakılığı faktı qeydə alınıb, lakin qurbanların yalnız az bir hissəsi hüquqi müdafiədən faydalana bilib. Bu, zorakılıq kodlarının hələ də ictimai və hüquqi mexanizmlərdə dərinləşdiyini göstərir. "Zorakılığın kodlarını oxumaq" yanaşması zorakılığı yalnız fərdi aqressiya kimi deyil, öyrənilmiş, mədəniyyətləşdirilmiş və sosial strukturlarla kodlaşdırılmış fenomen kimi anlamağa imkan verir. Bu kodların de-kodlaşdırılması (şifrəsinin açılması) və dəyişdirilməsi üçün:

- təhsil və maarifləndirmə,
- hüquqi islahatlar,
- sosial reabilitasiya proqramları zəruridir.

Beləliklə, zorakılığın qarşısının alınması yalnız cəza ilə deyil, kodların dəyişdirilməsi ilə mümkündür.

**Zorakılıq kodlarının şərhi**

"Zorakılığın kodlarını oxumaq" yanaşması göstərir ki, zorakılıq təsadüfi və spontan hadisə deyil; o, sosial, mədəni, hüquqi və psixoloji kodların birləşməsi nəticəsində baş verir. Bu kodlar zorakılığın öyrənilməsini, ötürülməsini və legitimləşdirilməsini təmin edir .

**Patriarxal mədəniyyətin kodları.** Patriarxal sistem kişiləri dominant, qadınları isə itaətkar rolunda təqdim edir. Bu "gender kodları" zorakılığın normal və "ailədaxili məsələ" kimi qəbul olunmasına gətirib çıxarır. Qadınların "namus" və "şərəf" anlayışları ilə eyniləşdirilməsi, **k**işinin "ailənin başçısı" statusu, qadının əsas rolunun ev və uşaq qayğısı kimi qəbul edilməsi bu qabildən olan kodlardır. Bu kodlar kişilərin güc tətbiqini "nizam-intizam" aləti kimi təqdim edir. Araşdırmalar göstərir ki,

---

[344] Adams, A. E., Sullivan, C. M., Bybee, D., & Greeson, M. R. (2008). Development of the scale of economic abuse. *Violence Against Women, 14*(5), 563–588.

patriarxal dəyərlərin güclü olduğu cəmiyyətlərdə məişət zorakılığı göstəriciləri daha yüksəkdir.

**Gender stereotiplərinin kodları,** stereotiplər qadın və kişilərin davranışları barədə cəmiyyətin sabit inanclarıdır. Bu inanclar çox vaxt zorakılığın bəraətləndirilməsi üçün "kod" rolunu oynayır. Qadınların emosional və zəif, kişilərin güclü və dominant olması, qadın liderliyinin "uyğun olmaması", kişilərin isə "qərarverici" olması, aqressiyanın "kişilik atributu" kimi təqdim olunması gender sterotpləri ilə bağlıdır. Bu kodlar zorakılığı "təbii kişi davranışı" kimi normallaşdırır. Empirik tədqiqatlarda[345] göstərilir ki, stereotiplərin güclü olduğu mühitlərdə qadınların zorakılığa məruz qalma ehtimalı artır.

**"Ailə daxili iş" kodları vasitəsilə, a**ilə daxilində görülən ödənişsiz işlərin qadınlara aid edilməsi və onların dəyərsizləşdirilməsi zorakılığın sosial kodlarından biridir. **E**v işlərinin yalnız qadın öhdəliyi olması, qadının ailə üzvlərinə xidmət etməsinin "borc" hesab olunması, bu işlərin iqtisadi dəyərinin tanınmaması qeyd edilən kodların səas göstəricisidir. Bu kod qadının sosial və iqtisadi müstəqilliyini məhdudlaşdırır, onu asılı vəziyyətə salır. Araşdırmalar göstərir ki, ailədaxili öhdəliklərin qeyri-bərabər bölgüsü qadınların zorakılıq riskini artırır [346].

**Hüquqi boşluqların kodları, q**anunvericilikdəki boşluqlar zorakılığın davamlılığına şərait yaradan "institusional kodlar"dır. Cinayət Məcəlləsində məişət zorakılığının ayrıca cinayət kimi tanınmaması**.**, **m**ühafizə orderlərinin praktikada təsirinin azlığı, **s**tatistika və hesabatlılığın zəifliyi zorakılıq kodunun dayanıqlığına şərait yaradır. Hüquqi boşluqlar zorakılıq qurbanlarının müdafiəsini zəifləndir. GREVIO-nun (2021) hesabatı göstərir ki, Azərbaycanda zorakılıq faktları qeydə alınsa da, qurbanların hüquqi müdafiəyə çıxış imkanları çox məhduddur.

**Psixoloji və dövrilik kodları.** Zorakılıq adətən **dövr xarakterli** olur[347]. **G**ərginliyin yığılması (təhdidlər, təhqirlər), zorakılıq aktı (fiziki və ya psixoloji hücum), "Bal ayı" mərhələsi (üzr istəmə, dəyişəcəyinə söz vermə), təkrar dövr (zorakılığın normallaşması)nı şamil etmək olar. Bu kodlar qurbanın zorakılıqdan çıxmasını çətinləşdirir, çünki təkrarlanan "üzr və mehribanlıq" mərhələsi ümid yaradır. Psixoloqlar bunu

---

345 Eagly, A. H., & Wood, W. (2012). Social role theory. In *Handbook of Theories of Social Psychology.* Sage.
346 Hochschild, A., & Machung, A. (2012). *The Second Shift.* Penguin.
347 Walker, L. (2009). *The Battered Woman Syndrome.* Springer.

“öyrənilmiş acizlik” sindromu ilə əlaqələndirirlər[348].

Toplanan kodların şərhi göstərir ki, zorakılıq sadəcə fərdi aqressiyanın nəticəsi deyil, patriarxal mədəniyyət, sosial stereotiplər, ailədaxili iş bölgüsü və hüquqi boşluqların birləşmiş təsirindən yaranan sistemli fenomendir. Bu kodları oxumaq və deşifrə etmək zorakılığın qarşısını almaq üçün ilk addımdır.

Beləliklə, zorakılığın kodlarını dəyişdirmək üçün:

- təhsil və mədəniyyət islahatları (stereotiplərin zəiflədilməsi),
- hüquqi islahatlar (boşluqların aradan qaldırılması),
- sosial reabilitasiya və psixoloji dəstək proqramları vacibdir.

**Mütəxəssislər üçün zorakılığın “şifrələrini” anlama bacarığı**

Zorakılıq yalnız təsadüfi emosional partlayış deyil. O, çox vaxt müəyyən davranış şifrələri ilə gizlənir, sosial və psixoloji kodlarla normallaşdırılır. Bu şifrələri oxumaq bacarığı oxucuya zorakılığın başlanğıc əlamətlərini vaxtında görmək və onun dövriliyini anlamaq imkanı verir. Necə ki, genetik kod insanın bioloji varlığını daşıyır, zorakılığın da öz “sosial kodları” var. Onları oxumaq və anlamaq həm fərdi müdafiə, həm də sosial siyasət üçün həyati əhəmiyyət kəsb edir.

**Zorakılığın ilk “şifrələri” -gizli əlamətlər**

Zorakılıq həmişə yumruqla başlamır. Onun ilk əlamətləri psixoloji və sosial davranışlarda gizlənir:

- həddindən artıq qısqanclıq və nəzarət,
- dostlardan və ailədən təcrid etmə,
- qadının fikirlərini daim kiçiltmə,
- maliyyə asılılığı yaratma.

Bu davranışlar çox vaxt “adi ailə mübahisəsi” kimi görünür, amma əslində zorakılığın şifrələridir. Psixoloqlar göstərirlər ki, bu davranışlara vaxtında reaksiya verilməsə, onlar fiziki zorakılığa çevrilə bilər[349].

**Zorakılığın dövrü və şifrələrin təkrarlanması.** Lenore Walkerin “Zorakılığın təkrarlanma dövrü” nəzəriyyəsinə görə, zorakılıq müəyyən bir dövr üzrə təkrar olunur. Bu dövrün təkrarlanması qadının ümidlərini canlı saxlayır, amma əslində zorakılığın davamlılığını təmin edən psixoloji şifrələr qurur. Qadın çox vaxt “bu dəfə dəyişəcək” düşüncəsinə inanır, halbuki zorakılıq yeni formalarla qayıdır.

Şifrələri oxumaq bacarığı o deməkdir ki, oxucu zorakılığın yalnız

---

[348] Seligman, M. (1975). *Helplessness: On Depression, Development, and Death.* W.H. Freeman.

[349] Dutton, D. G. (1992). *The Domestic Assault of Women: Psychological and Criminal Justice Perspectives.* UBC Press.

açıq fiziki aktlarını deyil, həm də onu hazırlayan incə sosial və psixoloji siqnalları görə bilir. Bu bacarıq zorakılığın qarşısını almaqda ən mühüm addımdır.

Zorakılıq "kodlaşdırılmış" bir fenomen kimi başa düşüldükdə onun yalnız nəticələri ilə deyil, həm də səbəbləri ilə mübarizə aparmaq mümkün olur. Oxucu üçün şifrələri oxumaq bacarığı həm fərdi həyatında, həm də sosial iş və siyasət sahəsində erkən müdaxilə aləti kimi dəyərlidir. Beləliklə, zorakılığın şifrələrinin deşifrəsi onun qarşısının alınmasında açar rol oynayır.

**Sosial dəyişimin açarları**

Sosial dəyişmə cəmiyyətin strukturlarında, dəyərlərində və davranış nümunələrində baş verən uzunmüddətli transformasiya prosesidir. Bu dəyişmə iqtisadi, hüquqi, texnoloji və mədəni amillərlə yanaşı, fərdlərin və icmaların aktiv fəaliyyəti nəticəsində də formalaşır[350]. Sosial dəyişimin açarlarını anlamaq həm nəzəri baxımdan, həm də sosial siyasətlərin hazırlanmasında vacibdir.

**Təhsil -bilik və şüurun transformasiya gücü**

Paulo Freirenin nəzəri əsasına görə, təhsili "azadlıq praktikası" adlandırır, çünki təhsil fərdlərə tənqidi düşüncə qazandıraraq onları sosial dəyişimin agentinə çevirir[351]. Skandinaviya ölkələrində gender bərabərliyinə dair dərsliklər uşaqlarda stereotipləri erkən yaşdan zəiflədir[352]. Azərbaycan kontekstində, məktəblərdə gender bərabərliyi və zorakılıqla bağlı maarifləndirici dərslərin azlığı sosial dəyişimi ləngidir. Elm və Təhsil Nazirliyi müasir kurikulumlara gender və insan hüquqları komponenti daxil etməklə bu boşluğu aradan qaldıra bilər.

**İqtisadi imkanlar -müstəqillik və güclənmə**

Amartya Senin "İmkanlar yanaşması" nəzəriyyəsinə görə, sosial dəyişmənin əsası fərdlərin real imkanlarının genişlənməsidir[353]. "İmkanlar yanaşması" iqtisadçı və filosof Amartya Sen tərəfindən işlənib, daha sonra Martha Nussbaum tərəfindən inkişaf etdirilib. Bu yanaşmaya görə, inkişaf və rifah sadəcə gəlir və resurslarla deyil, insanların gerçək imkanları (capabilities) ilə ölçülür. Yəni əsas məsələ insanların nələri edə bilməsi və hansı həyatı seçə bilməsidir. Mikrokredit proqramları (Bangladeşdə Grameen Bank təcrübəsi) qadınların iqtisadi müstəqilliyini artıraraq zorakılıq riskini azaldıb.

---

[350] Giddens, A. (1991). *Modernity and Self-Identity.* Polity Press.
[351] Freire, P. (1970). *Pedagogy of the Oppressed.* Continuum.
[352] OECD (2015). *Gender Equality in Education.*
[353] Sen, A. (1999). *Development as Freedom.* Oxford University Press.

Azərbaycan kontekstində, qadınların əmək bazarında qeyri-rəsmi işlərdə cəmlənməsi onların iqtisadi güclənməsini məhdudlaşdırır. Dövlətin qadın sahibkarlığını dəstəkləməsi sosial dəyişimin açar mexanizmlərindəndir.

**İcma əsaslı yanaşmalar -kollektiv transformasiya**

Bronfenbrennerin ekoloji model nəzəriyyəsi göstərir ki, sosial dəyişmə fərdin ailədən icmaya, oradan da geniş cəmiyyətə qədər bütün səviyyələrdə baş verir. Afrikada “Community-based rehabilitation” proqramları icmaları zorakılığa qarşı aktiv subyektlərə çevirib.

Azərbaycan kontekstində, kənd yerlərində zorakılığın qarşısının alınmasında icma liderləri və dini xadimlərin iştirakı sosial dəyişimin açarı ola bilər

**Media və rəqəmsal platformalar -şüur dəyişikliyinin sürətləndiricisi**

Manuel Castells göstərir ki, şəbəkə cəmiyyəti dövründə informasiya axını sosial dəyişimin mühüm amilidir[354]. Məsələn, #MeToo hərəkatı qlobal miqyasda gender zorakılığına qarşı ictimai şüuru dəyişdirdi.

Azərbaycan kontekstində də sosial şəbəkələr gənclər arasında stereotiplərin sarsıdılmasında əsas alətə çevrilib, amma eyni zamanda rəqəmsal zorakılıq da yeni təhlükə yaradır.

**Psixoloji və mədəni transformasiya -dəyərlərin dəyişməsi**

Bourdieu öz nəzəriyyəsində vurğulayır ki, sosial dəyişmə yalnız hüquqi və iqtisadi sahədə deyil, həm də dəyərlərin, “habitus”un (vərdişlər sistemi) dəyişməsi ilə baş verir[355]. Habitus fərdlərin davranışlarını, zövqlərini, seçimlərini formalaşdıran daxili meyillər və vərdişlər sistemidir. Bu meyillər sosial təcrübə, ailə tərbiyəsi, mədəniyyət və təhsil vasitəsilə formalaşır və “ikinci təbiət” kimi insanın şüuruna yerləşir. Habitus fərdin görünmədən idarə olunan davranış kodlarıdır.

**Zorakılıq törədən şəxslərdə habitusun formalaşması**

Zorakılıq davranışları çox vaxt patriarxal mədəniyyətin və sosial öyrənmənin məhsulu kimi habitusda kodlaşır:

- Ailə təcrübəsi: Uşaqlıqda zorakılığa şahid olan və ya zorakılıq görən oğlan uşaqları böyüdükdə bunu “normal” davranış kimi qəbul edə bilər. Banduranın “Sosial dəyişim nəzəzriyyəsi” buna misal ola bilər.
- Patriarxal dəyərlər: Kişinin ailənin “başçısı” olması, qadının

[354] Castells, M. (2009). *Communication Power.* Oxford University Press.
[355] Bourdieu, P. (2001). *Masculine Domination.* Stanford University Press.

itaətkar rolda görülməsi zorakılıq üçün mədəni zəmin yaradır.

- Gender stereotipləri: Aqressiyanın "kişilik atributu" kimi qəbul edilməsi[356].
- Hüquqi boşluqlar: Cəzasızlıq mühiti zorakılıq davranışının möhkəmlənməsinə səbəb olur. Beləliklə, zorakılıq törədənlərin habitusu çox vaxt dominantlıq, güc tətbiqi və itaət gözləntiləri üzərində qurulur.

**Habitusun dəyişmə imkanları**

Bourdieuyə görə habitus tamamilə sabit deyil -sosial sahələrdə dəyişikliklər və təcrübələrin transformasiyası nəticəsində o, yenidən formalaşa bilər.

a) Təhsil və maarifləndirmə. Gender bərabərliyi və zorakılıqla bağlı təlimlər zorakılıq törədənlərdə mövcud meyillərin sorğulanmasına səbəb ola bilər. İspaniyada məcburi "Gender üzrə yenidən-təhsil proqramları" zorakılıq törədən kişilərdə davranış dəyişikliklərinə gətirib çıxarıb[357].

b) Reabilitasiya proqramları. Duluth Modeli -zorakılıq törədənlərə güc və nəzarət anlayışlarını təhlil etdirməklə yeni davranış kodları yaradır. CBT əsaslı proqramlar -aqressiyanı idarəetmə bacarıqlarını öyrədir[358].

c) İcma və sosial mühit. İcma səviyyəsində zorakılığa qarşı kollektiv "norma dəyişikliyi" baş verdikdə, fərdin habitusu da dəyişə bilir. Skandinaviya ölkələrində zorakılığa "sıfır tolerantlıq" siyasəti kişilərdə "dominantlıq kodlarını" zəiflədir.

d) Hüquqi islahatlar. Cəzasızlıq mühitinin aradan qaldırılması və zorakılıq törədənlərin reabilitasiyaya cəlb olunması davranış meyillərini dəyişir. ABŞ-da zorakılıq törədənlərin məhkəmə qərarı ilə " Zorakılıq törədənlər üçün müdaxilə proqramları" na qatılması yaxşı misal ola bilər.

Zorakılıq törədən şəxslərin habitusu -uşaqlıq təcrübələri, patriarxal dəyərlər və cəmiyyətin normları ilə formalaşır. Bu habitus kişilərin güc və nəzarət vasitəsilə münasibətləri idarə etməsini "normal" göstərir. Habitusun dəyişməsi mümkündür, lakin bunun üçün çoxsahəli müdaxilələr lazımdır:

- Təhsil və maarifləndirmə,
- Hüquqi islahatlar,
- Psixoloji və sosial reabilitasiya proqramları,
- İcma səviyyəsində norma dəyişiklikləri tətbiq edilməlidir.

---

356 Connell, R. W. (2009). *Gender: In World Perspective.* Polity Press.

357 Boira, S., Carbajosa, P., & Marcuello, C. (2013). Treatment programmes for intimate partner batterers in Spain. *Psychosocial Intervention, 22*(2), 145–153.

358 Murphy, C. M., & Eckhardt, C. I. (2005). *Treating the abusive partner.* Guilford Press.

**Zorakılıq törədənlərdə habitus kodları və dəyişdirilmə alətləri**

| Habitus kodları | Şərh | Dəyişdirilmə alətləri | Nümunələr / İstinadlar |
|---|---|---|---|
| Dominantlıq və güc üstünlüyü | Kişinin ailədə “başçı” və qadına nəzarətçi olması normal sayılır. | Gender bərabərliyi üzrə təlimlər; *Duluth Modeli* sessiyaları; hüquqi məsuliyyətin gücləndirilməsi | Pence & Paymar (1993); Connell (2009) |
| Aqressiyanın “kişilik” göstəricisi olması | Zorakılıq kişinin güclü olduğunu sübut edən vasitə kimi dəyərləndirilir. | Psixoloji reabilitasiya (CBT əsaslı proqramlar); emosiyaların idarə olunması təlimləri | Murphy & Eckhardt (2005) |
| Qadının itaətkarlığının “normal” sayılması | Qadının ev işləri və itaəti onun əsas rolu kimi qəbul edilir. | Maarifləndirici kampaniyalar; “gender yenidən maarifləndirmə proqramları”; ailə içi məsuliyyətin bərabər bölgüsü | Walby (1990); Eagly & Wood (2012) |
| Zorakılığın “ailədaxili məsələ” kimi gizlədilməsi | Zorakılıq dövlət müdaxiləsindən gizlədilir, “özəl məsələ” hesab edilir. | Hüquqi islahatlar (məişət zorakılığının ayrıca cinayət kimi tanınması); ictimai maarifləndirmə; icma əsaslı müdaxilə | GREVIO (2021); Stark (2007) |
| Cəzasızlıq və məsuliyyətdən yayınma | Zorakılıq törədənlər çox vaxt ciddi hüquqi və sosial nəticələrlə üzləşmir. | Məhkəmə qərarı ilə *Batterer Intervention Programmes*; ictimai qınaq və hesabatlılıq mexanizmləri | Gondolf (2002); Council of Europe (2022) |
| Travmatik təcrübələrin reproduksiyası | Uşaqlıqda zorakılığa şahid olan kişi bu davranışı “normal” kimi öyrənir. | Psixoterapiya (travma yönümlü yanaşma, “Trauma-Informed Care”); sosial öyrənmə nəzəriyyəsinə əsaslanan qarşı-model davranışlar | Bandura (1977); Herman (1992) |

Sosial dəyişimin açarları təhsil, hüquqi islahatlar, iqtisadi güclənmə,

icma iştirakı, media təsiri və mədəni transformasiya kimi çoxşaxəlidir. Bu mexanizmlər bir-birini tamamlayaraq zorakılığın kodlarının dəyişdirilməsinə və bərabər cəmiyyətin qurulmasına imkan yaradır. Azərbaycan kontekstində sosial dəyişimin açarları yalnız dövlət siyasəti ilə deyil, həm də QHT-lər, icmalar və vətəndaş cəmiyyətinin aktiv rolu ilə mümkün olacaq.

| **Açar** | **Mexanizm** | **Nümunə** | **Gözlənilən nəticə** |
|---|---|---|---|
| Təhsil | Gender və insan hüquqları mövzularının kurikulumlara inteqrasiyası; tənqidi düşüncə bacarıqlarının artırılması | Skandinaviya ölkələrində məktəb dərsliklərində gender bərabərliyi bölmələri | Erkən yaşdan stereotiplərin zəifləməsi, bərabər münasibətlərin formalaşması |
| Hüquqi islahatlar | Qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması; müdafiə orderlərinin icrası | İstanbul Konvensiyasını ratifikasiya etmiş ölkələrdə müdafiə orderlərinin geniş tətbiqi | Qadın və uşaqlar üçün gücləndirilmiş hüquqi müdafiə sistemi |
| İqtisadi imkanlar | Qadınların əmək bazarında iştirakının genişləndirilməsi; mikrokredit və sahibkarlıq dəstəyi | Grameen Bank (Banqladeş) - qadınlar üçün mikrokredit proqramları | Qadınların iqtisadi müstəqilliyi və zorakılıq riskinin azalması |
| İcma əsaslı yanaşma | Sosial problemlərin həllinə icmaların cəlb edilməsi; kollektiv məsuliyyət | Afrika ölkələrində “Community-Based Rehabilitation” proqramları | İcma dəstəyi ilə qurbanların reinteqrasiyası və sosial həmrəylik |
| Media və rəqəmsal platformalar | Maarifləndirmə kampaniyaları, şəbəkə hərəkatları | #MeToo hərəkatı, sosial mediada zorakılıq ifşaları | İctimai şüurun artması, gender zorakılığına qarşı kollektiv mövqe |
| Mədəni transformasiya | İncəsənət, ədəbiyyat və ictimai kampaniyalar vasitəsilə dəyərlərin dəyişməsi | Azərbaycanda qadın liderliyini təşviq edən teatr və film layihələri | Patriarxal stereotiplərin zəifləməsi, qadınların ictimai iştirakının artması |

Araşdırmalar göstərir ki, zorakılıq nə fərdi aqressiyanın təsadüfi partlayışı, nə də sadəcə ailədaxili konfliktin bir formasıdır. O, patriarxal

mədəniyyətin, gender stereotiplərinin, hüquqi boşluqların və sosial normaların birləşərək yaratdığı kodlaşdırılmış fenomen kimi meydana çıxır. “Zorakılığın kodlarını oxumaq” yanaşması bu davranışların gizli şifrələrini açmaqla onların necə öyrənildiyini, nəsildən-nəslə ötürüldüyünü və ictimai strukturda necə möhkəmləndiyini göstərir.

“Zorakılığın kodlarını oxumaq” yanaşması göstərir ki, zorakılıq fərdi psixoloji problem kimi deyil, kodlaşdırılmış sosial fenomen kimi anlaşılmalıdır. Oxucu üçün bu şifrələrin oxunması bacarığı zorakılığın erkən tanınmasına, qurbanı günahlandırma mədəniyyətinin aradan qaldırılmasına və sosial dəyişimin yollarının görünməsinə imkan yaradır.Oxucu üçün bu şifrələrin oxunması bacarığı zorakılığın yalnız açıq fiziki aktlardan ibarət olmadığını, həm də psixoloji, iqtisadi və institusional mexanizmlər vasitəsilə davam etdirildiyini anlamağa imkan verir. Beləliklə, zorakılığın erkən əlamətlərini tanımaq, qurbanı günahlandırma mədəniyyətindən imtina etmək və məsuliyyətin zorakılıq törədənin üzərində olduğunu dərk etmək mümkün olur.

Sosial dəyişimin açarları -təhsil, hüquqi islahatlar, iqtisadi güclənmə, icma dəstəyi, media və mədəni transformasiya -zorakılığın kodlarını deşifrə etmək və onları dəyişdirmək üçün mühüm vasitələrdir. Bu açarların hər biri ayrı-ayrılıqda mühüm olsa da, yalnız inteqrativ və çoxsahəli yanaşma zorakılığın qarşısını almaqda real təsir göstərə bilər.

Sosial dəyişimin açarları -təhsil, hüquqi islahatlar, iqtisadi güclənmə, icma dəstəyi, media və mədəni transformasiya -zorakılığın kodlarını dəyişdirərək bərabərlik və ədalətə əsaslanan cəmiyyət qurmaq üçün fundamental vasitələrdir.

Nəticə etibarilə, zorakılığın kodlarının oxunması və onların dəyişdirilməsi yalnız fərdi səviyyədə deyil, həm də dövlət siyasəti, vətəndaş cəmiyyəti və icmaların əməkdaşlığı ilə mümkün olacaqdır. Bu isə daha ədalətli, gender bərabərliyinə əsaslanan və zorakılığa sıfır tolerantlıq nümayiş etdirən bir cəmiyyət qurmaq üçün strateji istiqamət təşkil edir.

**Azərbaycan üçün siyasət açarları**

Azərbaycan cəmiyyəti zəngin ailə və mədəni dəyərlərə əsaslanır: ailəyə bağlılıq, mərhəmət, qonaqpərvərlik və fədakarlıq xalqın milli kimliyinin ayrılmaz hissəsidir. Bununla yanaşı, bəzi ənənəvi sosial kodlar -“kişinin hökmranlığı”, “qadının dözümlülüyü” və “zorakılığın ailədaxili məsələ kimi qəbul edilməsi” -müasir dövrdə gender bərabərliyinə, insan hüquqlarına və sağlam ailə münasibətlərinə təhdid yaradır. Bu səbəbdən 2025–2035-ci illər üçün siyasət açarları zorakılığa aparan kodların transformasiyasını, uşaqlıqdan etibarən zorakılıqsız ünsiyyət mədəniyyəti-

nin formalaşdırılmasını və icmaların gücləndirilməsini hədəf götürməlidir.

Azərbaycan üçün siyasət açarları zorakılığa qarşı yalnız repressiv yanaşmanı deyil, **mədəni kodların** dəyişdirilməsini, uşaqlıqdan maarifləndirməni və icma dəstəyini nəzərdə tutur. Bu, milli xüsusiyyətləri zəiflətmir, əksinə onların güclü tərəflərini -mərhəmət, ailə bağlılığı, fədakarlıq -qoruyaraq, zorakılıqsız yeni nəsil formalaşdırır.

2025–2035-ci illərdə həyata keçiriləcək bu siyasət açarları Azərbaycanı həm regionda, həm də beynəlxalq müstəvidə zorakılıqsız ailə modeli üzrə nümunə ölkə kimi təqdim edə bilər.

**Metodik vəsaitin elmi-praktiki əhəmiyyəti**

Kitabın hazırlanması zorakılıqla bağlı həm nəzəri, həm də praktik sahədə illərdir mövcud olan boşluqların doldurulması istiqamətində atılmış mühüm addımdır. Burada zorakılıq yalnız ailədaxili hadisə və ya hüquqi məsələ kimi deyil, sosial kodlarla, mədəniyyətlə və psixoloji mexanizmlərlə kodlaşdırılmış sistemli fenomen kimi təqdim olunur.

Kitab zorakılığın öyrənilməsində yeni konseptual yanaşma ortaya qoyur -"zorakılığın kodlarını oxumaq". Bu yanaşma beynəlxalq nəzəriyyələrin (Bourdieunun *habitus* konsepsiyası, Banduranın *sosial öyrənmə nəzəriyyəsi,* Walkerin *zorakılıq dövrü*, Starkın *məcburedici nəzarət* çərçivəsi) inteqrasiyası ilə işlənmiş və Azərbaycan reallığına uyğunlaşdırılmışdır. Beləliklə, vəsait zorakılığın mahiyyətini yalnız akt və ya epizod səviyyəsində deyil, sistemli, dövri və sosial mədəni kodların məhsulu kimi izah edir.

Bu yanaşma Azərbaycanda ilk dəfədir ki, metodik və akademik vəsaitdə tətbiq olunur. Bu isə kitabı təkcə elmi ədəbiyyat üçün deyil, həm də tədris və tədqiqat mühitində fundamental istinad mənbəsinə çevirir.

Kitab yalnız nəzəri təhlillə kifayətlənmir, həm də müxtəlif sahələr üçün praktiki tətbiq imkanları təklif edir:

- Sosial iş və psixoloji xidmətlərdə: zorakılığın erkən əlamətlərinin tanınması, risklərin qiymətləndirilməsi və reabilitasiya planlarının hazırlanması üçün bələdçi rolunu oynayır.
- Hüquq-mühafizə orqanlarında: zorakılığın kodlarının hüquqi müstəvidə təzahürünü göstərərək qanunvericilik və istintaq proseslərində yeni yanaşmalar üçün baza yaradır.
- Təhsil sistemində: sosial iş, hüquq və psixologiya ixtisaslarında dərslik materialı kimi istifadəyə uyğundur.
- Siyasət və strategiyada: zorakılığın qarşısının alınması üçün dövlət proqramları və milli fəaliyyət planları çərçivəsində istifadə oluna biləcək siyasət tövsiyələri təqdim edir.

Kitabın əsas mesajı ondan ibarətdir ki, zorakılığın qarşısı yalnız cəza tədbirləri ilə deyil, onun kodlarının dəyişdirilməsi ilə mümkündür. Bu dəyişikliklər təhsil, hüquqi islahatlar, iqtisadi güclənmə, icma əsaslı dəstək, media və mədəni transformasiya vasitəsilə həyata keçirilə bilər. Beləliklə, vəsait zorakılığa qarşı mübarizədə çoxsahəli və inteqrativ yanaşmanı təşviq edir.

Bu kitab Azərbaycan elmi və sosial mühitində zorakılıqla bağlı ilk inteqrativ metodik yanaşma kimi mühüm əhəmiyyətə malikdir. O, həm elmi müzakirələrdə, həm də praktiki sahədə çalışan mütəxəssislər üçün nəzərdə tutulmuşdur. Kitabın əsas töhfəsi odur ki, zorakılığın yalnız nəticələrini deyil, onun şifrələrini anlamaq və dəyişdirmək üçün yol xəritəsi təqdim edir.

Beləliklə, bu əsər gələcəkdə hazırlanacaq siyasət sənədləri, tədqiqatlar və praktik proqramlar üçün həm elmi baza, həm də praktik metodoloji alət rolunu oynayacaqdır.

## YEKUN SÖZ.

Kitabın yazılmasında əsas məqsəd yalnız zorakılığın faktlarını sadalamaq və ya statistik məlumatları toplamaq deyildi. Məqsədimiz zorakılığın gizli kodlarını, cəmiyyətin şüuruna sirayət etmiş şifrələrini oxumaq və onları dəyişdirmək üçün yollar göstərmək idi.

Biz çox yaxşı bilirik ki, zorakılıq bir insanın həyatını məhv etməkdən daha böyük nəticələr doğurur -o, ailələri dağıdır, uşaqların gələcəyini yaralayır, cəmiyyətin mədəni və mənəvi əsaslarını sarsıdır. Amma eyni zamanda, biz də bilirik ki, bu kodlar dəyişdirilə bilər. Zorakılıq öyrənilirsə, deməli, ondan imtina etmək də mümkündür.

Bu kitabın elmi əhəmiyyəti ondadır ki, o, zorakılığı sadəcə hadisə kimi yox, sistemli fenomen kimi göstərir. Praktiki əhəmiyyəti isə ondan ibarətdir ki, bu fenomenlə mübarizə üçün təhsil, hüquq, psixologiya və sosial siyasət sahələrində konkret alətlər təqdim edir. Ən önəmlisi isə odur ki, bu vəsait oxucuya sadəcə məlumat vermir, onu dəyişikliyin iştirakçısına çevirir.

Əziz oxucu, unutmayaq ki, zorakılığın şifrələrini anlamaq artıq onun qarşısını almaq deməkdir. Bu kitabın hər sətiri sizə bir mesaj ötürür: dəyişiklik mümkündür. Əgər cəmiyyət zorakılığın kodlarını oxumağı və onları dəyişdirməyi bacarırsa, gələcək daha təhlükəsiz, daha bərabər və daha ədalətli ola bilər.

Biz zorakılığın kölgələrini görürük, amma bu kölgələrin arxasında işıq var. Bu kitab həmin işığa doğru atılan bir addımdır. İndi isə bu addımı yalnız müəllif deyil, siz -oxucular, sosial işçilər, psixoloqlar, müəllimlər, hüquq-mühafizə orqanlarının əməkdaşları və ən əsası, cəmiyyətin hər bir üzvü davam etdirməlisiniz.

Çünki dəyişimin açarı elə bizim əlimizdədir.

## ***QEYDLƏR***

Nəşriyyatın Baş direktoru:
Səməd Eyvazov

Texniki redaktor:
Mail Xəlilov

Kağız formatı:60x84 $_1/^{16}$
Tiraj: 300 ədəd
Həcmi: 15,5 çap vərəqi

“OPTİMİST” MMC-də hazır diopozitivlərdən çap olunub